

# SƏN BACARARSAN

*Çətinlikdə olanlar üçün ümid və dayaq*

Maks Lukado

# SƏN BACARARSAN



*Çətinlikdə olanlar üçün ümid və dayaq*

Maks Lukado

*Məsihdə sadiq, müdrik və sevinclə dolu olan bacımız Şeril Qrinə həsr olunur. «Up Words» da və «Oak Hills» məbədində xidmətə həsr olunmuş saysız-hesabsız vaxta görə çox sağ ol. Sən əsl xidmətçi nümunəsisən.*

# MİNNƏTDARLIQ

Baş redaktorlar Liz Hini və Karen Hillə. Sizin dəyərli vaxtınızı sərf etdiyiniz fədakar əməyinizin əvəzini heç zaman ödəyə bilmərəm.

Nəşriyyatın komandasına: Devid Moberqə, Paul Meycora, Liz Consona, Li Erik Feskoya, Qreq və Syüzen Liqonlara, Yan Mantsinqerə və Pamela Makklyura. Siz məni bir daha öz yaradıcı orijinallığınız və ümumi işə olan səmimi xidmətinizlə heyran edirsiniz.

Stiv Qrin və onun həyat yoldaşı, bu kitabı həsr etdiyim Şerilə. Siz heç zaman gurultulu alqışlar istəmirsiniz və həmişə birincilik çələngini kiməsə verirsiniz. Lakin sizə etibar edən kəslər bilir ki, köməyiniz olmadan çarəsiz qalacaqlar.

Bədii redaktor Kerol Bertliyə. Sizin və Tanrının lütfü sayəsində mənim bütün səhvlərim düzəlib! Dostum, Siz bunu yüksək səviyyədə etdiniz! Bizim komandanın bir hissəsi olduğunuza görə çox şadam!

«Oak Hills» məbədinin baş xidmətçisi Rendi Freyziyə və administrator Mark Tiduelliyə. Sizi dostlarım adlandırmaq mənim üçün böyük şərəfdir!

«Oak Hills» məbədinə. Bu kitabın nəşri bizim iyirmi beş illik birgə xidmətimizin ildönümü ilə üst-üstə düşür. Ya Rəbb, elə həmin illər qədər də bizə bəxş et!

Ağsaqqal Devid Tritə. Sizin dualarınız və pastor kimi iştirakınıza görə xüsusi minnətdarıq.

Marqaret Mehinusa, Tina Çisholma, Eşli Rosalesə və Ceni Padilyaya! Siz yorulmadan mənim şəxsi yazışmalarımdan tutmuş kitabların sifarişinə qədər bütün işlərin qayğısına qalırsınız. Çox minnətdaram!

Devid Druri. Sizinlə ya telefon, ya da elektron poçt vasitəsilə həmişə əlaqə saxlamaq mümkündür. Sizin ilahiyyatçı fikirləriniz əsl xeyir-duadır!

Say etibarilə bu, mənim otuzuncu publisist yaradıcılığım olduğuna görə, üç onillik ərzində etdikləri əməkdaşlıq üçün həm elektron, həm də ənənəvi kitab mağazalarına minnətdarlığımı bildirirəm.

Qızlarım və kürəkənimə — Cenniyə, Andreaya, Sara və Brettə. Mənim ürəyim sizə məxsusdur və bütün düşüncələrim sizə aiddir.

Mənim sevimli həyat yoldaşım Denalinə. Sən mənim qalamdakı qaranlığı qovan çırağımsan, həmişəlik istilik və işıq mənbəyimsən. Mən səni sevirəm.

# FƏSİL 1

# SƏN BACARARSAN

Əlimi çiyninə qoyan kimi dərhal hiss etdiyim daxili həyəcan qadının bütün bədənini titrədirdi. Mən onunla ərzaq dükanında rastlaşdım. Artıq bir neçə ay idi ki, onunla görüşmürdüm. Həyat yoldaşı və uşaqlarının vəziyyəti barədə soruşanda, tanışımın gözlərinin yaşla dolduğunu və çənəsinin titrədiyini gördüm. Bir az sonra o, kədərli hekayəsini danışmağa başladı. Həyat yoldaşı iyirmi il birlikdə yaşadıqlarına, üç uşaqlarının olmasına və ora-bura çox köçdüklərindən verdiyi qurbanlara baxmayaraq, onu atıb getmişdi. Əri heç nəyə baxmadan çıxıb getmişdi. Onu gənc qadına dəyişmişdi. O, var gücü ilə hönkürtüsünü saxlamağa çalışsa da, buna gücü çatmadı və ərzaq dükanının şöbələrindən biri müvəqqəti olaraq etiraf otağına çevrildi. O, pomidor və kahı dəstələrinin yerləşdiyi rəflərin arasında hıçqırırdı. Biz dua etdik və mən ona dedim: «Sən bacararsan. Düzdür, ağrılı olacaq, lakin dözməli olacaqsan. Tanrı bu kədərini sənin xeyrinə çevirəcək. Sən indi boş xəyallara qapılmamaq və səhv hərəkətlərə yol verməmək üçün mütləq özündə güc tapmalısan. Ümidini üzmə və Tanrının köməyilə sən bacaracaqsan».

İki gündən sonra dostlarımdan biri mənə zəng etdi. Onu təzəlikcə işdən çıxartmışdılar. İşdən cıxarılmasında günahkar onun özü idi: rəisini ağılsız və yersiz, hətta deyərdim ki, kobud

və təhqiramiz tərzdə məzəmmət etmişdi. Nəticədə isə rəisi heç düşünmədən onu tutduğu vəzifədən qovmuşdu. Budur, əlli yeddi yaşlı menecer iqtisadi cəhətdən böhranın qızğın vaxtı küçədə qalmışdı. Dostum ümidsiz vəziyyətdə idi və dayanmadan taleyindən şikayətlənirdi: həyat yoldaşı hirslənib, uşaqların əhvalı pozulub… Ona vəziyyətinin ümidsiz olmadığı barədə zəmanət vacib idi və mən bunu ona verdim: «Sən bacararsan. Düzdür, ağrılı olacaq, lakin dözməli olacaqsan. Tanrı bu kədərini sənin xeyrinə çevirəcək. Sən indi boş xəyallara qapılmamaq və səhv hərəkətlərə yol verməmək üçün mütləq özündə güc tapmalısan. Ümidini üzmə və Tanrının köməyilə sən bacaracaqsan».

İndi isə kafedə işləyən bir qızın hekayəsi. Mən onunla elə həmin kafedə tanış olmuşdum. O, orta məktəbi yenicə bitirmişdi və bir aydan sonra kollecə qəbul olunacağına ümid edirdi. Danışdıqlarından həyatının elə də asan keçmədiyi bəlli oldu. Onun altı yaşı tamam olanda valideynləri boşanmışdılar. On beş yaşı olanda onlar elə bil ki, bir neçə aydan sonra yenə də boşanmaq üçün yenidən evlənmişdilər. Bu yaxınlarda valideynləri onu seçim qarşısında qoymuşdular: o, atası, ya da anası ilə yaşamalı idi. O mənə bu barədə danışanda gözləri yaşla dolmuşdu. Hələ ki, onunla danışmağa imkanım olmayıb. Ancaq növbəti görüşümüzdə onun gözlərinin düz içinə baxaraq: «Sən bacararsan. Düzdür, ağrılı olacaq, lakin dözməli olacaqsan. Tanrı bu kədərini sənin xeyrinə çevirəcək. Sən indi boş xəyallara qapılmamaq və səhv hərəkətlərə yol verməmək üçün mütləq özündə güc tapmalısan. Ümidini üzmə və Tanrının köməyilə sən bacaracaqsan» — deyəcəyimə əminəm.

Deyəcəksən ki, mən həddimi aşmışam? Bu cür sözləri necə cəsarət edib deyə bilərəm? Çətinliyə düşən insanlara bu qədər cəsarətli vədləri hansı haqla verirəm? Həm də dərin quyuya düşən bir adama?! Şaquli divarları olan qaranlıq dərin quyudan gənc oğlan heç vaxt təkbaşına öz gücünə çıxa bilməzdi. Hətta çıxmağı bacarsaydı belə, qardaşları onu yenidən quyunun dibinə itələyərdilər. Çünki məhz onların sayəsində o, quyunun dibində idi.

> Yusif qardaşlarının yanına çatanda onlar Yusifin əyninə geydiyi alabəzək paltarı dartıb çıxartdılar. Özünü də götürüb quyuya atdılar. Quyu boş idi, orada su yox idi. Qardaşlar çörək yemək üçün oturdular…
>
> *Yaradılış 37:23–25*

Bu, nəzarətsiz qalmış bir quyu idi. Onun yarımdağılmış divarlarından iti, ucları diş-diş olan daşlar və yaxınlıqda bitən çinar ağacının kökləri görünürdü. Quyunun dibində yöndəmsiz, uzundraz, çənəsinə təzəcə tüklər çıxan on yeddi yaşlı yeniyetmə qıvrılırdı. O öz darısqal zindanında əlləri və ayaqları bağlanmış, dizləri sinəsinə yapışmış vəziyyətdə böyrü üstə sıxışıb qalmışdı. Ağzından axan su yanağının altındakı torpağı islatmışdı. Onun gözləri qorxudan böyümüşdü. Qışqırmaqdan səsi batmışdı. Qardaşlarının rəhm etməsi üçün etdiyi duanı onlar eşitməyə bilməzdilər. İyirmi iki ildən sonra ölkəni məhv edən aclıq onların təkəbbürünü, təqsirkarlıq hissi isə qürurlarını qıranda etiraf etdilər: «…O bizə yalvardığı vaxt çəkdiyi əziyyəti gördük, ancaq ona qulaq asmadıq…» (Yaradılış 42:21).

Söhbət Tanrı ilə olan vədi bəşəriyyətə çatdırmalı olan İbrahimin nəticələrindən və Yaqubun oğullarından gedir. İsrailin on iki qəbiləsi onların adları ilə çağırılacaqdı və ailə ağaclarını İsa Məsihin adı bəzəyəcəkdi. Bir sözlə, bu qoçaqlara Müqəddəs Kitab geneologiyasında nəzər salsaq, qarşımızdakılar kral ailəsinin üzvləridirlər. Lakin həmin gün onlar özlərini tunc dövrünün uğursuz ailəsinin adi nümayəndələri kimi aparırdılar. Əgər həmin dövrdə televiziya olsaydı, onlar reytinqli realiti-şounun iştirakçıları olmaq imkanını əldə edə bilərdilər. Məncə, çinarın kölgəsində əyləşən qardaşlar Yusifin quyudan gələn səsini heç veclərinə də almırdılar. Onlar nəinki çörək yeyirdilər, həm də ətirli ətdən və bir-birilərinə ötürdükləri tuluqdan şərab da içirdilər. Axmaqlar və daş ürəklilər! Kənan səhrası kimi daş ürəklilər! Onlar qardaşlarının qayğısına qalmaqdan daha çox öz qarınlarını doydurmaq barədə düşünürdülər. Səbəb isə sadəcə qardaşlarına olan nifrət idi. «…ona nifrət etdilər və onunla yaxşı rəftar etmədilər. …

Bundan sonra ona daha çox nifrət etməyə başladılar. <…> Buna görə də ona nifrət etdilər və onunla yaxşı rəftar etmədilər…» (Yaradılış 37:4–5, 11).

Nə üçün? Ona görə ki, toyuq yumurtasının qayğısına qaldığı kimi atası da Yusifin qayğısına qalırdı. Yaqubun iki arvadı var idi: Lea və Rəhilə. Lakin o, yalnız Rəhiləni sevirdi. Rəhilə öləndən sonra Yaqub onun xatirəsini ilkləri olan Yusifə himayədarlıq etməklə yaşadırdı. Qardaşlar bütün günü işləməkdən əldən düşürdülər, Yusif isə həmin vaxt əylənməklə məşğul olurdu. Qardaşların paltarları «ikinci əl» mağazasından alındığı halda, atası Yusifə «brend» markadan bilək hissələri qızılla işlənmiş rəngbərəng paltar bağışlamışdı. Qardaşlar yan-yana və bəzi vaxtlar küçədə yatdıqları halda, Yusif öz şəxsi otağında ikinəfərlik çarpayısında yatırdı. Qardaşlar atalarının sürüsünü otaran zaman onun sevimli Yusifi evin sərinliyində dincəlirdi. İlk övlada düşən bütün üstünlükləri Yaqub qeyri-şərtsiz on birinci oğluna vermişdi və qardaşlar onu görən kimi acıqlarından partlayırdılar.

Yaqubun ailəsinin gərginlikdən əziyyət çəkməsinə şübhə etmək görünənləri danmaq deməkdir.

Qardaşlar Yusifi evdən, onu müdafiə etməyə hazır olan atasından altmış mil uzaqda tutdular, dişlərinin dibindən çıxanları ona dedilər və zalımcasına onu cəzalandırdılar «…Onlar Yusifin əyninə geydiyi *alabəzək paltarı* dartıb çıxartdılar. Özünü də *götürüb* quyuya *atdılar*» (Yaradılış 37:23–24; kursiv mənimdir — *M. L.*). Bu ifadələrdə nə qədər pislik və inciklik var idi! Qardaşlar Yusifi təkcə öldürmək deyil, onun meyitini də gizlətmək istəyirdilər. Onlar qabaqcadan öz cinayətlərini gizlətmək barədə razılığa gəlmişdilər. «…Deyək ki, vəhşi heyvan onu parçaladı… (20-ci ayə).

Yusif onu nə gözlədiyini ağlına belə gətirmirdi. Həmin gün səhər yatağından qalxanda belə fikirləşməmişdi: «*Yaxşısı budur, daha sadə və rahat paltar geyinim. Axı bu gün quyuya düşəcəm*». Qardaşların hərəkəti onu qəflətən yaxaladı.

Sənin başına da bu cür işlər gələ bilər. Yusif üçün bu, kimsəsiz dərin quyu oldu. Bəlkə sənin quyun qorxulu diaqnoz, ailədə itki və yaxud emosional fəlakətdir? Yusifə nifrət edən qardaşları onu quyuya atdılar. Bəs səni? Səni işdən çıxardıb onsuz da sayı az olmayan işsizlər ordusuna qataraq unudublar? Boşanaraq evdən çıxardıblar? Çarpayıya tulazlayaraq zorlayıblar? Heç zaman heç kəsin qurtula bilmədiyi susuz, amansız quyu özünəməxsus ölümdür. Əslində həyat daha az itki ilə keçmək istədiyimiz uzun, çətin və təhlükəli yoldur. Razılaşaq ki, bunu demək etməkdən daha asandır. Quyudan qurtulmaq isə asan deyil.

Yusifin həyatı qaydasına düşməmiş olduqca dözülməz oldu. Qardaşları tərəfindən satılaraq qula çevrildi. Orada ona qarşı törədilən təxribat nəticəsində zindana düşdü. Yusif amansızcasına döyüldü. Xəyanətə uğradı və satıldı. «Onunla pis rəftar edildi» demək çox azdır. Ona yerinə yetirilməyəcək vədlər, dərhal geriyə alınacaq hədiyyələr verilirdi. Əgər mənəvi əzabları bataqlıqla müqayisə etsək, onda Yusif Everqleydsdə* ömürlük katorqa cəzasına məhkum edilmişdi.

Amma bütün bunlara baxmayaraq, o, təslim olmaq fikrində deyildi. Onun qəlbindəki inciklik öz haqlarını tələb etmədi. Qəzəb heç zaman bədxassəli şişə çevrilmədi. Ürəyi çürümədi və ondakı qərarlılıq itmədi. Yusif yalnız sağ qalmadı, həm də həddindən artıq böyük uğur qazandı. Onun karyerası gel ilə doldurulmuş hava şarı kimi yüksəyə qalxırdı. Misirli saray məmuru onu öz evinin baş nəzarətçisi təyin etdi. Həbsxana rəisi onu bütün məhbusların üzərində başçı qoydu. Misirin fironu onu baş nazir etdi. Yusif həyat yolunun qürub çağında dünyanın ən qüdrətli dövlətinin ikinci nüfuzlu vəzifəsini tutdu. Onun öz müasirlərini aclıqdan qurtarması barədə olan fikir heç də şişirtmə deyil. Yusifin xasiyyətnaməsinin necə görünə biləcəyini təsəvvür edək.

* Everqleyds — Floridanın (ABŞ) cənubunda tropik bataqlıq və çəmənliklərdə yerləşən, "otlu çaylar" adını almış nəhəng milli park. — Burada və bundan sonrakı bütün sətiraltı qeydlər tərcüməçiyə məxsusdur.

YUSİF,

YAQUBUN OĞLU,

«HƏYATIN AMANSIZ ZƏRBƏLƏRİ»

UNİVERSİTETİNİ FƏRQLƏNMƏ DİPLOMU İLƏ BİTİRİB,

«BƏŞƏRİYYƏTİN XİLASI» BEYNƏLXALQ KORPORASİYASININ BAŞ DİREKTORU,

HƏDDİNDƏN ARTIQ BÖYÜK UĞUR QAZANIB

Lakin necə? Bədbəxt hadisələrin mərkəzində ola-ola o, necə uğur qazana bilib? Tapmacalarla baş sındırmağa dəyməz! Faciəli şəkildə quyuya düşməkdən iyirmi il keçəndən sonra qardaşların rolu əsaslı surətdə dəyişdi: qardaşlar acından ölmək təhlükəsi ilə üz-üzə qalanda, Yusif mövqecə çox yüksəkdə idi. Onlar qorxudan əsə-əsə Yusifin yanına gəldilər. Qardaşlar haqlı olaraq düşünürdülər ki, Yusif haqq-hesab çəkmək istəyəcək və onları öz əlləri ilə qazdıqları quyuya atacaq. Amma Yusif onlara heç nə etmədi. Onun qardaşlarına olan münasibətindən bu insanı hansı qüvvənin hərəkətə gətirdiyini görə bilirik:

> Baxın siz mənə qarşı pis fikrə düşdünüz, lakin Allah onu yaxşı işə çevirdi ki, bu gün gördüyünüzü etsin və çoxlu adamın həyatını qorusun.
>
> *Yaradılış 50:20*

*Planlaşdırılmış pislik Tanrının* əllərində yaxşılığa çevrilir.

Yusif özünü bu vədə bağlamışdı və sona qədər ona sadiq qaldı. Gəlin, onun əzab payına düşənlərin ölçüsünü kiçiltməyək. Biz bunu heç bacarmarıq da. Onun bioqrafiyasının demək olar ki, hər səhifəsində qan və göz yaşlarının izi var. Yusifin ürəyi saysız-hesabsız xəyanətlərin acısı ilə parça-parça olmuşdu. Lakin Tanrı həmişə onun yaralarını sağaldırdı. Onun cırılmış paltarı padşah libasına, dərin quyu isə padşah sarayına çevrildi. Dağılmış ailə birləşdi. Hətta Tanrının xidmətçisinin məhvinə yönəldilmiş zorakılıq onun yetkinləşməsinə çevrildi.

«Siz mənə qarşı pislik etdiniz»,— Yusif yəhudi dilində «hörmək» və ya «toxumaq»[1] mənasını bildirən feldən istifadə edərək qardaşlarına dedi. «Siz pislik *hördünüz*, lakin Tanrı pisliyinizi yenidən yaxşılığa tərəf toxudu».

Bizim Tanrımız yüksək ixtisaslı Toxucudur. O, saplar əyirir və onlardan naxışlı parçalar toxuyur. O, pırtlaşıq saplardan məxmər hazırlayır, əzablardan isə rahatlıq hörür. Bütün insan talelərinin saplarını O Öz əllərində saxlayır. Bütün varlıqlar: padşahlar, zalımlar, Yerin iqlimi və cisimlərin molekulyar quruluşu Ona tabedir. Onun toxuculuq dəzgahında məkiklərin hekayəsi sap ərişlərinin — nəsillərin və xalqların — arasından keçir və nəticədə tarixi prosesin parçası yaranır. Şeytan da öz naxışını hörür, ancaq Tanrının əli bu naxışı tamamilə yenidən toxumağa qadirdir.

Bundan başqa bizim Tanrımız yüksək ixtisaslı İnşaatçıdır. Bunların hamısı Yusifin həmin sözlərində görünür: «…lakin Allah onu yaxşı işə çevirdi ki, bu gün gördüyünüzü *etsin…*»[2] Burada «*etsin*» kimi tərcümə olunan yəhudi sözü tikinti terminidir[3]. Tikintinin məqsədini və ya hər səhər yanından ötüb keçdiyim tikilmiş obyektlərin mənasını bildirir. Texas ştatında mənim evimin yaxınlığında estakadanın təmir işləri aparılır. Avtomobillərin üç hərəkət zolağından biri qalıb və bunun da nəticəsində gündəlik gediş-gəliş daimi gərginliyə çevrilib. Bu uğursuz estakadanın təmirinin başlanğıcı bəşəriyyətin tarixi kimi əsrlərə dolanır və bütün bu vaxt ərzində səhərdən axşama qədər qaldırıcı kranların oxları başımızın üstündə fırlanır. Fəhlələr yol hərəkəti işarələrini ora-bura çəkir və bellə işləyirlər, milyonlarla sürücülər və sərnişinlər isə narazılıqla deyinirlər. Deyinənlərdən biri də elə mən özüməm: *«Bu, hələ çoxmu davam edəcək?»*

Lakin mənim yaxın qonşularımın bu tikintiyə münasibətləri tamam fərqlidir. Bu ər-arvad ixtisasca yol mühəndisidirlər və nəqliyyat Nazirliyində çalışırlar. Yol hərəkətinin bütün iştirakçıları kimi onlar da həmin tıxaclarda ilişir və dolayı yollardan istifadə

etmək məcburiyyətində qalsalar da başqalarına nisbətən daha səbirli davranırlar. Nə üçün? Onlar bu cür irimiqyaslı layihələrin həyata keçirilməsi zamanı qaçılmaz olan çətinlikləri başa düşürlər. «Bəli, tikinti müəyyən vaxt aparacaq,— deyə onlar mənim narazılıqla deyinməyimə cavab verirlər,— amma o, lazım olan vaxtda tamamlanacaq. Narahat olmayın». Onlar sadəcə olaraq, yenidənqurma planını öz gözləri ilə görüblər.

Yusifin başına gələnlərə bənzər hadisələr danışanda, Tanrı Onun planlarına nəzər salmaq imkanı verir. Qorxuram ki, orada dəhşətli qarışıqlıqdan başqa heç nə görə bilməyək! Qardaşlar Yusifi zibil kimi quyuya tullayırlar. Bu, təbii seçməyə oxşamırmı? Ətrafımızda hara baxsaq, tikinti meydanında tullanmış kərpiclər və boş sement torbaları kimi aclıq və ailə münaqişələri görürük. İblisin planı qəddar və sadə idi: İbrahimin ailəsini məhv etmək və bununla da onun toxumunu — İsa Məsihi yox etmək. Sanki cəhənnəmin bütün qoşunu hədəf kimi Yaqubun oğullarını seçmişdi.

Amma sən bizim İnşaatçımızın necə mahir mütəxəssis olduğuna bax! O, tikintinin zibil qalağını təmizləyir, inşa etdiyi konstruksiyaya möhkəmlik verir və çatı fermaların boltlarını o vaxta kimi bərkidir ki, Yaradılış 37:24-dəki: («Özünü də götürüb quyuya atdılar») xaosunu Yaradılış 50:20-dəki («…yaxşı işə çevirdi ki, bu gün gördüyünüzü etsin və çoxlu adamın həyatını qorusun…») qələbəyə çevirsin.

Beləliklə, Tanrı yüksək ixtisaslı Toxucu və İnşaatçıdır! O, Yusifin keçmiş səhvlərini düzəltdi. Məgər O sənin səhvlərini düzəltməyəcək?

*Sən bacararsan.* Bəlkə də sən bacara bilməyəcəyindən qorxursan. Hamı qorxur. Biz depressiyanın heç vaxt keçməyəcəyindən, göz yaşlarımızın qurumayacağından, əzabların bitməyəcəyindən qorxuruq. Bizim hər birimiz qəzəbli qardaşların sayəsində quyunun dibinə düşəndə, özümüzə sual veririk: «*Bu bozarmış səma nə vaxtsa yenidən mavi olacaqmı? Məni yerə əyən yük yenə də yüngülləşəcəkmi?*» Biz çıxılmaz vəziyyətə

düşdüyümüzü, tələyə salındığımızı, bağlı qapı arxasında qaldığımızı, uğursuzluğa düçar olduğumuzu hiss edirik. Nə vaxtsa bu quyudan çıxa biləcəyikmi?

Bəli! Müqəddəs Kitabda qurtuluş Mardi Qra* bayramındakı caz kimi adi işdir — qulaqbatırıcı, möhkəm, hər yerdə fontan vuran.

Daniel üçün şirlərin olduğu quyu, Peter üçün zindan, Yunus üçün nəhəng balığın qarnı, Davud üçün hücum edən Qolyat, İsa Məsihin şagirdləri üçün firtınalı dəniz, cüzamlılar üçün sağalmaz xəstəlik, Tomas üçün şübhə, Lazar üçün qəbir və həvari Paul üçün qandallar… Tanrı bizi bütün bu sınaqlardan — Qırmızı dənizin ortasından (bax: Çıxış 14:22), səhradan (bax: Qanunun Təkrarı 29:5), ölüm dərəsinin kölgəsindən (bax: Zəbur 23:4), ümman sulardan (bax: Zəbur 77:19) *keçirir.* «Keçirtmək» — Onun sevimli sözüdür:

Dərin sulardan *keçsən* belə,
Mən səninlə olacağam,
Çaylardan *keçəndə* batmayacaqsan,
Odun içindən qaçsan belə, yanmayacaqsan,
Alov səni məhv etməyəcək.

*Yeşaya 43:2; kursiv mənimdir* — M. L.

*Bəli, ağrılı olacaq*. Elə bilirsən ki, bir daha ağlamayacaqsan, yaxud növbəti kimyaterapiya kursunu keçməyəcəksən? Şübhə edirəm. Sənin uğursuz nikahın bir saatın içində yaxşılığa doğru dəyişəcək? Güman etmirəm. Səncə, qəbiristanlığa gedən yolu birdəfəlik unudacaqsan? Təəssüf ki, yox. Tanrının səni gündəlik aparmalı olduğun mübarizədən azad edəcəyinə və həddindən artıq ruhani güclə dolduracağına ümid bağlayırsan? Olacaq, amma bu

* Mardi Qra (fr. Mardi gras, hərfi mənası yağlı çərşənbə axşamı) — Kül çərşənbəsindən əvvəlki çərşənbə axşamı. Katoliklərin Möhtəşəm orucunun başlanğıcı, bayram, yeddi “yağlı günün” sona çatdığını bildirir (rus dilində Hər şey yeyilən həftənin analoqu).

həyatda yox! Ancaq sənin axıtdığın bir damla göz yaşının belə boş yerə olmaması üçün O sənin əzablarını yenidən toxumağı öhdəsinə götürüb.

*Sən isə dözməli olacaqsan.* Qardaşları ondan qurtulmaq istəyəndə Yusifin on yeddi, onları yenidən görəndə isə təxminən otuz yeddi yaşı var idi. Atası ilə görüşənə qədər isə bundan əlavə, yarım il də keçmişdi[4]. Bəzən Tanrı heç tələsmir: Nuhun daşqına hazırlaşması üçün yüz iyirmi, Musanın xidmətə hazırlaşmasına isə səksən il lazım oldu. Tanrı gənc Davudu padşahlıq taxt-tacına dəvət edir, lakin nədənsə onu qoyunları otarmağa göndərir. Paulu həvari xidmətinə çağırır və elə o vaxt onu üç il Ərəbistanda təcrid olunmuş vəziyyətə salır. İsa Məsih mətbəx stolu hazırlamaqdan daha vacib işə başlayana qədər yer üzündə otuz il yaşadı. Sənin keçmişini nizama salmaq üçün Tanrıya nə qədər vaxt lazımdır? Bu proses müəyyən vaxt aparacaq. Çox güman ki, bir anını deyil, bəlkə də bütün ömrünü alacaq.

*Tanrı bu kədəri sənin xeyrinə çevirəcək.* Bizim səninlə gördüklərimiz tamamilə xaosdur; Tanrı isə gələcəyin baş nazirini tərbiyələndirmək, öyrətmək və sınamaq üçün yaxşı fürsət olduğunu görür. Biz zindan, Tanrı isə yandırmaq üçün soba görür. Biz aclıq, Tanrı isə Öz seçdiyi ailənin yaşayış yerini dəyişməsi üçün şans görür. Biz bu yeri Misir adlandırırıq, Tanrı isə Yaqubun oğullarını yadelli kənanlıların təsirindən qorumaq, sülh və dinclik mühitində ailənin sayının əhəmiyyətli dərəcədə artmasına imkan yaradan qoruyucu zindan adlandırır. Biz iblisin hiylə və kələklərini, Tanrı isə bu məxluqun küncə sıxıldığını və zəncirlə bağlandığını görür.

İcazənizlə aydınlıq gətirim. Sən bu gün Yusifin müasir variantını özündə təcəssüm etdirirsən. Tanrı sənin simanda iblisə meydan oxuyur. Sən öz ürəyində bu dünyanın çox ehtiyac duyduğu qüdrətli və müqəddəs olanı, Tanrının bir hissəsini — müdrikliyi, xeyirxahlığı, şəfqəti, ənamları və bacarıqları daşıyırsan. Əgər iblis səni sıradan kənarlaşdıra bilsə, hesab et ki, bir müjdəçi azalacaq.

Yusifin hadisəsi Müqəddəs Kitaba hər cür pisliyə qalib gələn Tanrıya etibar edə bilməyimiz üçün salınıb. Yüksək ixtisaslı Toxucu və İnşaatçı olan Tanrı iblisin planlaşdırdığı pisliyi bizim yaxşılığımıza çevirir. Quyuda olmağın asan olmadığını ilk dəfə bizə Yusif bildirdi. Ancaq quyunun üfunətli dibindən hansısa açıqlama almaq mümkündürmü? Əlbəttə! Quyu gözlərimizi göyə qaldırmağa vadar edir. *Yuxarıdan Kiminsə buraya* — aşağıya, bizim yanımıza enəcəyinə və bizə əl uzadacağına ümid verir. O, münasib vaxtda, münasib şəkildə eynisini sənin üçün də edəcək.

# FƏSİL 2

## MİSİRƏ ENİŞ

Yusif ağzını açan kimi onun başına xoşagəlməz hadisələr gəldi. Gözəl sabahların birində səhər yeməyi zamanı o, fərəhlə yuxuda gördüklərini bütün iyrənc təfsilatı ilə danışdı. Yusif yuxuda bağlanmış və dairəvi halda yığılmış, yəni təmizlənməyə hazırlanmış buğda dərzləri görmüşdü. Hər dərz bir qardaşın adını qaşıyırdı: Ruvim, Qad, Levi, Zevulun, Yəhuda… Dairənin mərkəzində, sözsüz ki, Yusifin dərzi yüksəlirdi. Yuxuda gördüyünə əsasən dik duran yeganə dərz onun dərzi olduğundan yuxarıda deyilənlərdən hansı nəticəyə gəlmək olar? Qardaşlar, siz mənim qarşımda baş əyəcəksiniz.

Görəsən, doğrudanmı Yusif qardaşlarının bunları eşitdikdə sevinəcəklərini düşünürdü? Razılıq əlaməti olaraq onun kürəyinə vurub: «Ooo, əziz kiçik qardaşımız, biz böyük məmnuniyyətlə sənin qarşında diz çökəcəyik!» deyəcəklər. Lakin onlar nədənsə sevinmədilər və qəzəblərini güclə boğaraq onun salamat getməsinə icazə verdilər.

Bir sözlə, Yusif fərqinə varmadan özünü irəli çəkdi və növbəti dəfə onlara daha bir yuxu danışdı. İndi isə dərzlərin əvəzinə ulduzlar, günəş və ay görmüşdü. Ulduzlar qardaşları, Günəş və ay Yusifin atası ilə mərhum anasını simvolizə edirdi. Dərzlərlə olduğu kimi, bu yuxuda da bütün səma cisimləri Yusifin qarşısında

əyilmişdilər. Yusifin qarşısında! Bütün ömrü boyu qaşıqdan ağır heç nə qaldırmayan rəngbərəng paltarlı bu balaca yaramazın qarşısında. Qardaşlar ona baş əyməlidirlər?

Əlbəttə ki, Yusif ağzını qıfıllayıb oturmalı idi.

Yəqin ki, sahibsiz quyunun dibinə düşəndə onun ağlına gələn ilk fikir bu olmuşdu. Kömək üçün etdiyi yalvarışların heç bir xeyri olmadı. Fürsətdən istifadə edən qardaşlar onu tutdular və bu zəhlətökən boşboğazı birdəfəlik susdurmaq qərarına gəldilər.

Birdən quyunun dibində qıvrılan Yusif yeni səslər — araba cırıltısı və dəvə fısıltısı eşitdi. Sonra isə tanış olmayan səslər eşitdi. Yadellilər idi. Qardaşları ilə etdikləri söhbətdən fərqli ləhcələri aydın hiss olunurdu. Yusif onların nə barədə danışdıqlarını ayırd etməyə çalışdı.

— Biz onu sizə satarıq…

— Neçəyə?

— …sizin dəvələrinizlə dəyişərik…

Yusif yuxarıya baxanda maraqla quyuya tərəf əyilən başları gördü.

Sonra isə qardaşlardan birini kəndirlə quyuya salladılar. O, iki əli ilə Yusifi qucaqladı və qardaşlar onları yuxarı dartdılar.

Tacirlər təpədən dırnağa Yusifi nəzərdən keçirtdilər. Onlar icazə almadan barmaqlarını onun ağzına salaraq dişlərini saydılar. Onun əzələlərinin möhkəmliyini yoxlamaq üçün qollarına və çiyinlərinə əl gəzdirdilər. Qardaşlar bunu görüncə tacirləri «malın» keyfiyyətli olduğuna inandırmağa çalışdılar: «Görürsünüzmü, bir qram da olsun piy yoxdur, tamamilə əzələdir. O, öküz kimi güclüdür və səhərdən axşamadək kimi fasiləsiz işləyə bilər».

Tacirlər bir kənara çəkilərək məsləhətləşdilər. Onlar qəbul etdikləri qərar barədə qardaşlara məlumat verəndə, nəhayət ki, Yusif nə baş verdiyini anladı.

— Dərhal qurtarın! Dayanın! Bəsdirin! Axı mən sizin qardaşınızam! Siz məni sata bilməzsiniz!

Qardaşlar heç bir söz demədən onu itələdilər və alverlərini davam etdirdilər:

— Siz nə qədər ödəyə bilərsiniz?
— Biz on sikkə ödəməyə hazırıq.
— Zarafat edirsiniz? Otuzdan aşağı olmaz.
— On beşdən yuxarı bir qəpik də verə bilmərik.
— İyirmi beş.
— İyirmi. Bu, bizim sonuncu təklifimizdir.

Qardaşlar pulları saydılar. Sonra isə Yusifin əynindəki rəngbərəng paltarı cırıb oradan uzaqlaşdılar. Yusif diz üstə çökərək onların arxasınca fəryad qopartdı. Tacirlər Yusifin naləsinə fikir vermədən digər ucu arabaya bağlanmış kəndir ilgəyi onun boğazına keçirtdilər və üst-başı çirkli, hönkürtü ilə ağlayan əsirin öz sahiblərinin ardınca getməkdən başqa çarəsi qalmadı. O, məyusluqla addımlayan arıq dəvələrin və cırıldayan arabanın arxasında yerləşdirildi və üfüq xəttindən tamamilə gözdən itərək uzaqlaşmaqda olan qardaşlarının arxasınca son dəfə baxıb qışqırdı:

— Kömək edin!

Heç biri geri dönmədi.

«Qardaşları… oradan Midyan tacirləri keçəndə Yusifi quyudan çıxarıb İsmaillilərə iyirmi gümüşə satdılar. Onlar da Yusifi Misirə apardılar» (Yaradılış 37:27–28).

*Misirə eniş*. Cəmi bir neçə saat bundan qabaq Yusifə ancaq paxıllıq etmək olardı. Onun bayram libası və atasının evində rahat guşəsi var idi. O, yuxuda görmüşdü ki, qardaşları və atası ona hörmət edəcəklər. Amma çox yuxarı qalxanın yıxılmağı da pis olur. Yusifin də həyatında hər şey alt-üst olmuşdu. Doğma qardaşları onu boş quyuya atdılar; o, xəyanətə uğradı və satıldı. İndi isə onun yolu Misirə tərəf idi.

O, hər şeyindən — adından, imtiyazlarından, mövqeyindən məhrum olmuşdu. Onun bütün malik olduqları və nə vaxtsa almağa ümid etdiyi hər şey izsiz-tozsuz yoxa çıxmışdı. İtmişdi. Fışşş! Sanki külək sovurmuşdu.

Bu, sənə nəyisə xatırladırmı? Sənin kədərdə gəzdiyini; cibində siçanların oynadığını; sudan çıxarılmış balıq kimi çapaladığını; dəridən qabıqdan çıxdığını; ürəyinin sızıldadığını; qoz

kimi sındırıldığını… qarşıda səni Misirə yoldan başqa heç nə gözləmədiyini…

Həyat bizə badalaq vurur.

Yusif Misirə lüt-üryan çatdı. Necə deyərlər, qəpik-quruşsuz. Onun təmiz adı da indi bir qəpiyə dəyməzdi. Onun qohumluq əlaqələrinin indi heç bir əhəmiyyəti yox idi, peşəkar vərdişlərinə həqarətlə baxılırdı[1]. Başları hamar taraş edilmiş piramida yaradıcıları pırtlaşıq saçlı «bədəvilərə» xor baxırdılar.

Yeni iş yerində möhkəmlənmək üçün zəmanət verməyən məktublar. İşə düzəlmək üçün tələb edilən ixtisasın olmaması. Ailənin köməyinə güvənməmək. Yusif öz təyinatına sadiqliyi istisna olmaqla hər şeydən məhrum olmuşdu.

Bu qəribə yuxular yəhudi oğlanı Tanrının ona güvəndiyinə inandırmışdı. Ancaq məhz nədə etibar etdiyini Yusif özü bilmirdi. Qarşıda onu nə gözlədiyini ağlına belə gətirmirdi. Lakin yuxular birmənalı olaraq onun öz ailəsində nüfuzlu mövqe tutacağına işarə edirdi. Onlar Yusif üçün xilasedici jiletlər oldular. Bütün ümidlərinin puç olmasına baxmayaraq, tamamilə məhv olmağına imkan vermədilər.

Yoxsa onun sağ qalmasını nə ilə izah etmək olar? Müqəddəs Kitabda çətin vəziyyətlərdə sağ qala bilməsi üçün Yusifin hansısa xüsusi hazırlıqlara və ya xüsusi bacarıqlara malik olması barədə heç nə danışılmır. Müqəddəs Kitabda onun həyatı nümunə kimi təqdim olunur.

Ailəsindən, yüksək mövqeyindən və vətənindən məhrum olan bu yəhudi yeniyetmə Tanrının onunla maraqlandığına bir dəfə də olsun şübhə etmədi. Səhra ilə yorğun-yorğun Misirə tərəf gedərkən belə düşünürdü: «*Xeyr, bu, belə davam edə bilməz. Tanrı mənim üçün nə isə əlamətdar bir şey hazırlayıb*». Əl-ayağı zəncirlənmiş halda o öz-özünə deyirdi: «*Xeyr, Tanrı mənim üçün belə tale hazırlamayıb*». Tanımadığı şəhərdə, başları hamar taraş edilmiş və onun başa düşmədiyi dildə danışan yadellilərin əhatəsində Yusif öz-özünə deyirdi: «*Tanrı məni böyük işlər üçün çağırıb*».

Bəli, Tanrı Yusif üçün möhtəşəm gələcək hazırlamışdı və Yusif buna inanırdı.

Sən də öz həyatın üçün Tanrının təyinatına inanırsanmı?

Mən pastor xidmətimin dördüncü on illiyini geridə qoyaraq deyə bilərəm ki, uzun illər boyunca Yusifin hekayəsinə bənzər hekayələr çox eşitmişəm və onları nəql edənlərin əksəriyyəti Misirdə çoxdan «qeydiyyatdan keçiblər». Faciələr, məyusluqlar, depressiyalar… Adətən, belə hallarda verdiyim sualı artıq xeyli vaxtdır ki, dişlərimin arasında güclə saxlayıram. Əgər bu söhbəti biz səninlə bir fincan qəhvə arxasında aparmış olsaydıq, onda mən kulminasiya anında irəli əyilib sənin düz gözlərinin içinə baxıb soruşardım: «Sən nəyi itirməyin qeyri-mümkün olduğunu xatırlayırsanmı?» Bəli, başdan aşan çətinliklərin səni çox şeydən məhrum edib. Başa düşürəm. Lakin səndə heç bir hücumun məhv edə bilməyəcəyi bir şey var: bu, sənin təyinatındır. Bəlkə artıq bu barədə danışmağın vaxtıdır?

*Sən Tanrının övladısan*. Rəbb səni qabaqcadan tanıyıb, qabaqcadan seçib və qabaqcadan təyin edib. «Siz Məni seçmədiniz, Mən sizi seçib təyin etdim ki, gedib bəhrə verəsiniz…» (Yəhya 15:16). Bu həyatda sən hər şeydən əvvəl Tanrının övladısan, sonra isə qəssab, çörəkçi və ya xarratsan, qadın, yaxud kişisən, Asiya, ya da Afrika sakinisən. Ola bilsin ki, sən özünü dublyor və ya ehtiyyatda olan oyunçu hesab edirsən? Əbəs yerə! Lap başlanğıcdan Rəbb məhz səni seçib.

Həyatda isə başqa cür də ola bilir. Bir dəfə nikah mərasimini tamamlamağa demək olar ki, bircə dəqiqə qalmış oğlan əyilib qulağıma pıçıldadı:

— Əslində mən başqa kahinin iştirakı ilə nikaha girmək istəyirdim.

— Hə?…

— Bəli, amma onun vaxtı olmadı.

— Çox təəssüf!…

— Onu əvəz etdiyiniz üçün təşəkkür edirəm.

— Buyurun.

Məncə, onların nikah haqqında şəhadətnaməsində öz adımın yanında «v.i.e.» — vəzifəni icra edən yazmağa tam səlahiyyətim çatar.

Lakin sən Tanrıdan heç zaman buna bənzər söhbət eşidə bilməzsən. O, məhz səni seçib. Ona görə yox ki, bunu etməyə borclu idi və yaxud məcbur olub. O, bunu Öz arzusuna görə edib. Sən Onun azad, düşünülmüş, könüllü seçimisən. Sənin satışa qoyulduğun hərracda Rəbb hamının eşidə biləcəyi səslə bəyan etdi: «O mənim övladımdır» və səni «qüsursuz və ləkəsiz quzuya bənzəyən Məsihin qiymətli qanı bahasına satın» aldı (1 Peter 1:19). Sən Tanrının övladısan.

Bu, *müddəti olmayan*, dəqiq faktdır.

Baş daşı üzərindəki yazılara inanma, onlar bizi aldadır. Məgər sənin həyatının dəyəri baş daşı lövhəsinə yazılmış iki tarix arasındakı xırdaca cızıqla bitir? «…sığındığımız bu dünyəvi çadır dağılarsa, göylərdə Allahın bizə verdiyi binamız, əllə tikilməyən əbədi bir evimiz var» (2 Korinflilərə 5:1). Özünü müvəqqəti çərçivələrlə bağlama. Əzabların səndən fərqli olaraq əbədi deyil.

Tanrı Öz Edenini yenidən quracaq. O, bu gün Öz surətində və bənzərində yaradılmış Adəmlərin və Həvvaların bir-biri ilə, flora və fauna ilə kamil sülhdə olaraq Onun sevgisindən zövq alacaqları Bağda çalışır. Biz Onunla birlikdə ölkələri və xalqları idarə edəcəyik. «Əgər dözəriksə, Onunla da birlikdə padşahlıq edəcəyik» (2 Timoteyə 2:12).

Bu vədi qəbul et. Ondan yapış. Onu ürəyinin lövhələrinə həkk et. Bütün bədbəxtliklərin sənin başının üzərinə töküldüyünü düşünəndə, bunun belə olmadığını xatırla. Sənin təyinatın həmişəki kimi səninlədir.

Mənim atam Misirə gedən yolla tanışdır. Amma onu oraya ailəsi deyil, sağlamlığı aparıb. O, anamla kənara pul qoyur və pensiyaya çıxan kimi öz trellerləri ilə Amerikanın bütün milli parklarını gəzməyi planlaşdırırdılar. Arzularına çatmağa çox az qalmış atama «birtərəfli amiotrofik skleroz» diaqnozu qoyuldu. Bu, əzələlərin atrofiyası ilə nəticələnərək iflicə gətirib

çıxaran mərkəzi sinir sisteminin müalicəsi olmayan degenerativ xəstəliyidir. Bir neçə aydan sonra o, sərbəst yemək, geyinmək və yuyunmaq qabiliyyətini itirdi. Onun öyrəşdiyi həyat gözləri önündə dağıldı.

Həmin vaxt biz həyat yoldaşımla Brazilyaya missioner səyahətinə hazırlaşırdıq. Atamın xəstəliyi barədə öyrənəndə həyat yoldaşıma səfərimizi təxirə salmağı təklif etdim. Mənə yaxın olan adamın ölümlə üz-üzə qaldığı bir vaxtda mən necə gedə bilərdim? Dərhal qərarımı atama bildirdim. Atamdan gecikmədən aydın cavab gəldi. Ümumiyyətlə, atam epistolyar janrı sevməsə də onun budəfəki məktubu dörd səhifədən ibarət idi və bütün yazılanların arasında aşağıdakı nəsihətlər də var idi.

> Mənim xəstəliyimin sizin Rio səfərinizlə nə əlaqəsi var? Burada qeyri-adi heç nə yoxdur və mən düşünmədən sizə deyirəm: «*Gedin…*» Nə ölümlə, nə də əbədiyyələ olan görüş məni qorxutmur… belə ki, mənə görə narahat olmayın. Sadəcə *gedin*. Rəbbimizi sevindirin.

Atam hər şeyindən: sağlamlığından, pensiya zamanı layiq olduğu istirahətindən, öz övladları, nəvələri və sevimli arvadı ilə ünsiyyətdən məhrum oldu. İtki sərt olsa da, amma bu, son deyildi. «Ata,— mən ondan soruşurdum,— sən nəyi itirməyin mümkün olmadığını xatırlayırsanmı?» Tanrının çağırışı əvvəlki kimi onun ürəyini isidirdi.

Biz Misirə gedən yolda çox tez-tez bunu unuduruq! Demək olar ki, bu kədərli yolun kənarları unudulmuş və hətta rədd edilmiş çağırışlarla doludur. Biz özümüzü üzərimizə tökülən fəlakətlərin işığında görürük («Həyat yoldaşım məni tərk edib, mən narkomanam, müflis olmuşam, uşaqlıqdan əliləm və yaxud çapıqların nəticəsində eybəcərləşmiş insanam»), sonra isə pul qazanmaq, dostlar əldə etmək, nüfuz qazanmaq, əzələ yığmaq və ya kim olur-olsun sevmək kimi xırda-xuruş arzulara qane oluruq.

Yalvarıram, belə səhvlər etməyin! Bütün olanlarını itirdiyini düşünürsən? Heç də elə deyil, «çünki Allahın ənamları və dəvəti geri alınmaz» (Romalılara 11:29). Bu barədə unutma, həmişə nəzərində saxla.

Məsələn, işlədiyin müəssisənin rəhbərliyi işçilərin ixtisara düşməsi barədə elan verir. Rəis səndən onun otağına gəlməyini xahiş edir. Onun izahının nə qədər nəzakətli olmasından asılı olmayaraq, işdən azad edilmə elə işdən qovulmaq olaraq qalır. Sən artıq öz iş masanı boşaltmaq üçün əşyalarını toplayırsan. Şübhə və qorxu isə artmaqda davam edir. «Ödənişləri necə edəcəyəm? Haradan iş tapacağam?» Sənin düşüncələrin qorxudan bir-birinə qarışıb. Birdən sən öz çağırışını xatırlayırsan: «*Mən itirilməsi mümkün olmayanı unutmamışam ki?*»

«*Bir dəqiqə. Mən hələ də Tanrının övladıyam. Mənim üçün gözəl gələcək vəd edilib. Bu qara günlər buxar kimi uçub gedəcək. Çətinliklər tez və ya gec həllini tapacaq. Rəbb işdən çıxarılmağımı mənim xeyrimə çevirəcək. Mən səylə çalışacam və nə olursa olsun, Tanrıya imanım azalmayacaq*».

Necə də gözəldir! Sən elə indicə öz çağırışına yenidən inandın!

Daha bir misal. Nişanlınız nişanı qaytarıb. Başqa bir qızla tanış olan kimi onun sadiqlik andı evlənmə təklifi ilə birlikdə havaya uçub. Satqın. Yaramaz. Əclaf. Sən özünü Yusif kimi quyuya atılmış hiss edirsən. Lakin məyus olmaq əvəzinə, Yusif kimi Tanrının sənin həyatın üçün olan planına baxırsan. Səni incidəndən əvəzini çıxmaq imtahanı ilə üz-üzə qalanda, bu, heç də asan olmur. İmtahana qalib gələndə sən öz çağırışın barədə düşünməyə başlayırsan. «*Mən Tanrının övladıyam. Mənim üçün gözəl gələcək vəd edilib... və qırılmış qəlbim buna əngəl ola bilməyəcək. Mənə xəyanət edən kişidən fərqli olaraq Tanrı heç zaman Öz vədini pozmayacaq*».

Tanrının növbəti qələbəsi.

Tanrının çağırışına «bəli» cavabını versən, Misirdə də sağ qalmaq mümkündür.

Atamın ölümündən uzun illər sonra, həyatının qürub çağında onunla görüşmüş bir qadından məktub aldım. Uşaq ibadəti məktəbində məşğələ zamanı məbədin zəif və xəstə üzvlərinə xoş sözlər yazılmış açıqcalar hazırlamaq tapşırığı alanda Cincerin cəmi altı yaşı var idi. Qızcığaz rəngli kağızdan bənövşəyi rəngli açıqca hazırladı, applikasiya ilə bəzədi və səliqə ilə çərçivəyə saldı. Açıqcanın iç tərəfində yazdı: «Mən sizi sevirəm, ancaq Rəbb daha çox sevir». Onun anası şirniyyat bişirdi və birlikdə xəstəyə baş çəkməyə getdilər.

Atam yatağa düşmüşdü. Onun ölümü yaxınlaşırdı. O, çox zəif idi və tamamilə iflic olmuşdu. Doğrudur, o, hələ də əllərini tərpədə bilirdi, amma biləkləri qıcolmadan eybəcər hala düşmüşdü.

Bilmirəm necə alınmışdısa, Cincer qısa bir müddətdə atamla təklikdə qalmış və ona ancaq altı yaşlı uşağın verə biləcəyi sualı vermişdi:

— Sən tezliklə öləcəksən?

Atam qızın əlinə toxunaraq başını ona tərəf əyməyini xahiş etmişdi.

— Bəli, tezliklə. Nə vaxt? Vaxtını bilmirəm.

Sonra isə Cincer atamdan ölümdən qorxub-qorxmadığı barədə soruşmuşdu.

— Xeyr, axı göylərdə məni gözləyirlər,— atam demişdi.— Mən orada Səmavi Atamla birlikdə olacağam. Mən Onunla üz-üzə görüşməyə hazıram.

Elə bu vaxt analarımız otağa qayıtmışdılar. Cincer belə xatırlayır:

> Sizin valideynlərinizi ruhlandırmaq məqsədilə anam gülümsəməyə çalışdığı vaxt mənim üzümü *əsl* sirayətedici təbəssüm bürümüş və atanız da eyni təbəssümlə mənə göz vurmuşdu. Ailəm Keniyaya köçdüyünə görə mən bütün bunları sizə danışıram. Hind okeanının Afrika sahilində yaşayanlara İsa Məsih barədə danışmaq istəyirik. Bizi gözləyə bilən xəstəliklər və çətinliklər barədə çox eşitdiyimə görə qorxu hissi məni tərk etmir. Özümə gəlincə isə mən ölümdən qorxmuram. Çünki

mənimlə baş verə biləcək ən «pis vəziyyət» «Səmavi Atamla üzbəüz görüşməyim» ola bilər.
Sizin atanız mənə göstərdi ki, yer üzərindəki həyat yalnız başqa dünyaya keçməkdir, ölüm isə yenidən dirilmədir.

Bir ayağı qəbirdə olan adam ölüm barədə düşünərək balaca qıza zarafatla göz vurmuşdu.

Həyatda hər şeyindən məhrum olan biri? Bu, ancaq insana elə gəlir. Həyat yolunun sonunda atam əvvəlki kimi itirilməsinin qeyri-mümkün olduğuna malik oldu. Bilirsən, sənə nə demək istəyirəm? Onun ehtiyac duyduğu hər şey elə bu idi.

# FƏSİL 3

## ELƏ DƏ TƏNHA DEYİL

Melani Kasper deyir ki, onun oğlu Kuper təbəssümlə doğulub və yanağındakı çökəklər heç vaxt itmir. O, hamının sevimlisi idi, hər kəs — özündən böyük üç bacısı, valideynləri, nənələri, babaları, müəllimləri və dostları onu çox sevirdi. O, gülməyi və sevməyi bacarırdı. Onun atası Cey-Cey tərəfkeşlik etmədən oğlunu demək olar ki, ideal uşaq hesab edirdi.

Kuper nümunəvi ailədə — Tanrını axtaran, Məsihə can atan, özlərini tamamilə dörd övladlarına həsr etmiş fermerlər Cey-Cey və Melaninin şəhərkənarı evlərində doğulmaq xoşbəxtliyinə nail olmuşdu. Cey-Cey bütün boş vaxtını yeganə sevimli oğlu ilə ünsiyyətə həsr edirdi. Buna görə də 2009-cu il 17 iyul tarixində baqqi* yarışmasına yollandılar. Əslində onlar birlikdə otları səliqəyə salmağa hazırlaşmışdılar. Lakin qazonbiçənin mühərrikindəki şamları dəyişmək lazım olduğundan Melani onları almaq üçün şəhərə getdi. Onlar isə yaranmış fasilədən istifadə edərək kiçik ralli təşkil etdilər. Bəlkə də mininci dəfə bu əyləncələrini təkrarlayaraq torpaq yolda öz idman maşınlarını elə sürətlə sürürdülər ki, küləyin vıyıltısı qulaqlarında eşidilirdi. Hər şey adətincə idi: həmin yol və həmin sürət. Amma qəflətən

---

* Baqqi — adətən, dərə-təpəlikərazilərdəki yarışlarda istifadə olunan yüksək manevrə malik yüngül idman avtomobili.

nə isə «xırt» elədi… və tamamilə düz yolda Cey-Ceyin idarə etdiyi baqqi təhlükəsizlik kəmərilə etibarlı bağlanmış Kuper ilə birlikdə fırlanıb aşdı.

Kuper huşunu itirdi. Cey-Cey dərhal «911» xidmətinə zəng etdi. Sonra isə Melaninin nömrəsini yığdı. «Bədbəxt hadisə baş verib,— o, arvadına dedi.— Deyəsən, bizim Kuperimiz bu vəziyyətdən çıxa bilməyəcək». Növbəti saatlar istənilən valideyn üçün dəhşətə çevrilərdi: təcili yardım, reanimasiya, hönkürtü, şok. Nəhayət, xəbər gəldi: «Təəssüf ki, sizin oğlunuz vəfat etdi». Budur, Cey-Cey və Melani ağlagəlməz, dəhşətli işlər — tabut seçmək, dəfn təşkil etmək və sonrakı həyatlarını sevimli oğulları olmadan yaşamaq məcburiyyətində qaldılar.

Onlar bir müddət donub qalmışdılar. Səhərlər oyanarkən bir-birilərini qucaqlayaraq dayanmadan hönkürürdülər. Yataqdan çıxmaq üçün güclə özlərinə gəlib birinci mərtəbədə onları gözləyən digər ailə üzvlərinin, dostlarının yanına düşür və yenidən yatmağa gedənə qədər bütün günü evin içində boş-boşuna vurnuxurdular. Onlar yatağa uzanandan yuxuya gedənə qədər ağlayırdılar.

Cey-Cey mənə etiraf etdi: «Bu dünyada sizi nə vaxtsa beş yaşlı oğlunuzun əllərinizdə ölməyinə hazırlaya biləcək nə kitab, nə də psixoloq dəstəyi mövcuddur… Quyunun dibində olmağın nə demək olduğunu biz bilirik».

Dib. Toy, işdə vəzifəmizin artması və ya uşaq doğulması kimi xoşbəxt anları nəzərə almasaq, həyatımızın çox hissəsi, az qala bütün ömrümüz eniş və yoxuşlardan keçir. Biz əsasən eyni və sabit həyat keçiririk. İstirahət günündən sonra növbələrə görə qonşuları şəhərə apararkən bir qədər deyinirik, vergi bəyannaməsini vaxtında verəndən sonra şam yeməyinə nə hazırlayacağımızı düşünürük.

Lakin bəzi vaxtlar öyrəşdiyimiz dünya alt-üst olur və biz dibə düşürük. Sürətlə gedən baqqinin aşması, daşınmaz əmlak bazarının çökməsi, onkoloji test cavabının pis olması — biz özümüzə gəlməmiş quyunun lap dibində süst vəziyyətdə oluruq.

Yusif üçün quyu Misirdə qulların satış hərracı oldu. Ticarət başlandı və Yusif öz qısa həyatında artıq ikinci dəfə alış-veriş hədəfinə çevrildi. Yaqubun sevimlisini barmaqları ilə dürtmələyir, çimdik götürür, bit olub-olmadığını yoxlayırdılar. Qısa sözlə desək, sanki işlək kəl imiş kimi hər tərəfinə baxırdılar. Nəhayət, fironun mühafizəçilər dəstəsinin rəisi, saray məmuru Potifar onu aldı. Yusif yad ölkənin nə dilini, nə də adət-ənənələrini bilirdi. O, dadına öyrəşmədiyi yeməklərlə kifayətlənməli olur, yorucu işləri yerinə yetirirdi. Onun həyat şərtlərinin uğurlu olduğunu düşünmək düzgün olmazdı. Buna görə də Yusifin hekayəsinin növbəti fəslinə keçmək üçün səhifəni çevirəndə, bədbəxt əsiri ümidsiz, qəzəblə dolu və pis vərdişlərə aludə olmuş halda görməyə hazırlaşaq. Məgər həyatda belə olmurmu? Xeyr, belə olmur.

«Rəbb Yusiflə idi və o, işlərində uğur qazanırdı. Yusif Misirli ağasının evində qalırdı» (Yaradılış 39:2). Yusif Misirə əynində öz paltarı, ürəyində isə Tanrının çağırışı ilə gəlmişdi. Beləliklə, həmin fəslin 4-cü ayəsinin sonunda oxuyuruq ki, fironun mühafizəçilər dəstəsinin rəisi olan ağası onu bütün evi üzərində başçı qoydu, malik olduğu hər şeyi ona həvalə etdi. Hadisələrin belə cərəyan etməsini necə izah edə bilərik? Çox sadə. Tanrı Yusiflə idi.

Rəbb Yusiflə idi və o, işlərində uğur qazanırdı…

*2-ci ayə*

Ağası gördü ki, Rəbb onunladır…

*3-cü ayə*

…Rəbb Yusifə görə Misirlinin evinə bərəkət verdi…

*5-ci ayə*

…evində, tarlasında və özünə məxsus olan hər şeydə Rəbbin bərəkəti göründü.

*5-ci ayə*

Yusifin hekayəsini «Özün özünə kömək et» seriyasından olan saysız-hesabsız kitabların və daxili imkanlar axtarmağa çağıran («dərin qazmaq») «uğurun sirləri» formulunun heç birinə aid etmək olmaz. Bu öyüdverici hadisənin fərqli xüsusiyyətini tamamilə başqa istiqamətdə axtarmaq lazımdır («yüksəyə baxmaq»). Yusif onu körpə örtüyü kimi bürüyən Tanrının hüzuru sayəsində uğur qazandı.

Bəlkə Tanrı səni də beləcə bürüyür? Hər kəs özünün Misirə enişi barədə — böhran vəziyyətləri üçün leksikasını öyrənmədiyi dili bilmədən, evdən uzaq, tənha, yaşamaqdan ötrü bütün vəsaitlərdən məhrum, dağılmış ümidlərlə, dostları tərəfindən tərk edilmiş halda yad yerə necə düşməsi barədə danışa bilər. Belə vəziyyətdə Tanrıdan başqa kimə güvənmək olar? Heç kimə.

Davud soruşdu: «Hara gedim ki, Ruhun orada olmasın? Hara qaçım ki, hüzurunda olmayım?» (Zəbur 139:7). Elə özü də cavab verdi ki, Tanrı hər yerdədir: «Əgər göylərə çıxsam, Sən oradasan, ölülər diyarında yatsam, Sən oradasan. Qanad alıb gündoğana uçsam belə, dənizi keçib günbatana qonsam belə, Sənin sağ əlin bələdçim olacaq, sağ əlin məni qoruyacaq» (8–10-cu ayələr).

Yusifin şərhində bu ayələr belə səslənərdi: «Hara gedim ki, Ruhun orada olmasın? Hara qaçım ki, hüzurunda olmayım? Sahibsiz quyunun dibinə düşsəm də… qul bazarında satılsam da… yadellinin evində qalsam da… Sənin sağ əlin mənim bələdçim olacaq».

Əgər bu ayələri sənin vəziyyətinə uyğunlaşdırsaq, belə alınar: «Hara gedim ki, Ruhun orada olmasın? Hara qaçım ki, hüzurunda olmayım? Reabilitasiya xəstəxanasına düşsəm də… intensiv terapiya şöbəsinə yerləşdirilsəm də… döyüş bölgəsində olsam da… zorlanmaya məruz qalmış qadınların sığınacağında yer alsam da… yerli həbsxanaya atılsam da… Sənin sağ əlin bələdçim olacaq…»

Sən heç vaxt Tanrının olmadığı yeri tapa bilməyəcəksən. Bir neçə saatdan sonra harada ola biləcəyini təsəvvür et. Məktəbdə? Tanrı sinif otaqlarında da tərk etmir. Sürətli maşın yolunda?

Orada Onun hüzurunun səninlə olacağına əmin ola bilərsən. Əməliyyat otağında, direktorlar şurasının iclas zalında, yaxın qohumlarının qonaq otağında, dəfn mərasimində? Tanrı orada da olacaq. «Əslində Allah heç birimizdən uzaq deyil» (Həvarilərin işləri 17:27).

«*Heç birimizdən*». Tanrının xüsusi sevimliləri yoxdur. Onun hüzurundan hər kəs — səs-küylü şəhər sakinlərindən tutmuş, dağlıq vadilərdə və tropik cəngəlliklərdəki baxımsız kəndlərin adamlarına qədər hər kəs zövq ala bilər. Lakin bu imtiyazdan çox adamın istifadə etdiyini demək olmaz. Əksinə, insanlar, sanki Tanrı və Onun məhəbbəti yox imiş kimi həyatda dolaşırlar. Buna görə də onlar ancaq öz güclərinə güvənərək yaşamalı olurlar. Elə bil müdriklik əldə etmək üçün heç bir yerləri yox imiş kimi, onu da göylərdə deyil, öz beyinlərində axtarırlar. Onlar Tanrısız yaşayırlar.

Amma bizim aramızda da Yusiflər, Tanrının hüzurunu axtarıb hiss edənlər var. Musa kimi Rəbbin ardınca gedənlər var. İki milyon keçmiş əsirin qayğısı qəflətən xilaskarın çiyinləri üzərinə düşəndə, o fikirləşdi: «*Bütün bu insanları necə yedizdirəcəm? Onları düşmənlərdən necə qoruyacam? Biz necə sağ qala biləcəyik?*» Musaya ərzaq ehtiyatı, köməkçilər, silah və təcrübə lazım idi. O, Tanrıya kömək üçün dua edəndə dedi: «Əgər Sənin hüzurun bizimlə getməsə, bizi buradan göndərmə» (Çıxış 33:15).

Musa Tanrının iştirakı olmadan tanıdığı yerlərə getməkdənsə, Tanrı ilə tanımadığı yerlərə getməyə razı idi.

Öz əli ilə Misirə aparılan Davud padşaha baxaq. O, döyüşçülərindən birinin arvadını yoldan çıxarandan sonra günahını ört-basdır etmək üçün qətl və yalandan başqa yol tapmadı. O, bir il Tanrıdan gizləndi. Lakin bu, əbədi olaraq belə davam edə bilməzdi. Nəhayət, padşah baş verənlərin əxlaqsızlıq olduğunu etiraf edəndə, Tanrıdan ancaq bunu xahiş etdi: «Məni Öz hüzurundan atma, Müqəddəs Ruhunu məndən götürmə» (Zəbur 51:11).

Davud belə dua etmədi: «Padşahlıq taxtını məndən alma. Padşahlığımı məndən alma. Ordumu məndən alma». Tanrının

onun həyatında birinci dərəcəli əhəmiyyət daşıdığını yaxşı başa düşən Davud onu bundan məhrum etməməsi üçün Xudavəndə yalvardı.

Ondan nümunə götürək. Tanrının hüzurunu yanğı ilə arzulayaq. Bunu necə edək? Ürəyimizi daşa deyil, süngərə bənzətməklə. Daşı dənizə atsan nə baş verəcək? O, zahirdən islanacaq və hətta bir qədər rəngi də dəyişiləcək, amma içəridən olduğu kimi qalacaq. İndi isə eynisini süngər ilə et və onun bir an içərisində necə dəyişildiyinin şahidi olacaqsan. Süngər dəniz suyunu özünə hopdurur. Su isə onun bütün məsamələrindən içəri dolaraq mahiyyətini dəyişir.

Sakit okeanın suları mərcanları hər tərəfdən yuyub əhatəyə aldığı kimi, Tanrı da bizi əhatəyə alır. Müqavimət göstərməli, yoxsa çağırışa cavab verməliyik? Daş və yaxud süngər olmaq qərarı bizdən asılıdır. Sənin eqoist təbiətin qarşı çıxmağa vadar edir. *Tanrıdan qaçmağa, Tanrıya qarşı çıxmağa, Tanrını günahlandırmağa təhrik edir.* Amma ehtiyatlı ol: sərtləşmiş ürəklər şəfa əldə edə bilmir. Yalnız yumşaq, üzüyola, süngər kimi ürəklər sağala bilir. Bütün varlığınla Tanrının hüzuruna açıq ol. Bunu necə edəcəyini isə mən sənə deyəcəm.

*Tanrının hüzurunda olmaq səlahiyyətini elan et.* «Səni heç vaxt atmaram, səni heç vaxt tərk etmərəm» (İbranilərə 13:5). Bu ayənin yunanca orijinalında beş inkar ifadəsi var. Onun mümkün tərcüməsi belə səslənir: «Mən heç zaman səni tərk etməyəcəm; heç yerdə və heç nəyə görə səni tərk etməyəcəm»[2]. Bu vəddən xilasedici halqadan yapışan kimi yapış. Çünki o, xilasedici halqa kimi faydalıdır. Bu həqiqət səndəki kədəri və qorxunu boğana qədər onu dəfələrlə təkrar et. «Allahın Rəbb, Qüvvətli Qurtarıcın səninlədir! O sənin üçün sevinib şadlanacaq, səni məhəbbəti ilə yeniləşdirəcək, sənin üçün tərənnümlə coşacaq!» (Sefanya 3:17).

Tanrının *hüzurunu* itirmək olar. Əyyub nə vaxtsa onu itirmişdi. «Şərqə getsəm, Allah orada deyil, qərbə getsəm, Onu tapa bilmirəm. O, şimalda işləsə, gözüm seçməz, cənuba dönsə, Onu

görə bilmərəm (Əyyub 23:8–9). Əyyuba *elə gəlirdi ki*, o, Tanrıdan uzaqlaşıb. Tanrının hüzurunu hiss etmək qabiliyyətini itirməsinə baxmayaraq, o, belə bir nəticəyə gəlmişdi: «Amma tutduğum yolu O tanıyır, məni sınayan zaman qızıl kimi çıxaram» (10-cu ayə). Necə də cəsarətli çıxışdır! Lakin çətin günlər bizdən qərarlı olmaq və iman tələb edir.

Məzmurçu da öz seçimini etmişdi:

Bu dəhşətli gündə
*Mən yalnız Sənə güvənirəm.*
*Zəbur 56:3;* kursiv mənimdir — *M. L.*

Mənim qəlbim, niyə qırılmısan?
Axı niyə bu köksümdə təlaşlanırsan?
Ümidini yenə Allaha bağla,
Qoy Allahıma — *məni qurtarana şükür edim.*
*Zəbur 43:5;* kursiv mənimdir — *M. L.*

Tanrının hüzurunu yaxşı əhvali-ruhiyyə və ya müsbət düşüncə ilə müqayisə etmə. Bizim xoşbəxt olub-olmamağımızdan asılı olmayaraq, Tanrı həmişə yanımızdadır. Bəzi vaxtlar sadəcə öz hisslərimizə məcburi surətdə qapını göstərməliyik.

*Tanrının necə xeyirxah olduğunu xatırla.* Müqəddəs Kitabı oxuyarkən Tanrımızın necə gözəl xüsusiyyətlərə malik olduğunu qeyd et. Onun xeyirxahlıqlarını qeyd etdiyim siyahımda bu cəhətlər yer alıb: «Tanrı həmişəki kimi Öz taxtında əyləşib. O məni öz adımla tanıyır. Mələklər yenə də Tanrının səsinə itaətli olurlar. Padşahların ürəyi həmişəki kimi Onun əlindədir. İsa Məsihin qurbanı yenə də insanların canlarını xilas edir. Tanrının Ruhu əvvəlki kimi Onun müqəddəslərindədir. Onun göyləri əvvəlki kimi əl çatacaq qədər yaxındır. Qəbir indiyə qədər yükboşaltma məntəqəsidir. Tanrı əvvəlki kimi sadiqdir. O, qəfil yaxalaya bilməz. O, hər şeyi Öz izzətinə və mənim xeyrimə çevirir. Heç bir fəlakət Öz iradəsini yerinə yetirməkdə Ona mane olmur, Onun iradəsi isə yaxşı, məqbul və kamildir. Gecə ağlaşma baş versə

də, sübh vaxtı sevinc olur. Əzab çəkdiyim torpaqda Tanrı məni bəhrəli edib».

Cey-Cey Kasper böyük qızına Kuperin ölüm xəbərini çatdırmazdan əvvəl onu bu xəbərə hazırlayaraq belə dedi: «Mən istəyirəm ki, Tanrı barədə sənə məlum olan bütün yaxşılıqları xatırlayasan. Çünki mən sənə, həqiqətən, dəhşətli bir xəbər verəcəyəm». Nə qədər dəyərli məsləhətdir!

Yer ayaqlarının altından qaçanda insanlar iki əllə heç zaman dəyişilməyən Tanrıdan yapışırlar.

Qəlbim kədərlənəndə
Ancaq Ona güvənirəm[3].

*Öz çətinliklərini dua vasitəsilə bildir.* Yumruqla stola vur və yaxud da başını əllərinin arasına alaraq əsəbi halda otaqda o tərəf, bu tərəfə gəziş. Bu, parçalanmış qəlblərdən axan israrlı, mətanətli dua vaxtıdır. Tanrıya qəzəblənmək olarmı? Onun metodlarına görə məyus olmaq olarmı? Onun seçdiyi vasitələri tənqid etmək necə? Onun haqqında düşündüklərinin hamısını Ona de. Qoy bilsin! Yeremya da dəfələrlə belə etmişdi. Siyasi çevriliş və iqtisadi durğunluq illərində bu ulu peyğəmbər Yerusəlimin ruhani lideri idi. Düşmənin hücumu, yoxsulluq, əsarət, aclıq, ölüm — Yeremya bütün bunları öz gözləri ilə gördü. O, Tanrıya etdiyi dualarında o qədər şikayətlənirdi ki, onları yazdıqda adını «Mərsiyələr» qoymalı oldu.

O məni apardı,
İşıqda deyil, qaranlıqda gəzdirdi.
Bütün gün — dəfələrlə qaldırdığı əli
Mənə qarşıdır.

Ətimi, dərimi çürütdü,
Sümüklərimi sındırdı.
Məni əzabla, cəfa ilə sarıdı,

Mühasirəyə saldı.
Çoxdan ölüb-gedənlər kimi
Məni zülmətdə yaşatdı.

Ətrafımı hər tərəfdən hasara aldı,
Məni zəncirləyib, qaça bilmirəm.
Fəryad edib mən imdad istəyərkən
O, duamın qarşısına sədd çəkdi.

*Mərsiyələr 3:2–8*

Yeremyanın buna bənzər nalələri beş fəsil həcmindədir. Kitabının əsas hissəsini iki sözlə ifadə etmək olar: «həyat çətindir». Nə üçün Tanrı «Mərsiyələr»i Müqəddəs Kitaba yerləşdirib? Bəlkə O bizim də kədərli peyğəmbərdən nümunə götürməyimizi istəyir?

Özünü saxlama və öz şikayət kitabını Onun qarşısında aç. «Hüzuruna şikayətimi tökürəm, qarşısında əziyyətimi söyləyirəm» (Zəbur 142:2). Sənin qəzəbli nalələrin Tanrını şoka salmır, çünki İsa Məsih də «Allaha böyük fəryad və göz yaşları ilə dua edib yalvardı» (İbranilərə 5:7). Tanrıya arxa çevirib getməkdənsə, Onun qarşısında yumruqlarınızı sıxaraq bütün hirsinizi tökməyiniz daha yaxşı olardı. Mömin Avqustin belə deyib: «Dibsiz dərinliklərdən Tanrını çağırmayanlar necə də dərin dibsiz dərinliklərə gömülüblər»[4].

Bu sözlər əvvəlcə sənə qeyri-səmimi və boş görünə bilər. Burnunun altında nəsə mızıldanaraq sən əzab çəkə-çəkə lazım olan sözləri seçəcəksən. Lakin təslim olma və emosiyalarını gizlətmə.

*Tanrının adamlarından yapış*. Himalaya qaçışı təxirə sal. Kimsəsiz adaya köçməyi yaddan çıxart. Çünki bu, tərki-dünyalıq üçün qeyri-münasib vaxtdır. Tanrının məbədindəki sandığın dibinə möhkəm yapışıb çoxalan dəniz molyusku ol, «çünki harada *iki və ya üç nəfər* Mənim adımla yığılarsa, Mən də orada, onların arasındayam» (Matta 18:20; kursiv mənimdir — *M. L.*).

Xəstə adam xəstəxanadan qaçarmı? Ac adam ərzaq anbarından uzaqlaşarmı? Ruhdan düşən adam Tanrının ümidinın paylandığı Mərkəzə getməzmi? Yalnız ağlını itirən adam getməz. Tanrının xalqı Tanrının hüzurunun zəmanətidir.

Bir dəfə Musa və israillilər amaleqlilərlə vuruşurdular. Patriarx həddən artıq qəribə bir döyüş taktikası seçdi. Vadidə döyüşü idarə etməyi Yeşuaya tapşıraraq özü dua etmək üçün dağlara çəkildi. Lakin dua etməyə tək getmədi, köməkçiləri olan Harun və Xuru da özü ilə götürdü. Yeşua döyüş meydanında müharibə edən zaman Musa ruhani mübarizə aparırdı. Harun və Xur hərəsi Musanın bir tərəfində dayanaraq onun duada göyə qalxmış əllərini saxlayırdılar. İsraillilər Musanın duası sayəsində qələbə çaldılar. Musa tək dua etmədiyi üçün qələbə çaldı.

Mənim həyat yoldaşım Denalin buna bənzər bir iş görmüşdü. Bir neçə il bundan əvvəl o, güclü depressiya ilə ağır mübarizə aparırdı. Hər yeni gün onun üçün boz, qayğılarla dolu, səs-küylü, həyat isə sevincsiz və ümidsiz görünürdü. İki uşaq ibtidai sinfə, üçüncüsü bağçaya gedirdi, bundan əlavə, həmişə işləyən ər isə heç vaxt evdə tapılmırdı. Bu, onun əhval-ruhiyyəsinə təsir etməyə bilməzdi. Depressiya bizlərdən ən yaxşılarını əldən salır. O, xüsusən pastorların həyat yoldaşları üçün dözülməzdir. Çünki hamı onun ətrafa sevinc saçmağını və dişlərini qıcıyaraq bütün çətinliklərə sinə gərməli olduğunu gözləyir. Ancaq Denalin problemin içində qalanlardan olmadı. Həmin yadda qalan bazar günü o, kədərdən boğularaq məbədə yollandı və bir daha riyakarlıq etməyəcəyinə söz verdi. «Əgər məndən *soruşsalar, həqiqətən, necə olduğumu onlara deyəcəm*». Ondan «necəsən?» soruşan hər kəsə belə cavab verdi: «Çox da  yaxşı deyiləm. Depressiyadayam. Mənim üçün dua edərsiniz?»

O zaman vəzifə borcu kimi yetirilən yetrilən replika mübadiləsi davamlı söhbətə, qısa salamlaşmalar isə etibarlı ünsiyyətə çevrildi. İbadətin sonunda bir çoxları duada Denalinə dəstək olmağı qərara aldılar. O, əmin idi ki, onun şəfa prosesi məhz

həmin bazar günü səhər başladı. Həyat yoldaşım Tanrının hüzurunu Tanrının xalqı arasında tapdı.

Cey-Cey də həmin hüzuru elə orada tapdı. Onun qəlbinin yarası nə qədər dərin olsa da, imanı daha dərin idi. Hər dəfə oğlunun ölümü barədə danışanda, o əlavə edərək belə deyir: «Biz ən dibdə olmağın və o qatı qaranlıqda İsa Məsihin bizi qarşılamasının nə demək olduğunu yaxşı bilirik».

İsa Məsih səni də orada gözləyir, dostum. Əgər Yusifin hekayəsi sənin üçün nümunədirsə, Tanrı sənin Misirə düşməyindən istifadə edərək sənə nə qədər yaxın olduğunu göstərə bilər. Ailəni itirmək olar, dostların dəstəyindən məhrum qalmaq olar, psixoloqun sənə demək üçün təsəlli sözləri tapmaya bilər, ancaq sən həmişə Tanrıya güvənə bilərsən. Onun vədi dəyişilməzdir: «Mən həmişə səninləyəm, gedəcəyin hər yerdə səni qoruyacağam…» (Yaradılış 28:15).

# FƏSİL 4

# AXMAQLIĞI AXMAQLIQLA DÜZƏLTMƏK OLMAZ

İyulun dördü idi*. Ənənəyə əsasən, bu vətənpərvər bayramın əsas rəngləri qırmızı, ağ və göydür. Mənim üzüm qızarmışdı, göy səmada ağ bulud topaları üzürdü. Mən günəşdən yandığım üçün deyil, utandığımdan qızarmışdım. Denalin xəbərdarlıq etmişdi: «Maks, göldə suyun səviyyəsinin həddən artıq düşdüyünü unutma». Exolotun** sensoru həyəcan təbili çalırdı: otuz fut, on, beş və nəhayət, cəmi üç. Bundan əlavə, suyun içərisində orada-burada xəbərdarlıq siqnalları yellənirdi. Lakin mən Denalinə qulaq asanam? Radarın göstərişlərinə əhəmiyyət verənəm? Dərinliyi bildirən məlumatları qəbul edənəm?

Üç yeniyetmə qızım dostları ilə birlikdə mənim naviqatorluq məharətimə arxayın olaraq sevinc dolu şənbə gəzintisinə hazırlaşarkən belə xırdalıqlara vaxt ayıran kim idi? Mənim də onları məyus etmək fikrim yox idi. Gün eynəyimi və enli kənarları olan şlyapamı geyinib drosselin dəstəyini döndərdim və motorun gurultusu altında sahildən uzaqlaşdıq. Beş dəqiqə keçdi və… part! Mən dayaz yerə çırpıldım.

Sərnişinlər irəliyə atıldılar. Mən özüm az qala suya düşəcəkdim. Yeddi cüt göz narazı halda mənə zillənmişdi. Hansısa

---

* 1776-cı ildə ABŞ-ın müstəqillik Deklarasiyasının yazıldığı gün, milli bayram.

** dənizin dərinliyini ölçmək üçün elektrik cihazı.

zəif insan mənim yerimdə olsaydı, onların hamısından gəmidən çıxmalarını və onu itələmələrini xahiş edərdi. Amma mən, drossel təlimçisi, itigedən motorlu qayıq kapitanı və göllərin dilini bilən Maks belə etməzdim. Heç vaxt! Mən əsl dəniz canavarına yaraşan tərzdə drosselin dəstəyini fırladaraq dayaz yerdən çıxmağı qərara aldım.

Qayıq yerindən tərpənmədi.

«Maks,— Denalin nəzakətlə dilləndi,— sən özünü biabır etdin». Mən sükanı qaldırdım, onun ucu itin qulağı kimi əyilmişdi. Bu dəfə bizim başqa seçimimiz yox idi. Biz qayığı suda yırğalanmağa başlayana qədər itələdik. Mən motoru işə salanda qayıq üç təkərli sınıq araba kimi taraq-turuq etməyə və titrəməyə başladı. Buna baxmayaraq, onun ən yüksək sürəti saatda beş mildən çox olmadı. Güc-bəla ilə gölün o biri tərəfinə keçəndə istirahət edənlər gözlərini bizdən çəkmirdilər. Həmin vaxt yeniyetmələrin də mənə acığı tutmuşdu. Mən öz-özümə sual verdim: «*Hə, kapitan Maks, bəs sən nə düşünürdün?*»

Elə bədbəxtlik də onda idi ki, mən heç nə *düşünməmişdim*: bir axmaqlığın arxasınca digərini edirdim, çünki lazım olduğu kimi fikirləşmədən tələsik səhv qərarlar verirdim. Qayıqla baş verən hadisəni düzəltmək olar, bəs həyatla necə?

Kimin ağlına gələrdi! Yusif seksual imtahana uğrayanda, çox güman ki, iyirmiyə yaxın yaşı var idi. Qardaşları onu köləliyə satanda yəqin ki, onu məşəqqətli işə və vaxtından qabaq ölümə məhkum etdiklərini düşünürdülər. Ancaq başqa cür oldu: Yusif körpəni xilas edən yanğınsöndürən kimi vəzifə pilləsində çox yüksəyə qalxdı. Evinin idarəçiliyini Yusifə həvalə edən Potifar, sözsüz ki, onu öz həmkarlarının yanında tərifləyirdi. O, Midasın özünə toxunmaq kimi sayılan bu qeyri-adi yəhudi gənclə ilə fəxr edirdi.

Yusif nüfuz sahibi olmuşdu. İndi onun xərcləmək və icarəyə götürmək, əmr vermək və qəbul etmək səlahiyyəti var idi. Tacirlər onun əmrini yerinə yetirirdilər, yanından keçənlər dönüb onun arxasınca boylanırdılar. Ən əsası isə qadınlar ona göz qoyurdular.

«Yusif gözəl və yaraşıqlı idi» (Yaradılış 39:6). Əsl Hollivud yaraşıqlılarına məxsus, kişilik etalonu olan dördbucaqlı formadakı çənəsi, buruq saçları və Potifarın arvadına xidmət zamanı sini uzadarkən hər dəfə gözə girən əzələləri var idi. Bu, tez-tez baş verirdi. Ağasının arvadı hər ona baxanda əriyirdi. «Bir müddət sonra sonra ağasının arvadının Yusifə gözü düşüb dedi: "Gəl mənimlə yat"» (7-ci ayə).

Tanınmış qadın, sülalənin başçısının arvadı yəhudi qul ilə əylənirdi. «E-e-e-y, mənim qəhvəmi şirin elə»,— o, güclə hiss edilən tərzdə göz vuraraq deyirdi. Dəhlizdə yanından keçəndə, guya təsadüfən onun əlinə toxunurdu. Yusif stol arxasında ona desert verərkən, guya bilmədən Yusifin ayaqlarına toxunurdu. O, həm gözəl geyimlə, həm də paltarsız tək bir şeyə işarə edirdi: «Yusif, mən səninəm! Ah, mənim ağuşuma gəl!» Beləcə o, «hər gün» Yusifi ələ almağa çalışırdı (10-cu ayə). Yazıq oğlanın onun təkliflərini götür-qoy və qəbul etmək üçün həddən artıq imkanları var idi.

Məgər bu qadın onun ağasının arvadı deyildimi? Öz xanımının bütün arzularını yerinə yetirmək onun vəzifə borcu deyildimi? Hətta bu arzulardan biri onun özü ilə intim əlaqə olsa belə. Həm də bu münasibətin sirr olaraq qalacağına *zəmanət* vardı. Heç bir canlı bu əlaqədən xəbər tutmayacaqdı. Yataq otağının qapıları arxasında baş verənlər oradaca qalır, elə deyilmi?

Bundan əlavə, xanımı ilə gizli əlaqə Yusif üçün siyasi oyunlarda yüksək mövqedən olan müttəfiq verə bilərdi. Məqsəd şəraitə bəraət qazandırır. Belə baxanda, şərait elə də pis deyildi. Nüfuzlu Potifarın gözəl qadın seçməkdə yaxşı zövqü vardı. Şübhəsiz ki, onun arvadı çox gözəl idi. Rəngarəng paltarını itirən Yusif həssaslığını itirməmişdi. Yoldan çıxaran və eşqdən yanan qadının bir anlıq ağuşuna atılmaq? Bəli, bu, Yusifə az da olsa təsəlli verə bilərdi.

Məgər o, buna layiq deyildi? Axı o, tənhalığı ən yüksək həddə dadmışdı: ailəsi tərəfindən rədd edilmiş, işçi heyvan kimi iki dəfə satılıb alınmış, evindən məhrum edilmiş, dostlarından ayrı düşmüşdü. Bunun üzərinə Potifarın təsərrüfatı üzərindəki

idarəçilik işinin gərginliyini də əlavə edin. Xeyli sayda qullara və bağlara nəzarət etmək də onun səlahiyyətinə daxil idi. Üstəgəl rəsmi qonaqlıqların yüksək səviyyədə təşkil olunması. Yusifin işi çox yorucu idi.

Bir sözlə, Yusifin bəraətlərində çatışmazlıq yox idi.

Eynilə səninki kimi. Yəqin ki, sən də atılmısan, döyülmüsən, satılmısan və xəyanətə uğramısan, zəif sağlamlığınla, kreditlərlə və yaxud ümumi uğursuzluqlarla bağlı çətinliklərlə üzləşirsən. Sənin demək olar ki, heç kimin qalmayıb. Bundan ən pisi isə çıxış yolu da yoxdur. Vaxt gedir, yuxusuz gecələr bir-birini əvəz edir. Birdən xanım (yaxud cənab) Potifar cəlbedici təkliflə sənə yaxınlaşır. O öz yataq otağının açarını sənə uzadır.

Yaxud dostun içməyi təklif edərək, sənə içki şüşəsini uzadır. İş yoldaşın narkotik təklif edir və ya dövlətin pullarını borclarını bağlamaq, yəni işlədiyin müəssisənin pullarını öz maddi problemlərini həll etmək üçün istifadə etmək olar. Belə vəziyyətlərdə bəraətlər və «ağlın dəlilləri» yağışdan sonra bitən alaq otları kimi hər tərəfdən çıxırlar. *Heç kim heç nə bilməyəcək. Mən ilişməyəcəm. Axı mən adi insanam.*

Gəlin, təmiz danışaq. Misir sənin üçün konfet deyil. Bu barədə mübahisə etməyək. Lakin Misir düşünülməmiş qərarlar üçün münbit torpaq ola bilər. Sonradan peşmançılıq gətirəcək qərarlarla problemi dərinləşdirmə.

Yusif ayıq idi. Xanım Potifar onun qarşısında tələ quranda, o «razı olmurdu» (10-cu ayə). O, yoldan çıxarana nə vaxt, nə də diqqət ayırırdı, onunla səmimi söhbətlər etmirdi və ümid vermirdi. «…Yusif isə onunla yatmağa, hətta birgə olmağa razı olmurdu» (10-cu ayə). Onun mobil telefonuna qadının nömrəsindən zəng gələndə cavab vermirdi. Qadın onun telefonuna mesajlar göndərəndə, heç bir reaksiya vermirdi. Qadın onun kabinetinə daxil olanda, o çıxırdı. Yusif ondan taun xəstəliyindən qaçan kimi qaçırdı.

«…Ağam… özünə məxsus olan hər şeyi mənim ixtiyarıma verib» — Yusif dedi (8-ci ayə), buna görə də onun arvadı ilə

yatmaq ona qarşı günah etmək idi. Razılaşaq ki, indiki dövrdə bu cür mövqe nadir haldır. Tez-tez «hər iki tərəfin razılığı» və «seksual hüquqlar» ifadələri işlədilən müasir cəmiyyətdə bəzilərinin əxlaqsız davranışlarının digərlərinin həyatlarını dağıtdığını unuduruq.

Bir neçə ilə bundan əvvəl dostlarımdan biri mənə belə bir məsləhət görmüşdü: «Sənin cinsi əxlaqsızlığının kimlərin həyatına təsir edə biləcəyinin siyahısını tut». Mən onun məsləhətinə qulaq asdım və vaxtaşırı tərtib etdiyim siyahını oxuyuram. «Denalin. Üç qızım. Kürəkənim. Hələ doğulmamış nəvələrim. Nə vaxtsa mənim kitablarımdan birini oxuyan və yaxud təbliğlərimdən birinə qulaq asanların hamısı. Nəşriyyatdakı kollektivim. Məbədimizin ştatda olan əməkdaşlarım». Bu siyahı mənə bir cinsi həzz almaq istəyinin bütün bu insanların etibarını həmişəlik itirməyə dəymədiyini unutmamağa imkan verir.

Atalar öz övladlarının əlini bilərəkdən sındırarlarmı? Əlbəttə ki, yox. Bu vəhşilik haqqında, hətta düşünmək normal insanı iyrəndirir. Amma siz nikahdan kənar əlaqəyə imkan verirsinizsə, öz övladınıza əl sındırmaqdan daha böyük əziyyət verirsiniz.

Analar qışda öz övladlarını küçədə yatmağa qoyarlarmı? Heç vaxt. Lakin siz kənarda sevgi macərasına imkan verirsinizsə, övladınızın həyatına Arktika qışından daha çox qaranlıq və soyuq gətirirsiniz.

Siz subaylar, Müqəddəs Kitabı təhqir edərək çarmıxı lağa qoyarsınızmı? Ancaq nikahdan əvvəl cinsi əlaqəyə girərək siz Tanrının müqəddəs qanunlarından birini pozursunuz. «Məgər bilmirsiniz ki, bədəniniz Allahdan aldığınız, sizdə yaşayan Müqəddəs Ruhun məbədidir?…» (1 Korinflilərə 6:19).

Bizim hərəkətlərimizin nəticəsi olur. Yusif sadiqliyi ehtirasdan üstün tutdu. O öz ağasına hörmət göstərdi…

Öz *Rəbbinə* də. Yusifin ilk arzusu Ona məqbul olmaq idi. «Bəs mən necə bu böyük pisliyi edib Allahın önündə günaha bata bilərəm?» (Yaradılış 39:9).

Yusifin sənə verdiyi dərs təəccüblü olsa da, sadədir: *Rəbbə məqbul hərəkət et*. Sənin iş yoldaşların işdən sonra kişi klubuna baş çəkmək istəyirlər? Necə etməli? *Rəbbə məqbul hərəkət et.* Oğlan dostun axşam səni öz evinə şampan içməyə dəvət edir? Ona necə cavab verməli? *Rəbbə məqbul hərəkət et*. Dostların sənə narkotik təklif edirlər; sinif yoldaşların imtahanda necə fırıldaq işlətməyi öyrədirlər; internet pornoqrafiya filmlərinin geniş seçimini təqdim edir. Özündən soruş: «Rəbbə necə məqbul olmaq olar?» «Salehlik qurbanları kəsin, Rəbbə güvənin» (Zəbur 4:5).

Dağılmaq üzrə olan nikahı romantik intriqalarla, narkotiklə bağlı problemi daha böyük dozalı narkotiklə, borcla bağlı problemi yeni kreditlərlə həll etmək olmaz. Axmaqlığı axmaqlıqla düzəltmək olmaz. Sən yenisini yaratmaqla xaosu yox edə bilməzsən. *Rəbbə məqbul hərəkət et.* Belə etməklə sən heç vaxt səhv etməyəcəksən.

Tomas bunu öz şəxsi təcrübəsindən öyrənib. Onun başına gələn bir çox hadisələr Yusifin hekayəsinə bənzəyir. O, 1899-cu ildə baptist pastorunun ailəsində doğulmuşdu. Onun anası məbədin pianoçusu idi. Həyatının ilk günlərindən musiqi atmosferində böyümüşdü. Tom on iki yaşına çatanda artıq afroamerika caz kompozisiyalarını çox gözəl ifa edirdi. O, gənc yaşlarından Filadelfiyaya, sonra isə Çikaqoya getmişdi. Orada gizli barlarda musiqiçilik edirdi. O, hiss etmədən imanını itirməyə başladı və vicdanını ləkələyərək gəncliyində olan məsihçi əqidəsindən imtina etdi. Tomun istedadı sayəsində bütün qapılar onun qarşısında açıq idi. Lakin vicdanı onu rahat buraxmırdı. O şəhərdən bu şəhərə saysız-hesabsız gecə səyahətləri, nəhayət, onu əldən saldı. Ailə üzvlərindən biri cavan oğlanı Rəbbə tərəf dönməyə çağırdı və o, iyirmi bir yaşında bu çağırışa cavab verdi. O, Tanrı ilə yenidən birləşdi. Sonralar bu barədə yazırdı: «Mən ağlagəlməz heyranlıq içərisindəyəm: qəlbim ilahi hüzurla dolub; Rəbbin Padşahlığında yaxşı müğənni və xidmətçi ola bilmək imkanı barədə düşünəndə ürəyim az qalır sinəmdən çıxsın»[2].

Gənc Tomas özünü tamamilə Tanrını izzətləndirən mahnılar yazmağa həsr etdi. End-blyuz ritmi səcdə və mədh təcrübəsinə daxil oldu. Nəticədə qeyri-adi ruhlandırıcı və eyni zamanda məsihçi rəqs musiqisi baxımından tamamilə yeni istiqamət yarandı. Tomas Çikaqodakı məbədlərin birində izzətləndirmə qrupunun lideri oldu. İyirmi altı yaşı olanda həyatının sevgisi ilə qarşılaşaraq evləndi, sonra isə nəşriyyat evi yaradaraq Milli məbəd xoru və ansambllarının təsisçisi oldu. Tomasa qospel-blyuzun dahi ifaçıları, o cümlədən Maxaliya Cekson-la* əməkdaşlıq etmək nəsib olmuşdu. 1932-ci il idi. Tanrının xeyir-duaları çaylar kimi Tomasın həyatına axırdı: xoşbəxt nikah, inkişaf edən xidmət, ilk övlad gözləntisi. Necə deyərlər, yaşa və şadlan.

Lakin onun böyük sürətlə hərəkət edən gəmisi qəflətən dayazlığa düşdü. . Bir axşam Saint-Louisdə auditoriya qarşısında çıxış edəndən sonra Tomasa təcili teleqram çatdırdılar. Orada yazılmışdı: «Sizin həyat yoldaşınız elə indicə vəfat etdi». O, doğuş zamanı ölmüşdü. Tomas özünü tələsik Çikaqoya evə çatdırdı. Səhəri gün onun yeni doğulmuş oğlu öldü. Musiqiçi dərin ümidsizliyə qapıldı. O, insanlardan uzaqlaşdı və Tanrıya qəzəbləndi. «Qərara aldım ki, Tanrı mənə qarşı ədalətsizlik etdiyi üçün yaxşı tanış olduğum caz dünyasına qayıdım. Daha Ona xidmət etmək və ruhani himnlər yazmaq istəmirdim»[3].

Tomas tənhalıq içərisində ümidsizliyə və qəzəbə qərq olmuşdu. Amma dostlarından biri onun nəyə ehtiyac duyduğunu yaxşı bilirdi və Toması musiqi məktəbinin yaxınlığına gətirdi. Həmin axşam günəş qürub edən vaxt Tomas fortepiano arxasında əyləşərək musiqi çalmağa və… dua etməyə başladı. O, ürəyini Tanrının qarşısında boşaltdı və həmin vaxt çox gözəl sözlər yarandı:

---

* Maxaliya Cekson (1912–1972) — dahi Amerika müğənnisi, daha çox qospel və spiriçuel janrında olan musiqilərin səsləndirilməsində iştirak etmişdir.

Əziz Tanrı,
Əlini ver ki, dayana bilim,
Mən yorğun, zəif, tənhayam,
Qaranlıqda da, şiddətli fırtınada da,
Mənə evimin yerini göstər,
Əziz Tanrı,
Əlini ver, apar məni[4*].

Həmin vaxtdan etibarən Tomas A. Dorsi bütün həyatı boyu həmin gecə fortepiano arxasında əyləşdikdə Rəbbin onun yaralanmış ürəyinə necə şəfa verməsi barədə şəhadət edirdi. O, musiqi bəstələməyə davam edərək dünyada məşhur məsihçi bəstəkarlarından biri və üç mindən artıq himnin müəllifi oldu[5].

Sən də dərhal belə et. Əzablar səni Tanrıdan uzaqlaşmağa çağırır. Rahat yollar səni özünə cəlb edir. Sirenlərin səsi səni yoldan çıxarır. Lakin sən axmaq, ya da sadəlövh uşaq kimi olma. Tanrıya məqbul hərəkət et. Nə az, nə çox. Tanrı naminə, drosselin sükanını fırlatmazdan qabaq yaxşı-yaxşı fikirləş.

---

[*] Yevqen Solovyov, 2009, E. Preslinin "Elvisin Milad albomu"ndakı mahnıların tərcüməsi.

# FƏSİL 5

# AH, BÜTÜN BUNLAR YALNIZ HAZIRLIQ İMİŞ?

1965-ci ilin noyabrın 28-də Hovard Rutlecin qırıcısını düşmən vurdu. Pilot paraşütlə düşdü və Şimali Vyetnam hərbçilərinin əlinə keçdi. O, dərhal Hanoyun həbsxanalarından biri olan «Parçalanmış ürəklərin hoteli»nə* göndərildi.

> Kameranın qapısı arxamca örtülüb paslanmış qıfıl kilidlənəndə məni hədsiz tənhalıq hissi bürüdü. Mən ölçüsü altının altıya fut (yəni təxminən 3,34 $m^2$) olan kameranın soyuq sement döşəməsinə uzandım. İnsan nəcislərinin üfunətli qoxusu burnumu yandırdı. Yanımdan kiçik pişik ölçüsündə olan iri siçan qaçdı. Divarlar, döşəmə və hətta kameranın tavanı da çirklə örtülmüşdü. Qapının yuxarısındakı, demək olar ki, tavanın lap altında olan kiçik pəncərə barmaqlıqlarla bağlanmışdı. Dartılmış əzələlərim və şişmiş oynaqlarım dözülməz dərəcədə ağrıyır və dəhşətli dərəcədə yemək istəyirdim. <…>
> Tənha həbsxananın insanı necə gücsüzləşdirməsini və sındırmasını təsvir etmək çətindir. Ayaq üstə dayanmaq və ya oturmaq, yatmaq və ya oyaq qalmaq insanı çox tez bezdirir. Kamerada kitab, kağız, karandaş, jurnal və qəzet yoxdur. Görə biləcəyiniz rəng tünd boz və çirkli qəhvəyi rəngdən ibarətdir. Günəşin çıx-

---

* “Parçalanmış ürəklərin hoteli” — Elvis Preslinin 1965-ci ildə ona şöhrət qazandırmış mahnısı.

masını və yaxud ayı, yaşıl otları və ya gülləri uzun aylar, hətta illərlə görməyə bilərsiniz. Tənhalıqda və səssizliyə məhkum olunmuş, üfunət iyləməyə məcbur edilmiş halda siz ağlınızı itirməmək üçün var gücünüzü sərf edəcəksiniz[1].

Bizlərdən çox az adam nə vaxtsa hərbi əsirlər üçün olan düşərgələrdəki dəhşətləri yaşaya bilər. Ancaq biz hamımız bu və ya digər vəziyyətdə zindana düşürük.

- Mən bu gün elektron poçt vasitəsilə bu yaxınlarda ana olmuş gənc bir qadın üçün dua ehtiyacı yazılmış məktub aldım. Ona dəri vərəmi diaqnozu qoyulmuşdu. O, müalicəsi olmayan xəstəliyin zindanına düşmüşdü.
- Dünən həyat yoldaşı depressiya ilə mübarizə aparan bir kişi ilə qəhvə içirdik. Bu kişi həyat yoldaşının xəstəliyindən həddən artıq yorulmuşdu (əllərində buxovlar) və buna görə də təqsirkarlıq hissi ona əzab verirdi (ayaqlarında buxovlar).
- Əlli il birlikdə yaşadıqdan sonra dostumun həyat yoldaşı yaddaşını itirməyə başlamışdı. O, maşının açarlarını ondan almaq və daima onun yanında olaraq qayğısını çəkmək məcburiyyətində qalmışdı. Onlar birlikdə qocalmağa ümid edirdilər. Onların bu imkanları var, amma o, həftənin hansı günü olduğunu xatırlamır.

Onların hər birində belə sual yaranır: «*Tanrı hara baxır? Nəyə görə O, belə əzabların baş verməsinə imkan verir? Bütün bunlarda məqsəd nədir?*» Heç kim verməsə də, Yusif sözsüz ki, bu sualları verirdi.

Potifarın arvadı Yusifi məftun etməklə yoldan çıxarda bilmədiyini görəndə zor gücünə onu cinsi əlaqəyə məcbur etmək istədi. Qadın onun paltarından yapışanda Yusif onun əlindən çıxaraq qaçdı və paltar qadının əlində, demək olar ki, cırıldı. Yusif kostyumunu deyil, təmiz adını qorudu. Onda Potifarın arvadı qaçan

Yusifə böhtan atdı: əri evə qayıdanda cırılmış paltarı sübut kimi göstərərək Yusifin onu təhqir etmək istədiyini söylədi. Potifar xidmətçisini zorlamaya cəhd göstərməkdə təqsirli bilərək onu zindana saldırdı. «…Yusif zindanda qaldı. Ancaq Rəbb Yusiflə idi və ona xeyirxahlıq göstərdi. O, zindanın baş nəzarətçisinin gözündə lütf tapdı» (Yaradılış 39:20–21).

Yusif müasir həbsxanaya deyil, yeməyə tullantı və içməyə üfunətli su verilən qaranlıq və nəm zirzəmiyə salınmışdı. Keşikçilər onu kameraya itələyərək qapını möhkəm çırpdılar. Yusif divara söykənərək məyusluq içərisində divarla sürüşüb döşəməyə oturdu. «…mən… zindana salınmağa layiq bir iş görməmişəm» (Yaradılış 40:15).

Potifarın evində dayanmadan zəhmət çəkən Yusif sahibinin vəziyyətini daha da yaxşılaşdırdı. Onun səyi nəticəsində evdəki işlər vaxtında tamamlanır, otaqlar diqqətlə təmizlənirdi. O, yeni həyata dözdü, Potifarın arvadının şəhvani kələklərinə təslim olmadı və nəticədə o, necə mükafatlandırıldı? Vaxtından qabaq azadlığa buraxılmağa ümid etmədən zindana salındı. Əxlaqlı davranış nə vaxtdan zindan həbsinə səbəb olur?

Cavabı bilmək istəyirsən? Yaradılış 3-də, günahın bu dünyaya daxil olmasını sənədləşdirən fəsildə təsvir edilmiş hadisələr baş verəndən bəri. Böyük pislik yer üzünə süquta uğramış mələk olan Lyusiferin surətində gəldi. Nə qədər ki «iblis nərildəyən və kimisə aşırmaq istəyən aslan kimi dolaşır» (1Peter 5:8), o, salehlərə ciddi çətinliklər yaradacaq. Paulun başına gəldiyi kimi, salehləri zindanlara saldıracaq. Yəhyanın başına gəldiyi kimi, pastorları təqib edərək sürgünə göndərəcək. Lazarın başına gəldiyi kimi, İsanın dostlarının sağlamlığını zəiflədəcək. Lakin paradoks bundan ibarətdir: iblisin səyləri həmişə əks nəticəyə gətirib çıxarır. Həbs edilmiş Paul Yeni Əhdin məktublarının müəllifi olur. Sürgünə göndərilmiş Yəhya vəhy alır və göylər barədə görüntünü təsvir edir. Lazarın qəbri isə ümumiyyətlə, Məsihin ən böyük möcüzələrindən birinin cərəyan etdiyi məkana çevrilir.

Düşünülmüş pislik böyük yaxşılığa çevrilir.

Bəlkə də sonuncu cümlə təkrar oxunduqda həddən artıq bayağı və hətta reklamlarda olduğu kimi lovğa təsir bağışlaya bilər. İnan ki, mən qəsdən etmirəm. Əlil arabasına, boş soyuducuya və yaxud xəstə ürəyə malik olan sənin üçün bayağı heç nə yoxdur. Bu problemlər dağın zirvəsinə çıxdığın zaman qarşılaşdığın şiddətli küləyə bənzəyir. Onlar heç də asan deyil.

Lakin onlar təsadüfi də deyil. Tanrı *təsadüfdən təsadüfə* idarə etmir. O, *təsadüfi* qələbələr əldə etmir. Bir gün taxtında əyləşib səhəri gün onu tərk etmir. «Rəbb Öz ürəyinin istədiyini tamamilə edənə qədər qızğın qəzəbini söndürməyəcək» (Yeremya 30:24). Düşdüyün vəziyyət səni heyrətləndirə bilər, amma Tanrını yox. O, həmin vəziyyətdən Öz məqsədini həyata keçirtmək üçün istifadə edə biləcək qədər güclüdür və bunu etməyi unutmayacaq.

Yusifin zindanda həbs olunması bunun üçün yaxşı nümunədir. Bizim nöqteyi-nəzərimizə görə Misir zindanı Yusifin həyatının üstündən yağlı bir qələm çəkdi. İblis tam səlahiyyətlə bu qələbəni qaranlıq qüvvələrin adına çıxa bilərdi. Yusifin arxasınca həbsxananın qapısı çırpılandan sonra onun işıqlı gələcəyi haqqında unutmaq olardı. İblis istədiyinə nail oldu.

Bəlkə sən buna inana bilmirsən, elə Tanrı da.

> [Yusifin] Ayaqlarını zəncirləyib əzdilər,
> Boğazına dəmir halqa keçirdilər.
> Yusifin sözü düz çıxanadək
> Rəbbin sözü onu *təmizlədi*.
>
> *Zəbur 105:18–19;* kursiv mənimdir.— *M. L.*

İblisin planlaşdırdığı pisliyi Tanrı sınağa çevirir. Müqəddəs Kitab sınağı — sınağa çəkilənin ürəyini təmizləyən və hazırlayan xarici təsirdir. Alov qiymətli metalı şlaklardan və qatqılardan təmizlədiyi kimi sınaqlar da bizim ürəyimizi bütün sünilikdən və murdarlıqdan azad edəcək. Məzmurçu belə yazıb:

Ey Allah, bizi sınaqdan keçirtdin,
Sən bizi gümüş kimi təmizləyib saflaşdırdın.
Sən bizi Öz torunla tutdun,
Kürəyimizə ağır yük qoydun.
Sən insanları başımızın üstündən keçirtdin.
Oda düşdük, suya düşdük,
Axırda bizi Sən bolluğa çıxartdın.

*Zəbur 66:10–12*

Tanrı hər gün bizi insanlar, çətinliklər və problemlər vasitəsilə sınayır. Öz şəraitin üzərində dayan və düşün. Sən onlarda bugünkü sınaqlarını görürsənmi? Uzunmüddətli yol tıxacları? Təhlükəli hava şəraiti? Oynaqlarındakı ağrıları?

Əgər problemlərə ancaq xüsusi xoşagəlməz anlaşılmazlıqlar və yaxud zərbə vuran pis hadisələr kimi baxsaq, zaman keçdikcə əsəbi və qəzəbli olmaq olar. Lakin onlara Tanrını izzətləndirən, bizdə isə ruhani yetkinlik tərbiyələndirən sınaqlar kimi baxsaq, onda onların ən əhəmiyyətsizi də məna kəsb etmiş olar.

Bir neçə gün bundan əvvəl mənim şənbə istirahətim ciddi sınağa çevrildi. Biz Denalinlə bir az mübahisə etdik. Evimizi satmaq barədə razılaşsaq da dəllal barədə ümumi dil tapa bilmədik. Mənim öz fikirlərim, həyat yoldaşımın isə öz fikirləri var idi. Biz problemi hərtərəfli müzakirə etsək də bir-birimizi əmin edə bilmədik. Bir sözlə, biz dalaşdıq və hərəmiz bir küncə çəkildik.

Məbədimizdə hər şənbə davamlı olaraq şənbə ibadətləri keçirilir. Təbliğ etmək üçün getmək vaxtı çatanda mən Denalinə ağızucu *sağ ol* deyərək, Tanrının işini yerinə yetirməyə tələsdim. «Bu problemi bir qədər sonra müzakirə edərik»,— mən həyat yoldaşıma dedim.

Lakin Tanrı mənimlə dərhal məşğul olmaq qərarına gəldi. Evimizdən məbədə qədər məsafə maşınla beş dəqiqəlik yol idi. Bu zaman ərzində Tanrı mənim vicdanımı oyatmağı bacardı. «*Sənə elə gəlmirmi ki, Mənim məbədimdə təbliğ etməmişdən qabaq sən həyat yoldaşınla barışmalı idin?*»

Bu, həyat yoldaşıma qarşı vuruşmağı davam etdirəcəyimi, yaxud onun qarşısında üzr istəyəcəyimi aydınlaşdırmağa çağıran sınaq idi. Aramızda yaranmış gərginliyə etinasız yanaşacam, yoxsa onu həll edəcəm? Sınaqılardan həmişə uğurlu çıxmağımla öyünə bilmərəm, amma bu dəfə şərəflə öhdəsindən gəldim. Xidmət başlamazdan qabaq Denalinə zəng edib tərsliyimə görə ondan üzr istədim. Sonradan həmin axşam biz dəllalla bağlı razılığa gəldik və bir daha bu mövzuya qayıtmadıq.

Hər gün növbədənkənar, bəzi vaxtlar isə buraxılış imtahanıdır. Taleyin amansız və qəfil zərbələri: stress, xəstəliklər, bədbəxtliklər. Yusiftək kimi sən də əlindən gələni edirsən, əvəzində isə eynilə onun kimi mükafat olaraq bu və ya digər formada zindan əldə edirsən. Sən soruşa bilərsən: nə üçün? Bəlkə cavab burada gizlənib? «…Bilirsiniz ki, imanınızın sınaqdan keçməsi dözüm yaradır. Dözüm də öz əməlini kamil etsin ki, siz yetkin və kamil adamlar olasınız, heç bir çatışmazlığınız olmasın» (Yaqub 1:3–4).

Yusif uşaqlıqda atasının balası idi: Yaqub hər şeydə güzəşt edərək onu həddən artıq ərköyün etmişdi. Öz arzuları və yüksək ambisiyaları ilə bölüşmək fürsətini əldən buraxmayan Yusif həddən artıq özündən razı idi. Hətta Potifarın evində də o sevilirdi, xidmətində tez yüksəldi və hamının diqqətini üzərinə çəkdi. O, uğuru, ola bilsin ki, qüruru da tez əldə edirdi. Buna görə də həbsxana onun təmizlənməsi üçün nəzərdə tutulmuşdu. Tanrı Yusifi hansı problemlərin gözlədiyini bildiyinə görə bu həbsdən Öz qulunun möhkəmlənməsi üçün istifadə etdi.

«Zindanın baş nəzarətçisi zindanda olan bütün məhbusları Yusifin ixtiyarına verdi. Orada görülən hər işə o başçılıq edirdi» (Yaradılış 39:22). «Rəhbərləri idarəetmə vərdişlərinə yiyələndirmək» təlimi barədə bir neçə söz! Yusif Potifarın evində icraçıların və səylə çalışan xidmətçilərin üzərində rəhbərlik edirdi. Zindanda isə itaətkarlığı, ehtiramlığı və yumşaqlığı ilə xüsusi fərqlənməyən insanların üzərində nəzarətçi təyin olunmuşdu. Əgər Yusif küncə çəkilib «Daha başa düşdüm. Bundan sonra

heç kimə barmağımın ucu ilə də kömək etməyəcəm» deyə deyinsəydi təəccüblənməzdim. Lakin o, şikayətlənərək deyinmədi. Əksinə, məhkumlardan ibarət kollektivə rəhbərlik etməyə hazır olduğunu nümayiş etdirdi.

Yusif onun öhdəçiliyinə buraxılan fironun saqisi ilə çörəkçiyə daha çox xeyirxahlıq göstərirdi. Günlərin bir günü səhər Yusif onların dərin kədər içərisində olduqlarını gördü. O, saqi və çörəkçinin üzlərinin ifadəsinə heç fikir verməyə də bilərdi. Axı onlardan ona nə? Onların hirsli və ya qanı qara olmaqlarının ona nə dəxli vardı? Buna baxmayaraq, Yusif onlarla maraqlandı. Bu sözlər faktiki olaraq Yusif tərəfindən zindanda deyilən sözlərin ilk yazılı sübutudur və onlar Yusifin necə qayğıkeş insan olduğunu xarakterizə edir: «Niyə bu gün üzünüz kədərlidir?» (Yaradılış 40:7). Qardaşları tərəfindən xəyanətə uğramış, köləliyə satılmış və ədalətsizcəsinə zindana salınmış Yusif həmişəki kimi insanlara qarşı diqqətli idi. Sənə elə gəlmirmi ki, şəfqət bəşəriyyəti aclıqdan xilas etmək üzrə irimiqyaslı əməliyyata tezliklə rəhbərlik edəcək bir adam üçün ən uyğun keyfiyyətdir?

Lakin Tanrının təlimi bununla da bitmədi. Hər ikisi, həm saqi, həm də çörəkçi öz yuxularına görə çox narahat idilər. Saqi yuxuda üzüm tənəyi, tənəkdə isə üç budaq görmüşdü; üzümlərdən piyaləyə şirə sıxaraq firona vermişdi. Çörəkçi isə başının üstündə üç səbət çörək olduğunu və quşların yuxarıdakı səbətdən onları yediyini görmüşdü. Onların hər ikisi yuxularını yozması üçün Yusifə müraciət etdilər. Yusif isə onların yozmasını Rəbdən aldı. Amma bu barədə onlarla bölüşmək istəyəcəkmi? Sonuncu dəfə bu cür tələskənlik nəticəsində Yusif sahibsiz quyuya düşdü. Bundan əlavə, aldığı açıqlamaların yalnız 50%-i yaxşı xəbər idi. Bu cür açıqlamanı bölüşməyə dəyərdimi? Fironun qarşısında olsaydı, Tanrının sözünü ona dəqiqliklə çatdırmağa cəsarət edərdimi? Bu, bir sınaq idi və Yusif ondan uğurla çıxdı. O, saqiyə yaxşı xəbər («üç gündən sonra firon səni öz yerinə qaytaracaq»), çörəkçiyə isə pis xəbər («üç gündən sonra firon sənin başını bədənindən

ayıracaq») verdi. Birini hər şeyi yenidən başlamaq, digərini isə edam gözləyirdi.

Sınaqlar, sınaqlar, sınaqlar… Yusifin zirzəmisi zindan kimi görünürdü, zindan kimi qoxuyurdu və zindan hesab edilirdi. Lakin mələklərdən Yusifin olduğu yerin necə adlandırıldığını soruşsan, onlar sənə xorla belə cavab verərlər: «Yusif hərbi «təlimdə» güclü hazırlıq keçirdi».

Sənin bugünkü şəraitin reabilitasiya mərkəzi kimi görünür, işsizlik qoxuyur və xəstəxana hesab edilir, ancaq mələklərdən soruşsan, belə eşidəcəksən: «Sən güclü hazırlıq keçirsən».

Tanrı səni unutmayıb. Hətta tamamilə əksinə. O səni Özünün hazırlığı üçün yararlı sayıb. Yəhudi feli olan «sınamaq», «diqqətlə baxmaq, nəzərdən keçirmək, seçmək» mənasını verən feldən yaranıb[2]. Tanrının sənin əzablarından xəbərsiz olması fikrini başından bir kənara at. Xeyr, O, sabahkı günün ehtiyaclarına baxaraq səndən gözlərini çəkmir və bugünkü günün şəraitindən sınaqlar kimi istifadə edərək səni onlara hazırlayır.

Onun belə etməyə haqqı varmı? O, Dulusçu, biz isə gilik. O, Çoban, biz isə quzularıq. O, Bağban, biz isə budaqlarıq. O, Müəllim, biz isə şagirdlərik. Onun təliminə güvən. Sən bacaracaqsan. Əgər Tanrı məhkumdan prezident yaratmağı bacardısa, sənin də «çıxılmaz» vəziyyətini xeyrinə dəyişə biləcək gücə malik olduğunu düşünmürsənmi?

Bütün sınaqların müvəqqəti olduğunu unutma. Onların ömrü qısadır. «Buna görə hal-hazırda *qısa* bir müddət cürbəcür sınaqlarda kədərə düşməyə məcbur olsanız da, hədsiz sevinirsiniz…» (1 Peter 1:6; kursiv mənimdir.— *M. L.*). Bizim yer üzündəki həyatımızın hüdudları olduğu üçün sınaqlar əbədi davam etməyəcək. «Dünənki övladlarıq… Bu dünyada ömrümüz sadəcə bir kölgədir» (Əyyub 8:9). Bəzi sınaqlar yerdə sona çatacaq, amma onların hamısı göylərdə tamamlanacaq.

Hələlik Yusifin nümunəsini izləyək. Tanrının bizi məşq etdirməsi üçün imkan verək. O, tapşırıqların öhdəsindən necə gəldiyimizi izləyir və əgər biz azda sadiq oluruqsa, O bizə daha

çoxunu etibar edəcək (bax: Matta 25:21). Fironun sarayında uğur qazanmazdan qabaq Yusif mətbəxdə və zirzəmidə özünü göstərdi. O, bütün xalqların qayğısına qalmazdan öncə saqiyə və çörəkçiyə qarşı diqqətli oldu. Əvvəlkindən daha yaxşı olan iş yaxşı əmək üçün mükafatdır. Sən böyük işlər həyata keçirməyi xəyal edirsən? Kiçik işlərdə fərqlən. Dəqiqliyini göstər. Tənbəllik etmə. Şikayətlənmə. Qoy başqaları həbsxana kamerasının küncündə deyinsinlər, ancaq sən gileylənmə. Axı Rəbbin Öz xidmətçilərini necə hazırlaması sənə məlumdur. Bugünkü məhkum sabahın baş naziri ola bilər. Buna görə də tapşırığı alan kimi yerinə yetirməyə başla.

Kiminsə əzabına şahid olanda üz çevirmə. Əgər Yusif fironun saray xidmətçilərinin üzlərindəki kədərə qarşı biganə olsaydı, nə baş verərdi? Əgər o öz ehtiyacları barədə düşünüb, başqalarınkına etinasız yanaşsaydı, necə olardı? Tanrı yenə də onu zindandan azad edərdimi? Məlum deyil. Məlum olan isə odur ki, Yusifin xeyirxah ürəyi zindanın qapılarını açdı, çünki saqi onun barəsində firona danışdı. Mərhəmətli olmaq Tanrının diqqətindən qaça bilməz. Sınaq dövrü özünə deyil, yaxınına xidmət etmək üçündür. Bəsdir özünə yazığın gəldi. Tanrının səni əhatə etdiyi insanları sev. Onlarla Tanrının nəsihəti barədə bölüş və sənin sınağın onlar üçün şəhadət olacaq. «Çəkdiyimiz hər bir əziyyətdə O bizə təsəlli verir ki, biz də Allahdan aldığımız təsəlli ilə hər cür əziyyət çəkənlərə təsəlli verə bilək» (1 Korinflilərə 1:4).

Sən təkbaşına övlad tərbiyəsi və yaxud əmək qabiliyyəti olmayan həyat yoldaşına qulluq üzrə məşqə yazılmamısan, elə deyilmi? Xeyr, Tanrı bunun qayğısına qalır. O, iblisin pis planını götürüb, onu Özünün təlim kursuna çevirib. Nə üçün? Onun sənə öyrətdiklərini başqalarına öyrədə bilməyin üçün. Sənin sınaqların onlar üçün nəsihət ola bilər.

Bob Bensonun «See You  at the House» kitabında yazdığı dialoq xoşuma gəlir. Onun dostlarının birində ürək tutması baş vermişdi. Dostu əvvəlcə onun sağ qalmayacağını düşünmüş-

dü, lakin xoşbəxtlikdən o, nəinki sağ qaldı, hətta şəfa tapdı. Onun əməliyyat olunmasından bir neçə ay sonra bu söhbət baş tutmuşdu:

— Hə, de görüm, ürək tutması necə bir şeydir?
— Mən öləcəyimi düşünürdüm.
— Yenidən onu yaşamaq istəyərdinmi?
— Xeyr!
— Kiməsə onu yaşamağı məsləhət görərdinmi?
— Əlbəttə, yox.
— Öz həyatına əvvəlkinə nisbətən daha çox dəyər verməyə başladınmı?
— Hə, əlbəttə.
— Siz Nellə həmişə əla cütlük olmusunuz. İndi daha çox yaxınlaşmısınız, elə deyilmi?
— Bəli.
— Eşitdim ki, bu yaxınlarda nəvən doğulub.
— Bəli. Onun şəklini sənə göstərmişəm?
— Sənin insanlara münasibətin dəyişibmi? Sən onlara qarşı daha mərhəmətli və diqqətli olmusanmı?
— Bəli.
— Bəlkə sən Rəbbə də düşündüyündən daha yaxın olmusan?
— Bəli.
— Hə, indi de görüm ürək tutması necə bir şeydir?[3]

«Nəyə görə, Rəbb?» soruşmaq əvəzinə «Nə üçün, Rəbb? Mən *nə* öyrənə bilərəm?» deyə soruş. «Bu gün yadda saxlayın… Onun əzəmətini, qüdrətli əlini, uzanan qolunu…» (Qanunun Təkrarı 11:2). Tanrıdan şəraiti dəyişməyini xahiş etmək əvəzinə, şəraitdən istifadə edərək səni dəyişdirməyini xahiş et. Həyat özü bir imtahandır. Bu imtahanı vermək lazımdır. Belə olduğu halda nə üçün o imtahanı uğurla verməyək?

Bunu bilib-bilməməyimizdən, istəyib-istəməməyimizdən asılı olmayaraq, Tanrı bizim hər birimizin ürəyi ilə işləyir. «Çünki ürəkdən istəyərək bəşər övladlarına əzab verməz, heç kimi kədərləndirməz» (Mərsiyələr 3:33). O bizim əzab-

larımızdan zövq almır, ancaq uğurlarımıza görə sevinir. «Əminəm ki, sizdə xeyirli işə başlayan Allah Məsih İsanın zühur edəcəyi günədək bunu başa çatdıracaq (Filipililərə 1:6). Onun üçün hər şey mümkündür. Tanrıda mümkün olmayan heç nə yoxdur. Tanrı «İsa Məsih vasitəsilə Özünə xoş olanı» (İbranilərə 13:21) sizdə icra edəcək. Böyük və ya kiçikliyindən asılı olmayaraq, istənilən problem səni gələcəklə görüşə hazırlamağa qadirdir.

Hovard Rutlec Vyetnamda hərbi əsirlər üçün düşərgədə keçirtdiyi vaxtı həddən artıq əhəmiyyətli hesab edirdi:

> Həmin uzun vaxt sayəsində mən düşünməyə məcbur idim. Vacib olanı əhəmiyyətsizdən, dəyərli olanı lazımsızdan ayırmaq mənə bir qədər asan oldu…
> Mənim ruhani aclığım tezliklə steyk və hamburgerlərə olan ehtiyacımı ötüb keçdi… Mən qəlbimin heç zaman ölməyəcək hissəsi barədə daha çox öyrənmək istədim… Mən Tanrı, İsa Məsih, Məbəd barədə danışmaq istədim… Həyatımın Tanrısız nə qədər boş olduğunu görmək üçün həbsxana lazım imiş…
> Avqustun 31-ində bu əzabın sona çatdığı iyirmi səkkizinci günün tamamında uşaqlarımın olduğunu da xatırladım. Lakin onların sayı artıq yadımda deyildi. Mən Fillis adını unutmamaq üçün dəfələrlə təkrarlayırdım. Sağ qalmağa gücümün çatması üçün dua edirdim. İyirmi səkkizinci gecə Tanrıya vəd etdim ki, əgər bu dəhşətdən sağ çıxıb evə qayıda bilsəm, elə ilk istirahət günü Fillis və uşaqlarla birlikdə məbədə gedəcəyəm və… İsa Məsihə imanımı elan edəcəyəm. Bu, sağ qalmaq xatirinə Tanrı ilə sövdələşmə deyildi. Bu, uzun aylar düşünəndən sonra Ona verilmiş vəd idi. Tanrı və imanlılarla ünsiyyətin mənim üçün nə qədər vacib olduğunu başa düşməkdən ötrü həbsxana və əzabverici şübhələrlə dolu saatlar lazım imiş. Tanrıya söz verəndən sonra səhərə qədər sağ qala bilmək üçün qüvvətlənməyimə görə yenidən dua etdim.
> Həbsxana kamerasının qapısı arasından içəri zəif işıq düşəndə, Tanrıya Onun mərhəməti üçün minnətdarlığımı bildirdim[4].

Həyatındakı çətinliklərə maneə kimi baxma, onlara səni həyata hazırlayan vasitə kimi bax. Heç kim sənin həyat yolunun rahat olacağını vəd etməyib, lakin Tanrı mütləq bu xaosu dəyərli bir şeyə çevirəcək. «Sizin problemləriniz cəza deyil, uşaqlar üçün adi təcrübə olan *tərbiyədir*... Tanrı bizi Özünün müqəddəsliyində olan həyata hazırlayaraq xeyrimiz üçün *tərbiyələndirir*» (İbranilərə 12:8, 10 MSG*).

* MSG, yaxud The Message,— Yucin Petersonun həyata keçirtdiyi Müqəddəs Kitabın müasir tərcüməsi. Maks Lukado bu yerdə ona istinad edib. Bu parçanın sinodal tərcüməsi: "Əgər ümumi olan cəzadan kənarda qalırsınızsa, siz oğullar deyil, qanunsuz övladlarsınız. <...> Onlar bizi öz istədiklərinə uyğun olaraq bəzi günlər üçün; O isə — Onun müqəddəsliyində iştirak edə bilməyimizə görə fayda üçün cəzalandırır".

# FƏSİL 6

# TANRI HƏRƏKƏT EDƏNDƏ, SƏN DAYAN

Budur, mən klinikalardan birinin gözləmə zalında əyləşmişəm. Qeydiyyat aparan qız mənim adımı soruşdu, sığorta vəsiqəmin nömrəsini qeyd etdi və əyləşmək üçün stul göstərdi:

— Xahiş edirəm, əyləşin. Həkim boş olan kimi biz sizi çağıracağıq.

Mən ətrafa göz gəzdirdim. Bir qadın körpəsini qucağında yatızdırırdı. Kostyum geyinmiş cavan adam «Time» jurnalını vərəqləyirdi. Əlində qəzet tutmuş qadın saatına baxaraq köks ötürür və orada olanların hamısının etdiyini edirdi, yəni gözləyirdi.

Gözləmə zalı xəstələrin qəbul otağı və müayinə yeri deyil. Əslində bura bir divarı boyunca cərgə ilə kreslolar düzülmüş xəstəxana zalıdır. Bura həkim otağı deyil. Müayinə, diaqnostika və müalicə — biz bütün bunları gözləməliyik.

Bu məkanın təyinatı onun adından bəlli olur: gözləmə zalı. Burada olanlar öz tapşırıqlarını yaxşı başa düşürlər: gözləmək. Biz bir-birimizi müalicə etmirik. Tibb bacılarından mənə stetoskop və yaxud tonometr vermələrini xahiş etmirəm. Stulumu əlində qəzet tutan qadına yaxınlaşdırıb ona canıyananlıqla belə suallar vermirəm: «Əzizim, deyin görüm, siz hansı dərmanları qəbul edirsiniz?» Bu, tibb bacısının vəzifəsidir, mənim vəzifəm isə gözləməkdir. Mən də bunu edirəm.

Gözləməkdən zövq aldığımı deyə bilmərəm, çünki nəyisə gözləyəndə vaxt keçdikcə qəribə metamorfozlar baş verir: bir dəqiqə bir saat kimi uzun gəlir. Saatın saniyəni göstərən əqrəbi, sanki qəsdən siferblata yapışır və öz adi məsafəsini qət etməyə saniyə deyil, beş dəqiqə sərf edirsən. Elə təəssürat yaranır ki, kimsə fasilə düyməsini basaraq həyatı yavaş hərəkət rejiminə salıb. Gözləməyi heç sevmirik. Biz «Tez elə!» şüarı ilə yaşayan nəsilik. Məqsədə tez çatmaq ümidi ilə o cərgədən bu cərgəyə keçərək yollarda vurnuxmaq bizim həyat tərzimizdir. On bir ədəd əşya alan birinin on ədəd əşya alana xidmət göstərən kassanın yanından sivişib keçmək istəməsinə qaşqabaqla baxmaq da bizim həyat tərzimizdir. iPhone telefonumuza musiqi yüklənənə və yaxud mikrodalğalı sobada qəhvə istilənə qədər barmaqlarımızla stola döyəcləyirik. «Tez elə!» Biz otuz dəqiqə ərzində möhkəm əzələlərə sahib olmaq, otuz saniyə ərzində isə tez hazırlanan düyü istəyirik. Biz növbələrdə, həkimin qəbulunda, yol tıxaclarında, pizza çatdırılmasında gözləməyi sevmirik.

Bəs Tanrını necə?

Ey, bir dəqiqə! Bir ətrafına nəzər sal. Harada olduğumuzu başa düşürsən? Bu planet — Tanrının gözləmə zalıdır.

Bax, o gənc ər-arvadı görürsən? Onlar övlad dünyaya gətirməyi arzulayırlar. Bəs o portfelli oğlanı? O özünün CV-sini bütün ölkəyə göndərib və iş təklifi gözləyir. Bəs o əsalı yaşlı qadının nə gözlədiyini soruş. Artıq bir ildir ki, dul qalıb. O, göz yaşlarsız keçən bircə gün istəyir. Gözləmək… Biz Tanrının nə vaxt verəcəyini, kömək edəcəyini, sağaldacağını gözləyirik. Onun nə vaxt gələcəyini gözləyirik. Biz gözləmə ərazisində edilən dua ilə cavabı alınan dua arasındakı ərazidə məskən salmışıq.

Əgər Tanrının qəbul otağındakı mebellərlə tanış olan biri varsa, o da Yusifdir. Onun Yaradılış kitabında yazılmış hekayəsini oxumağa bir saatdan da az vaxt sərf edən bizdən fərqli olaraq, o, orada saatlar deyil, illər keçirib. Oxumağımız bir neçə on illiklər ərzində davam etsə, bu Müqəddəs Kitab ayəsinə başqa cür baxacağımıza əminəm.

37-ci fəsildən başlayaq. Lakin onu evdə rahat kresloda əyləşərək deyil, qızmar günəş altında sahibsiz bir quyunun kənarında əyləşib oxuyaq. Bundan sonra bir neçə ay ərzində dayanmadan 39-cu fəslin birinci ayəsini təkrar edəcəyik: «Yusif Misirə aparıldı». Dotan şəhərindən Fiva şəhərinə qədər olan 750 mil məsafəni qət etmək üçün Yusifə məhz bu qədər vaxt lazım olduğunu düşünürəm.

Sonra o, bütün günü, bəlkə də bir neçə gün, hətta ola bilsin aylarla qul hərracında əldən düşmüşdü. Buraya təxmini olaraq Potifarın evində xidmətçilərin rəisi vəzifəsində çalışdığı, sahibinin tapşırıqlarını yerinə yetirdiyi və Misir dilini öyrəndiyi on ili də əlavə edin. Tık-tık. Tık-tık. Tık-tık. Qürbətdə vaxt gec gedir.

Zindanda isə o, tamamilə dayanır.

Nəhayət, Yusif saqidən onun barəsində yalvarmasını xahiş etdi. «Ancaq sənin vəziyyətin yaxşılaşanda məni yadına sal və xeyirxahlıq göstər. Haqqımda firona danışıb məni bu yerdən çıxart. Doğrudan da, mən… zindana salınmağa layiq bir iş görməmişəm» (Yaradılış 40:14–15).

Biz saqinin cavabından artıq sevinirik: «Əlbəttə, mən elə ilk fürsətdən sənin haqqında firona danışacam. Bax görərsən, sən tezliklə buradan çıxacaqsan». Yusif öz kamerasına qaçaraq tələsik əşyalarını toplayır. O, çağırılarkən hazır olmaq istəyir. Bir gün keçir. İki gün. Bir həftə… Bir ay… Altı ay… Səssizlik. Sonradan aydın olur ki, «…baş saqi Yusifi yada salmadı və onu unutdu» (23-cü ayə).

Müqəddəs Kitabda bu ayəni sonuncudan ayıran məsafə bir neçə santimetrdən çox deyil, oxucunun nəzərləri onun üzərində yarım saniyə də dayanmır. Lakin Yusifin həyatındakı bu xırda məsafə iki il çəkdi. 41-ci fəsil bu sözlərlə başlayır: «İki il keçəndən sonra firon belə bir yuxu gördü» (1-ci ayə).

İki il! İyirmi dörd ay səssizlik. Yüz dörd həftə gözləmək. Yeddi yüz otuz gün naməlum vəziyyətdə əzab çəkmək. Eyni horradan iki min yüz doxsan dəfə səhər yeməyi, nahar və şam

yeməyi. On yeddi min beş yüz iyirmi saat Tanrını eşitmək üçün nəticəsiz cəhdlər. Yenə də səssizlikdən savayı heç nə yoxdur.

Qəddarlaşmaq, ədəbsizləşmək və sərtləşmək üçün kifayət qədər vaxt var idi. Nə qədər insan daha qeyri-ciddi səbəblər üzündən və daha az müddət ərzində Tanrıdan üz çevirib.

Lakin Yusif bunu etmədi. Minlərlə adi günlərdən biri kimi başlayan bir gün o, zirzəminin girişində səs-küy eşitdi. Kimlərsə yüksək səslə səbirsizcəsinə göstəriş verirdi: «Sənin yəhudini buradan aparmaq üçün gəlmişik! Firon yəhudini görmək istəyir!» Yusif öz küncündən boylandı və onun yanına tələsən zindan rəisini gördü. Onun üzü tabaşir kimi ağappaq idi. Rəis zil səslə qışqırdı: «Cəld qalx! Tələs!» Onun ardınca iki saray keşikçisi gəlmişdi. Yusif onları Potifarın evində xidmət etdiyi o uzaq dövrdən xatırlayırdı. Onlar məhbusun əlindən tutaraq onu zirzəmidən çıxartdılar. Keşikçi dəstəsinin nəzarəti ilə sarayın ərazisinə daxil olanda, günəşin parıltısından onun gözləri qamaşdı. Burada onu dərhal saray xidmətçiləri mühasirəyə aldılar. Onlardan bəziləri onun əynindəki çirkli cindır paltarları çıxartdı, bəziləri onu çimizdirdilər, bəziləri isə saqqalını qırxdılar. Yenidən onun ardınca gələn mühafizəçilər ağ paltar və yeni sandal geyinmiş Yusifi taxt-tac zalına apardılar.

Bir sözlə, Yusif fironun qəbuluna düşmək şərəfinə nail olmuşdu.

Misirin hakimi axşam pis yatmışdı. Həyəcanlı yuxular onun rahatlığını pozmuşdu. Elə həmin vaxt o, Yusifin bacarığı barədə eşitmişdi.

— Deyirlər ki, sən yaxşı yuxu yozursan. Mənim müdriklərim balıq kimi laldırlar. Sən mənə kömək edə bilərsənmi?

Yusifin əvvəlki iki tanışlığı yaxşı qurtarmamışdı: Potifarın arvadı tərəfindən ona böhtan atılmışdı və saqi tərəfindən unudulmuşdu. Hər iki təsadüfdə Yusif Tanrının adını xatırlatmışdı. Bəlkə bu dəfə özünü sığortalayıb imanı barədə susması daha yaxşı olardı?

Amma o, bunu etmədi. Yusif firona cavab verdi: «Bu, məndən deyil, Allah fironun xeyrinə cavab verəcək» (Yaradılış 41:16).

Yusif Tanrı ilə münasibətlərini dərinləşdirərək zindanı tərk etdi. Həbsdə keçən müddət onun imanını sarsıtmadı, əksinə daha da dərinləşdirdi.

Bunu sənin barəndə də demək olarmı? Ola bilsin ki, sən zindanda deyilsən, lakin son*suz*, müdafiə*siz*, tanın*ma*yan, iş*siz*, güc*süz*, kömək*siz*, ev*siz* və yaxud ailə*siz* birisən. Sən Tanrının gözləmə zalındasan? Əgər bu, belədirsə, sən nə etməli olduğunu bilməlisən: *nə qədər ki, sən gözləyirsən, Tanrı hərəkət edir*.

İsa Məsih dedi: «Atam indiyə qədər iş görür» (Yəhya 5:17). Tanrı heç vaxt əllərini sallayaraq oturmur. O, heç vaxt fəaliyyətini dayandırmır və məzuniyyətə getmir. Bəli, O, yaradılışın yeddinci günü istirahət etdi, lakin səkkizinci gün işə qayıtdı və o vaxtdan etibarən işindən uzaqlaşmayıb. Əgər sənin heç bir məşğuliyyətin yoxdursa, Tanrının da belə olduğunu düşünmə.

40-cı fəsildə Yusifin hadisələrinin ləngidiyini düşünmək olar. Qəhrəmanımızın əllərini qandalladılar. Vaqon relsdən çıxdı. Sanki hadisələr gözləmə rejiminə keçmişdi. Amma Yusifin gözlədiyi müddətdə Tanrı hərəkət edirdi. O, iştirak edən surətləri toplayaraq gələcək səhnə mizanının* rejissorluğunu edirdi: saqiyə Yusifin qayğısına qalmağı tapşırırdı; fironu qəribə yuxularla çaşdırmışdı; onun sehrbazlarını və müdriklərini karıxdırmışdı; hər şey hazır olandan sonra Yusifi ön səhnəyə çıxartdı.

Tanrı səninlə də eyni cür hərəkət edir. Tanrının gözləmə zalının divarlarını bəzəyən şüarlarda bu sözləri oxuyuruq: «Dayanın və dərk edin ki, Mən Rəbbəm…»[1]. Sevin, çünki Tanrı xeyirxahdır. Narahat olma, çünki O yatmır. Rahat otur, çünki Rəbb hərəkət edir.

Tanrının Musa vasitəsilə israillilərə dediyi sözü xatırlayırsanmı? «Qorxmayın! Durun, Rəbbin bu gün sizi necə xilas edəcəyinə baxın… Sakit olun, Rəbb sizin üçün döyüşəcək! (Çıxış 14:13–14). Bu söz İsrail xalqına onların qarşılarında

* Səhnə mizanı — tamaşa zamanı aktyorların səhnədə yerləşməsi.— *Redakt. qeydi*

Qırmızı dənizin dalğaları, arxalarında isə onlara çatmaqda olan misirlilərin arabalarının gurultusu eşidiləndə deyilmişdi. Ölüm iki tərəfdən onları təhdid edirdi. *Belə bir vaxtda sakit olmaq? Sən zarafat edirsən?* Keçmiş qulların görə bilmədikləri bunlar idi: Tanrının əli onlar üçün dənizin dibindən yol açdı və Onun səmadan gələn nəfəsi sayəsində dənizin suları aralandı. Tanrı onların xilası üçün hərəkət edirdi.

Tanrı İsa Məsihin anası Məryəm üçün də hərəkət edirdi. Mələk ona hamilə qalacağı barədə xəbərdarlıq etdi. Bu xəbər onun qəlbində təlatüm yaratdı. Bu necə mümkün ola bilər? İnsanlar nə fikirləşəcək? Bəs Yusif nə deyəcək? Bununla yanaşı, Tanrı onun xeyrinə çalışırdı: Öz məqsədi barədə onun nişanlısı Yusifə məlumat verdi; sezarın ağlına əhalini siyahıya almaq fikrini saldı; gənc ailəni Bet-Lexemə apardı. «Biz bilirik ki, hər şey birlikdə Allahı sevənlərin… xeyrinə işləyir» (Romalılara 8:28).

Müqəddəs Kitab dilində gözləmək hadisələrin gedişatının daha pis variantını fikirləşmək, narahat olmaq, tələblər irəli sürmək və yaxud hər şeyi idarə etmək demək deyil. Lakin gözləmək hərəkətsizlik də deyil. Müqəddəs Kitaba əsasən gözləmək — fikrini Tanrıya cəmləşdirib kömək edən *dua və iman* vasitəsilə səy göstərməkdir. Gözləmək — «yolunu Rəbbə verib, Ona güvənmək» (Zəbur 37:5-ə bax; kursiv mənimdir — *M. L*) deməkdir.

Nehemya bunu necə etmək lazım olduğunu bizə öyrədir. Onun kitabı Yerusəlim divarlarının bərpa olunmasına sərf edilən səylər barədə memuarlardan ibarətdir. Bir görüş onun təsvir etdiyi hadisələr barədə qabaqcadan xəbərdarlıq edir. «Mən iyirminci ildə Kislev ayında Şuşan qalasında olarkən qardaşlarımdan biri Xanani və Yəhudadan bəzi adamlar gəldi» (Nehemya 1:1–2). Onlar pis xəbərlər gətirmişdilər: düşmənlər bir zamanlar müqəddəs şəhəri qoruyan divarı yerlə yeksan etmişdilər. Hətta onun darvazaları da yandırılmışdı. Az sayda sağ qalan yəhudilər isə «böyük məşəqqət və xəcalət içində yaşayır»dılar (Nehemya 1:1–2).

Nehemyanın bədbəxtliklərə necə reaksiya verməsinə diqqət edin: o, dua edirdi. «Ya Xudavənd, yalvarıram, bu qulunun

duasına və Sənin adına ehtiram etməkdən zövq alan qullarının duasına diqqətlə qulaq as! Yalvarıram, bu gün qulunun işini uğurlu et, qoy padşahın gözündə lütf tapsın» (11-ci ayə).

Nehemyanın gözündə lütf tapmaq üçün dua etdiyi padşah Fars hökmdarı Artaxşasta idi. Həftənin bütün yeddi günü, sutkanın iyirmi dörd saatı Nehemya onun şəxsi saqisi idi. Buna görə də, o öz vəzifəsini tərk edərək Yerusəlimə gedə bilməzdi. Lakin o, hətta bunu edə bilsəydi də müdafiə qalasını bərpa etməyə vəsaiti yox idi. Buna görə də duada Rəbbi gözləməyi qərara aldı.

2-ci fəslin 1-ci ayəsində onun gözləntisinin nə qədər davam etdiyi göstərilir: «Nisan ayı idi». Nehemya padşah komitəsindən Yerusəlimin bərpa olunması işi üçün vəzifə aldı. O, nə qədər gözlədi? Dörd ay. Lakin əgər siz xatırlayırsınızsa, Nehemya göylərdən təcili kömək istəmişdi: «bu gün qulunun işini uğurlu et…». Tanrı Nehemyanın duasına dörd ay sonra (!) cavab verdi.

Gözləmək barədə oxumaq onu təcrübədən keçirməkdən daha asandır. Mənim üçün gözləmək asan iş deyil. Mən bütün həyatım boyu tələskən olmuşam. Məktəbə tələsərək ev tapşırıqlarını sona çatdırmağa çalışırdım. Velosipedlə ötüşməyi sevirdim. Bu vərdişimi tərgitməmiş sükan arxasında əyləşdim. Hətta saatı da qolumu fırlatmağa yarım saniyə artıq vaxt sərf etməmək üçün qolumun iç tərəfinə (siferblatı içəriyə tərəf) taxmağa alışmışdım. Bu nə ağılsızlıqdır! Maraqlıdır, görəsən, mən Tanrının Əhdi-Ətiqdəki iyirmi dörd saat həyat ritmini ləngidən əmrini — müqəddəs istirahət günü olan şənbəyə riayət etməyi bacarardımmı? Şənbə əmri, sanki «sən dayansan bütün dünya dayanmayacaq» fikrini hər həftə xatırlamalı olan mənim kimi dəlilər üçün verilmişdi!

Bəs bu əmr sənin üçün necədir? «İldə üç dəfə sizin bütün kişiləriniz Sahibləri İsrailin Allahı Rəbbin hüzuruna gəlsinlər. Çünki Mən sizin qarşınızdan millətləri qovub sərhədlərinizi elə genişləndirəcəyəm ki, siz ildə üç dəfə öz Allahınız Rəbbin hüzurunda görünmək üçün gələndə heç kəs sizin torpağınıza tamah salmasın» (Çıxış 34:23–24). Tanrı vəd olunmuş Torpağın bütün kişilərinə ildə üç dəfə bütün işlərini təxirə salaraq ibadətə

toplaşmağı əmr etmişdi. Bütün sənaye və ticarət, həmçinin təhsil və dövlət müəssisələri ümumi toplantı zamanı öz qaynar fəaliyyətlərini dayandırırdılar. Bu gün buna bənzər nəsə təsəvvür edə bilərsənmi? Ölkəmiz tamamilə müdafiəsiz qalardımı?

Ancaq Tanrı heç kim hücum etməsin deyə İsrail torpağını müdafiə edəcəyinə söz vermişdi. Bundan əlavə, hətta heç kimin bu barədə düşünə bilməyəcəyini vəd etmişdi («Heç kim sənin torpağını arzulamayacaq»). Seçilmiş xalqın bu qaydanı mənimsəməsi üçün Rəbb zəvvarlıq təcrübəsini təsis etdi: «Əgər siz Məni gözləməyi, Mənə güvənməyi öyrənsəniz, Mən də sizin qayğınıza qalacağam».

Daniel də belə etdi. Müqəddəs Kitabda ən dramatik gözləmə nümunələrindən biri kimi Əhdi-Ətiq peyğəmbəri olan Danielin duasını göstərmək olar. Onun fikri uzun müddət ərzində yalnız Tanrıya yönəlmişdi. Onun həmvətənləri təxminən yetmiş il əsarətdə qalmışdılar. Daniel onların xatirinə dua yükünü öz üzərinə götürərək iyirmi bir gün ətdən, dadlı təamlardan və şərabdan özünü məhrum etmişdi. O, əsl mücahid kimi əzab çəkən xalqı üçün Tanrının önündə səylə vəsatət etmişdi.

Səssizlik.

Ancaq iyirmi ikinci gün ruhani çevriliş baş verdi. Rəbbin mələyi Danielə zahir olaraq uzun müddət görünə bilməməsinin səbəbini açıqladı. Danielin duası elə ilk gün eşidilmişdi və mələk ona cavab gətirmək üçün göndərilmişdi.

«Qorxma, Daniel! Dərrakə qazanmağa meyl edib, Allahın önündə özünü aşağı tutmağı qərara aldığın üçün ilk gündən sözlərin eşidildi və mən sənin sözlərinə görə gəldim. Lakin Fars ölkəsinin hamisi olan mələk iyirmi bir gün mənə qarşı dayandı. O zaman baş mələklərdən biri olan Mikael köməyimə gəldi, çünki mən orada Fars ölkəsinin hamisi olan mələklə birgə qalmışdım» (Daniel 10:12–13).

Cismani nöqteyi-nəzərdən bütün bu vaxt ərzində heç nə baş verməmişdi. Danielin duaları sanki quru torpağa düşürdü. Amma hadisələrə ruhani tərəfdən baxsaq, biz göylərdə baş verən qızğın

döyüşün şahidi olarıq. İki mələk üç həftə ərzində şiddətli mübarizə aparmışdılar. Danielin gözlədiyi vaxt Tanrı hərəkət etmişdi.

Əgər Daniel dua etməyi dayandırsaydı, nə baş verərdi? İmanını itirərdi? Tanrıdan üz çevirərdi?

Belə soruşmaq daha düzgün olardı: sən dua etməyi saxlasan, nə baş verər? İmanını itirərdin? Tanrıdan üz çevirərdin?

Yalvarıram sizə, heç vaxt belə etməyin! Göylərin bütün ordusu sənin üçün vuruşur! Elə bu anın özündə də səndən yuxarıda və sənin ətrafında Tanrının elçiləri gözlə görünməyən döyüş aparırlar.

Gözləməkdə davam et.

…Rəbbə ümid bağlayanlarsa
Yeni qüvvət alar,
Qanad açıb qartal kimi yüksəklərə uçar,
Qaçanda taqətdən düşməzlər,
Yol gedib yorulmazlar.

*Yeşaya 40:31*

Sona qədər getmək üçün gücünü və qətiyyətini cəmlə. Tanrıdan zövq al və O sənin qəlbinə rahatlıq verəcək.

Gözləmə zalında nə qədər oturmağından asılı olmayaraq, sən öhdəsindən yaxşı gələrsən. Səbirli ol və səni möhtəşəm sürpriz gözləyir. Baş Həkim Öz otağından çıxıb sənə yaxınlaşacaq və belə deyəcək: «Unutma, nə qədər ki, sən gözləyirsən, Mən yanındayam». Hər həkim bunu edə bilmir, lakin sənin həkimin bacarır. Axı O, qüdrətli Şəfaverəndir.

# FƏSİL 7

# YELLƏNƏN KLOUN

Uşaqlıq xatirələrimi ən xırda detallarına kimi çatdıra bilməyəcəyimdən ehtiyat edirəm. Çünki doğum günü barəsində danışacağım uşağın adını unutmuşam. O vaxt neçə yaşım olduğunu xatırlamıram. Şəkillərə baxanda təxminən səkkiz vermək olar. Nə oynadığımızı da xatırlamıram. Dəvət edilmiş digər qonaqların adlarını xatırlamaq barədə danışmağa dəyməz. Lakin bir xatirə yaddaşıma həkk olunub: yellənən kloun oyuncağı.

Bu, hava ilə doldurulmuş ağıldan kəm formasında olan armudvari rezin kloun idi. O mənim çiynimdən idi. Onun üzü və qulaqları, bədəninə kip yapışmış əlləri də rənglənmişdi. Klounun basanda musiqi səsləri çıxaran düyməsi yox idi, ipin ucundakı halqanı çəkəndə sözlər də söyləmirdi. Onda xüsusi heç nə yox idi. Yalnız bircə xüsusiyyəti var idi: hər nokautdan sonra dərhal qalxırdı.

İstənilən zərbədən sonra o, bir az yellənərək dərhal şaquli vəziyyətdə dayanırdı. Onu ağacla vurun, burnundan itələyin və ya təpiklə qarnına ilişdirin, qısa müddətə yıxılacaq. Bayrama toplaşan uşaqlar klounu yerə sərmək üçün hər dəfə daha güclü olmaq şərtilə dalbadal zərbələr vuraraq dəridən-qabıqdan çıxdılar. Amma heç birimiz klounu nokaut edə bilmədik. O, 1969-cu illərin dünya miqyaslı seriyasındakı «Mets» dən daha

tez qalxırdı. O, güclü idi, hava ilə dolu idi. O, nə kənara çəkilə bilirdi, nə də müdafiə olunurdu. O bizi öz gözəlliyi ilə əsir almağa və yaxud güclü ağlı ilə tərk-silah etməyə çalışmırdı. O, ağzı qırmızı, kəkilləri isə sarı rəngə boyanmış adi kloun idi. Bütün bunlara baxmayaraq, onda ayaq üstə möhkəm dayana bilmək üçün nə isə var idi.

Onun sirrinin nədə olduğunu bilmək istəyirsənmi? Axı dünya bizi durmadan zərbə yağışına tutur: sağ zərbə — tərk edilmək, sərt şillə — yaxınlarını itirmək. Düşmən qurşaqdan aşağı vurmaqdan utanmır. Başımıza yağan bədbəxtliklər bizi sarsıdır. Həyat deyil, yumruq davasıdır.

Bəziləri çənəyə vurulan belə zərbədən sonra heç zaman qalxmır və döyülmüş, qəzəblənmiş, üzgün vəziyyətdə qalırlar. Tamamilə nokaut vəziyyətində. Bəziləri bir almanın yarısı kimi yellənən klouna bənzəyirlər. Məsələn, Yusif.

Gənc Yusif sadəcə yeriyən pinyata* oyuncağı kimi idi. Onu köləliyə satan qardaşlarının mənfur paxıllığı, həbsə girməsinə səbəb olan Potifarın arvadının alçaq yalanı, həbsinin iki il uzanmasına səbəb olan saqinin pozduğu vəd. Yusif sarsıldı, lakin yıxılmadı. («Rokki» filmindəki musiqi səslənir.) O, Tanrının gücü ilə ayağa qalxdı, fironun sarayında əvvəlkindən də möhkəm oldu.

Firon Misirin yeganə hökmdarı idi — nazirlər kabineti də özü idi, parlament də. Onun dediyi söz şərtsiz yerinə yetirilirdi. Onun verdiyi əmr dərhal qanuna çevrilirdi. Onun otağına daxil olan hər kəs təzim edirdi. Ancaq həmin gün firon özünü ilahi varlıq kimi hiss etmirdi.

Qurşaqdan yuxarı lüt, iri çənəli, sinəsinin əzələləri bir qədər boşalmış, amma orta yaşlı monarx üçün kifayət qədər möhkəm görünən adi firon təsəvvür edək. Çiyinlərində boyunbağı-yaxa,

---

* Pinyata (isp. Piñata) — ornamentlə və başqa bəzəklərlə papye-maşedən və ya yüngül sarğı kağızından düzəldilmiş içi boş böyük meksika oyuncağıdır. Həmin oyuncaq heyvan (adətən, at) və ya həndəsi fiqurlar şəkilində təsvir olunaraq içi uşaqlar üçün müxtəlif şirniyatlarla, yaxud sürprizlərlə doldurulur.

başında körüklənmiş kobra başlıqla haşiyələnmiş konusvari tac. Çənəsinə hörük formasında olan süni saqqal yapışdırılmışdı. Üst və alt qapaqlara çəkilmiş boya vasitəsilə gözləri badamvari formaya salınmışdı. O, bir əlində hökmdarlıq əsasını tutmuş, digər əlini çənəsinə dirəmişdi. Qullar yelpiklə onu yelləyirdilər. Stolun üstündə əl çatacaq qədər yaxınlıqda əncir və qozla dolu qab var. Lakin firon ac deyil. Q, qaşlarını çataraq oturmuşdu. Onun əyanları həyəcanlıdırlar və pıçıltı ilə danışırlar. Fironun əhvalı yaxşı olmayanda, hamı çox ehtiyatlı olur.

Firon gecəyarısı ona yatmağa imkan verməyən yuxulara görə narahat idi. O, əvvəlcə yuxuda Nil çayından çıxan və sahildəki otlaqda otlayan inəklər gördü. Onlardan yeddisi «Chick-Fil-A»* şəbəkə restoranlarının reklamlarındakı sağlam və kök inəklərə bənzəyirdi. Yüksək səviyyəli bu inəklər otlamaqla məşğul olarkən arxadan yeddi inək çıxdı və onları uddu. Firon yatağından sıçrayaraq qalxdı və onu soyuq tər basdı.

Bir neçə dəqiqədən sonra o, bir qədər sakitləşdi və yenidən mürgülədi. Ancaq ikinci yuxu da beləcə həyəcanlı oldu. Yeddi dolu və yaxşı sünbülü yeddi quru və cılız sünbül uddu. Qorxulu nəyinsə yeddi nümayəndəsi gözəl nəyinsə yeddi nümayəndəsini məhv etdiyi iki oxşar yuxu gördü.

Firon əhvalı pozulmuş və kədərli vəziyyətdə yuxudan oyandı. O, məsləhətçiləri çağırıb onun yuxusunu yozmalarını, inəkləri udan inəklərin və sünbülləri udan sünbüllərin mənasının nə olduğunu izah etmələrini tələb etdi. Sizcə, mənasız deyilmi? Lakin onun məsləhətçiləri cavab tapa bilmədilər, çünki özləri firondan az karıxmamışdılar. Elə bu zaman saqi zindanda tanış olduğu Yusifi xatırladı və yuxuları yozmağı bacaran yəhudi gənc haqqında firona danışmağa tələsdi. Firon çırtma çaldı və iş qızışdı. Yusif çimizdirildi və Misirin hökmdarının qarşısına

* «Chick-Fil-A» — toyuqdan hazırlanan yeməklər üzrə ixtisaslaşan ayaqüstü qidalanma restoranlarının ən böyük şəbəkələrindən biridir. "Eat Mor Chikin"in ("daha çox toyuq ye") şəbəkə reklamında ətli-canlı inəklər müştərilərdən toyuq yeməyi xahiş edirlər.

çıxardıldı. Kulminasiya anında Yaqubun sevimli oğlu fironun taxt-tac zalına daxil oldu.

İşə bir bax! Firon ali hökmdar, Yusif isə keçmiş çobandır. Firon paytaxt sakini, Yusif isə ucqar kənd sakinidir. Firon sarayda həyatdan zövq alır, Yusif isə barmaqlıqlar arxasında illər keçirtmişdi. Fironun qollarını qızıl qolbaqlar, Yusifin biləklərini isə qandalların göyərtdiyi izlər bəzəyirdi. Firon ordulara göstəriş verirdi və piramidalar ucaldırdı; Yusifin öyünə biləcəyi yalnız kimdənsə borc götürülən paltarı və əcnəbi ləhcəsi idi.

Lakin bizim keçmiş məhbusumuz karıxmadı. Fironu dinlədikdən sonra o, kömək üçün məsləhətçilərin yanına qaçmadan və yaxud qəhvə ilə fala baxmadan birbaşa mətləbə keçdi. Onun qarşısında qoyulan tapşırıq Harvard universitetində dərs verən müəlliminin vurma cədvəlini tapması kimi bir iş idi. «Misiri yeddi il çiçəklənmə, yeddi il isə aclıq gözləyir».

Firon da daxil olmaqla oradakılar eşitdiklərinə necə reaksiya verəcəklərini bilmirdi. Misirlilərin leksikasında «aclıq» sözü az qala söyüş kimi səslənirdi. Ölkənin iqtisadi inkişafı avtomobil nəqliyyatı və yüngül sənaye sahələrinə deyil, tamamilə əkinçiliyə əsaslanırdı. Buğda istehsalı Misiri Nilin mirvarisi, onun hökmdarını isə sivilizasiya aləminin ən nüfuzlu adamı etmişdi. Hətta bir aylıq quraqlıq ölkənin iqtisadiyyatı üçün təhlükə idi. Bütün il ərzində məhsulun olmaması Nil boyu uzanan kənd təsərrüfatı sahələrinin vahid sahibkarı olan fironun hakimiyyətini əsaslı surətdə sarsıda bilərdi. Yeddi illik quraqlıq Nili kiçik çaya çevirər, buğda sahələrini isə qurudardı. Firona görə aclıq, neft şeyxləri üçün elektromobillərin külli miqdarda istehsalının dayandırılmasına bərabər idi. Bir sözlə, Apokalipsis!

Taxt-tac zalında elə dərin sükut var idi ki, hətta hörümçək toruna ilişmiş milçəyin də vızıltısı eşidilirdi. Yusif uzanan sükutdan heç də karıxmayaraq oraya toplaşanların qarşısında bu problemin mümkün yollarını elan etdi. «İlk növbədə kənd təsərrüfatı nazirliyi təsis etmək lazımdır. Sonra isə oraya rəhbər kimi elə bacarıqlı adam təyin etmək lazımdır ki, bol buğda olan illər

ərzində artıq qalan buğdanı anbara yığdırsın və qıtlıq vaxtı onu ehtiyacı olanlar arasında bölüşdürsün».

Yusifin bu sırtıqlığından saray məmurları karıxmış vəziyyətdə ağızları açıq qalmışdı. Firona pis xəbər çatdırmaq azmış kimi üstəlik məsləhət də vermək. Özü də heç kimin məsləhət istəmədiyi bir vaxtda. Lakin bu gənc saraya daxil olduğu andan qorxmaq barədə düşünmədi. O, firona yaltaqlanmadı, cadugərlərə ehtiram göstərmədi, üzükləri öpmədi və heç kimin əlini yalamadı. Onun yerinə kim olsaydı, bu dünyanın güclülərinin qarşısında qorxardı, amma Yusif heç gözlərini də qırpmadı.

Ziddiyyətə bax: taxt-tac zalında ən qüdrətli insan olan firon, Nilin hökmdarı, yer üzünün «allahı» və piramidaların yaradıcısı olan Böyük Pux-Bax* özünə gəlmək üçün acizanə surətdə bir qurtum viskiyə ehtiyac duyurdu. Yusif isə orada iştirak edənlərin arasında ən səlahiyyətsizi, bundan əlavə, keçmiş kölə və zorlamağa cəhd göstərməyə görə mühakimə olunan məhbus, sanki mərmər heykəl kimi təmkinlə dayanmışdı.

Bu cür müxtəlif davranışların səbəbi nə idi?

Səbəb ballast idi. Yellənən klounda o, var idi. Mən sonradan bildim ki, ad günündə məni çox mütəəssir edən uşaq oyuncağının içi qurğuşunla doldurulmuşdu. Onun əsasını gizlədən üç funtluq plastin istənilən zərbəyə qarşı dayana bilmək üçün idi. Göründüyü kimi, Yusif də oxşar möhkəmliyə malik idi. Xeyr, onun möhkəmliyi metal sayəsində deyildi. Onun möhkəmliyi lövbər kimi dərinə kök salmış, ona dözümlülük verən Tanrının ali hakimiyyətinə olan imanından irəli gəlirdi

Bu, onun Misir hökmdarına ilk sözündən görünür: «Bu, məndən deyil, Allah fironun xeyrinə cavab verəcək» (Yaradılış 41:16). Yusif ikinci dəfə danışaraq öz izahına davam etdi: «Firona demək istədiyim sözlər bunlardır. Allah etmək istədiyi işi firona göstərdi» (28-ci ayə). Yuxunu yozduqdan sonra o

* Pux-Bax (ingiliscə Pooh-Bah) — eyni vaxtda bir neçə vəzifə tutan insan (“Mikado” komediya operasında personajın adı).

yekunlaşdırdı: «…çünki Allah belə qərara gəlmişdir və tezliklə bu işi görəcək» (32-ci ayə).

Verilmiş üç ayədə Yusif dörd dəfə Tanrıdan sitat gətirir! «Allah… Allah… Allah… Allah…».

Lakin o, əvvəllər də bu cür edirdi. Potifarın arvadı onu yoldan çıxarmaq istəyəndə Yusif intim əlaqədən imtina edərək dedi: «Bəs mən necə bu böyük pisliyi edib Allahın önündə günaha bata bilərəm?» (Yaradılış 39:9). Yusifin himayəsinə həvalə edilmiş məhbuslar ondan yuxularını yozmağı xahiş edəndə, onlara dedi: «Yuxu yozmaq Allahın işi deyilmi? Onu mənə danışın» (Yaradılış 40:8). Yusifin mənəvi kompasının əqrəbi heç zaman səhv etmədən onun ruhani səmasının ən parlaq ulduzunu, yəni Tanrını göstərirdi. Onun dünyagörüşündə Tanrı möhtəşəm işlər görməyi bacaran və həmişə buna hazır olan əsas surət idi.

Gördüyümüz kimi, Yusif səhv etmədi. Firon vəziyyəti 180° dəyişən çox gözəl bir əmr verdi. «Bu adam kimi Allahın Ruhuna malik olan bir kəs tapa biləcəyikmi?» (Yaradılış 41:38). O, padşahlığının bütün qayğılarını Yusifə tapşırdı. Elə həmin gecə ixtiyar verilmiş, səlahiyyətdə firondan sonra ikinci olan, Kənan torpağından gələn gənc oğlan padşah arabasına oturdu. Gözlənilməz karyera yüksəlişi!

«Yusifin həyatı» adlanan qarmaqarışıqlıqda insanı yaralayan saysız-hesabsız şərait hesablamışam: bir yerinə yetirilməmiş vəd, ən aşağısı iki xəyanət, ona qarşı yönələn bir neçə nifrət qığılcımı, iki qaçırdılma və çox güman ki, yeganə olmayan yoldan çıxartma cəhdi, on paxıl qardaş və valideyn vəzifəsinin düzgün icra edilməməsi barədə bir epizod. Bundan əlavə, təhqir, ədalətsiz həbsxana məhbusluğu, iki il müddətində həbsxananın iyrənc horrası ilə qidalanmaq. İndi bütün bunları qarışdır və on üç il müddətində üzünü turşutmadan qəbul et. Nə alınacaq? Müqəddəs Kitabda möhtəşəm yüksəlmə! Yaqubun heç kim tərəfindən tanınmayan oğlu dünyanın ən qüdrətli ölkəsinin ikinci qüdrətli adamına çevrilir. Onun saraya gedən yolu sürətli və rahat olmamışdı. Amma Tanrı bu qarmaqarışıqlığı dəyərli bir şeyə çevirdi, elə deyilmi?

Nə düşünürsən, O sənin də həyatında bunu edə bilərmi? Keçmiş əzabların barədə fikirləş. Qəzəb və faciələrə səbəb olan xəyanətlər. Ailə problemləri. Ədalətsiz ittihamlar. Cinsi zorakılıqlar. Həyat nə qədər dözülməz ola bilər! Bunlara baxmayaraq, mənim sualıma cavab verməyə çalış. Yusifin Tanrısı yenə də elə güclüdür? Bəli! O, Yusif üçün etdiyini sənin üçün də edə bilərmi? Bəli! Rəbb səni görmək istədiyi adama çevirmək üçün sənə qarşı qurulmuş pislikdən istifadə edə biləcək qədər güclüdürmü? Bəli! Ola bilsin ki, günlərin bir günü sən həm bu, həm də gələcək həyatdakı bütün uğursuzluqlarını xatırlayıb ümumilikdə uğur qazandığını düşünəcəksən.

Leytenant Sem Braun məhz bu nəticəyə gəlmişdi. O, Vest Pointdə təhsilini başa vurduqdan iki il sonra əldəqayırma partladıcı cihazlar onun «xammerini» «Molotovun kokteylinə» çevirəndə. Əfqanıstanda özünün ilk ezamiyyətində idi. O, yük maşınından necə çıxdığını xatırlamır. Ancaq quma yuvarlanaraq bir ovuc torpağı yanan üzünə çırpmağını və dizləri üstə yıxılana qədər ətrafda qaçmağını yaxşı xatırlayır. O, yanan əllərini göyə qaldıraraq qışqırdı: «Rəbb, məni xilas et!»

Semin vəziyyətində bu sözlər sadəcə yalnız ümidsizlik hayqırtısı deyildi. O, İsa Məsihə səmimi qəlbdən inanırdı və öləcəyini düşündüyündən Xilaskardan onu göylərə götürməsini xahiş etdi.

Lakin xahiş etdiyi ölümün əvəzinə onun rotasının pulemyotçusu gəlib çıxdı və gizli yerə getmək üçün güllə yağışı altında Semə kömək etdi. Divarın dibində gizlənən leytenant yanıqlarına baxdı və əlindəki əlcəklərin əriyərək əlinin dərisinə yapışdığını başa düşdü. O, sıravi əsgərə əlcəklərini çıxarmağı əmr etdi. Əsgər bir qədər tərəddüd edəndən sonra onları çıxardı və əlcəyə yapışmış yanmış dəri də onunla birlikdə soyuldu. Braun dəhşətli ağrıdan çox ediləcək tibbi müdaxilədən qorxurdu.

Qonşu rotadan nəqliyyat gələndə yaralını oraya yerləşdirdilər. Sem huşunu itirməzdən qabaq arxa güzgüdə yanmış üzünü gördü və özünü tanımadı.

Bu hadisə 2008-ci ildə baş vermişdi. Üç il sonra biz onunla görüşənə kimi Sem dəri köçürtmə üzrə onlarla ağrılı əməliyyat keçirtmişdi. Həmin vaxtlar onun yaşadıqlarını ağrı şkalasında göstərə biləcək dərəcə yox idi.

Amma bu dəhşətin qızğın vaxtında Semin həyatına gözəllik gəldi. Bu, diyetoloq Emi Larsen idi. Semin ağzı kiçilib qəpik boyda olduğu üçün Emi onun qidalanma prosesinə nəzarət edirdi. Sem ilk dəfə onu necə gördüyünü xatırlayır. Tünd saçlar, qonur gözlər. Çalışqan. Cazibədar. Ancaq ən önəmlisi o idi ki, onun görünüşü qızı diksindirməmişdi.

Bir neçə həftədən sonra o, cəsarətini toplayaraq onu görüşə dəvət etdi. Onlar ikilikdə atçılıq yarışına yollandılar, növbəti istirahət günlərində isə dostunun toyuna dəvət aldılar. Onlar üç saat yol getdilər və o yerə çatana qədər Emi Semə bir neçə ay əvvəl reanimasiya şöbəsində tamamilə tənziflərlə sarınmış, morfinin təsiri altında və süni nəfəsalma cihazına qoşulmuş vəziyyətdə olanda onun diqqətini cəlb etdiyini danışdı. Sem ayılanda Emi tanış olmaq üçün onun palatasına daxil olmuşdu, amma o, həkimlər və ailə üzvləri ilə əhatə olunduğuna görə görüşünü təxirə salmışdı.

İki gənc görüşməyə davam etdi. Onların tanışlıqlarının ilk günlərindən Sem Emiyə İsa Məsihə olan imanı barədə danışdı. Emi imanlı deyildi, lakin Semin hekayəsi onun ürəyinə toxundu. O da Tanrıya iman etdi. Sem Tanrının mərhəməti barədə danışaraq onu Məsihə gətirdi. Tezliklə onlar evləndilər. Mən bu gün bu sətirləri yazanda onlar yeddi aylıq oğullarını tərbiyə edirlər. Sem yaralıların reabilitasiyası[1] üzrə proqramın rəhbəridir.

Mən əfqan səhrasında ağır dərəcəli yanıqlar alan insanın payına düşən həmin dəhşəti kiçiltmək istəmirəm. Onun çoxsaylı əməliyyatlar üzündən yaşadığı şiddətli əzabları və reabilitasiyaya sərf etdiyi səyləri, məruz qaldığı emosional stress bəzən ailə münasibətlərinə də təsir edir. Lakin Sem və Emi əmindirlər ki, Tanrının riyaziyyatı ümumi qəbul olunandan fərqlidir. *Müharibə*

*+ ölümqabağı canvermə + əzablı reabilitasiya = gözəl ailə və işıqlı gələcəyə ümid.* Planlaşdırılmış pislik Tanrının əlində son nəticədə yaxşılığa çevrilir.

Tanrının köməyilə sən yellənən oyuncaq kimi qalxa bilərsən. Kim bilir? Bəlkə sənin yüksəlişin elə bu gün baş tutacaq. Yusifin həyatını əsaslı surətdə dəyişən həmin gün onun heç ağlına da gəlmirdi ki, bu yeni gün əvvəlki yeddi yüz gündən fərqlənəcək. Düşünmürəm ki, o, belə dua etsin: «*Ya Rəbb, xahiş edirəm, gün batana qədər məni Misirin baş naziri vəzifəsinə yüksəlt*». Ancaq Tanrı Yusifin ən cəsarətli dualarından artığını etdi: onun günü zindanda başladı, sarayda bitdi. Belə şayiələr gəzir ki, o, yuxuya gedərkən gülümsünüb pıçıldamışdı: «Maks haqlı imiş: mən əsl yellənənəm».

# FƏSİL 8

# HƏYATDA HƏR ŞEY QAYDASINDA GETMƏYƏNDƏ TANRI BİZİM ÜÇÜN ƏVVƏLKİ KİMİ XEYİRXAHDIRMI?

Həmin gün günəşli, əsl Braziliya yayı kimi yadımda qalıb. Denalinlə mən dostlarımız Pol və Debbini görməyə getmişdik. Onlarla görüşmək bizim üçün xoş istirahət idi. Biz Rio-de-Janeyronun mərkəzinə yaxın yerdə hündürmərtəbəli binada mənzil kirayələmişdik. Pol və Debbinin gözəl evi isə şəhərin mərkəzindən bir saatlıq məsafədə idi. Orada hava sərin, küçələr təmiz, həyat isə ritmik idi. Bundan başqa, onların hovuzları da var idi.

Bizim iki yaşlı qızımız Cenni onların uşaqları ilə birlikdə oynamaqdan zövq alırdı. O oynayanda yıxılmışdı. Uşaqları nəzarətsiz qoymaq fikrimiz olmadığından boşqablarımızı doldurmaq üçün biz ancaq bir dəqiqəlik evə keçdik və söhbət edə-edə yeməyə başladıq. Elə bu an Pol və Debbinin dörd yaşlı qızı bilmədən ağzından qaçırtdı: «Cenni hovuza yıxıldı». Sanki güclü bir partlayış bizi otaqdan bayıra atdı. Cenni suda çırpınırdı. Çox güman ki, onun üzərində nə hava dairəsi, nə də xilasedici jilet var idi. Pol onun yanına birinci çatdı. O, hovuza tullandı və Cennini qucağına götürüb Denalinə verdi. Cenni təxminən bir dəqiqə öskürüb ağladı, sonra isə heç nə olmamış kimi oynamağa davam etdi. Faciənin qarşısını almaq mümkün oldu. Qızımız təhlükəsizlikdə idi.

Təsəvvür edin ki, biz Tanrıya necə minnətdar idik. Biz dərhal uşaqları əhatəyə aldıq, onlar üçün minnətdarlıq duası etdik.

Günümüzün qalan hissəsini Cenninin əlini buraxmayaraq sevincimizdən az qala uçurduq. Hətta evə qayıdanda da sükan arxasında Rəbbə minnətdarlıq etməyə davam edirdim. Arxa güzgüdən uşaqlar üçün olan avtomobil kreslosunda möhkəm yatan Cenniyə baxıb bir daha dua etdim: «*Tanrım, Sən nə qədər mərhəmətlisən!*» Elə bu an mənim ağlıma bir fikir gəldi. Rəbdənmi? Yoxsa qəlbimin var gücü ilə Onu başa düşməyə çalışan hissəsindən? Bilmirəm. Lakin qəflətən yaranmış sualı indiyə qədər xatırlayıram. «Əgər Cenni ölsəydi, sən əvvəlki kimi Tanrının xeyirxah olduğunu düşünəcəkdinmi?»

Həmin gün mən ara vermədən Tanrının mərhəməti üçün minnətdarlıq etdim. Birdən biz Cennini itirsəydik, mən öz fikrimdə qalacaqdımmı? Yoxsa Tanrı yalnız vəziyyət ürəyimizcə olanda xeyirxahdır?

Xərçəng xəstəliyi yoxa çıxırsa, biz deyirik: «Tanrı mərhəmətlidir!» Maaşımız artırılanda biz Tanrının xeyirxah olduğunu elan etməyə tələsirik. Universitetə qəbul olanda və yaxud azarkeşlik etdiyimiz komanda qələbə çalanda Tanrı yaxşıdır. Bəs başqa vəziyyətlərdə necə, biz eyni cür deyərdikmi? Uşaq çarpayısının yanında deyil, qəbiristanlıqda? Mağazada deyil, əmək birjasında? Maddi çiçəklənmə dövründə deyil, iqtisadi tənəzzüldə? Tanrı həmişə xeyirxahdırmı?

Bu yaxınlarda dostlarım Brayan və Kristina Teylorlar üçün bu məsələ həddən artıq aktual olub. Bu il onların yeddi yaşlı qızları Revekka altı ay xəstəxanada yatdı və mədəaltı vəzinin xəstəliyi ilə əlaqədar altı əməliyyat keçirdi. Brayan işdən çıxmaq məcburiyyətində qaldı, ailə üzvlərindən bir neçəsi vəfat etdi, sağ qalana isə beyin xərçəngi diaqnozu qoyuldu. Kristina dördüncü uşağa hamilə idi. Razılaş ki, onların yaşadıqları çox çətin idi. Kristina öz bloqunda belə yazmışdı:

> Xəstəxanada qızımızın başı üzərində keçirdiyim vaxtlar üzücü olsa da, mən ümidimi itirmədim. Brayanın doğmalarının bir-birinin ardınca dünyalarını dəyişməsi, sağ qalan sonuncu doğmasına

4-cü dərəcəli xərçəngi diaqnozunun qoyulması izaholunmaz idi, amma mən onda da imanımı itirmədim. Hamiləliyimin yeddi ay yarımlığında ciftin parçalanması səbəbilə xəstəxanaya aparıldıqda da dəhşətli dərəcədə qorxmağıma baxmayaraq, hələ də inanırdım. Üzərimə tökülən sınaqların səbəbini məntiqlə başa düşməsəm də, Tanrının mənim xeyrimə hərəkət etdiyinə özümü əmin edirdim. İnanırdım ki, Tanrının möhtəşəm və insan ağlı ilə dərkedilməz planı var.

Payıma düşən çətin sınaqları səbrimin həddini bildirən sərhədi keçənə qədər daşıyacağım barədə Tanrı ilə məxfi razılaşmam var idi. O, bu sərhədin haraya kimi olduğunu gözəl bilirdi və mən qəlbimin dərinliyində Onun bu həddi heç zaman keçməyəcəyinə əmin idim. Ancaq O, həmin xətti keçdi. Mənim qızım ölü doğuldu. Qızım Revekka süni qidalandırma borusu ilə yaşayırdı və onun sağlamlığı ilə bağlı ürəkaçan xəbər olmadığı üçün biz həsrətlə gözlədiyimiz və çox sevdiyimiz dördüncü övladımızın xilas olacağını düşünürdük. Amma körpə öldü. Tanrı sərhədi keçdi və mənim Tanrı ilə olan birtərəfli müqaviləm pozuldu.

Bu andan etibarən hər şey dəyişdi. Mənim qəlbimdə qorxu kök saldı və imanım dağılmağa başladı. Mənim Tanrı tərəfindən zəmanəti olan «təhlükəsizlik adacığım» həyat fırtınalarının girdabında batdı. Onsuz da dəhşətli dərəcədə çətin bir dövrdə üzərimə bu cür faciə gəldisə, deməli, mən tamamilə müdafiəsiz idim. Həyatımda ilk dəfə olaraq narahatlıq hissi, sanki bir qurd kimi məni içəridən didməyə başladı[1].

Biz söhbətin nədən getdiyini bilirik. Hamı olmasa da, bizlərdən bir çoxumuz Tanrı ilə bu cür sazişlər imzalayırıq və Rəbbin onları imzalamadığı faktı da bu sazişlərin mövcudluğunun qanuniliyinə inanmağımıza mane olmur.

*Mən yaxşı,* ədəbli *adam olacağıma söz verirəm,*
*Tanrı isə Öz növbəsində…*
*Mənim övladımı xilas edir.*
*Həyat yoldaşıma şəfa verir.*
*Mənim işimə zəmanət verir.*
_____________________________*(öz şərtlərinizi yazın).*

Ədalətlidir, elə deyilmi? Buna baxmayaraq, Tanrı bizim ümidlərimizi doğrultmayan kimi müxtəlif sualların və şübhələrin burulğanında, demək olar ki, boğuluruq. Bəs O, ümumiyyətlə, xeyirxahdırmı? O mənə hirslənirmi? Axı O, çaşa və yaxud yorula bilməz. Həqiqətənmi O, qüdrətlidir? Məgər iblis Onu istədiyi kimi barmağına dolaya bilər? Real hadisələr gözləntilərimizi doğrultmayanda, biz Onun haqqında nə düşünməliyik? Nə üçün Tanrı onlara qarışmır?

Yusifin firona dediyi sözlər bu məsələyə bir qədər aydınlıq gətirir. Adətən, Yusifin sözlərinə əzabkeş Əyyubun və yaxud həvari Paulun sözləri kimi ruhani əhəmiyyət verilmir. Həm də bizim əlimizdə onun elə də çox sözü yoxdur. Olanlar da onu Tanrının alovlu tərəfdarı kimi təqdim edir.

O, firona elan etdi:

> Bundan sonra yeddi il aclıq olacaq. Misir ölkəsində olan bütün bolluq yaddan çıxacaq və aclıq ölkəni əldən salacaq. Ölkədəki bolluq ondan sonra gələn aclıq üzündən görünməyəcək, çünki aclıq çox ağır olacaq. Firon yuxunu iki dəfə görüb, çünki Allah belə qərara gəlmişdir və tezliklə bu işi görəcək.
>
> *Yaradılış 41:30–32*

Yusif bolluğun da, aclığın da Tanrının əlinin işi olduğunu başa düşürdü. Hər ikisi özünü «Tanrının qərarı» kimi göstərir.

Bu necə mümkün ola bilər? Bu cür dəhşətli bəla Tanrının planının bir hissəsi ola bilərmi?

Əlbəttə, xeyr. Tanrı pislik etmir və ondan nəticələr çıxartmır. «…Məgər Allah pislik edərmi? Məgər Külli-İxtiyar haqsızlıq edərmi?» (Əyyub 34:10; həmçinin Yaqub 1:17-yə bax). Tanrı xeyirxahlıq mücəssəməsidir. Xeyirxah Tanrı necə hansısa pisliyin Yaradıcısı ola bilər?

O, həm də müstəqil Hökmdardır. Müqəddəs Yazılar dəfələrlə Onun tam və mütləq idarəsini göstərir. «…Allah-Taala insan padşahlıqları üzərində hökmranlıq edir və kimi istəyirsə, onlara

başçı qoyur» (Daniel 5:21). Tanrı xeyirxah və müstəqildir. O zaman Tanrının idarə etdiyi dünyada bəla və əzabların olmasına necə münasibət göstərməliyik?

Müqəddəs Kitab nöqteyi-nəzərindən bu məsələ belə görünür: Tanrı əzablara yol verir. Cinlər İsa Məsihdən donuz sürüsünə girmələrinə icazə verməyini xahiş edəndə O, «onlara izin verdi» (Mark 5:12–13-ə bax). Ona itaətli olmayanlar barədə Tanrı belə dedi: «İmkan verdim ki, …özlərini murdarlasınlar. Bunu etdim ki, onları dəhşətə salım, qoy bilsinlər ki, Rəbb Mənəm» (Yezekel 20:26). Əhdi-Ətiqdə bilməyərəkdən adam öldürəni gözləyən nəticə barədə danışılır: «Lakin o şəxs öldürmək qəsdində olmasa və ölüm Mənim iznimlə olsa, o zaman onun üçün bir yer təyin edərəm ki, oraya pənah gətirsin» (Çıxış 21:13).

Bəli, Tanrı bəzi vaxtlar faciələrin baş verməsinə yol verir, məsələn, quraqlıq nəticəsində məhsulun məhv olması. O, iblisə pislik etməyə, bəzən isə böyük ölçüdə pislik etməyə icazə verir. Ancaq Rəbb heç vaxt iblisin qalib gəlməsinə imkan verməyəcək. Məgər Romalılara məktub 8:28-də bu barədə danışılmırmı: «Biz bilirik ki, hər şey birlikdə Allahı sevənlərin, Onun məqsədinə görə çağırılanların xeyrinə işləyir». Tanrı vəd edir ki, bizimlə baş verənlər onsuz da *yaxşılığa çevriləcək.* Lakin bu o demək deyil ki, baş verənlərin hamısı yaxşıdır. Həyatımızda baş verən hadisələr ayrı-ayrılıqda çox pis ola bilər, lakin son nəticədə hər şey əla qurtaracaq.

Əgər fikir versək, bu həqiqətin təsdiqini öz həyatımızda tapa bilərik. Budur, sən mərmər fincandan qəhvəni kiçik qurtumlarla ləzzətlə içib deyirsən: «Əladır!» Sən bununla nə demək istəyirsən? Əla olan nədir? Qəhvə dənələrinin qorunduğu plastik paket? Yoxsa qəhvənin özü? Bəlkə qaynar su? Yaxud qəhvə dəmləyənin süzgəci? Nə birinci, nə ikinci, nə də üçüncüsü. *Əla* və ya Müqəddəs Kitab dili ilə desək, *xeyirlisi* bütün vacib olanlar hərəkətə keçəndə baş verir: paket açılıb, qəhvə üyüdülüb, su istənilən dərəcəyə qədər qızdırılıb. Ayrı-ayrı faktorların birləşməsi xeyirli olanı yaradır.

Nə Əhdi-Ətiqdə, nə də Əhdi-Cədiddə aclığı, ürək tutmasını və yaxud terror aktını xeyirli hesab edən heç bir ayə yoxdur. Bu dəhşətli bəlalar günaha görə lənətlənmiş yer üzünün məhsuludur. Buna baxmayaraq, bütün Müqəddəs Kitab ayələri, xüsusən Yusifin hekayəsi bizə əminlik verir ki, Tanrı bu əzabları digər inqrediyentlərlə qarışdıraraq bizim xeyrimizə işləyəni yaradacaq.

Lakin biz Tanrının *xeyirli* olan barədə tərifinə etibar etməliyik. Bizim səninlə bu haqda — sağlamlıq, rahatlıq, şöhrət baxımından ənənəvi təsəvvürümüz var. Bəs Tanrının nöqteyi nəzərindən xeyirli olan nədir? Onun yeganə Oğlu İsa Məsihin ecazkar həyatında çətinliklər, həyəcan və çarmıxda ölüm var idi. Tanrı isə bütün bunları çox böyük xeyirli işə çevirdi: Onun izzətinə və bizim xilasımıza.

Coni Erikson Tada ömrünün böyük hissəsini həyatdakı əzablarını xeyirxah Tanrının təbiəti ilə barışdırmağa çalışıb. O, yeniyetmə olanda uçurumdan çaya tullanaraq zədə almış və nəticədə bütün həyatı boyu şikəst qalmışdı. Qırx ilini əlil arabasında keçirən Coni belə nəticəyə gəlmişdi:

> [Əvvəlcə] mən düşündüm ki, əgər iblisin və Tanrının mənimlə baş verən bədbəxtliklə bağlı hansısa əlaqələri varsa, onda yəqin ki, ona icazə almaq üçün iblis Tanrının əllərini burubmuş…
> Mən belə fikirləşirdim: əgər Tanrı iblisin israrlı tələblərinə razı olubsa, O yazıq indi də iblisin ziyan vurduqlarını yamamaq və düzəltmək üçün əlində təmir çantası ilə onun dalınca gəzir və dodaqlarının altında deyinərək belə deyir: «Vay, necə böyük bədbəxtlikdir, indi bunları necə yoluna qoymaq olar?…»
> <…> Lakin iş orasındadır ki, Tanrı iblisdən müqayisəolunmaz dərəcədə güclüdür…
> İblis məni əlil arabasına oturdaraq imanımı sındırmaq istəyirdi, amma mən əminəm ki, Tanrı onun niyyətini dağıtmağı planlaşdırıb. O, əlil arabası və onunla bağlı olan hər şey vasitəsilə məni dəyişdirəcək, Məsihə daha çox oxşar edəcək…
> İblisin pisliklərini ən yüksək dərəcədə xeyirli işə çevirmək üçün [Rəbb qüdrətlidir][2].

İsa Məsih də bu barədə danışırdı. Onun şagirdləri yolun kənarında anadangəlmə kor bir adamın oturduğunu görəndə, İsa Məsihdən bu adamın nə üçün kor olduğunu soruşdular. Tanrının qəzəbininmi nəticəsi idi? Cavab «bəli»dirsə, onda kim Onu qəzəbləndirib? Kim günah edib, korun özü, yoxsa onun valideynləri? İsa Məsihin cavabı Rəbbin şagirdlərin heç ağlına da gələ bilməyən daha yüksək niyyətlərinin olduğunu göstərir: bu insan «Allahın işləri onun həyatında görünsün deyə» (Yəhya 9:3) kor doğuldu. Tanrı insanın böyük faciəsi olan korluğu, İsa Məsihin ağır xəstəliklər üzərində hüdudsuz səlahiyyətə malik olduğunu nümayiş etdirən reklam aksiyasına çevirdi. İblis pisliyi yayaraq hərəkət edir, Tanrı isə ona qarşı çıxır və xeyir qələbə çalır. Bu Tanrının özünəməxsus ciu-citsu* incəsənətidir. Tanrı pisliyin enerjisini onu yaradan mənbəyə qarşı yönəldir. «[Tanrı] pislikdən nəticəni onun özünə qaytarmaq üçün istifadə edir»[3]. O, şahmat ustasıdır və həmişə iblisi mat qoyur.

Bizdən asılı olanlar bunlardır: Tanrıya etibar etmək və yaxud Ondan üz çevirmək. Şübhə etməyə bilərsən: Tanrı bizim əhd sərhədimizi keçəcək, bizim gözləntilərimizi toz kimi sovuracaq və biz qərar qəbul etməli olacağıq.

Kristina Teylor öz seçimini etdi. Fəslin əvvəlində barəsində danışılan qadını xatırlayırsınızmı? O öz bloqunu bu sözlərlə tamamlayır:

> Bu qədər çox sevdiyim Tanrının ailəmin çox çətin vaxtında həyatıma belə dəhşətli faciəni buraxmağının səbəbini tapmaq üçün həftələrlə baş sındırdım. Gəldiyim yeganə nəticə bu oldu: baş verənlərin xoşuma gəlib-gəlməməyindən asılı olmayaraq, mənim tərəfimdən qoyulan imtina etməli və öz həyatımı, onun hər bir anını Tanrıya etibar etməli idim.

---

* Ciu-citsu — yaponcada yumşaqlıq texnikası mənasını verməkdədir. Ənənəvi Yapon əlbəyaxa döyüş sənətlərindəndir. Rəqibin hücum təcilindən faydalanaraq, vuruş, alovlan, atma və bilək kilidləri kimi texnikalarla təsirsiz hala gətirməyə çalışmaq üzərinə təhsili vardır. Cüdo və aikido kimi bənzər döyüş sənətləri, ciu-citsu texnikalarından yola çıxılaraq törədilmişdir.

Mənim ailəm Tanrının əllərindədir. Mən daha heç bir sərhədlər təyin etmirəm və heç bir saziş bağlamıram. Mənim üçün qiymətli olanların da həyatını Rəbbə həvalə edirəm. Beləcə çaxnaşmanın hökm sürdüyü yerdə sülh hökmranlıq etməyə, qorxunun olduğu yerdə rahatlıq kök salmağa başladı[4].

Biz hamımız nə vaxtsa bu cür tərəddüd içərisində ola bilərik. Hadisələrin gedişatı bizi razı salmayanda, Rəbb həmişə olduğu kimi xeyirxah qalacaqmı? Biz sağlamlıqda olduğu kimi xəstəlikdə də Ona sadiq olacağıqmı? Bizim son cavabımız İsa Məsihdir. O, Tanrı tərəfindən bizə verilmiş avtoportretdir. Göylərin əzablar haqqında nə düşündüyünü bilmək istəyirsiniz? İsa Məsihə baxın.

O, əllərini cüzamlıların üzərinə qoyurdu, peşmançılıq çəkən günahkar qadının göz yaşlarını silirdi, acların naləsini eşidirdi, ölən dostu üçün kədərlənirdi. O, kədərli ananın ehtiyaclarının qayğısına qalmaq üçün Öz işlərini təxirə salırdı. İsa Məsih çətinlik görəndə uzaqlaşmırdı, qaçmırdı və geri çəkilmirdi. Əksinə. O, heç bir istisnalar və ərköyünlüklər olmadan hamı ilə eyni səviyyədə yaşayır və əziyyət çəkirdi. Ailə çəkişmələri? İsa Məsih bunları yaxşı bilirdi. Paxıllıqdan qovrulan kişilərin rəhmsiz hökmü? İsa Məsih bu zəhəri dolu kasa ilə içdi. Mənasız ölüm kimi görünə bilərdi. Sadəcə çarmıxa baxın. Yer üzündə Onun çəkmədiyi əzab yoxdur.

Nə üçün? Ona görə ki, O, yaxşıdır.

Bundan başqa, Tanrı bizə heç bir izahat verməyə borclu deyil. O, hətta bizə aydın şəkildə izahat versə, onu başa düşəcəyimizə zəmanət varmı? Sizə elə gəlmirmi ki, problem Tanrının izahetmə qabiliyyətində deyil, bizim anlama imkanlarımızın məhdud olmasındadır? Belə bir hadisə təsəvvür edək: Qeorq Fridrix Handelin həyat yoldaşı evi yığışdırarkən onun məşhur «Məsih» oratoriyasından bir səhifə tapır. Dahi əsər iki yüz səhifədən çoxdur. Təsadüfən həmin səhifə mətbəx stolunun üstündə qalmışdı. Ərinin əlyazması olan bu vərəq minorda

olan ayrıca musiqi fraqmentindən ibarət idi. Onun gözəlliyi yalnız bütün əsərin kontekstində açılırdı. Fərz edək ki, qadın onu oxumağı bacardı. Sonra isə biabırçı dissonans kimi qiymətləndirərək həyat yoldaşının otağına qaçır və əlində bükülmüş vərəq titrəyərək belə deyir: «Bu, musiqi deyil, cəfəngiyatdır, Qeorq. Sən heç nəyə yaramayan bəstəkarsan». Maraqlıdır, o, nə düşünərdi?

Biz də özümüzü belə aparanda, Tanrı da eyni cür düşünmürmü? Barmağımızla öz minor fraqmentimizə — ya xəstə övladımıza, ya qoltuq ağacına, ya da aclığa tıqqıldadaraq elan edirik: «Bu, ağılsızlıqdır!» Amma düzünü desək, Onun yaradıcılığının hansı hissəsi gözlərimizin önündədir? Gördüklərimizdən nə qədəri bizə aydındır? Onun ancaq çox kiçik bir hissəsi. Ən yaxşısı biz qapı gözlüyünə nəzər salardıq. Əzabın təbiətinin məntiqli, lakin bizə tamamilə aydın olmayan izahı ola bilməzmi? Əzab kimi belə problemlərin Tanrı tərəfindən izahını əldə etmək üçün bizim zəif ağlımıza yerləşəndən daha güclü operativ yaddaş həcmi tələb olunmurmu?

Məgər cənnətin bəxtiyarlığını qabaqcadan duymaq, hətta ən dözülməz həyatı da rahatlığa çevirməyəcəkmi? Həvari Paul belə hesab edirdi: «Çünki müvəqqəti, yüngül əziyyətlərimiz bizə heç bir şeylə müqayisə edilməz dərəcədə böyük və əbədi izzət qazandırır» (2 Korinflilərə 4:17).

Təsəvvür edin ki, mən sizə iyirmi dörd saat cənnət adasında sevdiklərinizin əhatəsində ecazkar bir gün keçirməyi təklif edirəm. Orada sevdiyiniz bütün təamları yemək və xoşunuza gələn bütün işlərlə məşğul olmaq imkanınız var. Ancaq bircə şərtim olacaq: bu iyirmi dörd saatlıq xoşbəxtliyin içərisinə yarım saniyəlik rahatsızlıq müdaxilə edəcək. Mənim isə sənin gününün bu dilxor yarım saniyəlik əzablarla başlamasının hansı səbəblər üzündən olduğunu açıqlamamaq səlahiyyətim var.

Sən mənim təklifimi qəbul edərsənmi? Məncə, hə. Axı çox kiçik bir an iyirmi dörd saatla müqayisədə heç nədir. Yerdəki həyata Tanrının saatı ilə baxsaq, aydın olar ki, o, həmin

adıçəkilən yarım saniyədir. Məgər yetmiş, səksən və hətta doxsan ili əbədiyyətlə müqayisə etmək olarmı? Düzgün cavab — «xeyr»dir.

Sənin əzabların səndən fərqli olaraq əbədi deyil. «Belə düşünürəm ki, çəkdiyimiz indiki əzablar bizə zahir olacaq izzətlə heç müqayisəyə gəlməz» (Romalılara 8:18).

Gələcək olan bu an baş verənin sayəsində məna kəsb edir. Tanrıya başladığını sona çatdırmaq imkanı ver. Qoy Bəstəkar Öz simfoniyasını tamamlasın. Bizi nə gözlədiyini öyrənmək çətin deyil: uğursuz günləri uğurlu günlər əvəz edəcək. Lakin onların *hər birində* Tanrı — Tanrı olaraq qalır. O, həm aclığa, həm də ziyafət günlərinə hakimdir və Öz məqsədinə çatmaq üçün onların hər ikisindən istifadə edəcək.

# FƏSİL 9

## XAHİŞ EDİRƏM, AZ DA OLSA MİNNƏTDAR OL

Stol mədəniyyəti barədə az biliyə malik olmağımı nə qədər gizlətməyə çalışsam da, kübar əsilli olmadığım məni tez-tez ələ verir. Bir neçə il bundan qabaq kahinin evinə çay içməyə dəvət olunanda başıma belə bir qəribə hadisə gəldi. Həmin vaxtlar mən xidmətdə də, şəhərimizdə də yeni adam idim. O isə Yeni Zelandiya əsilli və təcrübəli pastor idi. Üstəlik, İngiltərədə də təhsil almışdı. O məni onların məbədində təbliğ etmək üçün dəvət edəndə məmnun oldum. Çay süfrəsinə dəvət olunmağım isə mənə çox maraqlı gəldi.

Ənənəvi ingilis çay süfrəsi barədə heç təsəvvürüm yox idi. Əlbəttə, mən «fayf-o-klok» barədə eşitmişdim, lakin mənim bu sahədə olan biliyim ancaq bundan ibarət idi. Qərbi Texas sakinləri üçün çayın hər şeydən əvvəl buğ basmış bardaqlar, hündür stəkanlar, buz dilimləri və «Lipton»dan ibarət olduğunu unutmayın. Yeni kəşflər etmək arzusu ilə mən bu cəlbedici dəvəti sevinclə qəbul etdim. Stolun üzərində çay dəsti və peçenye yığılmış «mərtəbəli» qabları görəndə heyran oldum. Elə burada da hər şey açıldı. Ev sahibəsi mənə limon və yaxud süd təklif edərək çaya nə əlavə etmək istədiyimi soruşdu. Mən isə necə cavab verməli olduğumu bilmirdim, lakin kobud görünməmək və qeyri-adi qonaqlıqdan heç nəyi buraxmamaqdan ötəri əminliklə cavab verdim: «Hər

ikisindən». Onun üzünün ifadəsini sözlə təsvir etmək olmaz. Mən özümü biabır etmişdim. «Əlbəttə, çayınızın qatığa dönməsini istəmirsinizsə,— o, yumşaq səslə dedi,— məsləhət görmürəm».

Bəzi şeylər, sadəcə olaraq, bir-biri üçün yaranmayıblar. At quyruğu ilə yellənən kreslo yaxşı birləşmə deyil. Fil ilə qab-qacaq dükanı da belədir. Xeyir-dua və kədərin qarışığı Tanrının şöhrətində istifadə olunmur. Səmavi mərhəmətə qara nankorluq əlavə etsən, tum-turş bir şey alınacaq.

Ola bilsin, sən artıq deyingənlik və donquldanmaqdan fərqli olaraq minnətdarlıq hissinin insanın anadangəlmə keyfiyyəti olmadığını başa düşmüsən. Səni bilmirəm, mən heç zaman kiməsə deyinməyin və donquldanmağın vaxtının çatdığını xatırladıldığını görməmişəm. Həm də bu cür davranış bizə yuxarıdan verilmiş lütfə uyğun deyil. Minnətdarlığın yüksək dozası — bizdə çatışmayan bax, elə budur.

Bu vəziyyətdə xoş istisna təşkil edən Yusifdən başqa. Heç kimin olmasa da, doğmaları tərəfindən tərk edilmiş, köləliyə satılmış Yusifin deyinmək üçün kifayət qədər səbəbləri var idi. Yusifin ürəyində az da olsa kədər axtarmağa çalışma, çünki tapa bilməyəcəksən. Lakin o, birbaşa desək, mərhəmətin iki qeyri-adi təzahürü ilə seçilirdi.

> Aclıq illərindən qabaq Yusifin iki oğlu oldu; onları Yusifə On kahini Poti-Feranın qızı Asnat doğdu. Yusif ilk oğlunun adını Menaşşe qoydu, çünki demişdi: «Allah bütün zəhmətimi və atamın evindəkilərin hamısını mənə unutdurdu». İkinci oğlunun adını Efrayim qoydu, çünki demişdi: «Allah əziyyət çəkdiyim torpaqda məni bəhərli etdi».
>
> *Yaradılış 41:50–52*

Ad bütün həyatı boyu insanı müşayiət etdiyi üçün uşağa ad qoymaq böyük məsuliyyətdir. Olduğu hər yerdə, özünü kimə təqdim etməyindən asılı olmayaraq, hər dəfə valideynin seçimi özünü xatırladacaq. Sizcə, Texas ştatının qubernatoru qızını

Ayma* adlandıranda bu barədə heç düşünmüşdü? Əslində, valideynlər bir qayda olaraq, öz övladları üçün ideal ad seçməyə çalışırlar. Yusif belə valideynlərdən biri idi.

Həmin vaxt bolluq illəri idi. Tanrı Yusifi təkcə fironun sarayında yüksək vəzifə ilə deyil, ailə qurmaq vaxtı çatdığı üçün həm də həyat yoldaşı ilə xeyir-dualandırmışdı. Budur, xoşbəxt cütlük yataqda bir-birinə nəvaziş göstərirlər. Yusif əlini uzadıb hamilə Asnatın qarnını sığallayaraq deyir:

— Mən övladımızı necə adlandıracağımız barədə düşünürəm.

— Aha, afərin sənə! Mən də bu barədə düşünürdüm. Hətta «Sizin övladınızın adı» kitabını da almışam.

— O sənə lazım olmayacaq. Mən artıq ad seçmişəm.

— Hansı adı?

— *Tanrı mənə unutdurdu.*

— Dayan görüm, əgər Tanrı bizim övladımızın adını sənə unutdurdusa, onda onu necə adlandıracaqsan?

— Əzizim, sən başa düşmədin. *Tanrı mənə unutdurdu* bizim övladımızın adıdır.

Asnat, adətən, ağıllı misirli qadınların öz ağılsız yəhudi ərlərini süzən baxışlarla Yusifə baxdı.

— *Tanrı mənə unutdurdu*? Hər dəfə oğlumu çağırmaq istəyəndə *Tanrı mənə unutdurdu* deməyə məcbur olacam? — Gələcək ana şübhələr içərisində başını yırğaladı və bunun necə görünəcəyini təsəvvür edə bilmək üçün dedi: — Əzizim, *Tanrı mənə unutdurdu*, yemək vaxtıdır. Əllərini yu, *Tanrı mənə unutdurdu*. Nə isə, bilmirəm, Yusif. Mənim daha çox Tut və yaxud Ramses adları xoşuma gəlir. Yeri gəlmişkən, bəlkə oğlumuzun adını Maks qoyaq? Bu adı kimə gəldi qoymurlar.

---

* Ad Aymanın dayısı Tomas Hoqq tərəfindən yazılmış "Marvinanın taleyi" poemasından götürülmüşdür. Ima Hogg ad və soyadının birləşməsi ingilis dilində I`m a hog ("Mən donuzam") kimi səslənir. Ayma bütün həyatı boyu imza qoyanda, oxunmaz bir surətdə və yaxud xanım Hoqq yazaraq öz adını gizlətməyə çalışırdı.

— Xeyr, Asnat, mən artıq hər şeyi düşünmüşəm. Hər dəfə oğlumun adını çağıranda mən Tanrının adını izzətləndirəcəyəm. Tanrı qardaşlarımın ucbatından başıma gələn bütün bədbəxtliklərimi mənə unutdurdu. Mən istəyirəm ki, hamı, ilk növbədə Tanrı Ona nə qədər minnətdar olduğumu bilsin.

Bu fikir yəqin ki, Yusifin arvadının xoşuna gəldi, çünki ikinci oğulları dünyaya gələndə onu *Tanrı məni bəhrəli etdi* adlandırdılar. Onların ilk oğullarının adı Tanrının mərhəmətini izzətləndirir, ikinci oğullarının adı isə Tanrının himayədarlığını elan edirdi.

Səncə, Yusifin bu hərəkəti Tanrıda necə təəssürat yaratdı? Bu sualın cavabını Əhdi-Cədiddə təsvir olunmuş hadisədə tapırıq. Çox yüzilliklər keçəndən sonra «İsa Yerusəlimə doğru yolunu davam edərkən Samariya ilə Qalileya arasındakı sərhəddən keçirdi. Kəndlərin birinə girəndə Onu on nəfər cüzamlı kişi qarşıladı. Onlar uzaqda durub ucadan çığırdılar: «İsa, Ustad, bizə rəhm et!» (Luka 17:11–13)

Bəlkə də onlar meşəlikdə və yaxud qayalıqda gizlənərək İsanın yoldan onlara tərəf dönəcəyini gözləyirdilər. Onların haradan gəldiyi məlum deyil, amma onların bütün yol boyu «Murdaram! Murdaram!» deyə qışqırdıqları yaxşı məlum idi. Cüzamlılar gəlişləri barədə xəbərdarlıq etməyə məcbur idilər. Xalq onların səsini eşidəndə ətrafa qaçırdı. Yaralı dəri, deformasiyaya uğramış əl-ayaqlar, kələ-kötür sifət. Xalq cuzamlılardan uzaq qaçırdı, lakin İsa onların qışqırıqlarını eşidəndə onlara yaxınlaşdı və dedi: «gedin, özünüzü kahinlərə göstərin» (14-cü ayə).

Cüzamlılar bu göstərişin mənasını başa düşdülər. Onlar bilirdilər ki, yalnız kahin onların cəmiyyətdəki dəhşətli vəziyyətlərini dəyişdirmək səlahiyyətinə malikdir. Xoşbəxtlikdən cüzamlılar İsaya qulaq asdılar. İsanın əzəməti sayəsində onlar sağaldılar. Onlar yol gedərkən daha lazım olmayan qoltuq ağaclarını tullamağa başladılar, göz üçün yerlər açılmış baş örtüklərini çıxartdılar və hamarlanmış üzlərini açdılar. Onların əyilmiş belləri düzləşdi və üzlərinə gülüş qayıtdı. On nəfər əzabkeş

sağlamlıqlarına qovuşduqları üçün tullanıb-düşməyə, sevinclə səs-küy salmağa başladılar.

İsa onların oynaya-oynaya təpənin üstündə gözdən itdiklərinə tamaşa edirdi. Onların qayıdacaqlarını gözləyirdi. O, çox gözlədi. Bu arada Onun şagirdlərindən kimi ağacların kölgəsində oturdu, kimi yemək axtarmağa yollandı. İsa isə gözləməyə davam edirdi. O, ailələrin xoşbəxtlik içərisində birləşmələri barədə hekayələri dinləmək istəyirdi. «*Necə oldu, həyat yoldaşın nə dedi? Uşaqlarının münasibəti necə oldu? Özünü yenidən sağlam hiss etmək necədir?*» İsa Məsih on nəfərin qayıdıb Ona «sağ ol» deyəcəyini düşünürdü. Lakin bircə nəfər qayıtdı.

> Onlardan biri isə sağaldığını görəndə uca səslə Allahı izzətləndirərək qayıtdı. O üzüstə İsanın ayaqlarına düşərək Ona təşəkkür etdi. Bu adam Samariyalı idi. Onda İsa dedi: «Pak olanlar on nəfər deyildimi? Bəs qalan doqquz adam haradadır? Bu yadellidən savayı geri dönüb Allaha izzət verən olmadımı?
>
> *15–18-ci ayələr*

Hətta İsa bu cür mənəvi sərtliyə görə təəccüblənmişdi. Çünki heç bir təbii fəlakət on nəfər şəfa tapan adamın İsanın ayaqlarına düşərək heç bir sözlə ifadə oluna bilməyən minnətdarlıqlarını bildirmələrinə maneçilik törədə bilməzdi. Bəs onların qayıtmasına nə mane oldu? Bilmək çətin deyil.

Onlardan biri həddən artıq məşğul olduğundan minnətdarlıq üçün vaxt ayıra bilmədi. Əlbəttə ki, o, «sağ ol» deməyə hazırlaşırdı. Ancaq əvvəlcə ailə üzvləri ilə görüşmək, həkimləri görmək, qonşulara baş çəkmək, nəhayət, iti gəzdirmək və tutuquşuları yemləmək vacib idi. Nə qədər işlər var, başa düşürsünüz də!

Digərinə həddən artıq ehtiyatlı olmağı minnətdarlıq etməyə maneçilik törətdi. O, vaxtından qabaq sevinməkdən ehtiyat etdi. Burada heç bir tələnin olmadığına əmin olmaq üçün həddən artıq ümidlənmək istəmədi. Bəs İsa əvəzində nə istəyəcək? Bunun həqiqət olması inanılmazdır.

Bəli, bu uşaqları ağılsızlıqda ittiham etmək olmaz.

Üçüncüsü dəhşətli dərəcədə eqoist idi. O, belə hesab edirdi ki, xəstə olanda yaşamaq daha asan imiş. İndi isə o, iş axtarmaq və cəmiyyətin həyatına uyğunlaşmaq məcburiyyətindədir.

Dördüncüsündə isə həddən artıq özünəarxayınlıq var idi. Sən demə, o, *elə də güclü* xəstə deyilmiş və onun kifayət qədər vaxtı olsaydı, özü də sağalacaqdı. Bundan əlavə, minnətdarlıq etmək — kənar köməkdən asılı olmağı bildirir. Öz zəifliyini etiraf etmək hansı normal insanın ağlına gələr?

Həddən artıq məşğul, həddən artıq ehtiyatlı, həddən artıq eqoist, həddən artıq özünə arxayın… bunlar sizə tanış gəlirmi? Əgər bu hadisədən nəticə çıxartsaq, onlar çox pis görünəcəklər: on nəfərdən doqquzu mənfur naşükürlüyə yoluxmuşdu. Bu, sanki epidemiyadır! Nə üçün? Nəyə görə minnətdarlıq dəyərsizləşdi?

Mənə elə gəlir ki, bu yaxınlarda təyyarə ilə uçuşlarımın birində bu suala cavab tapdım. Mərkəzi Avropadan evə dönərkən təyyarəmiz pis hava şəraitinə görə Dallas aeroportunda enməli oldu. Mən San-Antonioya sonuncu gecə reysinə bilet tapmaq məqsədilə kassaların qarşısında vurnuxmağa başladım. Hava limanında xaos hökm sürürdü: hamı mənim qaçdığım yerə qaçırdı. Uçmağa ümid etdiyim reysdə əlavə biletlərin qeydiyyatı da sona çatdı. Həmin an gücüm çatan qədər nəzakətlə qeydiyyat şöbəsində növbətçilik edən qıza müraciət etdim:

— Xahiş edirəm, baxın, görün, heç olmasa bir yer qalmayıb?

O, monitorun ekranına baxaraq dedi:

— Qorxuram ki…

Mənim ürəyim sıxıldı. Mən «Qorxuram ki, siz aeroportda gecələməli olacaqsınız», «Qorxuram ki, siz oteldə yer tutmalı olacaqsınız», «Qorxuram ki, siz San-Antonio şəhərinə səhər altı reysindən tez uça bilməyəcəksiniz» sözlərini eşitməyə hazır idim.

Lakin qız bu kimi sözlərdən heç birini demədi. O mənə baxaraq gülümsündü:

— Qorxuram ki, ekonom sinifdə yerlər artıq qurtarmış olsun. Biz sizi biznes sinif salonuna keçirtmək məcburiyyətindəyik. Etiraz etmirsiniz?

— Bəs siz mənim sizi öpməyimə etiraz etmirsiniz?

Mən tezliklə təyyarəyə əyləşdim. Geniş kresloda yerimi rahatladım və ayaqlarımı uzatdım.

Mən sözlə ifadə olunmayacaq dərəcədə minnətdar idim.

Amma təyyarədəki sərnişinlərin heç də hamısı mənimlə həmfikir deyildilər. Aramızdakı keçidin o biri tərəfində əyləşən kişi ona ancaq bir yastıq çatdığından çox narazı idi. O, zəif xidmət edildiyini bildirərək, salonun və sərnişinlərin gecikmiş uçuşa hazırlığı ilə məşğul olan yazıq stüardessalara şikayətlənirdi.

— Mən biznes-sinfə bilet almaqla əlavə xidmətlər üçün pul ödəmişəm və özümə qarşı bu cür münasibətə dözə bilmərəm. Mən əlavə bir yastıq da tələb edirəm.

Keçidin bu tərəfində əyləşən bəndəniz isə bilet almadan lotereya udan adam kimi gülümsünürdü. Beləliklə, bir sərnişin əsəb, digəri isə minnətdarlıq içərisində idi. Nə üçün? Məsələ ondadır ki, bu zəhlətökən kişi biznes-sinifdə uçmaq üçün pul ödəmişdi, mənim yerim isə hədiyyə idi.

Bəs sən keçidin hansı tərəfində əyləşmisən?

Əgər sən bütün dünyanı özünə borclu hesab edirsənsə, sürünməyə və deyinməyə hazır ol. Sən özünü əbədi narazılığa məhkum edirsən. Göyün üzü həmişə tutqun olacaq, ayranın da turş olacaq. Bu həyat heç vaxt sənin kimi deyingən adamı razı sala bilməyəcək. Ölənə qədər donquldanıb deyinəcəksən. «Qürurlu adam nadir halda minnətdarlıq edir. Layiq olduğu qədərinə malik olduğu onun heç ağlına da gəlmir»[1].

Minnətdar ürək isə hər günü hədiyyə kimi qəbul edir. Minnətdar insan ona çatmayan yastığa fikir vermir və malik olduqlarına daha çox diqqət yetirir. Bu yaxınlarda bir ziyafətdə iştirak etmişdim. Orada yaralı əsgərlərdən birinə ev orderi təqdim edilmişdi. O, minnətdarlıq içərisində az qala dizləri üstünə çökəcəkdi. O, çətinliklə səhnəyə qalxaraq az qala ziyafətin aparıcısını qu-

caqlayıb boğacaqdı. «Çox sağ olun! Çox sağ olun! Çox sağ olun!» — deyə dəfələrlə təkrarlayıb yaxınlıqdakı musiqiçini, birinci cərgədə əyləşən kök xanımı, ofisiantı, başqa əsgərləri və yenidən aparıcını qucaqladı. Ziyafətin sona çatmağına az qalmış onun mükafatlandırılmasında heç bir iştirakı olmayan məni də qucaqladı.

Məgər biz də bu cür minnətdar olmalı deyilikmi? İsa bizim üçün məskənlər (Yəhya 14:2-yə bax) və həmin yaralı əsgərə təqdim olunan orderdən hazırlayır. Həmin sənəd mülkiyyət üzərində hüququmuzu təsdiq edir. Bundan əlavə, İsa bizi qəlbimizi korlayan və hisslərimizi kütləşdirən günahın cüzamından sağaldıb. Yolumuza çıxan İnsan Oğlu dedi ki, biz şəfa tapdıq. Budur, möcüzə! Biz, həqiqətən, şəfa tapmışıq!

Minnətdar olan ürək minnətdarlıq üçün ən kiçik səbəbləri də sanki maqnit kimi özünə cəlb edir. Hər gecə qara məxmər səmaya saysız-hesabsız brilyantlar səpələnir. *Minnətdaram Sənə, Rəbb.* Gözlərimizin möcüzəli qurulması bu sətirləri oxumağımıza imkan verir, beynimiz isə qəbul edilən məlumatları mənimsəyir. *Minnətdaram Sənə, Rəbb*. Bizim ağ ciyərlərimiz gün ərzində on bir min litr havanı qəbul edir və buraxır. *Minnətdaram Sənə, Rəbb*. Bütün həyatımız boyu ürəyimiz təxminən üç milyard dəfə döyünür. Bizim beynimiz, həqiqətən, imkanlar generatorudur. *Minnətdaram Sənə, Rəbb*.

Xəmirin üstündəki cemə və sıyıqdakı südə; rahat büründüyüm yorğana və əhvalımı yüksəldən zarafata; Tanrının sevgisini xatırladan mülayim günəşə və bu gün uğurla yerə enən minlərlə təyyarələrə görə minnətdaram. Öz arvadlarına sadiqliklərini qoruyan ərlərə və öz ərlərini sevən qadınlara görə minnətdaram. Öz valideynlərini biabır etmək arzusu ilə alışıb yanan, lakin bunu etməmək qərarına gələn övladlara görə minnətdaram. *Minnətdaram Sənə, Rəbb*.

Minnətdarlıq çətinliklərin öhdəsindən gəlməyimizə kömək edir. Həyatımızdakı xeyir-dualar haqqında şəhadət edərək biz Tanrının uğurları və müvəffəqiyyətlərini etiraf etmiş oluruq. Onun

uğurlarını etiraf edərək biz Onun ürəyini dərk edirik. Onun ürəyini dərk etmək üçün yalnız Onun yaxşı bəxşişlərini deyil, Xeyirxahın Özünü də tanımaq lazımdır. Minnətdarlıq bizim baxışlarımızı mütləq Tanrıya cəlb edir və qorxunu unutmağa imkan verir. Günəşin ilk şüaları aşağılarda dolaşan dumanı dağıtdığı kimi minnətdarlıq da narahatlığı heç bir iz buraxmadan təmizləyir.

Tanrını sürəkli alqışlarla qarşılayan 10% şəfa alanların cərgəsinə qoşul. «Həmişə hər şeyə görə Rəbbimiz İsa Məsihin adı ilə Ata Allaha şükür edin» (Efeslilərə 5:20).

Sən öz övladını Tanrının şərəfinə adlandırmalı deyilsən, amma digər tərəfdən də niyə də yox? Hətta Onun bütün xeyir-dualarının siyahısı olan məktub yazmaq və yaxud Onu izzətləndirən himn yazmaq olar. Hansısa yetimi himayəyə götürmək olar, aztəminatlı bir ailəyə elektrik avadanlığı almaq olar və yaxud Tanrı səni övladlığa götürdüyü kimi sən də övladlığa uşaq götürə bilərsən. Uçurumdan qoruyan ən etibarlı marşrut «Minnətdaram» yazılmış yol nişanı ilə işarələnib.

Bəs faciələrlə necə olsun? Yuxusuz gecələr və arası kəsilməyən həyəcanlar barədə nə deyək? Həmin vaxtda da Tanrıya minnətdarlıq edək? «Rəbb İsa Ona xəyanət edildiyi gecə əlinə çörək götürdü, şükür edib onu böldü…» (1 Korinflilərə 11:23–24).

«Xəyanət etmək» və «minnətdar olmaq» sözlərinə eyni cümlədə tez-tez rast gəlmək olmur. Eyni ürəkdə isə bu, tamamilə nadir hallarda ola bilər. İsa və Onun şagirdləri yuxarı otaqda toplaşmışdılar. Hiyləgər Yəhuda otağın bir küncünə çəkilmişdi. Tez coşan Peter masanın böyründə uzanmışdı. Bir az da keçəndən sonra biri İsanı satacaq, digəri isə Onu inkar edəcək. İsa bunu bilə-bilə satıldığı həmin gecə Ataya minnətdarlıq etdi. İnsan üçün dəhşətli olan sınaq vaxtı İsanın ürəyi minnətdarlıqla dolu idi. İstənilən kəs günün parlaq işığında minnətdar ola bilir, lakin İsa bizə ətrafda zülmət bürüyəndə də minnətdar olmağı öyrədir.

O, səkkiz yaşlı Danielə də bunu öyrətmişdi. Dostum Rob göz yaşları içərisində dəfələrlə oğlunun çətin həyatı barədə da-

nışmışdı. Daniel sifətini eybəcərləşdirən dodaqların və damağın yarıq (dovşan dodaq və canavar ağız) formasında doğulmuşdu. O, izləri indi də görünən bir neçə əməliyyat keçirib. Buna görə də ətrafda olanlar ona diqqətlə baxırlar və hətta müxtəlif cür ifadələr də işlədənlər olur.

Amma bu, Danieli zərrə qədər də narahat etmir. Maraqlananların suallarına cavab verərək deyir ki, Tanrı onu belə yaradıb və burada heç bir problem yoxdur! Oxuduğu məktəbdə bir dəfə həftənin ən yaxşı şagirdi adını qazanıb. Belə vəziyyətdə qalib gələn uşaq sinif yoldaşlarının qarşısında irəli çıxaraq «Göstər və danış»* adlı təqdimatla çıxış etməli idi. Daniel anasına dedi ki, əməliyyata qədər olan şəkillərini sinif yoldaşlarına göstərmək istəyir. Anası həyəcanlandı.

— Əzizim, bu səni utandırmazmı? — deyə o soruşdu.

Ancaq Daniel geri çəkilmək fikrində deyildi:

— Zərrə qədər də. Mən istəyirəm ki, hamı Tanrının mənim üçün nə etdiyini görsün![2]

Danieldən nümunə götür və nə baş verəcəyini görəcəksən. Tanrı sənin üçün bir kasa xeyir-dua hazırlayıb. Oraya dolu qaşıqla minnətdarlıq əlavə et.

Oğullarımı sizə təqdim etmək istəyirəm.— Yusif bu sözlərlə oraya toplaşanlara müraciət edə bilərdi.— *Tanrı mənə unutdurdu* və *Tanrı məni bəhrəli etdi*, buraya gəlin. Onlara nə üçün belə adlar verməyimin səbəbini bilmək istəyirsiniz? Onda rahat əyləşin və Tanrının mənim üçün nələrə etdiyini sizə danışım.

---

* "Göstər və danış" — aşağı sinifdə oxuyan məktəblilərin danışıq qabiliyyətlərini inkişaf etdirmək üçün çalışma.

# FƏSİL 10

# AİLƏ İNCİKLİKLƏRİ BARƏDƏ DANIŞAQ

Ailə inciklikləri gec sağalır.

Ümid edirəm ki, sənin xoşbəxt uşaqlığın olub. Valideynlərin sənin nazını çəkib, qayğına qalıblar. Bəzi vaxtlar isə səninlə birlikdə oynayıblar. Güman edirəm ki, sənin atan hər axşam işdən evə qayıdıb, anan hər axşam yatmazdan qabaq sənin üstünü yorğanla örtüb, qardaş-bacıların isə sənin ən yaxşı dostların olublar. İnanıram ki, ailə incikliklərinə həsr olunmuş bu fəsli sən lazımsız hesab edəcəksən və sənə heç aidiyyəti olmayan bir hissə kimi yanaşacaqsan.

Əgər mən həddən artıq optimistlik edirəmsə, bil ki, sən tək deyilsən. Müqəddəs Kitabın ən məşhur ailə ağacında ciddi böhran baş verdi. Adəm öz günahını Həvvanın üstünə atdı. Qabil öz kiçik qardaşını öldürdü. İbrahim Sara ilə qohumluq əlaqəsini etiraf etmək istəmədi. Rivqa sevimli Yaqubunu düşünmədən himayə edirdi, Yaqub isə Esavı aldadaraq quldur dəstəsi ilə əlaqəyə girdi. Yaradılış Kitabı tamamilə ailə konfliktləri və qalmaqalları ilə doludur.

Yusif qardaşları tərəfindən bu cür qəddar münasibətə layiq deyildi. Sözsüz ki, onu çox yaxşı və yaxud ətrafındakılarının sevimlisi adlandırmaq olmazdı. O, qeyri-adi yuxuları ilə öyünmək və ya qardaşlarından xəbərçilik etmək fürsətini əldən bu-

raxmamışdı[1] və ailə münaqişələrində onun da payı az deyildi. Amma buna baxmayaraq, o, əvvəlcə quyuya atılmağa, sonra isə dəyərsiz qiymətə tacirlərə satılmağa layiq heç bir iş görməmişdi.

Yusifin özündən böyük on qardaşı cinayət etdi. On bir oğulun bir atası var idi, onlar bir stol arxasında yeyir və bir həyətdə oynayırdılar. Qardaşlar Yusifə qayğı göstərməli idilər, lakin onlar özlərini çox pis apardılar. Bəs ataları? Bu cür məsuliyyətli anda Yaqub övladlarının yanında olmadı.

Patriarxa hörmətimizi saxlayaraq yalnız onu deyə bilərik ki, onun ailə psixologiyasının əsasları ilə tanış olmaq imkanı olmayıb. Onun ilk səhvi sevdiyi qadınla evlənmək naminə sevmədiyi qadınla evlənməyi oldu. Onun ikinci səhvi doğma bacılarla evlənməyə vadar edilməsi oldu. (Bu, ocağın üstünə yağ tökməyə bənzəyir). Böyük bacı onun üçün oğullar dünyaya gətirdi, kiçik bacının isə övladı olmurdu. Böyük ailə sahibi olmaq arzusu ilə Yaqub arvadlarının kənizlərini də diqqətsiz qoymadı və beləliklə də məşhur nəslin törəmələri dünyaya gəldi. Nəhayət, onun sevimli arvadı Rəhilə Yaqubun göz-bəbəyinə çevrilən Yusifi dünyaya gətirdi. Onların ikinci oğlu Binyamini doğanda Rəhilə öldü. Kədər içərisində olan Yaqub, sözün əsl mənasında problemli ailənin başçısı oldu.

Yaqub kənar müşahidəçi mövqeyini tutdu. Yusif dikbaşlıq edərək qardaşlarının ona təzim edəcəklərini bildirəndə Yaqub susdu. Oğullarının qoyunları otarmaq üçün Şekem əyalətinə getdiklərini eşitdi. Oranın bütün kişiləri keçmişdə Yaqubun oğulları tərəfindən məhv edilmişdi. O vaxt onları dayandırmaq üçün Yaqub barmağını tərpətmişdimi? Xeyr. O, Yusifi vəziyyətlərini öyrənib məlumat gətirməsi üçün onların dalınca göndərdi. Yaqub öz məsuliyyətini oğlunun çiyinlərinə qoydu.

Məsuliyyətsiz ata. Özbaşına oğullar.

Oğullara ata lazım idi, ata mütləq oğullarına qarşı münasibəti dəyişməli idi, Yusif üçün isə müdafiəçi tələb olunurdu. Ancaq potensial müdafiəçi — doğma ata heç cür özünü büruzə vermirdi və lazım olan nəzarətin olmaması Yusif üçün pis qurtardı.

Əvvəlcə Yusif keçmişi haqqında xatırlamaq istəmədi. Qardaşlarını yenidən görəndə, o, təxminən on il olardı ki, Misirin baş naziri işləyirdi. Onun boynunu üzərində qartal emblemi olan iri qızıl boyunbağı, barmağını isə fironun möhürü olan üzük bəzəyirdi. Qana bulaşmış rəngarəng paltarı padşah libası ilə əvəz olunmuşdu. Kənan torpağından olan gəncin karyerası pis deyildi.

Harasa getmək ixtiyarı olan Yusif Kənana qayıtmamaq qərarına gəldi. O, ordu toplayaraq qardaşları ilə haqq-hesab çürütməyə gedə bilərdimi? Bəli, onun belə imkanı var idi. Bəs atasının arxasınca kimisə göndərmək? Yaxud ən azından onunla əlaqə saxlamaq? Hər halda bütün məsələlərə aydınlıq gətirmək üçün Yusifin ixtiyarında səkkiz il var idi. Yusif ailəsinin harada olduğunu bilərək onları axtarmamaq qərarına gəldi. O, sağalmamış ailə sirlərinə toxunmamağı, keçmişi keçmişdə saxlamağı daha uyğun hesab etdi.

Amma Tanrı başqa cür düşünürdü. Ailələrin birləşməsi Tanrı üçün böyük əhəmiyyət kəsb edir. İnsan ürəyinin sağalmasına onun keçmişinin sağalması daxildir. Buna görə də Tanrı Yusifin şkafındakı toz basmış dünyasına süpürgə çəkmək qərarına gəldi.

«Bütün ölkələrin adamları taxıl almaq üçün Misirə, Yusifin yanına gəlirdilər, çünki bütün yer üzündə şiddətli aclıq idi» (Yaradılış 41:57). Baxın, görün, burada, misirlilərin yadellilərə qarşı xeyirxahlığını axtaranların bitib-tükənməyən cərgələrində kimlər ortaya çıxdı? «Yusifin on qardaşı taxıl almaq üçün Misirə getdi» (Yaradılış 42:3).

Yusif onları görməmişdən öncə səslərini eşitdi. İbranicə danışıq onun qulağına çatanda o, xidmətçilərin suallarına cavab verirdi. Bu, sadəcə doğma dil deyildi, onun ailəsinə məxsus sözlər idi. Hökmdar səbirsiz hərəkətlə xidmətçisinə susmaq işarəsi verdi. Sonra boylandı və kütlənin arasında qardaşlarını gördü.

Saçlarının ağarmasına və dazlaşmalarına baxmayaraq, Yusif onları tanıdı. Acından codlaşmış və arıqlamış sifətləri solğun

idi və tərli bədənlərinə yapışmış paltarları kimi yolun tozuna bulaşmışdı. Sivilizasiyalı və savadlı misirlilərin yanında onlar o qədər qəribə görünürdülər ki, sanki Tayms-skverdə* hansısa kəndli zühur etmişdi. Qardaşlar buğda almaq üçün Yusifə müraciət növbələri çatanda, onu tanımadılar. Yusifin üzü təmiz qırxılmışdı, paltarı padşah libası kimi təmtəraqlı idi, özü də Misir dilində danışırdı. Gözünün ətrafına rəng çəkilmişdi, başında şləmə bənzər parik var idi. Qarşılarında dayananın kiçik qardaşları Yusif olduğu onların heç ağlına da gəlmirdi.

Misir hökmdarının ibrani dilini bilmədiyini düşünən qardaşlar ona mimika və işarələrin köməyilə müraciət etdilər. Onlar əvvəlcə buğda dərzlərini, sonra isə öz ağızlarını göstərərək əlində pul kisəsi olan qardaşlarına qabağa çıxması üçün işarə etdilər. O isə tələsərək irəli çıxdı, dili topuq vurdu və qəpikləri ətrafa səpələdi.

Ətrafa səpələnən gümüşləri görəndə Yusifin dodaqları nifrətlə əyildi, ürəyi bulanmağa başladı. O, ilk övladının adını *Tanrı mənə unutdurdu* qoymuşdu, lakin pulları görəndə heç nəyi unutmadığını başa düşdü. Axırıncı dəfə Yusif Yaqubun böyük oğullarının əlində pulları görəndə onlar gülürdülər, o isə ona rəhm etmələri üçün yalvarırdı. Həmin gün o, bu üzlərə quyunun dibindən baxır, heç olmasa bir dənə dost siması görməyə çalışırdı, amma birini də tapmadı. İndi isə onlar ona pul təklif etməyə cəsarət edirlər?

Yusif ibranicə danışmağı bacaran xidmətçini çağırmalarını əmr etdi, qaşlarını çatıb qaşqabaqla qardaşlarına baxdı. «…Ancaq onlarla yad adam kimi rəftar edərək sərt danışdı» (Yaradılış 42:7).

Yuxudan vaxtından tez oyadılan gecə keşikçisinin səsini təsəvvür edirəm.

— Kimsiniz? Haradan gəlmisiniz?

Qardaşlar az qala alınları yerə dəyənə qədər biçilmiş ot kimi yerə sərildilər. Bu, Yusifin çoxdan gördüyü yuxusunu yadına saldı.

---

* Tayms-skver — Nyu-Yorkda Manhettenin mərkəzi hissəsində meydan, şəhərin ən məşhur yerlərindən biri.

— E-e-e, biz Kənandan elə indi gəlmişik. Ola bilsin ki, hökmdar bizim ölkə barədə eşidib?

Yusif qaşqabaqlı vəziyyətdə dayanmağa davam edərək iti baxışlarla qardaşlarını süzürdü:

— Nə isə şübhəli görünürsünüz. Keşikçi, bu casusları zindana atın! Onlar bizim ölkəyə pis niyyətlə soxulublar.

On qardaş hamısı birlikdə çığır-bağır etməyə başladı:

— Alihəzrət cənabları! Hörmətli cənab! Mötəbər cənab! Siz bizi düzgün başa düşmədiniz! Biz ləyaqətli insanlarıq, alın tərimizlə çörəyimizi qazanırıq. Biz hamımız böyük bir ailənin üzvləriyik. Bu Şimeondur, bu isə Yəhudadır… Biz, ümumiyyətlə, on iki qardaşıq. Hər halda, əvvəllər on iki olmuşuq. «…Kiçik qardaşımız indi atamızın yanındadır, bir qardaşımız isə yoxa çıxıb» (Yaradılış 42:13).

Yusif bu sözləri eşidərkən boğazına tıxanan qəhəri uddu. Son iyirmi ildə o, ilk dəfə olaraq ailəsi haqqında eşidirdi. Atası sağ idi. Binyamin sağ idi. Onların hamısı Yusifin ölməsindən əmin idilər.

— Bax belə…— Yusif qardaşlarının sözünü kəsdi.— Mən sizlərdən birini kiçik qardaşınızı buraya gətirmək üçün buraxacam. Qalanlarınızı isə zindana saldıracağam.

Yusifin bu qərarı ilə onların əllərini və ayaqlarını bağladılar. Başının bir hərəkəti ilə qardaşlarını həbsxanaya göndərdi. Çox güman ki, bu, özünün iki il yatdığı zindan idi.

Hadisələr çox qəribə şəkildə cərəyan edir: kobudluq, zülm, sürgünlük, münasibətlərin tamamilə dağılması!.. Bütün bunlar Yusifin və onun qardaşlarının həyatında olmuşdu, ancaq indi onların yeri dəyişmişdi. Əvvəlcə qardaşlar ona qarşı əlbir oldular, indi isə o onlara qarşı quyu qazırdı. Nə vaxtsa qardaşlar sözlərinə görə utanmırdılar, indi isə onun intiqamının vaxtı idi. Onlar Yusifi quyuya atdılar və onun kömək üçün etdiyi yalvarışlara əhəmiyyət vermədilər. İndi isə soyuq münasibət göstərmək üçün onun zamanı gəlmişdi.

Axı nə baş verirdi?

Mənə elə gəlir ki, Yusif necə hərəkət edəcəyinə dair qərar verməyə çalışırdı. Onun qarşısında ölkədəki aclıq probleminin həll edilməsi ilə müqayisədə daha çətin tapşırıq dayanmışdı. O, xanım Potifarın qarşısında titrəmədi, yüksək vəzifəyə təyin edilməsinin öhdəsindən layiqincə gəldi, bəs doğma qardaşları ilə görüşərkən onu bürüyən ağrı və nifrət dalğası ilə necə etsin? Yusif nə edəcəyini bilmirdi.

Bəlkə sən də?

Ailə sənin üçün dünyanın ən təhlükəsiz yeri olmadı. Uşaqlığını həyatının ən çətin dövrü kimi xatırlayırsan. Sənin qayğına qalmalı olan insan öz məsuliyyətinin öhdəsindən gəlmədi. Amma sən də adam olub ortalığa çıxmaq üçün Yusif kimi əlindən gələn hər şeyi etmisən. Sən hətta ailə həyatı qurub son dəfə arxa güzgüdən vida baxışları ilə süzərək Kənanı birdəfəlik tərk etməyə hazırsan. Tanrı isə buna hazır deyil.

Rəbb mövcudluğundan xəbərimiz belə olmayan qəlb yaralarımızı sağaldaraq bizə dilədiyimizdən artığını verir. O, təkcə bizim ürəyimizə hakim olmaq istəmir, həm də ona şəfa vermək istəyir. Nə üçün? Çünki yaralı insan ətrafdakıları da yaralayır. Bu barədə düşün. Sən nə üçün özündən çıxırsan? Nə üçün münaqişələrdən qaçmağa çalışırsan? Nə üçün hamını razı salmağa çalışırsan? Bəlkə sənin davranışın ürəyinin sağalmamış yaralarından qidalanır? Tanrı sənin ürəyini sənin öz xeyrin üçün sağaltmaq istəyir.

Nəinki sənin, eləcə də uşaqlarının xatirinə. Tutaq ki, Yusif qardaşları ilə barışmaq istəmədi. Bir qədər fikirləşəndən sonra o, qardaşları ilə bütün əlaqələri kəsdi. Babalı öz boyunlarına deyib, heç ağlına da gətirmədi ki, İsrail xalqının xilası üçün Tanrının planının uğur qazanması onun mərhəmətli olmasından asılı idi. Bütün xalqın gələcəyi həll olunacaqdı.

Gizlətməyəcəm: bir çox insanların gələcəyi də səndən asılıdır. Bir neçə il bundan qabaq yaxın dostumu gecə vaxtı keçmiş həyat yoldaşı tərəfindən qətlə yetirilmiş atasının meyitini tanıması üçün meyitxanaya çağırdılar. Həlledici atəş bu ailədə olan qəzəb

və zorakılıq alovunun uzun zəncirindəki çoxsaylı epizodlardan biri idi. Mənim dostum atasının cansız cəsədinə baxaraq qəbul verdiyi qərarı yaxşı xatırlayır: «*Mənim həyatımda zorakılığın kölgəsi belə olmayacaq*». (O öz sözünün üstündə dayandı.)

Sən də bu cür qərar ver. Bəli, sənin ailənin də həyatında bəzi kədərli səhifələr var. Lakin ailənin hekayəsi sənin gələcəyini diktə etməli deyil. Keçmiş nəsillərin səhvlərini və yanlışlarını elə indi burada buraxmaq olar. Sən əcdadlarından miras aldıqlarını öz övladlarına ötürməyə məcbur deyilsən.

Ailəndəki incikliklər və səni incidənlər barədə Tanrı ilə danış. Bəzi biabırçı hadisələri sənə xatırlatmasını Ondan xahiş et. Gizlin olanı aşkara çıxart. Yusif əbəs yerə kədərli xatirələrə dalmadı: bizə mənəvi yaralar vuran ağrılı təfərrüatların aşkara çıxması şəfaya aparır. «*Rəbb, atamı bağışlamağıma kömək et*» — konkret olmayan belə dualar az əhəmiyyətlidir. Sənin ürəyini məhz nəyin yaraladığını xatırla. «*Rəbb, atam demək olar ki, mənim həyatımda olmayıb. O, hətta mənim doğum günlərimdə də iştirak etməyib. Mən buna görə ona nifrət etmişəm*»

Yaxud da belə: *«Mən hər gün məktəbdən evə qayıdanda anamı divana sərilmiş vəziyyətdə görürdüm. O, çox zaman sərxoş olurdu. Mən özümə yemək hazırlamalı, kiçik qardaşımın qayğısına qalmalı, ev tapşırıqlarını yerinə yetirməli idim. Bu, ədalətsizlikdir, Rəbb!»*

Bu cür qərar çıxartmaq asan deyil. Sənin ürəyindəki ruhani əməliyyatı başa çatdırmaq üçün Tanrıya icazə ver. Şəfa müddəti uzana bilər. Bəzən bu cür reabilitasiya bütün ömrümüz boyu davam edir. Ailə yaraları ən dərin yaralardan biridir. Çünki onlar çox erkən yaşlarda və həddən artıq etibar etdiyimiz insanlar tərəfindən vurulur. Sən çox kiçik idin və səninlə pis rəftar edildiyini dərk etmirdin. Sən özünü necə müdafiə edəcəyini bilmirdin. Bundan əlavə, sənin əzablarında iştirak edənlər o qədər böyük insanlar idi ki! Atan, anan, əmin, dayın, böyük qardaşın təkcə boyuna görə deyil, nüfuzlarına görə də səndən yüksək idilər.

Onlar sənin barəndə öz hökmlərini verəndə sən onlara inandın. Bütün bu müddət ərzində sən özün haqqında tamamilə səhv

təsəvvürlərdən qaynaqlanaraq düşünmüsən. «Sən kütbeyinsən… maymaqsan… eybəcər, elə bil atasının burnundan düşüb… Sən anan kimi gonbulsan…». Bir neçə on illiklər keçməsinə baxmayaraq, sənin ürəyini yaralayan bu sözlər hələ də yaddaşında yaşayır.

Ancaq bu səslər susmalıdır! «Bu dövrə uyğunlaşmayın, əksinə, düşüncənizin təzələnməsi ilə dəyişin ki, Allahın yaxşı, razı salan və kamil iradəsini ayırd edəsiniz» (Romalılara 12:2). «…Boya-başa çatdıqda isə körpə fikirlərimi tərk etdim» (1 Korinflilərə 13:11). Sən doğmalarının dediyi kimi deyilsən. Sən Tanrının övladısan, Onun ailəsinin bir hissəsisən. Sən Tanrının əsərisən, göylər səni gözləyir. Tanrıya səni keçmişinlə barışdırmasına icazə ver.

Yusif buna icazə verdi. Barışma prosesi uzun və çətin oldu. Onun təsviri Müqəddəs Kitabın dörd fəslini, demək olar ki, Yusifin həyatının bir təqvim ilini əhatə edir. Lakin o, ilk addımını ağlasığmaz dərəcədə tez atdı. Tərəddüdlü olsa da, addım atılmışdı: üç gündən sonra Yusif zülmkar surətindən çıxmasa da qardaşlarını həbsdən azad etdirdi.

— Tez olun gedin görüm, onun adı nə idi? Kanzas? Kolorado? Ah, hə, yadıma düşdü, Kənan torpağı. Kənana gedib dərhal geriyə qayıdın. Sizin barəsində danışdığınız kiçik qardaşınızı öz gözlərimlə görmək istəyirəm. Sizlərdən birini, bəli, hamınızı deyil, birinizi girov saxlayacam.

Qardaşlar razılaşdılar və düz Yusifin qarşısında ona hücum çəkdikləri o günlərin hadisələrini xatırladılar. Onlar bir-birlərinə dedilər: «Doğrudan da, biz qardaşımızın qarşısında təqsirkarıq. O bizə yalvardığı vaxt çəkdiyi əziyyəti gördük, ancaq ona qulaq asmadıq. Buna görə də başımıza bu bəla gəldi» (Yaradılış 42:21).

Yad ölkənin hökmdarının onların doğma dilini başa düşməsi heç ağıllarına da gəlmirdi. Amma o, hər bir sözü başa düşürdü. Yusif deyilənləri eşidəndə gözlərinin yaşla dolduğunu heç kim görməsin deyə, tələsik üzünü çevirdi. O, bir neçə dəqiqə onu boğan hönkürtünü saxlayıb bir kəlmə belə deyə bilmədi.

Çünki sərt hökmdar tabeçiliyində olanların yanında göz yaşı axıtmamalı idi. Lakin kənar gözlərdən gizlənərək hönkürtü ilə ağladı. Sonradan məlum olduğu kimi, bu, Yusifin həyatında sonuncu göz yaşları olmayacaqdı[2]. O, nə etdiyi xidmətlərə görə Potifar tərəfindən təriflənəndə, nə də fironun şəxsən özü tərəfindən yüksək vəzifəyə təyin olunanda kövrəlməmişdi, amma qardaşlarının onu unutmadıqlarını başa düşəndə, körpə uşaq kimi hönkürdü. O, doğmalarını Kənana yola salanda onların yəhərlərini ağzına qədər buğda ilə doldurmağı əmr etdi. Bu, mərhəmətin təcəssümü idi.

Gördüyümüz kimi, doğma münasibətlərin şəfa prosesi bu cür xırdalıqdan başlandı. Əgər Tanrı Yusifin ailəsini birləşdirdisə, sənin ailəni birləşdirməyəcəyini necə düşünə bilərsən?

# FƏSİL 11

# QİSAS ŞİRİNDİR, LAKİN SONRA…

1882-ci ildə nyu-yorklu biznesmen Cozef Riçardsonun Leksinqton küçəsində ensiz torpaq sahəsi var idi. Ərazi çox kiçik idi: otuz iki metr uzunu və metr yarım eni var idi. Günlərin bir günü digər biznesmen, qonşuluqdakı müqayisə edilməz dərəcədə böyük ölçülü sahənin sahibi Hayman Sarner fasadı avenyuya tərəf olan çoxmənzilli ev tikmək qərarına gəldi. O, Riçardsonun ərazisini almaq üçün ona min dollar təklif etdi. Bu məbləği özünə təhqir hesab edən Riçardson ona beş min ödənilməsini tələb etdi. Sarner etiraz etdi. Riçardson onu xəsis adlandıraraq qapını arxasınca çırpdı.

Mübahisəli ərazinin onun istədiyi tikintiyə kifayət etməyəcəyini düşünən Sarner layihənin yenidən işlənib hazırlanması üçün arxitektora tapşırıq verdi. Riçardson tikilib qurtarmış çoxmənzilli binanı görəndə, onun sakinlərini pəncərədən açılan gözəl mənzərədən məhrum etmək qərarına gəldi. Belə ki, heç kim pulsuz onun şəxsi mülkü olan küçəyə baxıb zövq ala bilməyəcəkdi.

Beləliklə, yetmiş yaşlı Riçardson uzunluğu otuz iki, eni metr yarım olan dörd mərtəbəli ev tikdirdi. Hər mərtəbədə çoxotaqlı iki mənzil var idi. İnşaat işləri tamamlanıb qurtarandan sonra o, həyat yoldaşı ilə mənzillərdən birinə köçdü.

Bina o qədər ensiz idi ki, ancaq bir nəfər pilləkənlə qalxa, yaxud dəhlizdə yeriyə bilərdi. İki nəfərin yanaşı getməsi mümkün deyildi. Heç bir otaqda eni qırx iki santimetrdən çox olan nahar stolu tapmaq mümkün deyildi, xırda mətbəx sobası isə sifarişlə hazırlanmışdı. Bir dəfə həddən artıq iri bədən quruluşuna malik olan qəzet müxbiri pilləkəndə pərçim olub qalmışdı. Sakinlərdən ikisi ona kömək etməyə çalışsalar da, uğurlu nəticə əldə edə bilməmişdilər. Nəhayət, o, alt paltarına qədər soyunduqdan sonra oradan çıxa bilmişdi.

Bu bina Kin evi adını almışdı. Ömrünün son on dörd ilini Riçardson qəlbinin və dünyagörüşünün darlığını çox yaxşı xarakterizə edən bu ensiz qəfəsdə keçirtdi[1].

1915-ci ildə Kin evi söküldü. Amma yaxşı yadımdadır ki, keçən il mən orada iki dəfə gecələmişəm. Bir neçə il bundan qabaq isə bir neçə həftə «ilişib» qalmışam. Məgər sən də bu yaxında həmin dəhlizdə sıxılıb qalmamışdınmı? Nəyisə səhv salıramsa, bağışla.

Qisas yaşayış üçün yararlı olmayan eybəcər binalar əmələ gətirir. Orada bir nəfər üçün də darısqaldır. Oraya yerləşən kirayənişinlərin bircə məqsədləri var: kiminsə həyatını dözülməz etmək. Onlar qoyulan məqsədə nail olurlar, amma eyni zamanda öz həyatlarını da dözülməz edirlər.

Rəbbin belə öyüd verməsi təəccüblü deyil: «…aranızda bir acı kök böyüyüb əziyyət verməsin və bununla bir çoxlarını murdar etməsin» (İbranilərə 12:15).

Tanrının şəfası Kin evini tərk etməyi, düşmənçiliyin dar dünyasından lütfün genişliyinə çıxmağı, tərslikdən əl çəkərək bağışlanmaya tərəf hərəkət etməyi təklif edir. Tanrı keçmişimizə şəfa verərək bizi irəli aparır.

Doğrudanmı, bu, mümkündür? Bütün bu anlaşılmazlıqlardan necə baş çıxartmalı? Keçmişdə baş verən cinsi təcavüzü necə düzəltmək olar? Ananı tərk etmiş atana qarşı olan kor-koranə qəzəbi necə soyutmaq olar? Hər dəfə səni adam yerinə qoymayanlar barədə düşünəndə, qəlbini sıxan nifrətdən necə

qurtula bilərsən? Tanrı illərlə qan ağlayan ürəyi doğrudanmı sağaldacaq?

Həmin suallar Yusifə də əzab verirdi. Razılaş ki, on qardaşın səni pişik kimi qovub rədd etmələrini və birdəfəlik üz çevirib getmələrini unutmaq çətindir. Bax, buna görə də Yusif onlara həmin tərzdə cavab verdi. Onları dəhşətli ehtiyac içərisində təhqir etdi, xainlikdə ittiham edərək zindana atdırdı. «Payınızı alın, yaramazlar!»

Səni deyə bilmərəm, amma məni Yusifdə də insana məxsus zəifliklərin olması sevindirir.

O, köləliyə dözərək, qərib yerdə uğur qazandı, əcnəbi dili öyrəndi, ehtiras sınağının hücumu qarşısında titrəmədən payına düşən əzabların öhdəsindən asanlıqla gəldi. O, nümunəvi məhbus və nümunəvi baş nazir idi. Gözəl günlərin birində onun başı üzərində halə şöləlnsəydi, təəccüblənməzdim. Məntiqlə Yusif qardaşlarını görəndə, əllərini göyə qaldırıb belə nida etməli idi: «Ata! onları bağışla, çünki nə etdiklərini bilmirlər» (Luka 23:34). Lakin o, başqa cür hərəkət etdi və bu, təəccüblü deyil, çünki bağışlamaq asan məsələ deyil. Acları yedizdirmək, firona müdrik məsləhətlər vermək, Rəbb istəyərsə Levililər Kitabını əzbər öyrənmək daha asandır.

Amma…

> Qəzəblənərkən günah işlətməyin. Günəş batmazdan əvvəl qəzəbinizi soyudun…
>
> *Efeslilərə 4:26*

> Qoy hər cür kinlə birlikdə acılıq, hiddət, qəzəb, çığırtı, böhtançılıq büsbütün sizdən uzaq olsun.
>
> *Efeslilərə 4:31*

> Rəbb sizi bağışladığı kimi siz də bağışlayın.
>
> *Kolosselilərə 3:13*

Rəbb, sən zarafat edirsən?

Mənim bir rəfiqəm var. Altı yaşı olanda anası onu xeyirxah, lakin gəlinciklər, pal-paltar, oğlanla görüş barədə anlayışı olmayan atasına tapşırıb hansısa tacirə qoşulub qaçmışdı. O da bacardığı kimi, yaxşı-pis qızını bir təhər böyütmüşdü. Bu yaxınlarda anası onun həyatında peyda olmuşdu, lap kənanlı qohumlar kimi. Qadın qızını bir fincan qəhvə içməyə dəvət edərək demişdi: «Əzizim, səni tərk etdiyim üçün məni bağışla». Bu qadın qızının həyatında yenidən yer tutmaq istəyirdi.

Rəfiqəmin ilk fikri belə oldu: «*Necə yəni, elə bu? Bir fincan qəhvə, üzrxahlıq və mən səni bağışlamalıyam?*» Çox sadə deyilmi? Həmin ana eyni əzabı yaşamalı deyildimi? Bütün illər boyu qızını bir daha görə bilməyəcəyi barədə fikirlərlə əzab çəkmək. Bir neçə yuxusuz gecə ədaləti bərqərar edə bilərdimi? Axı bu qızın mənəvi əzablarını Tanrının «səni incidənləri bağışla» əmrinə necə uyğunlaşdırmaq olar? Bu vəziyyətdə az da olsa qisas almaq yerinə düşməzdimi?

Sən burada haqlısan. Sən bilməlisən ki, Tanrı ədalətliliklə bağlı məsələlərdə bizdən daha çox qayğı çəkir. Heç olmasa həvari Paulun sözlərini xatırla: «Heç kimə pislik əvəzinə pislik etməyin… <…> Ey sevimlilər, heç kəsdən qisas almayın, Allahın qəzəbinə yer verin. Çünki yazılıb ki, Rəbb belə deyir: «Qisas Mənimdir, əvəzini Mən verəcəyəm» (Romalılara 12:17, 19).

Gecə qəflətən evimizə soxulan caninin tapılmayacağı və cəzasız qalacağı barədə qorxulu fikirlər bizə əzab verir. Birdən o, Ficiyə qaçar, orada qumun üzərində əylənərək kokteyl içər. Narahat olma. Müqəddəs Yazılarda: «Tanrı *ola bilsin ki,* əvəzini verəcək» deyil, «Tanrı *əvəzini verəcək*» yazılıb. Tanrı həqiqi və ədalətli məhkəməni idarə edir. Əyani nümunə istəyirsən? Yusifin həyatındakı gözlənilməz dönüşə hazır ol.

Beləliklə, o, üç gündən sonra bütün qardaşlarını həbsxanadan azadlığa buraxdırdı. Yalnız birini girov kimi saxlatdırdı. Qardaşlar baş verənlərin hamısını artıq çox zəifləmiş və əldən düşmüş atalarına danışmaq üçün Kənana qayıtdılar. Onlar məlumat verdilər ki, kiçik qardaşları Binyaminlə geri qayıdana kimi Şimeon Misir

həbsxanasında qalacaq. «Ataları Yaqub onlara dedi: «Siz məni övladsız qoydunuz. Yusif yox, Şimeon yox, Binyamini də aparacaqsınız. Bütün bunları mənim başıma gətirmək istəyirsiniz» (Yaradılış 42:36).

Ay səni, yaramaz: öz sevimlisini ərköyün etdi, uşaqların tərbiyəsini başlı-başına buraxdı, özü üçün hərəmxana yaratdı, oğlunun zindana salındığını eşitdikdə isə, özünü yazıq vəziyyətinə saldı. Ay, səni! Bu ailədə bu cür qarmaqarışıqlığın hökm sürməsi təəccüblü deyil.

Lakin davamını oxuduqca günəşin şüalarının buludların arxasından çıxdığını görürük. Nə vaxtsa Yusifdən qurtulmaq istəyən Yəhuda irəli addımlayaraq bu sözləri dedi: «Uşağı mənimlə göndər ki, qalxıb gedək. Sən də, biz də, uşaqlarımız da ölməyib sağ qalarıq. Mən ona zamin dururam, onu məndən tələb edərsən. Əgər onu sənin yanına gətirib qarşında dayandırmasam, ömrüm boyu önündə təqsirkar olacağam» (Yaradılış 43:8–9).

Dayan, bu, həmin Yəhudadır? «Gəlin onu [Yusifi] İsmaillilərə sataq…» (Yaradılış 37:27) deyən adamdır? Qul tacirləri ilə mübahisə edən həmin qardaş?

Həm bəli, həm də xeyr.

Aydın olur ki, barəsində danışılan Yəhuda da bu vaxtlar ərzində quyuda olmuşdu. Yusiflə hesablaşandan sonra üç oğul atası olan Yəhudanın başına bunlar gəldi. O özünün böyük oğlunu Tamar adlı qızla evləndirdi. Lakin az müddətdən sonra oğlu öldü. O dövrün ənənəsinə əsasən Tamarı ikinci oğluna aldı. Amma ikinci oğlu da onun ümidlərini doğrultmayıb öldü. Yəhuda Tamarın onun ailəsinə ancaq bədbəxtlik gətirdiyini düşündü və üçüncü oğlunu da həmin aqibətin gözləyəcəyindən ehtiyat edərək, onun üçüncü dəfə ərə verilməsinə tələsmədi.

Sonra Yəhuda özü də dul qaldı. Tamar keçmiş qayınatasının şəhərə gəldiyini eşidəndə, çox güman ki, özünün elektron məktubuna cavab gözləməyərək, uzadılmış dulluğun sona çatma vaxtının gəldiyini düşündü və bu problemin həllinə qeyri-adi şəkildə qərar verdi. Zinakar qadın paltarı geyinən Tamar Yə-

hudaya görüşməyi təklif etdi və o, bundan imtina edə bilmədi. Öz gəlini ilə yatdığını ağlına belə gətirməyən Yəhuda pozğun qadının xidmətinin əvəzində öz möhürünü, qaytanını və əsasını ona verdi. (Ah, ehtiras kişiləri necə kor edərmiş!) Tamar hamilə qaldı. Üç aydan sonra o, yenidən Yəhudanın qarşısına Tamar kimi çıxdı, bu dəfə *hamilə* Tamar kimi. Yəhuda onu qəzəb və nifrətlə qarşıladı. Günahkarı oda təslim etməyi tələb etdi. Ancaq Tamar nə vaxtsa Yəhudaya məxsus olan möhürü, qaytanı və əsanı təqdim etdi. O da öz atalığını təsdiq etməli oldu. Günah üstündə tutulmuş Yəhuda ailənin gözündə biabır olmuşdu.

Dairə qapanmışdı. Yaqubu aldadan Yəhuda özü aldadılmışdı. Yusifi tələyə salan Yəhuda özü tələyə düşmüşdü. Yusifi alçaldan Yəhuda özü alçalmışdı. Yəhudanın üzərinə Tanrının qisası gəlmişdi və o düşünərək etiraf etdi: «O məndən haqlıdır…» (Yaradılış 38:26).

Yusifin hekayəsinin ortasında nə üçün Yəhudanın «qəhrəmanlıqlarından» bəhs edilməsi məni uzun illər düşündürmüşdü. Başlanğıcını 37-ci fəsildə Yusifin yuxularından və onun qardaşlarının hiyləgər xəyanətindən götürən süjet xətti 38-ci fəsildə kələkbaz Yəhuda və özünü yalandan zinakar qadın kimi aparan Tamar, onun qəflətən vəfat etmiş ərləri və Tamarın dul statusu ilə bağlı atdığı riskli addım haqqındakı qəribə xəbərin başlanması ilə qəflətən kəsilir. Lakin indi mən ard-arda düzülmüş bu süjet xəttinin nə üçün lazım olduğunu başa düşürəm.

Yaqubun ailəsində hansısa müsbət dəyişikliklərin baş verməsi üçün kimsə böyümək məcburiyyətində qalmalı idi. Əgər ata etmədisə, onda oğullardan kiməsə özünü böyük kişi kimi aparmalı və öz hərəkətlərinə görə cavabdehlik daşımalı idi. Tanrı Yəhudanın əkdiyini biçməsinə imkan verərək onun ruhani inkişaf etməsinə kömək etdi. Nəhayət, Yəhudaya çatdı! O, ailənin maraqlarını müdafiə etməyə başladı. Atasına ciddi məsləhət verdi. Binyaminin təhlükəsizliyinə zəmanət verdi və onun Misirə aparılması ilə bağlı istənilən uğursuzluğa görə qanun qarşısında cavab verməyə hazır olduğunu bildirdi. Yəhudanın

vicdanı oyanmışdı, Yusif isə bunun baş verməsi üçün barmağını belə tərpətməmişdi.

Beləliklə, *qisas* Tanrıya məxsusdur. O, ya Hökm günü, ya da incidənin həyatının hansısa mərhələsində cavab verəcək. Bu hadisə nəyə işarə edir? Tanrı istənilən Yəhudanın hisslərini oyada bilər, istənilən rüşvətxor məmurun əllərinə vura bilər, istənilən qəzəbli valideynin ürəyini yumşalda bilər. Sənin keçmiş həyat yoldaşını diz üstə çökdürmək və yaxud onu ağıllandırmaq Tanrı üçün çətin iş deyil. Sən bağışlayarkən ədalətli qisasdan məhrum olmursan, onun icrasını Tanrıya tapşırırsan. O isə qisas alacağına zəmanət verir. Amma biz qisas alanda, qisasımız ya həddən artıq olur, ya da kifayət qədər olmur. Lakin Ədalətli Hakim Özü iş başına keçirsə, Onun təcrübəsinə şübhə etməyə bilərsiniz.

Bizdən fərqli olaraq, Tanrı adamın üstündən xətt çəkmir. Heç vaxt! Bizim yaramaz insanı siyahıdan çıxartmağımızdan uzun zaman keçməyinə baxmayaraq, Rəbb onun vicdanını oyatmaq üçün cəhd etməyə, onun düşüncəsinə toxunmağa və son nəticədə onu tövbəyə yönəltməyə davam edir.

Düşmənlərlə haqq-hesab çürütmək? Axı bu Tanrının məsuliyyətidir. Düşmənləri bağışlamaq? Bax, bu, bizim tapşırığımızdır. Başqası deyil, biz bağışlamalıyıq. «Qəzəblənərkən günah işlətməyin. Günəş batmazdan əvvəl qəzəbinizi soyudub iblisə yer verməyin» (Efeslilərə 4:26:27). Yunanca *topos*[2] kimi səslənən «yer» sözü «topoqrafiya» sözü ilə eyniköklüdür, hansısa ərazini və yaxud torpaq sahəsini nəzərdə tutur. Maraqlıdır, elə deyilmi? Sən demə, biz qəzəblənərkən ürəklərimizi iblisin ixtiyarına veririk. İnciklik onun bizim ürəyimizdə məskən salmasına, başqa sözlə qeydiyyata düşməsinə imkan verir. İnan ki, o, fürsətdən istifadə etməyi gecikdirməyəcək və zəbt etdiyi ərazini dəhşətli dərəcədə bulaşdıracaq. Qeybət, dedi-qodu, hirs. Hər dəfə bu kiçik zəiflikləri edəndə, biz iblisə sandığını açmağa icazə veririk.

Xirtdəyindən yapış onu rədd elə. Hətta bircə sutka qalmasına imkan vermə. İsa Məsihin adı ilə ona əşyalarını yığışdırıb rədd olmasını əmr elə. Bağışlamağa başla və sənə qarşı edilən pis-

liklərin siyahısını tutma. Səni incidənlərdən necə qisas almağı planlaşdırmaqdansa, onlar üçün dua et. Səni dağıdanlar deyil, dağıntılar qəzəbləndirməlidir. Öz fikrini *onların* deyil, İsa Məsihin *sənin üçün* etdiklərinin üzərində cəmlə. Səncə, bu, yaxşı deyil? Axı İsa Məsih onlar üçün də ölüb. Əgər O səni incidənləri bağışlanmaya layiq sayırsa, deməli, bu elə belə də olmalıdır. Bu fikir bağışlamaq üçün kömək edəcəkmi? Xeyr. Bəlkə bağışlama prosesini sürətləndirəcək? Çətin ki. Bəlkə az da olsa əziyyəti azaldacaq? Bilmirəm. Yusif əzab çəkirdi.

Qardaşlar Kənandan Binyaminlə birlikdə qayıtdılar. Yusif onların şərəfinə təntənəli ziyafət qurdu. Onlardan Yaqub barədə soruşdu. Binyamini gördüyünə görə sevindi, amma yenə də özünü tanıtmadı. «…Ey oğlum, Allah sənə lütf etsin» (Yaradılış 43:29) — deyərək göz yaşlarını axıtmaq üçün tələsik zalı tərk etdi.

Yusif qardaşları ilə birlikdə yeyib-içmək üçün geri qayıtdı. Onlar böyük-kiçikliyinə görə Yusifin qarşısında oturanda, o, Binyaminə daha çox qonaqpərvərlik göstərdi. Hər dəfə qardaşların qarşısına bir qab qoyulanda, Binyaminin qarşısına beş qab qoyulurdu. Bu səxavətlilik qardaşların gözündən yayınmasa da, onlar susurdular.

Yusif qardaşların kisələrini ağzına qədər buğda ilə doldurmağı əmr etdi və özünün gümüş kasasını Binyaminin kisəsində gizlətdi. Qardaşlar şəhərdən çıxmamış Yusifin xidmətçisi onları saxlatdırdı və karvanda axtarış apararaq Yusifin gizlədilmiş kasasını tapdı. Qardaşlar əyinlərindəki paltarları cırıb (saçlarını yolmağın qədim ekvivalenti), həyatlarını itirmək qorxusundan tir-tir əsə-əsə yenidən Yusifin qarşısında dayandılar.

Yusifin qəti qərara gələ bilməməsi aydın görünürdü! Qardaşlarını açıq qucaqla qarşılayaraq göz yaşlarına hakim ola bilməyən Yusif onlarla bir süfrə arxasında oturdu. Sonra isə yenidən onlarla acı zarafat etdi. Daxili qarşıdurmalar Yusifi üzürdü. Çünki qardaşları onun ən köhnə və ən dərin yarasını təzələmişdilər. Onların bir daha onu incitməklərinə icazə ver-

məkdənsə ölmək daha yaxşı idi. Digər tərəfdən isə onlar onun qardaşları idi, onlardan ayrılmaqdansa, həyatının sona çatması daha yaxşı olardı.

Bağışlama zamanı bu cür ikiləşmələr nadir hal deyil. Bağışlama birdən-birə gəlmir. Onun yolu üstündə duruxmalar və dayanacaqlar az olmur: gah günəş görünür, gah da üfüqü yenidən bulud alır. Ürəklərimiz gah mərhəmətlə, gah da qəzəblə dolur. Bizi incidənə tərəf bir addım atıb yenidən geri çəkilirik. Biz praktik olaraq yerimizdə addımlayırıq, lakin bu, normaldır. Söhbət bağışlamadan düşəndə biz hamımız təcrübəsizik. Bizlərdən heç birimiz bağışlamanın sirli formuluna malik deyilik. Ancaq sən bağışlamağa çalışanda, bağışlayırsan. Yalnız bu cəhdləri dayandıranda inciklik öz haqlarını tələb edir.

Seçilmiş yoldan geri çəkilmə və sən əbədi olaraq lütf evində məskunlaşmaq üçün tezliklə Kin evini tərk edəcəksən. Hər iki «arxitektur abidə» ilə tanış olan biri kimi zəmanət verə bilərəm ki, lütf məkanı səni məyus etməyəcək.

# FƏSİL 12

# ALİ HÖKMDAR SƏNİN QARDAŞINDIR

Mərc gəlirəm ki, sən heç zaman buna bənzər hadisə görməmisən. Basketbolçu cərimə xəttinə yaxınlaşır. Onun komandası rəqib komandadan bir xal hesabı ilə geri qalır. Oyunun son saniyələridir. Hər iki komandanın oyunçuları topu tutmağa hazır vəziyyətdə öz mövqelərində dayanıblar. Azarkeşlər intizar içində donub qalıblar. Çirlider qızlar* gözlərini topdan çəkməyərək əsəbi halda udqunurlar. Mən əminəm ki, sən heç vaxt belə hadisə ilə rastlaşmamısan. Bu əminlik məndə haradandır? Ona görə ki, buna bənzər hadisə və bu cərimə atışını yerinə yetirən oyunçu ilə mən də heç vaxt rastlaşmamışam.

O, kor idi.

Hər iki komandanın oyunçularının gözləri ona zillənmişdi. Pensilvaniya ştatının Apper-Darbi şəhərindəki orta məktəbin yuxarı sinif şagirdi Mett Stivens görmürdü, o, kor idi. Onun qardaşı səbətin polad çevrəsinin altında dayanıb əl ağacı ilə səbəti taqqıldadırdı. Mett qulaq asa-asa bir neçə dəfə topu yerə vurur və sonra topu başı üzərinə qaldıraraq atır. Məşqçinin nəyə görə kor oğlanı cərimə xəttinə qoyduğunu başa düşə bilmirik.

---

* Çirlider *(ing.* Dilində cheerleader) — stadionda yarış qabağı və fasilələrdə çıxış edən dəstək qrupunun iştirakçısı (əsasən qızlardan ibarət olur).

Qısaca desək, ona görə ki, Mettin özündən böyük qardaşı var.

Ətraflı cavab almaq üçün biz bir neçə il əvvələ qayıtmalı olacağıq. Stivenslər ailəsində hər iki gözünün torlu qişasının laylanması ilə körpə doğuldu və o, əməliyyat oluna bilməzdi. Mett beşinci sinifdə oxuyanda sol gözü, altıncı sinifdə isə sağ gözü tutuldu. Oğlan görmə qabiliyyətini itirsə də, onun böyük qardaşının görməsi hər ikisinə kifayət edirdi. Uşaq vaxtı Co Mettə mümkün olmayanları yerinə yetirməyə — konki və velosiped sürməyə, futbol oynamağa kömək edirdi. Sonralar Co basketbol komandasının məşqçisi olanda kiçik qardaşını təşkilat-təsərrüfat işləri üzrə özünə köməkçi təyin etdi. Mett öz komandasının nə məşqlərində, nə də oyunlarında iştirak etmirdi, amma Conun köməyilə hər məşqdən sonra çərimə atışını yerinə yetirirdi. Oyunçular zalı tərk etdikdən sonra qardaşlar bir qədər ləngiyirdilər. Kiçik qardaş cərimə xəttində, böyük qardaş isə səbətin altında dayanaraq əl ağacı ilə çərçivəni taqqıldadırdı.

Ümumiyyətlə, bu turnirdə Mett ilk dəfə cərimə topunu atan oyunçu təyin edilmişdi. Co yarış başlamamışdan qabaq Metin oyunda iştirak edə bilməsi üçün oyunun hakimlərini və rəqib komandanın oyunçularını razı sala bilmişdi. Bu fikir hamının xoşuna gəlsə də, matçın belə vəziyyət alacağı heç kimin ağlına gəlməmişdi.

Mett komandanın altıncı oyunçusu deyildi. O, oyundan kənar idi.

Tribunalar susmuşdu, meydançada sükut hökm sürürdü. Co səbətin polad halqasını əl ağacı ilə taqqıldadır. Tribunaların birindən Mettin anası ayağa qalxır, onun əlində videokamera var. Qadın var gücü ilə kameranın titrəməməsi üçün çalışır. Mett topu döşəməyə vurur. Sonra topu başı üzərinə qaldırıb donmuş vəziyyət alır və tullayır. Tap! Mett hesabı bərabərləşdirdi! Azarkeşlərin qışqırığından az qaldı zalın tavanı uçsun. Nəhayət, tribunalar sakitləşdi. Mett yenidən halqaya dəyən taqqıltını eşidir və özünün heyrətamiz atışını edir. Tap! İkinci xal! Rəqib

komandanın oyunçusu topu tutur, bütün meydan boyu pas atır və budur Conun komandasının səbətinə top atılır… yan vurma. Oyun sona çatdı və Mett bu matçın baş qəhrəmanıdır. Azarkeşlərin alqışları davam edir, bizim qəhrəmanımız isə sərbəst halda oturacağa çatmağa can atır. Tapın görək, köməyə kim gəlir? Doğrudur, Co[1].

Böyük qardaşlar şəraiti kökündən dəyişdirməyi bacarırlar. Sənin yaşadığın həyatdə dələduzlar əl-qol açıblar? Böyük qardaşın səni müdafiə edəcək. Məktəbdə səhər yeməyi üçün pulun yoxdur? Böyük qardaşın sənin yerinə verəcək. Velosipedi düz saxlaya bilmirsən? Tarazlığı necə saxlamalı olduğunu sənə o göstərəcək. Sadəcə böyük qardaşına zəng et.

*Böyük* qardaşın səndən güclü və təcrübəlidir.

Böyük *qardaş* sənin ən yaxın qohumundur və sən onun üçün qiymətlisən. Onun əsas tapşırığı sənə kömək və himayədarlıq etməkdir; məktəbdən evə qayıdanda azmamağın üçün sənə havadarlıq etməkdir; riyaziyyatdan yoxlamadan kəsilməmək üçün hazırlaşmaqda sənə kömək etməkdir; pulları boş yerə xərcləməməyin üçün səninlə mağazalarda dolaşmaqdır. Böyük qardaş sənə çətinliklər qarşısında təslim olmamağa kömək edəcək.

Kim böyük qardaşdan imtina edər? Ola bilsin ki, sən məşhur basketbolçu olmaq istəmirsən, lakin yaşamaq üçün qazanc əldə etməyə cəhd göstərirsən, dost, rəfiqə tapmağa çalışırsan, problemlərini həll etməyə can atırsan. Bütün bunları edəndə böyük qardaşa arxalana bilərsənmi?

Yaqubun oğullarının vəziyyətində bu cür arxayınçılığın çatışmadığı aydın hiss olunur. Onlar Yusifin qarşısında dayananda çox yazıq görünürdülər: qüdrətli dövlətin hökmdarının qarşısında dayanıb oğurluqda ittiham olunan dilləri topuq vuran çobanlar. Dua etməkdən başqa onların əlindən nə gəlirdi? Mərhəmətdən savayı nə diləməli? Yəhuda hökmdara danışdı ki, onların ataları qoca və zəifdir, onun oğullarından biri — Yusif həlak olub və əgər Binyamini də itirsə, o, buna dözməyib

öləcək. O, hətta ailələrinin xilas olması üçün kiçik qardaşının əvəzinə cəzanı da öz üzərinə götürməyə hazır olduğunu bildirdi. Mərhəmətə nail olmağa ümid edərək qardaşlar Yusifin qarşısında üz üstə yerə döşəndilər. Ancaq ümid etdiklərindən daha çoxuna nail oldular.

«Yusif yanında duranların hamısının önündə özünü saxlaya bilməyib» (Yaradılış 45:1) saray məmurlarına və tərcüməçilərə getmələrini əmr etdi. O, üzünü əlləri ilə tutub hönkürdü. Sadəcə hıçqırıb dəsmalla gözlərini silmədi, o hönkürdü. Qabağıalınmaz kişi hönkürtüsü sükut içərisində olan saraya yayıldı. Bu, təmizlənmə — dərindən azad olmanın və yaralı qəlbin sağalmasının şəhadəti idi. İyirmi iki illik kədər və yalan sona çatdı. Onun qəlbinə hakim olmaq üçün məhəbbətlə nifrət arasındakı duel məhəbbətin uzun zaman gözlənilən qələbəsi ilə başa çatdı.

O, hönkürtüsünə ara verərək soruşdu: «…Mən Yusifəm. Atam hələ sağdırmı?» (3-cü ayə). On bir xirtdək satqıncasına tərpəndi və iyirmi iki göz böyüyüb nəlbəki boyda oldu. Hələ də dizi üstə qalan qardaşlar qımıldana bilmədilər. Onlar cəsarətsizcəsinə ətrafa boylanaraq eyni ağızdan bircə söz deyə bildilər: «Yusif?» Kiçik qardaşları onların yaddaşında boğazındakı ilgək ilə Misirə gedən karvanın dalınca düşən, qorxudan rəngi solmuş oğlan kimi qalmışdı. Qardaşlar onun əvəzində aldıqları pulu hesablayaraq Yusif haqqında fikirləşməyi belə unutmuşdular. Zəif bir yeniyetmənin qüdrətli dövlətin hökmdarına çevrilməsi necə baş verə bilərdi? Qardaşlar yenidən qul kimi alınlarını döşəməyə dirəməyə tələsdilər.

Nəhayət, Yusif hönkürtüsünü dayandıraraq əllərini üzündən çəkdi, gözünün ətrafındakı haşiyə silinmişdi, çənəsi hələ də titrəyirdi. O, yumşaq səslə dedi: «…Misirə satdığınız qardaşınız Yusif mənəm» (4-cü ayə).

Yusif qardaşlarını sakitləşdirməyə çalışdı. «Allah məni sizdən qabaq buraya göndərdi ki, sizi yer üzündə saxlasın və böyük bir qurtuluşla həyatınızı qorusun» (7-ci ayə). Bizim dövrümüzdə isə belə deyilərdi: «Hər işdə bir xeyir var».

Qardaşlar hələ də qarşılarında dayanan, onlar üçün həsrətlə hönkürən, onları öz yanına çağıran və qayğılarına qalan adama ehtiyatla baxırdılar.

«Ailələrinizin dalınca qayıdın,— Yusif göstəriş verdi,— və Misirdə məskunlaşın». O, lazım olan hər şeylə onları təmin edəcəyinə söz verdi və öz vədini sel kimi axan göz yaşları ilə təsdiq etdi. O, kreslodan qalxaraq kiçik qardaşını qucaqladı. «Yusif qardaşı Binyaminin boynuna sarılıb ağladı… bütün qardaşlarını öpdü və onların boynuna sarılıb ağladı. Bundan sonra qardaşları onunla söhbət etdilər» (14–15-ci ayələr).

Yusif bir-bir bütün qardaşlarını qucaqladı. Onu köləliyə satmağı təklif edən Yəhudanı. Çox vaxt özünü böyük qardaş kimi aparmayan, ailənin ilk övladı olan Ruveni. Şekemdə etdikləri zorakılığa görə atalarının «qəddarlıq qılıncları» (Yaradılış 49:5)[2] adlandırdığı Şimeon və Levini. Yusif onun əllərini və ayaqlarını bağlayanların, mərhəmət etmələri üçün yalvaranda ona lağ edib gülənlərin hər birini qucaqlayıb öpdü.

Yusifin böyük nifrəti düz orada, sarayın mərmər divarları arasında əridi. O, qardaşlarını danlamadı və keçmişi müzakirə etmədi. Onlar sadəcə bir-biriləri ilə söhbət etdilər. «Atam necədir? Ruven, sən elə bil kökəlmisən. Şimeon sənin sağlamlığın necədir? Levi, sən qonşuluqdakı o qızla evləndin? Uşaqların var? Ah, hətta nəvələrin də var?»

Yusifin qardaşları barədə xəbər firona çatanda, o, Yusifə dedi: «Sənin ailən — mənim ailəmdir». Bundan sonra bildiyimiz kimi, Yusif qardaşlarını yeni paltarlar və arabalarla təmin etdi. Onlar Misirin fəxri vətəndaşları statusunu aldılar. Dünənki kimsəsizlər bir anda böyük imtiyaza sahib oldular.

Yalnız o vaxt qardaşlar onlar üçün daha heç bir təhlükənin olmadığını hiss etdilər. Aclığın hələ də davam etməsinə — kənd təsərrüfatı yerləri qızmar günəşin istisindən yanmışdı — və həyatlarının qaydasında olmamasına baxmayaraq, nəhayət, onlar təhlükəsizlikdə idilər. Qardaşlar çətinliyin öhdəsindən gəldilər və sağ qaldılar. Səncə, onlar layiqli insanlar idilər? Xeyr! Sadəcə

onların qüdrətli qardaşı var idi. Onların qardaşı güclü dövlətin baş naziri idi.

Uğura bax! Biz ehtiyac barədə təkcə eşitməmişik. Biz də Yusifin qardaşları kimi quraqlıq dövrünü yaşamışıq və pulun olmamasının, ehtiyatın tükənməsinin, gücün bitməsinin nə demək olduğunu yaxşı bilirik.

Biz də özümüzü onlar kimi aparmışıq: bizim üçün qiymətli olanları yaralamışıq. Əlbəttə, iş qul tacirlərinə qədər gedib çatmasa da, bizlərdən kim özündən çıxmayıb? Kim öz şəxsi maraqlarını kənara qoyaraq, yaxınlarının ehtiyaclarının qeydinə qalıb? Belələri yoxdur. Beer-Şevalı çobanlar kimi biz köməyi Ali Hökmdarda axtarmışıq. Biz müdafiə olunmağımız üçün dualar etmişik. Şübhələr bizə əzab verib — bizim kimilər üçün Onda yer tapılacaqmı? Qardaşların Yusifin sarayında əldə etdiklərini biz İsa Məsihdə tapırıq. Bizim böyük qardaşımız Ali Hökmdarımızdır.

Bu, sənin üçün yenilikdir? Yəqin ki, sən İsa Məsihi təkcə Padşah, Rəbb və Xilaskar deyil, həm də Qardaş adlandırdıqlarını eşitmisən. Bir dəfə İsa Məsih Öz şagirdləri ilə söhbət edəndə ailə üzvləri Onun diqqətini özlərinə cəmləmək istədilər. İsa Məsihin anası və qardaşları evə daxil olmayaraq Onunla danışmaq istədikləri barədə xəbər göndərdilər. İsa Məsih fürsətdən istifadə edərək çox vacib bəyanat verdi və «əlini şagirdlərinə doğru uzadaraq dedi: «Mənim anam və qardaşlarım bunlardır. Çünki kim göylərdə olan Atamın iradəsini yerinə yetirirsə, Mənim qardaşım, bacım və anam odur» (Matta 12:49–50).

Həmin gün bu səhnənin şahidi olsaydıq, İsanın «ailəsinə» nəzər salanda Onun seçiminə çaşıb qalardıq. Onun şagirdlərindən heç biri nə nüfuzlu nəslinə görə, nə də maddi vəziyyətinə görə fəxr edə bilməzdi. Peter əməlli-başlı lovğa idi. Yəhya tündxasiyyətliliyi ilə seçilirdi. Şübhəli keçmişi və dostları olan Matta haqqında heç danışmağa dəyməz. İsanın davamçılarının Onunla qohum olmaq haqqı, Yaqubun oğullarının Misirin saray məmuru ilə qohum olmaq haqqı qədər idi. Amma İsa Məsih onları qo-

hum adlandırmağı qəbahət hesab etmədi. Onlarla olduğu kimi bizimlə də qohumluğunu camaat qarşısında elan etdi, «çünki təqdis edən Şəxsin və təqdis olunanların hamısının Atası eynidir. Bu səbəbdən İsa onları qardaş çağırmaqdan utanmayıb…» (İbranilərə 2:11).

İsa Məsih Ona yanına gələn bütün insanları ailəsinə qəbul etməklə, bizim Onun ailəsi haqqındakı təsəvvürümüzü genişləndirdi.

Yusifin həyatından bəhs edən hekayə Müqəddəs Kitabın əsas süjetinin — İsa Məsihin həyatının müqəddiməsidir. Bu iki kişinin taleyində oxşarlıqlar çoxdur: Yusif Yaqubun sevimlisi idi, İsa Məsih isə Tanrının sevimlisi olub və olaraq qalacaq (Matta 3:17-yə bax). Yusif bir çox xalqları aclıqdan qurtardı — İsa Məsih Onu dinləyən izdihamı doydurdu. Xalqı qarşıdan gələn aclığa hazırlamaq Yusifə tapşırılmışdı — İsa Məsih isə Öz xalqını əbədiyyətdə olmaq üçün hazırlamağa gəlmişdi. Yusifin müdrikliyi sayəsində anbarlarda buğda ehtiyatı çoxaldı — İsa Məsihin əlində su ən yaxşı şəraba çevrildi, beş çörək minlərlə ac adamı doydurdu. Yusif təbii fəlakətin öhdəsindən gəldi — bütün təbiət hadisələri İsa Məsihə tabe olurdu: O, fırtınanı yatırtdı və dalğaları sakitləşdirdi, bundan əlavə, ölən adama dirilməyi, şikəst adama top çiləməyi, lallara himn oxumağı əmr etdi.

Elə buna görə də Ona nifrət edirdilər.

Yusif iyirmi gümüş pula köləliyə satıldı — İsa Məsih üçün xəyanətkara otuz ödədilər. Yalan ittihamlarla Yusifi zindana atdılar — günahsız yerə mühakimə olunan İsa Məsihi çarmıxa çəkdilər. Qardaşlar Yusifi ölmüş hesab etdilər — qəbiri möhürləyən Roma əsgərləri İsa Məsih haqqında eynilə belə düşünürdülər. Yusif yenidən qüdrətli dövlətin hökmdarı kimi zühur etdi — İsa Məsihlə də eynisi baş verdi: Onun qatilləri yatarkən, şagirdləri isə ağlayarkən İsa Məsih ölülərdən dirildi, kəfəni açdı və qəbirin ağzındakı daşı kənara itələyib günəşi qarşılamağa çıxdı.

Firon Misiri idarə etməyi Yusifə tapşıraraq onu yüksəltdi — İsa Məsih Tanrı tərəfindən səmavi taxta otuzduruldu. «Allah bu qüdrətlə Məsihdə elə fəaliyyət göstərdi ki, Onu ölülər arasından dirildib səmada Öz sağında oturtdu və hər başçı, hakim, qüvvə və ağadan, yalnız bu dövrdə deyil, *gələcək dövrdə* də çəkiləcək hər addan Onu çox yüksəltdi. Hər şeyi Ona tabe edərək ayaqlarının altına qoydu və Onu hər şey üzərində baş olsun deyə imanlılar cəmiyyətinə verdi» (Efeslilərə 1:20–22).

Bununla da Yusiflə İsa Məsih arasındakı oxşarlıq qurtarır, çünki Yusifin idarəçiliyi insanın yerdəki həyatı ilə məhdudlaşırdı, İsa Məsihin hakimiyyəti isə əbədidir. Göylər taxtı heç zaman boş qalmış görməyəcək: İsa Məsih indi də idarə edir, Yerin iqlimi, zaman Onun səlahiyyətindədir. Dünyanın bütün təbiət hadisələri bizim görüşümüzü yaxınlaşdırmaqdan ötrü Onun əlindədir. Biz layiq olmadığımız halda Tanrının ailəsinə qəbul olunmuş övladlar kimi bu sözləri eşidə bilərik: «Mən, İsa Məsih sizin Qardaşınızam».

O bizi görən kimi gözləri yaşla dolacaq. Lakin bu, utancaqlıq deyil, sevinc göz yaşları olacaq.

O bizi çağırır: «Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm» (Matta 11:28). Onun üçün bir fut da böyük məsafədir. İsa Məsih bizim Ona daha da yaxınlaşmağımızı istəyir. Onu quyuya tullayan, otuz gümüşə satan bizlər əməllərimizi yaddaşımızdan silib dəfn etmişik. «*Gəlin. Gəlin. Gəlin*».

Tanrı bizim qayğımıza qalır. Yusif bu həqiqəti firona çatdırmaq istəyirdi. İsa Məsih isə bizə deyir ki: «…Atanın hüzurunda Vəsatətçimiz var; O, saleh olan İsa Məsihdir» (1 Yəhya 2:1). Yusif qardaşlarını arabalarla və paltarla təmin etdi, və bizim böyük Qardaşımız vəd edib ki, «sizin hər ehtiyacınızı isə Allahım Məsih İsada olan Öz izzətli zənginliyinə görə ödəyəcək» (Filipililərə 4:19).

Gəlin Onun bizim barəmizdə olan qayğısına etibar edək.

Bizim müasirlərimiz üçün Tanrı qədim misirlilərə etdiyini edir: yerdə qalanları xilas edir. Müqəddəs Kitabın son kitabında

Tanrı Öz peyğəmbərliyini təkrar edir: «Bundan sonra mən gördüm ki, hər millətdən, hər tayfadan, hər xalqdan və hər dildən olan, heç kəsin saya bilməyəcəyi böyük bir kütlə taxtın və Quzunun önündə dayanıb. Onlar ağ xalat geyinib, əllərində xurma budaqları tutublar. Uca səslə nida edirdilər: «Xilas taxtda oturan Allahımıza və Quzuya məxsusdur!» (Vəhy 7:9–10)

Bu görüntü Tanrının ürək döyüntüsünü sürətləndirir. Çünki Onun məqsədi əbədi və dəyişilməzdir —Tanrının Padşahlığında sevinəcək ailəsini toplamaq. «Çünki sizin *barənizdə* olan fikirlərimi Özüm bilirəm» Rəbb belə bəyan edir. «Mən sizin pisliyiniz deyil, salamatlığınız *barədə* düşünürəm ki, sizə ümidli bir gələcək verim» (Yeremya 29:11; kursiv mənimdir — *M. L.*). Ah, «barənizdə» sözünün iki dəfə işlənməsi necə də təsəlli verir. Tanrının bizim üçün uğurlu gələcək qurmaq niyyəti var. O, bütün uğursuzluqlarımızı və etdiyimiz səhvləri bizim xeyrimizə işləməyə məcbur edir. Bugünkü istənilən hadisələrin məqsədi bizi Tanrıya yaxınlaşdırmaq və Onun tərəfindən müəyyən edilmiş təyinatın icra olunmasıdır.

Qaçılmaz çətinliklərin və sınaqların öhdəsindən gələ bilməyimiz Rəbbə nə qədər etibar etməyimizdən və Onun bizim üçün olan məqsədləri ilə razılaşmağımızdan asılıdır. Bizi sanki zibil kimi quyuya atanda oradan çıxacağıq. *Tanrı bu ədalətsizliyi də bizim xeyrimizə çevirə bilər.* Bizim doğmalarımız bizə xəyanət edəndə biz yenə ayağa qalxacağıq. *Bu ağrını da yaşamaq üçün Tanrı bizə güc verəcək.* Yalan ittiham? Ədalətsizliklə həbs olunma? Ümumi tənhalıq? Ola bilsin ki, biz büdrəyəcəyik, amma yıxılmayacağıq. Nə üçün? «Hər şeyi Öz iradəsindən yaranan qərarı ilə yerinə yetirən Allahın məqsədinə görə biz əvvəlcədən təyin edilərək Məsihdə irs aldıq…» (Efeslilərə 1:11). *Hər şey* istisnasız hər şey deməkdir. İsa Məsih «Onun vasitəsilə, çarmıxda axıdılan qanı ilə barışıq yaradaraq həm yerdə, həm də göylərdə olan hər şeyi Özü ilə barışdırmağa razı oldu» (Kolosselilərə 1:20) və bu həyatda hər şey bizi həmin kulminasiya anına yaxınlaşdırır.

Yalnız Tanrıya məlum olan lazımi vaxtda biz evə — Kənan torpağına qayıdacağıq. O vaxta qədər isə Qardaşınla bacardığın qədər yaxın olmağa çalış.

Qeyri-adi cərimə toplarından sonra Mett Stivens oxuduğu məktəbin qəhrəmanına çevrildi. Hər bir oğlan onunla tanış olmağa can atırdı. Hətta çirlider qızlar da onunla tanış olmağa hazır idilər. Belə bir şayiə gəzirdi ki, Mett onlardan birini buraxılış gecəsinə dəvət etməyə hazırlaşır. Böyük qardaş çiynini dayaq kimi söykəyəndə bizim həyatımız möcüzəli surətdə dəyişilir.

Sən bacararsan. Sən güclü olduğun üçün deyil, sənin Qardaşın güclü olduğu üçün bacararsan. Sən layiq olduğun üçün deyil, sənin Qardaşın layiq olduğu üçün bacararsan. Sən dahi olduğun üçün deyil, sənin böyük Qardaşın — Ali Hökmdar dahi olduğu üçün bacararsan. O, göylərdə sənin üçün yer saxlayıb.

# FƏSİL 13

# VİDALAŞMALARLA VİDALAŞ

Con Qlenn qırıcıları necə idarə etməyi bilir. O, İkinci Dünya Müharibəsində əlli doqquz, Koreya müharibəsi zamanı isə doxsan hərbi uçuş edib. Sürətdə ona çatan yox idi — 1957-ci ildə bütün qitələrarası uçuşda o, sürət rekordunu vurdu. Con Qlenn kosmosda da olub. O, 1962-ci ildə orbital kosmik uçuş həyat keçirən ilk Amerika astronavtıdır[1]. Bundan başqa, o, seçkilərdə də qalib gələ bilir: 1974-cü ildən 1999-cu ilə qədər o, Ohayo ştatından senator olub.

Con Qlenn çox işin öhdəsindən gələ bilir: o, alovlu nitqlər söyləməyin ustasıdır, dövlət komissiyalarına rəhbərlik edir, kitablar yazır. Lakin bütün istedadına və uğurlarına baxmayaraq, onun bacarmadığı bir iş var: Con hələ də öz arvadı ilə vidalaşmağı öyrənə bilməyib.

Onlar Ohayo ştatının Nyu-Konkord şəhərində birlikdə böyüdükləri üçün az qala bir-birini bələkdə olandan tanıyırdılar. Bütün xalqın sevimli astronavtı və senatoru Con Qlenndən soruşsan, o sənə deyəcək ki, ailəsində əsl qəhrəman — onun 1943-cü ildə evləndiyi qızdır.

Enni pəltəkliyin ağır formasından əziyyət çəkirdi. Onun 85% danışıq cəhdi əbəs yerə olurdu. O, nə telefonla danışa bilir, nə restorana sifariş verə bilir, nə də ki taksi sürücüsünə hara getməli olduğunu başa sala bilirdi. Univermaqda kömək üçün kiməsə

müraciət etməkdən söhbət belə gedə bilməzdi. Enni lazım olan malı axtarmaq üçün saatlarla mağazanı gəzməyə hazır idi, bircə heç kimlə danışmasın. Ailədə baş verə biləcək istənilən fövqəladə vəziyyət onu qorxudurdu, çünki 911 nömrəsini yığıb Xilas xidmətinin operatoruna vəziyyəti izah edə biləcəyinə şübhə edirdi.

*Vidalaşmaqla* bağlı çətinlik də bundan ibarət idi. Həyat yoldaşı ilə ayrılıq Con üçün dözülməz idi, buna görə də bu iki nəfər özlərinə vida mərasimi icad etdilər. Hər bir reys və yaxud işgüzar səfərdən qabaq ər-arvad bu cür vidalaşırdılar:

— Tindəki mağazadan bir qutu saqqız alıb gəlirəm,— Con deyirdi.

— Gecikmə,— Enni cavab verirdi. Beləcə Con Yaponiyaya, Koreyaya, yaxud da kosmosa yollanırdı.

İllər keçdikcə intensiv terapiya sayəsində Enninin danışığı yaxşılaşdı və aydın olmağa başladı, onun özünə əminliyi artdı, amma ər-arvad arasındakı münasibətdə «əlvida» sözü dəyişilməz qaldı. 1998-ci ildə senator Qlenn kosmonavtlıq tarixində baş astronavt oldu. O, yenidən «Discovery» gəmisində kosmosa uçdu. Uçuş qabağı ənənələrinə uyğun olaraq o, həyat yoldaşına dedi: «Tindəki mağazadan bir qutu saqqız alıb gəlirəm», ancaq bu dəfə ona kiçik hədiyyə də təqdim etdi: bir qutu saqqız. Con sağ-salamat evə dönənə qədər Enni onu düz ürəyinin üstündə döş cibində saxladı[2].

Əlvida. Heç kim bu sözü demək istəmir: nə astronavtın həyat yoldaşı, nə məktəbəqədər uşaq anası, nə gəlin atası, nə xəstəxanada arvadına baş çəkən ər, nə də qəbrin kənarında əri ilə vidalaşan qadın.

Sonuncu hadisədə «əlvida» sözünə xüsusilə nifrət edirik. Ölüm — dözülməz ayrılıqdır. Mən bu sətirləri yazarkən ürəyimdə vidalaşmanın acısı yaşayır. Son yeddi gün ərzində məbədimizdə körpə uşaqdan başlayaraq doxsan dörd yaşlı dostuma qədər beş yas mərasimi olmuşdu. Bu kədər qəlbimdə iz qoymaya bilməzdi. Mən məyusluğa qapıldım və xiffət çəkməyə başladım. Təsəlli

axtararaq düşündüm: «*Yaxşı görək, Maks. Səbirli ol. Axı ölüm həyatımızın ayrılmaz hissəsidir*».

Elə həmin an da öz-özümə etiraz etdim: *«Heç də elə deyil!*» Həyatın bir hissəsi bu dünyaya doğulmaqdır, eləcə də nəfəs, gülüş, sevən ağuş və yatmamışdan qabaq öpüşdür. Ölümün buraya nə aidiyyəti var? Biz «əlvida» demək üçün yaradılmamışıq. Allahın ilk planında son nəfəsli ölüm və ürəyin son döyüntüsü olmadığı kimi, heç bir vidalaşma da yox idi.

Ölüm qəsbkar, təcavüzkardır, Luvrun şah əsərlərinin fonunda karandaşla çəkilmiş cızma-qaralardır. Ölüm qaydaya qarşıdır. Nəyə görə Tanrı mənə birlikdə balıqçılıq etdiyimiz dost versin və sonra onu məndən ayırsın? Nəyə görə O, qadına ana olmaq qismət edir və qəflətən onun övladını həyatdan, özünü isə bu sevincdən məhrum edir? Bunu necə izah edəcəyin vacib deyil, vidalaşmada nəsə qeyri-təbii bir hiss var.

Yusif və Yaqub. Hər ikisinin ürəyi bir-biri ilə *vidalaşmanın* ağır zülmü altında əzilirdi. Qardaşlar Yaqubu Yusifin ölüm xəbəri ilə aldatdılar. Qana batırılmış paltarını Yaquba verib vəhşi heyvanın Yusifi parçaladığını dedilər. Yaqub bu qəmli xəbərdən çox kədərləndi, «…öz paltarını cırdı və belinə çul bağladı; o, uzun müddət oğlu üçün yas tutdu» (Yaradılış 37:34).

Onun ağlamaqdan gözləri tutuldu və qəlbi qubar bağladı. Onun üçün ən əziz olan iki adam onu tərk etdi: Rəhilə öldü, Yusif isə həlak oldu. Bir az da keçsəydi, patriarx özü də onların ardınca gedəcəkdi. «Bütün oğulları və qızları ona təsəlli vermək üçün yığışdı, ancaq o, təsəlli tapmaq istəməyib dedi: «Kədərlə oğlumun yanına — ölülər diyarına enəcəyəm». Beləcə atası onun üçün ağladı» (35-ci ayə).

Yusif də eynilə həmin kədərin içində qovrulurdu. İyirmi il keçmişdi, amma doğma yurd-yuvasından bir dənə də olsun səs-səmir yox idi. Ad günləri, mərasimlər, məhsul bayramı… O, doğmalarını heç vaxt yaddan çıxartmırdı.

Yusif özünü qardaşlarına tanıdandan sonra ilk əvvəl soruşdu: «…Atam hələ sağdırmı?» (Yaradılış 45:3). Onun birinci sualı bu

oldu: «Atam necədir?» Onun əsas qayğısı ailənin birləşməsi idi. Yusif qardaşlarına ailələrini Kənandan götürüb onlarla birlikdə Misirə qayıtmağı tapşırdı.

> İsrailin oğulları belə də etdilər. Yusif fironun əmri ilə onlara arabalar və yol üçün azuqə verdi. Onların hər birinə bir dəst paltar verdi, Binyaminə isə üç yüz parça gümüş və beş dəst paltar verdi. Yusif atası üçün Misirin ən yaxşı şeyləri ilə yüklənmiş on eşşək, yol üçün taxıl, çörək və azuqə yüklənmiş on dişi eşşək göndərdi. O, qardaşlarını yola saldı və onlar getdilər. Yusif onlara dedi: «Yolda dava etməyin». Onlar Misirdən çıxıb Kənan torpağına, ataları Yaqubun yanına gəldilər…
>
> *21–25-ci ayələr*

Yaqubun oğullarının Kənana qayıdışı çox qəribə oldu. Heç bir cırıq paltar və arıq eşşək yox idi. Dəri pencəklər və timsah dərisindən çəkmələr geyinmiş qardaşlar hədiyyələr yüklənmiş son model pikaplarda gəldilər. Arvadları və uşaqları uzaqdan onların yaxınlaşdığını gördülər. «Hə, axır ki, ərlərimiz və atalarımız qayıtdılar!» Hamı dostcasına bir-birinin kürəyinə vuraraq qucaqlaşdı.

Yaqub çadırdan boylandı. Onun ağ saçları çiyinlərinə qədər uzanmış, kürəyi donqarlaşmış, üzü qırışlarla örtülmüşdü. O, əllərini alnına qoyaraq gözlərini qıyıb günəşdən qaralmış oğullarına və onların qənimətlərinə baxdı. Bunları haradan oğurladıqlarını soruşmaq istəyəndə, oğullarından biri dedi: «Yusif sağ-salamatdır, özü də bütün Misir ölkəsinə başçılıq edir» Yaqub heyrətlənib qaldı və onlara inanmadı (26-cı ayə).

Qocanın ürəyi tutdu və oturmalı oldu. Lea ərinə su gətirdi və oğullarını qaşqabaqla süzdü. Sanki baxışları ilə ağsaqqal atanı ələ salmağın alçaqlıq olduğunu demək istəyirdi. Lakin bu, ələ salmaq deyildi. «Qardaşlar Yusifin onlara dediyi bütün sözləri ona söylədilər. Onu aparmaq üçün Yusifin göndərdiyi arabaları görəndə ataları Yaqubun ürəyi ruhlandı» (27-ci ayə).

Bütün bu illər ərzində Yaqubun yaşadığı qüssə onu son damla sevincdən də məhrum etmişdi. Yalnız oğulları Yusifin sözlərini və atasını necə xəbər aldığını ona çatdıranda, ata və qardaşlarını Misirdə məskunlaşmağa dəvət etdiyini eşidəndə Yaqubun ruhu canlandı. Onların sözlərini təsdiq edən arabalarını və gözəl libaslarını təpədən dırnağa kimi süzən Yaqub sevinclə başlarını yırğalayan qardaşlara baxdı. Saçları qar kimi ağappaq olan patriarx iyirmi ildən sonra ilk dəfə olaraq yenidən oğlu ilə görüşəcəyinə inandı.

Onun gözləri sevincdən işıq saçdı, əyilmiş çiyinləri dikəldi və «İsrail dedi: «İndi inandım ki, oğlum Yusif sağ-salamatdır. Qoy ölməmişdən qabaq gedib onu görüm» (28-ci ayə). Diqqət edin: hekayədə gözlənilmədən Yaqubun ikinci adı xatırlanır! Ailənin birləşməsinə yaranan ümid daha artığını etməyə qadirdir. O bizi demək olar ki, canlandırır — biz məyusluğu tərk edib çətin vəziyyətdən çıxış yolu axtarmağa başlayırıq. Dustaqlıqdan səyahətə çıxırıq. Yaqubun (daban tutanın) əvəzində İsrail (Allahın şahzadəsi) oyanır.

«İsrail özünə məxsus hər şeyi ilə birgə yola çıxdı. Beer-Şevaya gəlib atası İshaqın Allahına qurbanlar kəsdi» (Yaradılış 46:1). Bu hadisənin baş verdiyi vaxt Yaqub artıq cavan deyildi, onun 130 yaşı var idi  Ahıl yaşından əlavə, başqa bir məsələ də onun gedişinə mane olurdu: oynaqlarındakı ağrılar. Amma heç nə onun oğlu ilə görüşməsinə mane ola bilməzdi. Yaqub əsasını əlinə götürərək göstəriş verdi: «Bacardığınız qədər yük götürün! Biz Misirə gedirik!»

Müqəddəs Kitab hekayəti bu yerdə sanki quş uçuşu məsafəsindən Yaqubun bütün nəslinə baxmağa imkan yaradaraq panoram müşahidəyə keçir. Siyahı sayəsində onun ailəsindən bir nəfər də olsun yaddan çıxmayıb: arvadları, oğulları və onların övladları — heç kim buraxılmayıb. Bir sözlə, yetmiş nəfərdən ibarət olan qəbilə yola düşdü.

Bu səyahətin necə olduğunu sizə deyim: Yaqubun ailəsinin heç vaxt görmədiyi piramidalar, saraylar, suvarılmış tarlalar,

silos tayaları. Nəhayət ki, hamının səbirsizliklə gözlədiyi an gəlib çatdı! Üfüqdə özünün bütün ehtişamı ilə Misir əyanları: fironun şəxsi qvardiyasının atları və arabaları görünməyə başladı.

Bu nüfuzlu mühafizə dəstəsi Yaquba yaxınlaşanda, qoca onunla görüşə hamıdan qabaqda sürətlə hərəkət edən arabadakı adamın üzünə diqqətlə baxmaq üçün irəli əyildi. Öz sevimlisini görüb tanıyanda pıçıldadı: «Yusif, oğlum mənim…»

Misirin hökmdarı olan Yusif səbirsizliklə arabaçıya atları sürətlə çapmağı əmr etdi. Çoxsaylı izdihamdan ibarət olan iki karvana yetişməyə səbri çatmadığından arabadan yerə tullandı və atasının arabasına tərəf qaçdı, «…onun boynuna sarıldı və uzun müddət onu qucaqlayıb ağladı» (29-cu ayə).

Bütün formal mərasimlər bir kənara atıldı, ədəb qaydaları unuduldu. Yusif üzünü atasının çiyinlərində gizlədərək «uzun müddət ağladı». Yaqubun paltarı göz yaşları ilə islananda, hər ikisi bir daha bir-birinə «əlvida» deməyəcəklərinə qərar verdilər.

Əlvida. Bu söz bəzilərimizin həyatında ciddi dəyişiklikləri bildirir. Bunun öhdəsindən gəlmək üçün ümidsiz tənhalığın və dərin məyusluğa qalib gəlmək lazımdır. İkinəfərlik yataq çarpayın tək sənin üçün həddən artıq geniş olub. Mənzilində sakitlik hökm sürür, sənə isə elə gəlir ki, elə indicə arvadın səni çağıracaq və yaxud ərin otağa daxil olacaq. Ayrılıq bir vaxtlar Yaqubun ürəyini parçaladığı kimi, indi də sənin ürəyini parçalayıb. Ətrafda heç nə olmamış kimi həyat qaynayır. Sən isə özünü tənha və atılmış hiss edirsən, çünki «əlvida» deməyi bacarmırsan.

Belə vəziyyətdə ruhdan düşmə. Rəbb sənin bədbəxtliklərindən xəbərdardır. Bizim bütün itkilərimiz sanki qum saatlarındakı qum dənəcikləri kimi Onun tərəfindən sayılıb. Əgər səmavi taxt-tac zalının divarında təqvim asılıbsa, oradakı bir gün hökmən qırmızı rənglə dairəyə alınmış və sarı rənglə rənglənmişdir. Tanrı Öz ailəsi ilə birləşəcəyi günü artıq təyin edib.

Rəbb Özü əmrini səsləndirməklə, baş mələyin sədası və Allahın şeypuru ilə göydən enəcək. Əvvəlcə Məsihdə olaraq ölənlər diriləcək. Ondan sonra sağ qalan bizlər Rəbbi havada qarşılamaq üçün onlarla birgə buludlar içində götürülüb-aparılacaq və beləcə daim Rəblə olacağıq. Buna görə bir-birinizə bu sözlərlə təsəlli verin.

*1 Saloniklilərə 4:16–18*

Bu gün nəzərdən qaçmayacaq. Bundan əlavə, həmin gün möhtəşəm olacaq. O günün gəlişini Baş Mələk şeypur səsi ilə bildirəcək. Səmada minlərlə mələk zühur edəcək (Yəhuda 14–15-ə bax). Məzarlar və dənizin dibləri özlərində olan ölüləri verəcəklər.

«…İkinci dəfə günahın öhdəsindən gəlmək üçün deyil, xilas gətirmək üçün Onu gözləyənlərə zühur edəcək» (İbranilərə 9:28). Onun zühuru möhtəşəm olacaq. Bütün bəşəriyyət buna şahidlik edəcək. «Hər göz Onu görəcək…» (Vəhy 1:7). Musa Onu görəcək. Napoleon çevrilib baxacaq. Martin Lüterin və Xristofor Kolumbun təəccübdən gözləri böyüyəcək. Cəhənnəmdəki mənfur qaniçən və cənnətdə ağ libasa bürünmüş əzabkeşlər, Yer üzünün Adəmdən tutmuş bir dəqiqə əvvəl doğulmuş körpəsinə qədər bütün sakinləri İsa Məsihin yüksək şeypur sədaları altında zühurunun şahidləri olacaqlar.

Ancaq hamı buna sevinməyəcək. «O zaman Bəşər Oğlunun əlaməti göydə görünəcək. O vaxt yer üzünün bütün tayfaları şivən qoparacaq və Bəşər Oğlunun göyün buludları üzərində qüdrət və böyük izzətlə gəldiyini görəcək» (Matta 24:30). Yaradılış kitabında Yaqubun bütün ailə üzvlərinin adları yazıldığı kimi, Həyat Kitabında da Tanrının ailə üzvlərinin hər birinin adı yazılıb. Rəbb Onun dəvətini qəbul edənlərin hər birini adları ilə çağıracaq, Ondan imtina edənlərin isə qərarlarına hörmətlə yanaşaraq onları Özü ilə həmişəlik bir yerdə olmaq məcburiyyətindən azad edəcək. Həmin gün İsa Məsihə iman edənlərin arzusu həyata keçəcək və Səmavi Ata Öz ailəsini birləşdirmək üçün onları bir yerə toplayacaq.

Bu birləşmə necə də izzətli olacaq! «Allah onların bütün göz yaşlarını siləcək…» (Vəhy 21:4). Bu, Səmavi Atamızın edəcəyi ilk iş olacaq. O, hər bir övladının üzünü qayğı ilə sığallayaraq deyəcək: «Can… daha ağlamaq lazım deyil». Bizim uzun həyat yolumuz sona çatacaq və biz Onu görəcəyik.

Biz ölümün bizdən ayırdığı insanları da görəcəyik. Məgər ümidlə bunu gözləmirikmi? «Ondan sonra sağ qalan bizlər Rəbbi havada qarşılamaq üçün onlarla birgə buludlar içində götürülüb aparılacaq və beləcə daim Rəblə olacağıq. Buna görə bir-birinizə bu sözlərlə təsəlli verin» (1Saloniklilərə 4:17–18).

Stiven Kertis Çapmen və həyat yoldaşı Meri Bet bu vədin yerinə yetəcəyinə ümid edirlər. 2008-ci ilin may ayında onların beş yaşlı qızları avtomobil qəzasında həlak olub. Dünya şöhrətli və hamının sevimlisi, məsihçi himnlərinin ifaçısı Stivenə yer kürəsinin bütün guşələrindən başsağlığı və dəstək gəlirdi. Çampen cütlüyünə arası kəsilmədən şəfqət dolu telefon zəngləri, adi və elektron məktublar gəlirdi. Lakin bir danışıq Stivenin yadında xüsusi olaraq qalıb. Öz oğlunu avtomobil qəzasında itirən pastor Qreq Lori ona və Meri Betə müraciət edərək demişdi: «Gələcəkdə sizi gözləyənlərin keçmişinizdən qat-qat böyük olduğunu unutmayın»[3].

Ölüm bizi təkcə yaxın adamdan ayırmır, onun bədəni ilə birlikdə övladımızın heç vaxt baş tutmayan nikahını və birlikdə yaşanacaq ən gözəl illəri basdırırıq. Biz arzularımızı basdırırıq. Amma göylərdə bu arzular mütləq həyata keçəcək. Tanrı «hər şeyin yenidən hazırlanacağına» söz verib (Həvarilərin işləri 3:21). «Hər şeyin yenidən hazırlanmasına» itirdiyimiz bütün münasibətlərin bərpa olunması da daxildir.

Təcili əməliyyat edilib kor bağırsağı götürülən zaman Kolton Barponun cəmi dörd yaşı var idi. Belə əməliyyatın öhdəsindən gəldiyi üçün valideynləri onu alqışladılar. Ancaq sonra onun danışdıqlarını eşidəndə nə deyəcəklərini bilmədilər. Bir neçə ay ərzində Kolton onlara narkozun təsiri altında keçirdiyi hisslər barədə danışdı və göylərdə gördüyünü onlarla müzakirə etdi. Va-

lideynlərinin əməliyyat zamanı nə etdiklərini oğlan çox dəqiqliklə təsvir etdi və göydə görüşdüyü: əvvəllər heç vaxt görüşmədiyi və barələrində heç kimdən eşitmədiyi insanlar haqqında onlara danışdı. Koltonun atası «Göylər gerçəkdir» kitabında dörd yaşlı oğlunun anasına dediyi cümləni yazır: «Sənin qarnında ölən bacım olub? Hə, anacan?»

Valideynləri heç vaxt onun yanında salınmış uşaq barədə danışmamışdılar. Çünki baş verənləri anlamaq üçün Kolton çox balaca idi. Onun anasının üzü dəyişdi.

— Mənim qarnımda olan uşağın öldüyünü sənə kim deyib? — Sonya ciddi şəkildə soruşdu.
— O, özü mənə deyib, anacan. Bacım mənə dedi ki, sənin qarnında ölüb… — Kolton anasının pərtliyini hiss edib ehtiyatla dedi: — Hər şey yaxşıdır, anacan, — tələsik də əlavə etdi. — Onun vəziyyəti yaxşıdır. O, Tanrının yanındadır.
Sonya divandan sürüşüb Koltonun qarşısında dizləri üstə dayandı və onun gözlərinin içinə baxaraq soruşdu:
— Sən demək istəyirsən ki, İsa Məsih onu qəbul edib?
— Xeyr, anacan. Onun Atası!…
Sonyanın gözləri parıldadı:
— Bəs onun adı nədir? O balaca qızın adı nədir?
— Onun adı yoxdur. Siz atamla heç cür ona ad qoymadınız.

Valideynlər heyrət içərisində idilər. Kolton bunu heç haradan öyrənə bilməzdi.

Lakin oğlanın yadına daha nə isə düşdü. Oynamağa qaçmazdan əvvəl valideynləri ilə onu da bölüşdü:

— Hə, onu da dedi ki, atamın və sənin göylərə getməyinizi böyük səbirsizliklə gözləyir[4].

Kimsə göylərdə sənin barəndə eyni sözü deyir. Baban? Xalan? Övladın? Onlar Tanrının bütün ailəsinin bir yerə toplaşacağı günü səbirsizliklə gözləyirlər. Məgər biz də buna ümid etməli deyilikmi? «Buna görə bu qədər böyük şahidlər buludu ilə əhatə olunduğumuz üçün biz … qarşımızdakı yarışda dözümlə qaçaq»

(İbranilərə 12:1). Bütün dövrlərin və xalqların İbrahimləri, Yaqubları və Yusifləri də daxil olmaqla göylərdən bizə çoxlu sayda şahidlər baxır. Özlərinin yerdəki yollarını keçərək, fiziki olmasa da ruhani nəsillərinin yer üzündəki həyatlarını müşahidə edirlər. «*Dinlə,*— İbranilərə məktubun müəllifi nəsihət verir,— *və sən Tanrının göylərdəki övladlarının səni necə ruhlandırdıqlarını eşidə bilərsən.* «Qaç! — onlar qışqırır.— Qaç! Sən bacararsan!»

Bizim sonuncu səmavi sığınacağımızda qətiyyən *vidalaşma* olmayacaq. Biz Müqəddəs Kitabı, səmimiliyi və etibarı xoş sözlərlə xatırlayacağıq, bəs *vidalaşma?* Vidalaşmalar barədə biz həmişəlik unudacağıq.

Qoy gələcəkdən xəbər verən bu söz bizim dünyagörüşümüzü dəyişərək bizi bədbinlikdən məqsədyönlülüyə, kədərdən ümidə, yerdəki vidalaşmalardan göylərdəki salamlaşmalara yönəltsin. Ali Hökmdar bizim evə qayıdışımızı təyin edib, buna görə də öz əsamızı götürək və Onu qarşılamaq üçün yola düşək!

# FƏSİL 14

# SAKİTLİYİNİ QORU VƏ MÖHKƏM OL

— Göydələn siluetində olan o dağıntını görürsünüzmü?

Mən irəli əyilərək Frenk adlı dolu bədənli sürücünün şəhadət barmağının tuşlandığı istiqamətə baxdım. Onun köynəyinin yaxalığı çox dar idi, kök əlləri ilə sükandan tutmuşdu.

Ön şüşədən Aşağı Manhetten binasının hasarını göstərib əlavə etdi:

— Əvvəllər bu yerdə Əkizlər binası ucalırdı.— Onun göstərdiyi ərazini görə bilmədiyimi düşünüb izah etməyə başladı: — Göydələnin sağ tərəfində təpəsində şpil olan silueti görürsünüzmü? Hələ üç gün bundan əvvəl orada Ümumdünya ticarət mərkəzi ucalırdı. Hər gün körpüdən keçəndə onu görürdüm. Onun çox əzəmətli görünüşü var idi! Körpünün üstündən keçəndə onu görmədiyim vaxt həyat yoldaşıma zəng edib ağladım.

Dağıntının episentrinə çatanda yolun hərəkət hissəsində düzülmüş çoxlu təcili yardım maşınlarının yanından ötüb keçdik. Həlak olanların qohumları Ailə Sağlamlıq Mərkəzinin darvazasına toplaşmışdılar. Həmin yer «Təsəlli» adlı üzən hospitalın yaxınlığında idi. Hamı xəbər gözləyirdi, lakin vaxt keçdikcə sağ qalan kiminsə tapılacağına ümid azalırdı.

Üç yoxlama-buraxılış məntəqəsini geridə qoyub maşını saxladıq və sonuncu yarım mili piyada getdik. Keçən həftə bu

səkilər mobil telefonla valyuta məzənnələri barədə danışan boz flanel kostyumlu* adamlar tərəfindən zəbt olunmuşdu. Bu gün isə səkilər çınqıl və zibil qalaqları ilə dolu idi, havaya tüstü hopmuşdu. Hər nəfəs alanda ciyərlərimin nə ilə dolduğu barədə düşünməməyi qərara aldım.

Mən yanğın görəcəyimi gözləmirdim, amma yağışa və yanğınsöndürən maşınların tonlarla su boşaltmasına baxmayaraq, qüllələrin dağıntıları üzərində hələ də alov dilləri «püskürürdü». Qonşuluqdakı binalarda güclü zədələr görəcəyimi də gözləmirdim, onlardan demək olar ki, heç birində sınmamış pəncərə qalmamışdı. Ümumdünya ticarət mərkəzinin üçüncü korpusu olan «Marriot» oteli də dağılmışdı. Başqa vaxt olsaydı, bu, sensasiyaya çevrilərdi.

Lakin məni ən çox heyrətləndirən həm özümün, həm də ətrafdakı insanların donub qalması idi. Təxminən iyirmi nəfərə yaxın sarı rəngli uniformalı yanğınsöndürən cərgə ilə yanımızdan ötüb keçdi. Elə o qədər də yanğınsöndürən bizə tərəf gəlirdi. Onlar növbəni dəyişdilər. Yeni gələn yanğınsöndürənlərin üzləri sərt idi, amma onların əvəz etdikləri yanğınsöndürənlərin üzləri isə daha sərt idi. Yanğınsöndürənlərin baxışları dostlarının altında qalıb öldüyü tirlər kimi poladdan idi.

Hamı kimi mən də şok vəziyyətində idim: nə göz yaşı, nə də boğazımda qəhər vardı, sadəcə donub qalmışdım. «*Bu dağılmış binaların altında minlərlə insan həlak olub*», — mən gözlərimi tüstülənən dağıntıdan çəkmədən fikirləşirdim. Amerikanın başına gələn faciə hələ də mənə çatmırdı. Mənə elə gəlirdi ki, indi rejissorun əmri eşidiləcək: «Kamera! Dayan! Çəkildi!» Bundan əlavə, butafor dağıntıların arxasından qrimlənmiş aktyorların çıxdığını görmək istəyirdim. Lakin kino çəkilişi yox idi, yalnız sındırılmış armaturlar və beton parçaları var idi.

Həmin gün axşam Ailə Sağlamlıq Mərkəzinin girişini qoruyan polis zabiti ilə söhbət etdim. O, şəkillər yapışdırılmış

* Boz flanel kostyum — ABŞ-ın ofis aləminin universal uniforması

faner lövhənin qarşısında dayanmışdı. Ağlaşma Divarına bənzəyən faner lövhəyə itkin düşənlərin qohumları öz yaxınlarının şəkillərini yapışdırmışdılar. Mən ondan bu şəkillərə baxmaq üçün yaxınlaşan insanların üzlərində hansı ifadənin olduğunu soruşdum.

— Heç nə,— o dedi.— Tamamilə heç nə.

— Onlar ağlayırdılar?

— Xeyr.

— Bəs siz? Siz ağlayırdınız?

— Hələ ki yox. Mən göz yaşlarımı bacardıqca dərində gizlətmişəm.

Baş verənlərin gerçək olduğuna inanmaq istəməyənlər, sanki anestetik* qəbul etmişdilər.

Bu insanların nə hiss etdiklərini təsəvvür etmək çətin deyil. Fəlakətlər ayağımızın altından torpağı qaçırmağa və bizi ümidsizlik burulğanına salmağa qadirdir.

Yenə də Yusifin müasirlərinin başına gələn bəlaya qayıdaq. «Aclıq getdikcə o qədər gücləndi ki, heç bir ölkədə çörək tapılmadı. Misir və Kənan ölkələrinin əhalisini aclıq taqətdən salmışdı» (Yaradılış 47:13).

Yusif qardaşları ilə barışmaq üçün böyük səy göstərdi və eyni zamanda ölkəni düçar olduğu təbii fəlakətdən xilas etməyə davam edirdi. Yer üzünə son damla yağışın yağmasından artıq iki il keçirdi. Səmanın gömgöy rəngi göz qamaşdırırdı. Günəş amansızlıqla yandırırdı. Yer üzü səhraya çevrilmişdi, üfüqə qədər leş sümükləri ilə örtülmüşdü və hər yerdə son dərəcə ümidsizlik hiss olunurdu. Quraqlıq kənd təsərrüfatı ərazilərini məhv etmişdi. Kənd təsərrüfatı əraziləri ilə yanaşı məhsulun da məhv olması aclığa gətirib çıxartmışdı. Adamlar kömək üçün fironun yanına gələndə o dedi: «…Yusifin yanına gedin, onun dediyini edin» (Yaradılış 41:55).

---

* Anestetiklər — keyləşdirmə qabiliyyətinə, yəni qismən, ya da tamamilə hissetmə qabiliyyətini itirməyə malik olan dərman vasitəsi.

Yusifin qarşısında nə az, nə çox, təbii fəlakət kimi işin öhdəsindən gəlmək məsələsi dayanırdı!

İndi isə fəlakətin miqyasını onun nəticələrindən birinin miqyası ilə müqayisə edək. İllər keçdi və xalq Yusifə dedi: «…Sən bizim canımızı qurtardın. Qoy ağamızın gözündə lütf tapaq, biz fironun köləsi oluruq» (Yaradılış 47:25).

Gördüyümüz kimi xalq sakitliyini qoruyub saxlamışdı. Şərait nəzarətdən çıxmaq və təbii fəlakət dalğasına çevrilmək təhlükəsi qarşısında idi. Misirlilər hakimiyyəti tənqid etmək əvəzinə, demək olar ki, ona öz minnətdarlığını bildirdilər. Bu, bizdə Yusifin böhran idarəetməsi üzrə kurs bitirməsi barədə fikir yaratmırmı? Əgər oxumuşdusa, bir qədər sonra qardaşlarına dediyi sözləri məhz orada öyrənmişdi: «…Çünki Allah həyatınızı qorumaq üçün məni sizdən qabaq buraya göndərdi. Artıq iki ildir ki, ölkədə aclıqdır, hələ beş il də əkin-biçin olmayacaq. Allah məni sizdən qabaq buraya göndərdi ki, sizi yer üzündə saxlasın və böyük bir qurtuluşla həyatınızı qorusun» (Yaradılış 45:5–7).

Yusif böhran vəziyyətinin qiymətləndirilməsində əvvəldən axıra kimi Tanrıya müraciət etdi. Onun anlayışına görə aclığın təşəbbüskarı Tanrı idi, onu keçməyə də Tanrı kömək edəcəkdi və Tanrı bir dəqiqə belə şərait üzərində idarəetməni itirməmişdi. «Tanrı… aclıq… Tanrı».

Bəs gündəlik problemlər barədə sənin təhlilin necə səslənir?

— İqtisadiyyat… iqtisadiyyat… iqtisadiyyat… iqtisadiyyat…

— Boşanma… boşanma… boşanma… boşanma…

— Deyingən arvad… deyingən arvad… deyingən arvad… deyingən arvad…

Sən Tanrının qüdrəti barədə şəhadət etmək əvəzinə, problemlərin haqqında böyük həvəslə şikayət edirsən? Belə olan halda, həyatının bal kimi olmadığı təəccüblü deyil, çünki belə etməklə Tanrının sənin problemlərində iştirak etmədiyini və onları həll etmədiyini bildirirsən.

Amma bu, heç də belə deyil. Hətta Misirdəki aclıq da Tanrının planının həyata keçməsinə kömək etdi.

Bu yaxınlarda dostumla birlikdə səhər yeməyi yeməkdən zövq almışdım. Bir fincan çay içərək söhbətimizin böyük hissəsini onun on dörd yaşlı oğlunun səhhətinə həsr etdik. Yeddi il bundan qabaq oğlanın dalağında bədxassəli şiş aşkar edilmişdi. Bu qorxunc xəbərin dalınca bir neçə ay gərgin dualar və kimyaterapiya kursları oldu. Uşaq sağaldı. O, hal-hazırda öz məktəbinin futbol komandasında oynayır və onkoloji xəstəxanadakı müalicə barədə düşünməyi də unudub.

Dostumun danışdığı hadisənin bir hissəsi mənə daha maraqlı gəldi. Bu, oğlanda şişin tapılmasından əvvəl baş verən hadisədir. Onun yeddi yaşı olanda bütün həmyaşıdları kimi öz xalası oğlanları ilə zarafatlaşarkən onlardan biri təsadüfən ayağı ilə onun qarnına təpik vurmuşdu. Kəskin ağrı valideynləri öz oğullarını xəstəxanaya aparmağa vadar etdi. Xəstənin vəziyyətindən narahat olan həkim bütün qarın boşluğunun müayinə olunmasını israr etdi və oğlan cərrahın yanına göndərildi. Cərrah bədxassəli şiş olduğunu aşkar edib əməliyyatla onu götürdü. Şiş götürüləndən sonra dostum oğlundakı onkoloji xəstəliyin nə vaxtdan başladığını öyrənmək üçün müalicə edən həkimin fikrini soruşdu. Həkim dəqiq cavab verməkdə çətinlik çəkdi, anacaq onun fikrincə, şişin forma və ölçüsünə görə o, iki-üç gün idi ki, əmələ gəlmişdi. «Deməli,— mən nəticə çıxardıb dedim,— Tanrı qarına dəyən o zərbədən sənin oğlunun vaxtında əməliyyat olunması üçün istifadə edib».

Bundan başqa, sizin üçün İzabellanın hekayəsini də danışmaq istəyirəm. Onun həyatının ilk üç il yarımı Nikaraquada yetimlər üçün olan sığınacaqda keçib. Qızın nəinki ata-anası var idi, heç onu nə vaxtsa övladlığa götürüləcəyinə ümid yox idi. Get-gedə bu ümid daha da azalırdı. Digər yetimlərlə də vəziyyət eyni idi.

Günlərin bir günü onun barmağı qapının arasında qaldı. Bu hadisə qızcığaz başqa uşaqların ardınca meydançada oynamaq üçün çıxanda baş verdi. O, kəskin ağrının təsirindən bərkdən çığırdı. Belə bir sual yaranır: nə üçün Rəbb bu bədbəxtliyin baş

verməsinə imkan verdi? Nə üçün belə qüdrətli və rəhmli Tanrı onsuz da qüssə içində olan məsum uşağı ağrıdan müdafiə etmədi?

Bəlkə bu vasitə ilə O, yaxınlıqda yerləşən oyun otağındakı övladlığa uşaq götürmək istəyən amerikalı Rayan Şnokun diqqətini cəlb etmək istəyirdi? O, həyat yoldaşı Kristina ilə birlikdə artıq bir neçə ay idi ki, övladlığa uşaq götürmək istəyirdi. Yaxınlıqda işçilərdən heç kim olmadığından Rayan özü köməyə tələsdi: o, həyatə qaçdı, İzabellanı qucağına götürüb onu sakitləşdirdi.

Bir neçə ay ərzində Rayan və Kristina övladlığa uşaq götürməklə bağlı arzularından əl çəkməyə hazırlaşanda, İzabellanı xatırladılar və sonuncu dəfə cəhd etmək qərarına gəldilər. Bu- dəfəki cəhdləri baş tutdu, indi İzabella uğurlu və xoşbəxt amerikan ailəsində böyüyür.

Qarına dəyən təpik?

Qapı arasında əzilən barmaq?

Tanrı ağrı vermir, lakin O, əlbəttə ki, onu bizim xeyrimizə çevirə bilər. «…O, bəxtiyarlıq mənbəyi olan tək Hökmdar, şahların Şahı və ağaların Ağasıdır» (1 Timoteyə 6:15). «Göylər yer üzündən nə qədər yüksəkdirsə, Onun yolları da sizin yollarınızdan o qədər yüksəkdir» (Yeşaya 55:9-a bax). «Onun hökmləri necə də ağlasığmaz, yolları necə də anlaşılmazdır» (Romalılara 11:33-ə bax)! Bizim ağlımız Tanrının planlarını həmişə dərk edə bilmir. Məgər bu fakt Tanrının məqsədinin xeyirxahlıq olduğunu güman etməyimizə mane olur? Yusif Tanrının nəinki onun problemlərindən xəbərdar olduğunu, hətta tamamilə onun tərəfində olduğunu bildiyindən bu tapşırığın öhdəsindən çox yaxşı gəldi.

Bu, ona Tanrı tərəfindən verilmiş müdrikliklə silahlanaraq yaxınlaşan böhranı imanla qarşılamağa imkan verdi. Yeddi məhsuldar ildə o, buğdanın artığını toplayaraq anbarlara yığdı və növbəti yeddi ildə ehtiyacı olanlar arasında bölüşdürdü. Adamların azuqələri qurtaranda Yusif məhsulu onlara pul, ev heyvanları ilə dəyişərək və yaxud daşınmaz əmlaklarını girov götürərək verdi. O, ölkədəki iqtisadi vəziyyəti stabilləşdirərək

əhalinin maliyyə savadsızlığının qayğısına qaldı. «Məhsul yığılanda onun beşdə birini firona verin. Qalanını isə tarlalara səpmək və qida kimi istifadə edin» (Yaradılış 47:24-ü müəllifin öz sözü ilə nəql etməsi).

Bu cür iqtisadi strategiya əbədiləşdirilməyə layiqdir. «Yeddi il qənaət edib saxla. Yeddi il sat və səylə idarə et». Bundan asan nə var?

Burada sıxıntıdan başqa heç bir möcüzə yoxdur.

Bütün bunlar nədənsə həddən artıq adi görünür. Sual oluna bilər ki, bəs Qara dənizin aralanmış suları, Yerixonun uçmuş divarları və yaxud dirilmiş Lazarın qəbirdən çıxması harada qaldı? Faciəli vəziyyətin həll olunması üçün daha güclü hərəkət tələb olunur, elə deyilmi? Mütləq deyil.

Biz heç bir əsas olmadan insanın ruhaniliyi ilə onun istedadının ətrafdakılarda yaratdığı unudulmaz təəssürat arasında bərabərlik işarəsi qoyuruq. Həvari Peter xəstələri sağaltdı, həvari Paul ölüləri diriltdi, lakin hər bir Peterin və Paulun yanına onlarla Yusiflər — idarəetmə ənamları ilə təchiz olunmuş kişilər və qadınlar gəlirlər. Onların qətiyyətli rəhbərlikləri sayəsində Tanrı xalqları xilas edir. Yusif heç vaxt xəstələri sağaltmamışdı, ancaq o, xəstəliyin yayılmasının qarşısını aldı. Yusif heç vaxt ölüləri diriltməmişdi, amma insanları aclıqdan, ölməkdən qurtardı. O, plan tərtib edərək dəqiqliklə ona əməl etdi. Buna görə də bir çoxları sağ qaldı. Yusif sakit və səliqəli hərəkət planı ilə silahlanaraq qələbə çaldı.

Britaniya hökuməti Almaniya ilə müharibəyə başlayanda İnformasiya Nazirliyinə bir neçə variantda təşviqat şüarları yazılmış plakatlar işləyib hazırlamağı və çap etdirməyi tapşırdı. Məqsəd əhali arasında ruhlandırıcı şüarlar yaymaqdan ibarət idi. Plakatlarda ciddi şriftdən, aydın rəng çalarlarından (iki rəngdən artıq olmazdı) istifadə edilməsi və VI Georqun tacının (yeganə qrafik element kimi) orada təsvir olunması tələb olunurdu.

İlk plakat 1939-cu ildə çıxarılmış və ictimai yerlərə yapışdırılmışdı:

SƏNİN CƏSARƏTİN
NİKBİNLİYİN
VƏ QƏTİYYƏTLİLİYİN
BİZİ QƏLƏBƏYƏ
APARACAQ!

Tezliklə ikincisi çıxdı:

AZADLIQ
TƏHLÜKƏDƏDİR!
VAR GÜCÜNLƏ
ONU MÜDAFİƏ ET!

Hər iki plakat Britaniyanın bütün kəndlərinə, dəmir yol stansiyalarına, pivəxanalara, mağazalara və restoranlara, bir sözlə hər yerə yapışdırılmışdı. Amma üçüncü plakatın yayılmasına ehtiyac qalmadı. Təxminən altmış il sonra İngiltərənin şimal-şərqindəki bukinist mağazasının sahibi hərracdan əldə edilmiş köhnə kitabların yığıldığı qutulardan birinin içərisindən o plakatı tapana qədər, tirajı iki milyon yarımdan çox olmasına baxmayaraq, onu heç vaxt heç kim görməmişdi.

Üçüncü plakatda yazılmışdı:

SAKİTLİYİNİ QORU
VƏ
MÖHKƏM OL!

Plakatı həmin tac bəzəyirdi, həmin üslubda doldurulmuşdu, lakin heç vaxt ictimailəşdirilməmişdi. Yalnız faşistlərin Böyük Britaniyanı zəbt edəcəyi təqdirdə onun yayılması planlaşdırılırdı. Bizim dükançı plakatı çərçivəyə salaraq mağazasının divarını onunla bəzəmişdi. Plakat görünməmiş məşhurluq qazandı, mağazanın sahibi üzərində tacın və mətnin eyni təsviri olan açıqcalar və qəhvə fincanlarının istehsalını təşkil etdi. Görünür, bizim

müasirlərimiz sələflərinin sakitliyi qorumaq və möhkəm olmaq çağırışlarını yüksək qiymətləndiriblər[1].

Bütün Müqəddəs Kitab qəhrəmanlarından ən çox Yusifin öz ofisini bu plakatla bəzəmək haqqı var idi. Onun şəraiti — dəftərlər, qrafiklər, diaqramlar, smetalar, illik və kvartal hesabatlarından ibarət idi. Beləcə günlər, aylar, illər keçdi. Bütün bunlara baxmayaraq, o, sakitliyini qoruyub saxladı və dözümlü oldu.

Sən də belə edə bilərsən. Hava şəraiti və ölkənin rifahının tənzim edilməsi səndən asılı olmasa da, sunaminin yaxınlaşmasını dayandıra bilməsən də, avtomobil qəzalarının qarşısını ala bilməsən də hərəkət planı qura bilərsən. Tanrının sənin çətinliklərindən xəbərdar olduğunu unutma. Səni addımbaaddım təlimatla təchiz etməsini və elə indi başlaya biləcəyin bir-iki addımı göstərməsini Ondan xahiş et.

Buna bənzər problemlərlə qarşılaşmış adamlarla məsləhətləş. Dostlarından duada dəstək olmalarını xahiş et. Çətin vəziyyətdən çıxış yolu axtar, lakin ən vacibi böhran vəziyyətindən çıxmaq üçün plan tərtib et.

Tanınmış biznes-təcrübə üzrə aparıcı mütəxəssis Cim Kollinzin bu barədə bir neçə dəyərli müşahidələri var. O, Morten Hansenlə əməkdaşlıq edərək, böhran vəziyyətlərdə rəhbərlik strategiyasını araşdıraraq bəzi şirkətlərin iqtisadi cəhətdən qeyri-sabit və hətta xaos olan dövrlərdə inkişaf etdiyini, digərlərinin isə məhv olduğunun səbəblərini izah etməyə çalışmışdır. Bu suala cavab tapmaq üçün o, iyirmi mindən çox təşkilatın fəaliyyətini tədqiq etmiş və belə bir nəticəyə gəlmişdi: «[Uğurlu liderlər] *daha* yaradıcı deyillər. *Daha* uzaqgörən deyillər. *Daha* xarizmatik deyillər. *Daha* şöhrətpərəst deyillər. *Daha* uğurlu deyillər. *Daha* riskli deyillər. *Daha* cəsarətli deyildilər. Ciddi və cəsarətli addımlar atmağa *daha* meyilli deyillər. Bəs onları digər rəhbərlərdən fərqləndirən nə idi? Hər şeydən qabaq son dərəcə idarəolunmaz vəziyyətlərdə özünü idarəetmə bacarığıdır»[2].

Nəticədə uğurlu lider fövqəladə şəxs deyil, məsuliyyətli və sağlam fikir yürüdən şəxsdir. Roald Amundsen kimi. O, 1911-

ci ildə Cənub qütbünə gedən Norveç ekspedisiyasına rəhbərlik edirdi. Həmin vaxt Robert Skott Britaniyanın Antarktida ekspedisiyasına rəhbərlik edirdi. Onların hər ikisinin qarşısında insan üçün dərkedilməz və amansız quru ərazini keçmək tapşırığı dururdu. Onların hər iksi o dövrün texniki avadanlığı ilə eyni dərəcədə təchiz olunmuşdular. Buna baxmayaraq, Amundsen və onun komandası Cənub qütbünə Skottun komandasından otuz dörd gün tez çatdılar. Nəyin sayəsində?

Dəqiq plan sayəsində. Amundsen özünü uğurlu komandan kimi göstərə bildi. Onun şərtsiz əməl etdiyi plan hər gün on beş mildən iyirmi milə qədər yol getməkdən ibarət idi. Hava yaxşıdır? On beş-iyirmi mil. Hava pisdir? On beş-iyirmi mil. Nə az, nə çox. Onun komandası hər gün on beş mildən iyirmi milə qədər yol gedirdi.

Ondan fərqli olaraq Skott şəraitə görə hərəkət edirdi. Onun komandası yaxşı havalarda uzun-uzadı, özlərini əldən salana qədər yol gedirdilər. Pis havalarda isə tamamilə hərəkət etmirdilər. İki lider və eyni çətin tapşırığa iki müxtəlif yanaşma. Sonda iki müxtəlif nəticə. Amundsen öz komandasını qələbəyə apardı, onun adamları ekspedisiyadan sağ-salamat qayıtdılar. Skott isə öz komandasını uğursuzluğa və ölümə aparıb çıxardı.

Bütün bunlara səbəb etibarlı planın olmaması idi.

Sən belə çətin vəziyyətdə olsan, nə edərdin? Möcüzəyə güvənərdin? Çörəklərin fövqəltəbii şəkildə çoxalmasını və yaxud bir barmaq çırtması ilə fırtınalı dənizin güzgü kimi hamar olacağını gözləyərdin? Möcüzələr isə əvvəlki kimi Tanrının arsenalındadır.

Bundan başqa, O sənə belə deyə bilər: «Mən səninləyəm. Mən pisliyi yaxşılığa çevirməyə qadirəm. Amma hələ ki, gəl plan tərtib edək». Onun sənə kömək etmək arzusunda olduğuna etibar et.

Tanrının suveren hakimiyyətinin olması bizim hərəkətsiz qalmağımıza rəvac vermir. Əksinə, Tanrı bizdən baş verənlərə məsuliyyətlə yanaşmağımızı gözləyir. Rəbbə etibar etmək ağıllı

düşünməyimizə və qərarlı hərəkət etməyimizə imkan verir. Məsələn, «biz Allahımıza dua etdik və divarın üstündə onların hədə-qorxusu qarşısında gecə-gündüz gözətçilər qoyduq» (Nehemya 4:9) — deyən Nehemya kimi.

*«Biz dua etdik və ... gözətçilər qoyduq»*. Biz etibar etdik və hərəkət etdik. Gücünün yetmədiyini Rəbbə etibar et. Gücün çatanları icra edərkən isə Ona itaətli ol.

İmkan vermə ki, çətinliklərin səni iflic etsin, qüssən səni yıxsın, qorxun səni ürkütsün. Çünki hərəkətsizlik çıxış yolu deyil. Gücün müqabilində hərəkət etmək doğrudur. Bu barədə Tanrıya etibar etmək isə ikiqat doğrudur. Sadəcə…

SAKİTLİYİNİ QORU
VƏ
MÖHKƏM OL!

# FƏSİL 15

## BƏLA. TANRI. YAXŞILIQ

Həyat bizim hər birimizə badalaq vura bilər. Kimsənin bu badalaqdan qaçması mümkün deyil. Nə gözlənilmədən ərinin sevgi macərasından xəbər tutan qadın, nə əliəyri şəriki tərəfindən investisiyaları mənimsənilən biznesmen, nə romantik görüşün gözlənilmədən hamiləliyə gətirib çıxardığını aşkar edən yeniyetmə qız, nə də qasırğanın yaratdığı həlledilməz problem və iztirablar üzündən imanı sarsılan pastor, bir sözlə, heç kimin bu badalaqdan qaçması mümkün olmayıb.

Həyatda çətinliklərin bizdən yan keçəcəyini düşünmək bizim tərəfimizdən axmaqlıq olardı.

Pisliyin həmişə qalib gəldiyini düşünmək isə daha böyük axmaqlıqdır.

Müqəddəs Kitabın səhifələrindən daima iman səsi gəlir: Tanrı bədbəxtliklərimizi bizim salehliyimizə çevirir. Ola bilsin ki, sən bu kitaba öz problemlərinin həlli yollarını axtarmaq üçün müraciət etmisən. «İztirablardan qələbəyə beş addım». Məyus etdiyim üçün bağışla. Məndə sənin üçün nə möcüzələr yaradan sözlər, nə də sehrli çubuq var. Lakin mən istənilən nağıl düsturundan daha yaxşı nəyisə, daha doğrusu, Kimisə tapmışam. Mən Tanrı barədə danışıram. Tanrı bizim həyatımızın mərkəzi olanda bütün bədbəxtliklərimiz bizim yaxşılığımıza çevrilir.

Məgər Yusifin hekayəti bu barədə şəhadət etmirmi? Bir-birinin ardınca üzərinə ailə tərəfindən tərk edilmə, sürgünlük, köləlik, zindan kimi bəlalar tökülən insan sınaqdan qələbə ilə çıxa bildi və dövrünün qəhrəmanına çevrildi. Onun qardaşlarına olan son müraciətlərindən birində deyilir: «Baxın siz mənə qarşı pis fikrə düşdünüz, lakin Allah onu yaxşı işə çevirdi…» (Yaradılış 50:20).

*Bəla, Tanrı, yaxşılıq* — bunlar Müqəddəs Kitabın səhifələrində bütün süjetlər tərəfindən ən çox təkrarlanan «istinad nöqtələri»dir.

Əyyubun həyatına onu yoxlamaq və sınamaq üçün bəla gəldi. O, gücü çatan qədər mübarizə apardı. Amma sonda Öz suverenliyini bəyan edən və Öz həqiqətini elan edən Tanrı işə qarışdı. İblisin qərəzli hücumunun hədəfinə çevrilən Əyyub Tanrını seçəndə bütün aləmə Onun salehliyini bəyan etdi. Bəs nəticədə nə oldu? Yaxşılıq.

Musanın həyatına bəla qəzəblə daxil oldu. Bu qəzəb də həmvətənlilərinin xilası üçün onun misirli nəzarətçini öldürməsinə səbəb oldu. Amma burada Tanrı müdaxilə etdi. Musanın ağlı başına gəlsin deyə Tanrı onu qırx il müddətinə səhraya göndərdi. Sonda Musa Tanrını seçdi və döyüşçü deyil, xilaskar-pastor oldu. Bəs nəticədə nə oldu? Yaxşılıq.

Davudun həyatına bəla gəldi: o zina etdi;

Danielin həyatında: o, əsir aparıldı və qürbətdə qaldı;

Nehemyanın həyatında: onun Yerusəlimi düşmənlər tərəfindən dağıdılmışdı.

Lakin Tanrı vəziyyətə müdaxilə etdi və Onun sayəsində Davud lütfün carçısı olan məzmurçu, Daniel qürbət ölkədə hakim oldu, Nehemya isə Babilin vəsaiti hesabına dağılmış Yerusəlimi bərpa etdi.

Nəticədə nə oldu? Yaxşılıq.

Yaxşılığın qələbəsi göz qabağındadır!

Bəs İsa Məsih? Onun Yer üzündəki həyatında neçə dəfə bəla yaxşılığa çevrilmişdi?

Bet-Lexem mehmanxanasının sahibi İsanın valideynlərini kandardan içəri buraxmadı və onlar üçün tövlədən başqa heç

yerdə yer tapılmadı. Bəla! Tanrı tövlədə doğuldu — bu dünyanın gözdən-könüldən uzaq bir guşəsində. Yaxşılıq.

Toyda şərab qurtardı. Bəla! Bəyin və gəlinin qonaqları İsa Məsihin ilk möcüzəsinin şahidləri oldular. Yaxşılıq.

Fırtına az imanı olan həvariləri dəhşətli dərəcədə qorxutdu. Bəla! Suyun üstü ilə gələn İsa Məsihi gördükdə onlar imanda böyüdülər. Yaxşılıq.

Beş min adam ailələrini necə yedizdirəcəklərini bilmirdi. Məsihin şagirdlərinə qoşulmaq üçün uğursuz gün idi. İsa Məsih bir səbət çörəyi bulka dükanına çevirdi — Onun şagirdi olmaq üçün ecazkar bir gün idi.

İsa Məsihlə birlikdə bəlalar həmişə yaxşılığa çevrilir. Bu yaxşılığın olması gecəni əvəzləyən gündüz kimi mütləqdir. Üstəlik də ruhani azadlığa gətirib çıxarır.

Təpədəki çarmıxı görürsən? Roma əsgərlərinin tabutun qapağına sonuncu mismarı necə vurduqlarını eşidirsən? İsa Məsihin düşmənləri bədxahlıqla gülümsəyirlər. İblisin qulları qələbə intizarındadır. O, əllərini ovuşdura-ovuşdura pıçıldayır: «Axır ki, bu dəfə qələbə mənimdir».

Kədərli cümə günü və sükut içərisində keçən şənbəyə baxanda onun haqlı olduğunu düşünmək olardı: Məsihin döyülməkdən parça-parça olmuş bədəni və Onun ölümqabağı son nəfəsi, nalə çəkən Məryəm, torpağı suvaran müqəddəs qan damcıları. Tanrı Oğlunun davamçıları gün batmadan öncə onu çarmıxdan götürdülər, Roma keşikçiləri qəbri möhürlədilər və yer üzərinə qatı qaranlıq çökdü.

Ancaq iblisin qəti qələbə hesab etdiyi bəlanı Tanrı yaxşılığın tam qələbəsinə çevirdi. Tanrı qəbrin girişindəki daşı kənara itələdi və dəfn olunduğu yeri gülümsəyərək tərk edən dik qamətli İsa Məsihi dirilmə günü qarşıladı. Əgər diqqətlə baxsaq, iblisin quyruğunu qısaraq Ondan necə sürətlə uzaqlaşdığını görərik. Axı mən nə vaxt Ona qalib gələ biləcəyəm?» — deyə iblis donquldanır.

Heç vaxt. İsa Məsihin, Yusifin və minlərlə başqa imanlıların hekayələri bizi əmin edir ki, iblisin planlaşdırdığı pislik son nəticədə Tanrının əlində yaxşılığa çevrilir.

Kristina Keyn bunun canlı sübutudur. Beş futluq və üç düymlük coşqun enerji, ehtiras və məhəbbəti təsəvvür etməyə çalışın və siz o zaman mənim avstraliyalı rəfiqəm barədə az da olsa təsəvvürə malik olacaqsınız. Kristinanın yanında olmaq Yusifin müasir variantı ilə eyni süfrə arxasında əyləşmək deməkdir. O, müasir dünyanın ən böyük bəlalarından biri olan seksual köləliklə mübarizə aparır. Onu demək olar ki, evdə tapmaq olmur: Kristina ilin on ayını müxtəlif ölkələrə və kontinentlərə gedir, prezidentlərlə, nazirlərlə və parlament üzvləri ilə görüşürdü. O, bütün sutenyorlar üçün təhlükə və mütəşəkkil cinayətə qarşı qorxmaz mübarizdir. Kristinanın və onun sadiq Köməkçisi olan Tanrının yaxın gələcəkdə seksual köləlik adlı sosial pisliyin tabut qapağına sonuncu mismarı vuracaqlarına şübhə etmirəm. Dünyagörüşü ciddi transformasiyaya uğrayan qadın valehedici nikbinliyə malikdir!

Kristinanın otuz yaşı olanda valideynlərinin doğma olmadıqlarını bilərək şok yaşamışdı. Onu tərbiyə edən ər-arvad bunu ondan gizlətmişdi. Kristina həqiqəti öyrənəndən sonra öz bioloji valideynlərini axtarıb tapmaq qərarına gəlmişdi.

Onun doğulmasını təsdiq edən rəsmi sənəddən anasının Panayota adlı yunan qadın olduğunu öyrəndi. «Atasının adı» yazılmış xanada isə «naməlum» yazılmışdı. Kristina danışır ki, «gözlərini bu sözə zilləyərək onun üçün bu qədər vacib olan bir insanın yeddi hərfli bir sözə necə çevrilə biləcəyini başa düşməyə çalışırdı və bu sözün özü onun üçün həddən artıq yersiz görünürdü»[1].

Bu, hələ hamısı deyil. «Uşağın adı» yazılan xana beş hərfli sözdən ibarət idi: «adsız».

Beləliklə, uşağın atası «naməlum», uşaq özü isə «adsız» idi. Bu sənəddən belə məlum olurdu ki, Kristina Keyn «23 sentyabr 1966-cı ildə verilmiş 2508 saylı doğum haqqında şəhadətnamə»dən ibarət idi[2].

Öz doğma valideynləri tərəfindən atılmaqdan daha pis nə ola bilər? Amma ola bilər. Öz doğmaların hesab etdiyin, köməksizliyindən istifadə edib sənin uşaqlıq illərini cəhənnəmə çevirən

insanlar tərəfindən seksual zorakılığa məruz qalmaq. On iki il qarşısı heç kim tərəfindən alınmayan iyrənc zorakılıq!…

Lakin Kristinanın qohumları sayılan insanlar tərəfindən həyata keçirilən pisliyi Tanrı onun xeyrinə çevirdi. Çünki bu qoçaq qadın keçmişin qəlb yaralarının qaysağını qopartmayaraq, Səmavi Atasının vədlərini qəbul etməyə qərar verdi. O, Yeşaya peyğəmbərin kitabındakı hissəni yaddaşına həkk elədi: «…Rəbb məni anadan olandan bəri çağırmışdı, ana bətnindən adımı yadına saldı» (Yeşaya 49:1). Kristina da Yusif kimi ona inanan Tanrıya etibar etməyə qərar verdi.

İllər keçəndən sonra seksual köləliyə məruz qalan qızların ağır vəziyyətdə olduqlarını öyrənən Kristina artıq nə etməli olduğunu bilirdi. Nə vaxtsa adsız olan və özü zorakılığa məruz qalan bu qadın bugünkü adsız və zorakılığa məruz qalan qızları xilas etmək üçün irəli atıldı. İblisin Kristinanı məhv etmək planı onu başqa əzab çəkənlərə kömək etmək üçün ruhlandırdı. Onun «A21 Compaign» ictimai təşkilatının ofisləri dünyanın hər tərəfinə yayılıb. Bu təşkilatın üzvləri «məktəblərdə və uşaq evlərində zorakılığın profilaktikası üzrə proqram hazırlayaraq insan alverinə qarşı mübarizə aparır, zorakılığa məruz qalmış qurbanlara ixtisaslaşdırılmış hüquqi yardım göstərilməsini təmin edir və onları təhlükəsiz yerlərdə sığınacaqlarda yerləşdirirlər. Sonra isə onları xüsusi reabilitasiya mərkəzlərində istirahət və bərpa olunmağa göndərirlər»[3]. Mən bunları yazan müddətdə artıq yüzlərlə cavan qadın köləlikdən azad olunaraq lazım olan köməyi əldə etmişdilər[4].

Bu sözləri təkrarlamaqdan heç vaxt yorulmayacam: iblisin planlaşdırdığı pisliyi Tanrı… Gerisini sən yaxşı bilirsən.

Bəlkə bilmirsən? Tanrının yaxşılığa çevirə bilməyəcəyi pisliyin olmadığına inanmırsan? Səni indi içində olduğun istənilən quyudan çıxara biləcəyinə inanmırsan?

Bəs Yusif Tanrının ona kömək etməkdə aciz olduğuna qərar versəydi, necə olardı? Axı o, istənilən an Tanrıya arxa çevirib gedə bilərdi. Tikanlı yollarla addımladığı müddətdə onu bu və-

ziyyətə itələyən səbəb kifayət qədər idi. Yusif imandan düşərək təslim ola bilərdi. «Daha bəsdir. Yetər. Mən gedirəm».

Sən də Tanrıdan ümidini kəsə bilərsən. Ümidlər qəbiristanlığında Rəbdən ümidlərini kəsib iblisin zəif tanrı haqqında təbliğatlarına aldananların əlindən barmaq qoymağa yer yoxdur. Səndən xahiş edirəm: onların cərgələrinə qoşulma!

Tanrı səndə Yusifi görür. Bəli-bəli, səndə! Sən quyuya düşmüsən. Sənin ailəndə anlaşılmazlıq və vurnuxma var. Sənin həyatın Misir həbsxanasındakı dustaqlıqdan fərqlənmir. Amma Tanrı səni Öz yanına çağırır.

Sənin ailənə qəzəb və qisas günündə mərhəmət elçisi olan Yusif lazımdır. Sənin nəslinə iman zəncirində möhkəm halqa olan Yusif lazımdır. Sənin müasirlərinə Yusif lazımdır. Dünyada ruhani aclıq hökmranlıq edir. Sən ona ehtiyac duyanlara dayaq olacaqsanmı? Sən Yusif olacaqsanmı?

Tanrıya etibar et. *Zarafat etmirəm,* Tanrıya etibar et. O, bədbəxtçiliyinin öhdəsindən gəlməkdə sənə kömək edəcək. Bu, asan və tez olacaqmı? Ümid edirəm. Belə olur, lakin etiraf edək ki, həmişə yox. Amma gec-tez Tanrı bütün bəlaları yaxşılığa çevirir.

O, bu işdə ustadır.

# DÜŞÜNMƏK ÜÇÜN SUALLAR

*Hazırladı K. M. Andersen*

# FƏSİL 1

## SƏN BACARARSAN

1. Fəslin əvvəlində biz bu sətirlərə üç dəfə rast gəlirik: «Sən bacararsan. Düzdür, ağrılı olacaq, lakin dözməli olacaqsan. Tanrı bu kədərini sənin xeyrinə çevirəcək. Sən indi boş xəyallara qapılmamaq və səhv hərəkətlərə yol verməmək üçün mütləq özündə güc tapmalısan. Ümidini üzmə və Tanrının köməyilə sən bacaracaqsan».

   Gəlin indi hər bir cümləyə ayrı-ayrılıqda diqqət yetirək. Siz bu cümlələrin hansından daha çox təsəlli tapırsınız və ruhlanırsınız? Siz bu cümlələrdən hansını bu hissədə görmək istəməzdiniz? Nə üçün?

   a) Maks Lukado bu sözləri müəyyən çətinliklərlə üzləşmiş üç tip insana ünvanlayır: üç uşaqla əri tərəfindən tərk edilmiş qadına; təhqiredici məzəmmətə görə işdən qovulmuş yaşlı kişiyə; rəsmi olaraq boşanmış ata və anası arasında seçim etmək məcburiyyətində qalmış gənc qıza. Sizin vəziyyətinizdəki çətinliyin nədən ibarət olduğunu qısaca ifadə etməyə çalışın.

   b) Maks Lukado bizim diqqətimizi çətinliklərə qarşı üç xoşagəlməz, amma çox geniş yayılmış münasibətə yönəldir. Aşağıda sadalanan xoşagəlməz davranışların hansında özünüzü görürsünüz? Əgər çətin vəziyyətdəsinizsə, hal-hazırda bu davranışlardan hansını nümayiş etdirirsiniz və ya çətinliklərlə üzləşəcəyiniz təqdirdə hansını nümayiş etdirməyə meyillisiniz?

      • Axmaqlıq: mən heç nə düşünməməyə, əsaslı fikirlərə və ehtiyatlılığa laqeyd yanaşmağa, müdrik məsləhətləri

vә sağlam düşüncәni rәdd etmәyә, hәmçinin ağlıma gәlәn ilk fikri hәyata keçirmәyә meyilliyәm.
- Sadәlövhlük: hәyatımda yaranmış çәtinliklәrә qarşı düşünülmüş şәkildә göz yummağı seçirәm. Belә vәziyyәtlәrdә mәnim fәrasәtim vә dәrin düşünmә qabiliyyәtim çatışmır. Mәnim sözlәrimdәn vә davranışlarımdan yaranan vәziyyәtlәrә gözlәrimi yumuram. Özümü әtraf alәmin vә insan tәbiәtinin dәyişilmәsi ilә bağlı hәqiqәtdәn uzaq xәyallara tәslim edirәm.
- Mәyusluq: Mәnә yazığı gәlәn vә ya şәfqәt göstәrәn adamlardan uzaq olmağa çalışıram. Mәn ümidsizlik, daxili boşluq, kömәksizlik, bәdbәxtçilik hisslәri keçirmәyә meyilliyәm.
- Başqa nәsә.

2. Yaradılış Kitabı 37-ci fәsli oxuyun. Orada Yusifin ailәsinin hәyatında baş verәn faciә tәsvir edilir vә onun oğurlanaraq Misirә qul kimi satılmasından geniş bәhs olunur.

   a) Bu hadisәdә üç әsas surәt rol oynayır: qardaşlar (bütöv birlik kimi), Yusif vә Yaqub. Bu üç surәtdәn hansı biri birinci sualda göstәrilәn çәtin vәziyyәtә düşәndә, özünü necә aparır? Bunu ifadә edin.
   Qardaşlar: ______________________________________
   Yusif: ________________________________________
   Yaqub: _______________________________________

   b) Yaradılış Kitabı 37-ci fәsildә seçdiyiniz vә birinci sualda müәyyәn etdiyiniz davranış nümunәlәrinin kömәyilә çәtin vәziyyәtә düşәndә, özünüzü necә apardığınızı tәsvir edin. Mәsәlәn, әgәr siz mәyusluq reaksiyası seçmisinizsә, onda çәtinliyә eynilә sizin kimi münasibәt göstәrәn Müqәddәs Kitab qәhrәmanı ilә öz aranızdakı ümumi vә fәrqli cәhәtlәri tәsvir edin. Onun davranışlarında vә sözlәrindәki hansı

cəhət öz çətinliyinizə yeni gözlə baxmağınıza yardımçı oldu? (Yəqin ki, siz həmin şəxsin davranışlarını və sözlərini daha diqqətlə izləmək üçün Yaradılış Kitabının 37-ci fəslini yenidən oxumaq istəyəcəksiniz).

c) Əgər fərqlilik varsa, sizi seçdiyiniz həmin şəxsdən ayıran fərqli cəhət hansıdır? Niyə?

3. Yaradılış Kitabının 37-ci fəslində Yusif Misirə aparılır. İbrani dilində Misir — *Misraimdir*. Bu sözün kökü «məhdudlaşdırmaq, sədd çəkmək, əngəl yaratmaq» mənasını verir[1]. Biz dərhal çox dar və bağlı bir məkanı təsəvvür edirik. Deməli, Yusif üçün Misir, yəni onun *Misraimi*, o, quyuya atıldığı andan başladı. Bu məhdudluq və sıxışdırılma hələ uzun müddət onu rahat buraxmadı (kölәlik, fitnəkarlıq və zindan).

a) Yusifin vəziyyətində köləliklə razılaşmamaq və yaranmış çətin vəziyyətdən qurtulmaq üçün bütün gücünü səfərbər etmək çox təbii idi. Sizin fikrinizcə, Yusif nə üçün bir dəfə də olsun qaçmağa cəhd göstərmədi? O necə davranmağa qərar verdi? Təsvir edin.

b) Siz Misirdə qalmaq metaforası barədə nə düşünürsünüz? Əzabların sizə müəyyən məhdudiyyətlər qoyduğunu və ya sizin hərəkət dairənizin daha da sıxışdırdığını söyləyə bilərsinizmi? Hansı məhdudiyyətlər sizin üçün daha əzablıdır?

c) Siz belə bir məhdudiyyətə öz münasibətinizi necə xarakterizə edərdiniz? Məsələn, sizin bütün düşüncəniz və səyləriniz qarşınızdakı çətinliyi həll etməkdən yan keçməyə, yoxsa onu həll etməyə və ya başqa bir yola yönəlib?

4. Yusifin başına gələn hadisələr onun daxili aləmində köklü dəyişikliklərə səbəb oldu. Özündən başqa heç kimi düşünməyən ərköyün gənc oğlan, öz nəslinin uzaqgörən başçısına çevrildi və xalqını aclıqdan xilas etdi. Yusifi məhdudlaşdıran hər şey

onun üçün təlim-tərbiyə düşərgəsinə çevrildi və bu da Tanrının əbədi məqsədinin həyata keçməsindən ötrü ensiz yol açdı.

a) Tərbiyə həyata ən yaxşı hazırlıqdır. Bu prosesin nəticəsində zəif insan güclənir, bacarıqsız isə ustada çevrilir. Bəs sizin çətin vəziyyətinizdə hansı tərbiyə ehtiyatları gizlənmişdir? Siz orada hansı «əzələləri» inkişaf etdirirsiniz?
b) Bütün səylərinizə baxmayaraq, indi sizdə heç nə alınmasa da, ciddi cəhdləriniz nəticəsində sonda bunlara nail olacaqsınız. Yusifdə və öz hekayənizdə bu həqiqəti necə görürsünüz?

5. «Yusifin hadisəsi Müqəddəs Kitaba hər cür pisliyə qalib gələn Tanrıya etibar edə bilməyimiz üçün salınıb. Yüksək ixtisaslı Toxucu və İnşaatçı olan Tanrı iblisin planlaşdırdığı pisliyi bizim yaxşılığımıza çevirir» (səh.15). *Qalib gəlmək* üçün döyüşün ən həlledici anında, çox vaxt gizli olan əsas vasitədən yapışıb düşmənə üstün gəlmək lazımdır. Bu fikir Tanrının bizim həyatımıza müdaxiləsini qəbul etməyə və anlamağa daha yaxşı kömək edəcəkmi?

6. K. S. Lyuis demişdi: «Tanrı bizim məmnunluqlarımızı qulağımıza pıçıldayır, vicdanımızla ucadan danışır, lakin ağrılarımızda qışqırır. Kar olmuş bütün dünya eşitsin deyə, bu Onun meqafonudur»[2]. Yusifin hekayəsinin sizin əzablarınızda və yaşadığınız çətinliklərdə sizə nə öyrətdiyi barədə düşünün. Əgər Tanrı sizin ağrılarınızda qışqırırsa, O, bununla nə demək istəyir? O sizdən hansı cavab gözləyir?

# FƏSİL 2

## MİSİRƏ ENİŞ

1. Yusif Misirə kölə kimi gəldi. O öz təyinatından başqa hər şeydən məhrum olmuşdu. Yusif inanırdı ki, Tanrı Öz planlarını qurarkən ona güvənir və elə buna görə onun həyatındakı vəziyyətləri fəal şəkildə istifadə edir.

   a) Həyatınızda üzləşdiyiniz çətinliklərin Tanrıya etibar etmək bacarığınıza təsirini necə izah edərdiniz? Yəni Onun sizin həyatınızda fəal iştirak etdiyinə inanırsınızmı?
   b) Əbədi həyatınızın tamamilə Tanrının əllərində olduğuna inanırsınızmı? Onun sizin Xilaskarınız olduğuna və bütün əbədiyyəti Onun hüzurunda keçirəcəyinizə əminsinizmi? Bu barədə düşünün! Öz əbədi həyatınızı Tanrıya etibar etdiyiniz halda, Onun bu dünyada sizin qayğınıza qalacağına niyə şübhə edirsiniz?

2. Öz təyinatımız barədə düşünməyin ən yaxşı yolu odur ki, Tanrının bizim hekayənin sonunu bilməsini xatırlayaq. Bu, əla deyilmi? Tanrı Yeşaya peyğəmbər vasitəsilə bəyan edir:

   Qədimdən bəri olan hadisələri xatırlayın, çünki Allah Mənəm, başqası yoxdur, Mənəm Allah, Mənə bənzəri yoxdur! Axırı əvvəldən, baş verməmiş hadisələri əzəldən bildirən, «niyyətim baş tutacaq, istədiyim hər şeyi edəcəyəm» deyən Mənəm.
   *Yeşaya 46:9–10*

   «Əzəldən bildirmək» bacarığı Tanrının təbiətində və Onun davranış tərzində çox önəmli bir xüsusiyyəti aşkar edir. Biz Yusifin hekayəsində bu «əzəldən bildirmə»nin bir hissəsini

müşahidə edirik, çünki Tanrı yuxu yozmanın köməyi ilə Öz qulunun başına gələcəkləri bildirir (Yaradılış 37:5–11-ə bax).

a) Başınıza gələn çətin və ya ağır hadisələr barədə düşünün. Geriyə nəzər salıb Tanrının həmin vaxt sizin yanınızda olduğunu sübut edən əlamətləri xatırlayın. Kiminsə gözlənilməz xeyirxahlığı? Münasibətlərin və ya vəziyyətin yaxşılaşması? Tanrının sizi növbəti hadisələrə hazırlaması? Bütün baş verənlərin nəticəsində sizin Tanrıya olan etibarınız artdımı?
b) Əvvəllər Tanrının sizin həyatınıza müdaxiləsi və ya sizin fikrinizcə, kənarda durması indiki vəziyyətinizdə Ona etibar etmək bacarığınıza necə təsir göstərdi?
c) Ötüb keçən iyirmi dörd saatı xatırlayın. Az da olsa siz Tanrının mərhəmətinin və lütfünün hansı əlamətlərini müşahidə edə bilmisiniz? İki və ya üç əlaməti qeyd edin.
d) Sizin hazırki vəziyyətinizlə əlaqədar bu əlamətlər Tanrının hansı məqsədlərini aşkar edir?

3. Biz öz çağırışımıza inanırıq: biz itirilməsi mümkün olmayandan möhkəm yapışmışıq. İki aydın nümunə, yəni işin itirilməsi və münasibətlərin dağılması vasitəsilə Maks Lukado öz çağırışımızı unutmamaq və ona inanmağı bizə göstərdi (səh. 22–23). Bu nümunələrdən istifadə edərək Tanrının sizə çağırışında imanınızı möhkəmləndirməyə kömək edən iki-üç misal gətirin.

4. «Tanrının çağırışına «bəli» cavabını versən, Misirdə də sağ qalmaq mümkündür» (səh. 23). Siz «bəli» deməklə, Tanrının sizin barənizdə hər şeyi bildiyini qəbul edirsiniz (Zəbur 139). Siz bu sözləri əminliklə söyləyən Davuda qoşulursunuz: «Rəbb mənə verdiyi vədə əməl edir. Ya Rəbb, məhəbbətin əbədidir. Öz əlinin işini tərk etmə!» (Zəbur 138:8)

a) Əgər bu, mümkün olsaydı, siz Tanrının çağırışına hansı şəkildə «yox» cavabı verərdiniz?
b) Əgər Onun çağırışına «yox» cavabınızı Tanrının sevgisindən qismən imtina hesab etsək, onda bu «yox» sizin gələcəyinizə necə təsir göstərəcək?
c) Siz gələcəkdə Tanrıya nə ilə bağlı «bəli» deyə bilərsiniz?

# FƏSİL 3

## ELƏ DƏ TƏNHA DEYİL

Maks Lukado qəlbimizi «Sakit okeanın suları mərcanları hər tərəfdən yuyub əhatəyə aldığı kimi» bizi əhatəyə alan Tanrının hüzuruna açan dörd konkret addım təklif edir (səh. 31).

1. *Tanrının hüzurunda olmaq haqqını bəyan et.* Müqəddəs Kitabda Tanrının hüzurunun yaxın olması barədə təsdiqlər çoxdur:

Ölüm kölgəsinin dərəsində gəzsəm belə, şərdən qorxmaram,
çünki Sən mənimləsən,
Sənin əsan, dəyənəyin mənə təsəlli verir.

*Zəbur 23:4*

Ordular Rəbbi bizimlədir!
Yaqubun Allahı qalamızdır!

*Zəbur 46:7*

Tanrının vədlərinin həqiqiliyinə əmin olmağımıza kömək edən ayələr:

…Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm.

*Matta 28:20*

Tanrı deyir:

…Səni heç vaxt atmaram, səni heç vaxt tərk etmərəm…

*İbranilərə 13:5*

Siz Tanrının hüzurunda olmaq haqqınızı iddia edərkən, öz haqqınızı müdafiə edirsiniz və sizə vəd olunmuş imtiyazı tələb edirsiniz. Bu, israrlı, cəsur və sarsılmaz bir mövqedir.

a) Siz Tanrının hüzuruna yaxın münasibətinizi necə təsvir edərdiniz? Bu həqiqəti bəyan edərkən sizin israrlılıq, cəsarət və sarsılmazlıq nümayiş etdirdiyinizi söyləmək olarmı? Yoxsa siz daha çox şübhələrə, deyingənliyə və passivliyə meyillisiniz?
b) «Çətin günlər bizdən qərarlı olmaq və iman tələb edir» (səh. 32). Yuxarıda verilmiş Müqəddəs Kitab ayələrini şəxsən sizə ünvanlanıbmış kimi yenidən oxuyun və hazırki çətinliyinizdə Tanrının hüzuruna yaxınlıq haqqınızı cəsarətlə bəyan edin. Çətin anlarınızda Tanrının hər zaman sizin yanınızda olduğuna qətiyyətlə inandığınızı sübut edən iki-üç nümunəni qeyd edin.

2. *Tanrının necə ecazkar olduğu barədə xatırla* Tanrının yaxşılığı — çətin anlarınızda Ona güvənə biləcəyinizi sübut edən Onun təbiətinin dəyişməz xüsusiyyətidir.

a) Saniyə ölçmə cihazını iki dəqiqəyə qurun. Bu vaxt ərzində Tanrının yaxşılığından bəhs edən Müqəddəs Kitab həqiqətlərini yadınıza salaraq onları yazın. (Saniyə ölçəni qurmazdan öncə Maks Lukadonun 32-cı səhifədə sadaladığı buna uyğun siyahını yenidən oxumaq heç də pis olmazdı.) Əgər vaxtınız varsa 86-cı məzmuru oxuyun və Tanrı barədə Davudun sadaladığı bütün yaxşılıqları yazın.
b) Müqəddəs Kitab həqiqətlərindən hazırladığınız siyahıya nəzər salın. Həmin siyahıdan sizin üçün Tanrını fərqləndirən ən vacib xüsusiyyətlərdən bir neçəsini seçin. Hal-hazırda bu xüsusiyyətlər sizin üçün niyə bu qədər vacibdir? Onlar Tanrının hansı vədlərini təsdiqləyir?

3. *Öz çətinliklərini dua vasitəsilə bildir.* «Tanrıya qəzəblənmək olarmı? Onun metodlarına görə məyus olmaq olarmı? Onun seçdiyi vasitələri tənqid etmək necə? Onun haqqında düşün-

düklərinin hamısını Ona de. Qoy bilsin! … Özünü saxlama və öz şikayət kitabını Onun qarşısında aç» (səh. 34).

a) Şikayət — ilk növbədə problemin izah olunduğu rəsmi sənəddir və bu sənəd eşidilmək hüququ olan şəxs tərəfindən təqdim edilir. Siz də bu yaxınlarda üzləşdiyiniz çətinliyi izah edə biləcəyiniz kiçik şikayət yazısı tərtib edin. Başınıza nə gəlib?
b) Bu hadisə ətrafınızdakı insanlara, özünüzə və Tanrıya qarşı hansı hissləri aşkara çıxartdı?
c) Yaşadığınız çətinlik barədə Tanrı ilə söhbət edərkən Onunla səmimi olun. Ya öz şikayətlərinizi və dualarınızı gündəliyinizə qeyd edin, ya da onları sözlərinizlə deyin. Öz düşüncələriniz və hissləriniz barədə həqiqətləri gizlətməyə və ya onlar barədə susmağa çalışmayın. Məyusluqlarınızın bütün yükünü və daxili əzablarınızı Tanrının yanına gətirin.

4. *Tanrının adamlarından yapış*. Tanrı Onun adı ilə toplaşanların arasındadır (Matta 18:20-ə bax). Maks Lukado olduqca təsirli məcazi nümunə gətirərək bizi «dəniz molyuskları kimi Tanrı məbədindəki sandığın altına yapışmağa» çağırır (səh.34). İkitaylı molyusklar öz həyatlarına sərbəst üzən çox kiçik varlıqlar kimi başlayır. Lakin onlar böyüdükcə hansısa bərk səthə yapışmalıdır. Onlar bu məqsədlə xüsusi elastik yapışqan maddə ifraz edir ki, bu da vaxt keçdikcə bərkiyir. Böyüməkdə olan molyusklar fasiləsiz olaraq genişlənən konsentrik çevrəli koloniyalar əmələ gətirir ki, bunun sayəsində onlar seçdikləri bərk səthə yapışmaq bacarıqlarını gücləndirir.

a) Təfsilatına varmadan hazırki imanlılar toplantısına sədaqətinizi necə izah edərdiniz? Siz özünüzü bu toplantının bir hissəsi hesab edirsinizmi və ya hələ də sərbəst üzməyə üstünlük verirsiniz? Əgər siz məsihçi cəmiyyəti ilə sıx

əlaqədəsinizsə, onda bu əlaqənin get-gedə möhkəmləndiyini, yoxsa zəiflədiyini hiss edirsiniz? Niyə?

b) Sizi eyni məqsəd naminə birləşdirən hansısa məsihçi qrupu, məsələn, dostlar, cəmiyyət və ya könüllülər komandasının daxilindəki münasibətlər barədə düşünün. Siz hansı münasibətləri daha çox «bərkidilmiş» hesab edirsiniz?

c) Siz insanlara güvəndiyiniz zaman onlardan asılı olursunuz. Növbəti həftədə hansı münasibətlər sizin üçün dayaq ola bilərdi? Bu halda sizin asılılığınız özünü necə göstərərdi? Bu, hansısa bir kömək xahişi və ya konkret dua ola bilərmi? Yaxud dostunla bir fincan çay içib çətinliyiniz haqqında onunla bölüşməkdir? Bəlkə başqa bir şeydir?

# FƏSİL 4

## AXMAQLIĞI AXMAQLIQLA DÜZƏLTMƏK OLMAZ

1. Həyatımızdakı «dayaz yeri» dəf etməyə çalışdığımız vaxt gərgin vəziyyətlərin ağırlığı və ya bitib-tükənməyən gündəlik mübarizələr bizim psixi və ruhani gücümüzü tamamilə tükəndirə bilər. Eyni zamanda ətrafdakı insanlarla münasibətlərimizi çətinləşdirə bilər. Hal-hazırda üzləşdiyiniz çətinliyin ağırlıq dərəcəsini qiymətləndirməklə gücünüzün tükənmə dərəcəsini müəyyən edin. Sizin vəziyyətinizi daha dəqiq qiymətləndirən rəqəmi dairəyə alın.

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|

Mən tükənmişəm. Yaranmış vəziyyəti həll etməyə və münasibətləri bərpa etməyə qətiyyən gücüm qalmayıb.

Mən tükənməmişəm. Yaranmış vəziyyəti həll etməyə və münasibətləri möhkəmləndirməyə kifayət qədər gücüm var.

   a) Gücünüzün tükənmək dərəcəsini ifadə edərkən hansı məcazdan istifadə edərdiniz: köhnəlmiş paltar, suyu qurumuş çay, yoxsa cüzi yanacaqla sonuncu dairəsini vuran mühərrik?
   b) Seçdiyiniz məcaz hansı ehtiyacınızı ifadə edir? Başqa sözlə, hal-hazırda daha çox nəyin çatışmadığını hiss edirsiniz?

2. Maks Lukado gücümüzün tükənməsi nəticəsində bəzən yol verdiyimiz dağıdıcı hərəkətlərin bir neçəsini sadalayır: kiçik

axmaqlıqları böyük axmaqlıqlarla düzəltməyə çalışırıq, yaranmış çox çətin vəziyyəti səhv qərarımızla daha da çətinləşdiririk, yaxınlarımıza qarşı qeyri-iradi hücumlara yol veririk, əxlaqi kompromislərə gedirik. Özünüzə qarşı münasibətdə bu cür dağıdıcı hərəkətlər istisna təşkil edirmi? Bu cür davranışlara yol verməmək üçün hansı mənbədən güc almağı düşünürsünüz?

3. Bəraət və «əqli dəlillər» («Heç kim heç nə bilməyəcək». «Mən yaxalanmayacağam». «Mən sadəcə insanam») — kimi qırmızı bayraqlar daha bir axmaqlıqla digər bir axmaqlığı düzəldəcəyimizə dair bizə xəbərdarlıq edir. Dallas Uillyard qeyd edir ki: «Mənim üçün ən böyük ruhani təhlükə, köhnə həyatımdan qalan «hər kəs belə edir» və «mən sadəcə insanam» deyə «normal» hesab etdiyim bəzi ideyalar, hisslər və hərəkətlərdir»[3].

   a) Bəs sizin «köhnə həyatınızdan qalma ideyalar, hisslər və hərəkətlər» bəraətə və «əqli dəlillərə» ehtiyac duyurmu?
   b) Bəs sizin dağıdıcı hərəkətlərə meyilliliyiniz özündə hansı potensial təhlükə yaradır?

4. Yusifin Potifarın arvadı ilə ünsiyyət zamanı «dayaza düşməsindən» bəhs edən Yaradılış Kitabının 39-cu fəslini oxuyun.

   a) Bir qayda olaraq, bəraət və «əqli dəlillər» bizim diqqətimizi bizdə çatışmayan şeylərə və ya yaranmış çətinliyin yaxşılığa doğru getməyəcəyinə yönəldir. Yusifin öz ağasının arvadına verdiyi cavab onun baş verənlərə baxışını necə aşkara çıxarır (9-cu ayə)?
   b) Sadiqlik — sədaqətli və vicdanlı olmaqdır. Bu fəslin qəhrəmanları sədaqətlərini və xəyanətlərini necə nümayiş etdirirlər? Onlar kimi razı salmağa çalışırlar? Yusifin, Potifarın arvadının və Potifarın sözlərinə və davranışlarına diqqət yetirin.

c) Bu fəsildə göstərilmiş üç insan tipinə diqqətlə nəzər salın və hal-hazırda sizin üçün sədaqət hədəfinin kim olduğunu və onun hansı səviyyədə olduğunu izah edin. Siz öz sözləriniz və davranışlarınızla kimi razı salmağa çalışırsınız?
d) Başınıza gələn bədbəxtliklərin və çətinliklərin ən pik həddində Tanrının sizə qarşı sədaqətindən nümunə gətirə bilərsinizmi?

5. Yusif «əqlin dəlillərinə» qulaq asmaqdan və öz vicdanını satmağa bəraət qazandırmaqdan imtina etməklə Tanrıya sədaqətli olmağı seçdi. Bu, doğru yol idi, ancaq ona çox baha başa gəldi.

   a) Davud məsləhət verərək deyir: «Salehlik qurbanları kəsin, Rəbbə güvənin» (Zəbur 4:5). 2-ci və 3-cü suallarda göstərilən dağıdıcı davranışlara meyilliliyinizlə əlaqəli sizdən hansı qurbanlar tələb edilə bilər?
   b) Yaşadığınız hansı problemin həllini Tanrıya etibar etmək vacibdir?

# FƏSİL 5

## AH, BÜTÜN BUNLAR YALNIZ HAZIRLIQ İMİŞ?

1. «Tanrı hər gün bizi insanlar, çətinliklər və problemlər vasitəsilə sınayır» (səh. 49).

   a) Sınaqla üzləşmiş Maks Lukado küsməyə və ya üzr istəməyə qərar verməli idi. O, yaranmış gərginliyə laqeyd yanaşmalı və ya onu həll etməli idi. Son iyirmi dörd saat ərzində hansısa bir sınaqla üzləşib-üzləşmədiyinizi xatırlamağa çalışın. Siz bu vaxt ərzində hansı çətinliklə üzləşmisiniz və o sizdən necə bir həll tələb edib?
   b) İmtahan sınaqlarında ya qiymət verilir, ya da məqbul və ya qeyri-məqbul yazılır. Son iyirmi dörd saat ərzində üzləşdiyiniz sınağa münasibətinizi necə qiymətləndirərdiniz?
   c) Maks Lukadonun aldığı dərsin mövzusunu «Qarşılıqlı münasibətlərdəki səmimiyyət» adlandırmaq olar. Bəs sizin aldığınız dərsin mövzusu nədir? Əgər bu dərsi yaxşı mənimsəmisinizsə, ondan nə öyrənə bildiniz? Əks halda, siz hansı zədədən və ya mənfi nəticələrdən əziyyət çəkə bilərsiniz?

2) Yusifin və həmçinin sizin həyatınızdakı sınağı — Tanrı cəzalandırmaq üçün deyil, hazırlamaq üçün istifadə edir. Klayv Lyuis məqsədlərin əsaslı fərqinin mövcudluğunu təsdiqləyərək deyir: «Əgər bu dünyaya yalnız bizi xoşbəxt edən bir yer kimi baxsaq, bu zaman o çox dözülməz olacaq. Lakin bu dünyaya təlim və tərbiyə yeri kimi baxsaq, bu vaxt o, kifayət qədər dözümlü yer olacaq»[4].

a) İlk dəfə bu barədə eşidərkən nə düşündünüz? Yuxarıda söylənən bu fikir Tanrı tərəfindən sınağa çəkilmək barədə düşüncələrinizi dəyişdirdimi?
b) Yusif üzərinə gələn sınaqların onun hazırlığı üçün olduğunu, aldığı bütün dərslərin onu Tanrıya sədaqətlə xidmət edən və Ona güvənən lider kimi yetişdirilməsinə yönəldiyini bilmirdi. Yusif kimi siz də Tanrının sizi hansı xidmətə hazırladığını bilmirsiniz, amma Onun verdiyi dərslər öz-özlüyündə sizin gələcək xidmətinizə yol göstərə bilər. Əgər son sınaq dərsinizin «mövzusunu» xatırlasanız və ona diqqətlə nəzər salsanız, Tanrının sizi nəyə hazırladığını söyləyə bilərsinizmi?

3. Həvari Yaqubun Məktubunda sınaqlara Müqəddəs Kitab baxışı belə təsvir olunur:

> Ey qardaşlarım, müxtəlif sınaqlarla üzləşəndə bunu böyük bir sevinc hesab edin. Çünki bilirsiniz ki, imanınızın sınaqdan keçməsi dözüm yaradır. Dözüm də öz əməlini kamil etsin ki, siz yetkin və kamil adamlar olasınız, heç bir çatışmazlığınız olmasın.
>
> *Yaqub 1:2–4*

Sınaqlara bu cür baxış müasir cəmiyyətin norma və sağlam düşüncə hesab etdiyi fikirlərə ziddir.

a) Bizim sınaqlara münasibətimizi dəyişdirə biləcək əsas söz — «hesab edin» sözüdür. Yunan dilində «hesab edin» feli emosional vəziyyəti deyil, düşüncə tərzini ifadə edir. «Yaqub bizim çətin vəziyyətlərdə özümüzü necə *hiss edəcəyimiz* barədə deyil, bu mövzuda nə *düşünəcəyimiz* barədə danışır»[5]. Siz çətinliklərlə üzləşərkən düşüncələr və hisslər arasındakı fərqi görə bilirsinizmi? Sizə heç bir sevinc bəxş etməyən vəziyyət barədə böyük sevinclə *düşünmək* fikri sizə nə hiss etdirir?

b) Bir alim «xoşagəlməzlik*lərə* baxmaq» əvəzinə, «bu xoşagəlməzliklərin *içərisindən* onların mümkün nəticələrinə» baxmağı təklif edir[6]. Siz öz çətinliklər*inizə* baxarkən nə düşünürsünüz? Bəs eyni zamanda onların *içərisindən* baxarkən ağlınıza nə gəlir?

4. «Tanrının səni əhatə etdiyi insanları sev. Onlarla Tanrının nəsihəti barədə bölüş və sənin sınağın onlar üçün şəhadət olacaq» (səh. 53). Məhkəmədəki ümumi tabelik hüququnda şahidlik şahidin hər kəs qarşısında and içərək bəyanat verməsidir. O, dəlilləri və həqiqətləri dəstəkləmək üçün bir çox sübutlar irəli sürür. Problemlərinizin tam mərkəzində sizinlə bərabər Tanrının fəaliyyət göstərdiyinin şahidi olmaq sizdə hansı fikirlər yaradır? Bir şahid kimi siz öz şəhadətinizdə hansı dəlilləri və həqiqətləri bəyan edəcəksiniz?

# FƏSİL 6

## TANRI HƏRƏKƏT EDƏNDƏ, SƏN DAYAN

1. Yusif qul kimi satılanda təxminən on yeddi yaşı var idi. Firon uzun müddətli quraqlığın nəticələrini azaltmaq üçün onu işləri üzərində rəhbər qoyanda isə Yusifin otuz yaşı var idi. Yusifin Potifarın evində və həbsxanada keçirdiyi vaxt ümumilikdə on üç il edirdi.

   a) On üç il bundan öncə başınıza gələnləri xatırlayın. Yadınıza düşən üç hadisəni yazın. Sonra sizin bugünkü ruhani və emosional yetkinliyinizi xarakterizə edən üç hadisə nümunə gətirin. Qarşılıqlı münasibətlərdə o vaxtkı və bugünkü ruhani və emosional yetkinliyinizi müqayisə edin.
   b) Həyatınızın bu iki dövründə baş verənlərə qarşı sizə xas olan münasibətin, yəni o dövrlə indiki ruhani və emosional yetkinlik səviyyəsinin arasında nə fərq var?
   c) Yusif gözlədiyi vaxt Tanrı hərəkət etməyə davam edirdi. Əgər siz həyatınızın son on üç ilinə gözləmək vaxtı kimi baxırsınızsa, onda Tanrının sizin vəziyyətinizə müdaxilə etməsinə və bir şəxsiyyət kimi inkişaf etməyinizdə iştirakına nə deyəcəksiniz?

2. Tanrıdan fərqli olaraq biz tələsirik. Müqəddəs Yazılar bizi dəfələrlə səbirlə gözləməyə, Rəbbə güvənməyə çağırır. Məzmurçu bu cür gözləmənin necə göründüyünün və bunun üçün nə lazım olduğunun əsaslı təsvirini yaradaraq deyir:

Rəbbi gözləyirəm
Döyünən ürəyim gözləyir,
Onun Sözünə ümid edirəm.
Keşikçilər səhərin açılmasını gözlər,
Bəli, keşikçilər səhərin açılmasını gözlər,
Qəlbimsə bundan da çox Xudavəndin həsrətini çəkər.
Ey İsrail, Rəbbə ümidini bağla!
Çünki Rəbdə məhəbbət var,
Onda bol-bol qurtuluş var.

*Zəbur 130:5–7*

Məzmurçu etiraf edir ki, o, Rəbbi gözləmək üçün qəlbinin bütün gücünü sərf etdi. Müqəddəs Kitabın digər tərcümələri onun Rəbbə doğru inanılmaz dərəcədə can atdığını qeyd edir: «Keşikçilərin səhərin açılmasını gözlədiyindən də çox mənim qəlbim Rəbbi gözləyir» (Müasir rus tərcüməsi); «Qəlbim Rəbb üçün susayıb, Mənim ümidim Onun sözünədir» (Wycliffe Bible Translators Singapore); «Mən öz həyatımı və dualarımı Rəbbə verirəm, cavabında Onun nə deyəcəyini və nə edəcəyini gözləyirəm» (MSG).

a) Əgər siz indiki vəziyyətinizi Rəbbi gözləmək dövrü hesab edirsinizsə, onda öz mənəvi vəziyyətinizi necə xarakterizə edərdiniz? Siz də məzmurçu kimi, tamamilə Rəbbi gözləməyə qərar verdiyinizi söyləyə bilərsinizmi? Yoxsa narahat olub hər ehtimala qarşı «ehtiyat variant» planlaşdırırsınız?
b) Yuxarıda nümunə gətirilən Müqəddəs Kitab ayələrinə əsaslanıb, Rəbbi gözləmə intensivliyinizi öz sözlərinizlə ifadə etməyə çalışın.
c) Bu iki istəkdən hansının daha çox üstünlük təşkil etdiyini səmimi etiraf edin: Tanrıya susamaq, yoxsa dilədiyinizi Ondan almağa can atmaq? Bu iki istək arasında fərqi görürsünüzmü?
d) Gecə növbəsini çəkən keşikçilər obrazı Rəbbə güvənməyi sizə necə izah edir və bu gözləmək vaxtını necə daha səmərəli etmək olar?

3. «Müqəddəs Kitaba uyğun şəkildə Rəbbi gözləmək — gərgin səy tələb edir. Lakin *dua* və *iman* sayəsində bütün diqqətini Rəbbə yönəltmək mümkündür. Gözləmək — «Rəbbə itaət etmək və Ona güvənməkdir» (Zəbur 37:7-ə bax; Kursiv mənimdir. — *M. L.*)». Aşağıda qeyd edilmiş cümlələrdən istifadə edin və yaxın günlərdə Rəbbi gözləmək səylərinizi necə gücləndirə biləcəyiniz barədə düşünün.

   a) Mən *dua* sayəsində diqqətimi Rəbbə cəmləyə bilərəm…
   b) Mən *iman* sayəsində diqqətimi Rəbbə cəmləyə bilərəm…
   c) Mən Rəbbə *itaət* edərək diqqətimi Onda cəmləyə bilərəm…

# FƏSİL 7

## YELLƏNƏN KLOUN

1. Ballast — tarazlığı saxlayan əks ağırlıq qüvvəsidir, yəni əks tərəfdəki qüvvəni tarazlaşdırır. Yusifin ballastı isə onun «lövbər kimi dərinə kök salmış, ona dözümlülük verən, Tanrının ali hakimiyyətinə olan imanı» idi (səh. 70). Bu iman Yusifin on üç il ərzində aldığı hər bir zərbədən — xəyanətdən, köləlikdən, şər atılmaqdan, həbs cəzasından, rədd olunmadan sonra ayaq üstə durmağına kömək etmişdi. Yusifin fironun qəbuluna çağırılması onun qurtuluş təntənəsinin başlanğıcı olsa da, əks qüvvələr hələ də öz fəaliyyətlərinə davam edirdilər. Ancaq indi Yusifin problemi *bədbəxtliklər* deyil, *hiylə* idi.

   a) Fironun yuxularından və onun Yusiflə ilk görüşündən bəhs edən Yaradılış Kitabının 41:1–44-cü ayələrini oxuyun. Fironun Yusif barədə söylədiyi sözlərə (15-ci ayə) və Yusifin ona verdiyi cavablara xüsusilə diqqət yetirin (16, 25, 28, 32-ci ayələr).
   b) Hiylə — özünü aldatmaya aparıb çıxaran üstüörtülü fitnəkarlıqdır. Bu da öz növbəsində bizi bədbəxtliklər qarşısında aciz edir. Siz fironun Yusifə dediyi sözlərdəki (15-ci ayə) gizli hiyləni necə xarakterizə edərdiniz? Əgər Yusif bu üstüörtülü hiyləyə aldansaydı, onu gələcəkdə hansı təhlükələr gözləyərdi?
   c) Tanrının yeganə Ağa olduğuna istinad edən Yusif öz imanının nə qədər səmərəli olduğunu dəfələrlə sübut etdi. O, bununla nəinki baş vermiş hadisələri (25,28,32-ci ayələr), həmçinin yaxın gələcəkdə baş verəcək olayları izah etdi (səh.60, 70). Yusif üçün Tanrının Ağalığı həm keçmişə, həm də gələcəyə əsaslanırdı.

Yusifin həbsxanadan buraxılmasından bir neçə saat keçmişdi və gələcəkdə özünün təhlükəsizliyini təmin etmək üçün ilk növbədə öz qayğısına qalması çox məntiqli olardı. Yusifin bu cür davranmaqdan imtina etməsi onun Tanrı ilə münasibətlərini necə təsvir edir? Bu cür davranış Yusifin Tanrının yeganə Ağa olduğuna hüdudsuz imanını sübut edirmi?

d) Fironun Yaradılış 41:15-ci ayədəki sözlərini 41:39-cu ayədəki sözləri ilə müqayisə edin. Yusifin imanı fironun düşüncələrinə necə təsir etdi? Onun fikirlərində nəyin dəyişdiyini, nəyinsə əvvəlki kimi qaldığını izah edin.

2. Əzab dolu həyatın qurtuluşla əvəz olunması Tanrının səxavətli bəxşişləri və Onun mərhəməti sayəsində baş tutur. Nəhayət ki, üzücü gözləntilər rahatlıqla, yeni hadisələrlə və yeni ümidlərlə əvəz olunur. Amma Yusifin hekayəsindən göründüyü kimi, xoşbəxtlik gətirən dəyişikliklər də problemsiz ötüşmür.

a) Əzablardan qurtuluşunu həqiqi yolunu əvvəlcədən görə-görə hansı provokasiya edici tələ sizi yaxalaya bilər? Sizin baş verənlərə hansı münasibətinizin nəticəsində Tanrıya olan etibarınız hiss olunmadan öz gücünüzə güvənmək ehtiyacı ilə əvəzlənə bilər? Bu barədə düşünün.

b) Əgər bu üstüörtülü hiylələrə aldansanız, sizi hansı bədbəxtliklər gözləyə bilər? Sizi öz təhlükəsizliyinizi şəxsən təmin etməyə hansı fikirlər təhrik edə bilər?

c) Yusifin imanı fironun fikirlərinə təsir etdi. Sizin üçün əhəmiyyət kəsb edən hansı münasibətlər Tanrının ilahi qüdrətinə olan imanınıza təsir göstərə bilər? Bu insanların və ya bəlkə də özünüzün Tanrı barədə düşüncələrinin dəyişəcəyinə ümid edirsinizmi?

3. Sarsılmaz dözüm heç də əvvəlki həyat tərzinə qayıdacağımızı nəzərdə tutmur. Yusifin qurtuluşu onu atasının evindəki adi həyata qaytarmadı. Leytenant Sem Braunun həyatı da Əfqanıstanda yaşadığı dəhşətlərdən sonra kökündən dəyişdi. Onların hər ikisi iki fakta əsasən möhkəm dayana bildilər. Birincisi, keçmişlə vidalaşmağa hazırlıq, ikincisi, Tanrının etdiyi dəyişikliklərlə razılaşmaq.
   Həyatın vurduğu zərbələrdən sarsılmayan hər kəs üçün Müqəddəs Kitabın vədi belədir:

   > Sınağa dözən adam nə bəxtiyardır! Çünki sınaqdan keçəndən sonra Rəbbin Onu sevənlərə vəd etdiyi həyat tacını alacaq.
   >
   > *Yaqub 1:12*

   a) Siz indiki çətinliklərdən və əzablardan qurtuluşunuzu gözləyərkən, bəzi ümidlərinizin doğrulacağına inanırsınız. Onlar hansılardır? Əvvəlki həyat tərzinə qayıtmaq istəyiniz nə qədər güclüdür?
   b) Bir daha əvvəlki həyat tərzinə qayıtmağın mümkün olmayacağını düşünmək sizdə hansı fikirlər və hisslər yaradır?
   c) Tanrını öz istinad nöqtəsi edəcək qədər həqiqi sevənlərin dözümünə görə vəd olunan mükafat — «həyat tacı»dır. Müqəddəs Kitabın başqa bir tərcüməsində bu vəd belə səslənir: «Sınaqalardan dözümlə keçən adam nə xoşbəxtdir, çünki onlara dözərkən Tanrının Onu sevənlərə vəd etdiyi əbədi həyat tacını alacaq» (MSG). Bu vədlər əbədi həyata aid olduğu kimi, yer üzündəki həyatımıza da aiddir (Zəbur 27:13–14).

Sizcə, Tanrı Ona sadəcə daha çox etibar etməklə deyil, eyni zamanda Onu daha çox sevməklə bizə nə təklif edir?
Tanrının vəd etdiyi yeni həyatı qəbul etmək üçün siz nə ilə vidalaşmalısınız?

# FƏSİL 8

# HƏYATDA HƏR ŞEY QAYDASINDA GETMƏYƏNDƏ TANRI BİZİM ÜÇÜN ƏVVƏLKİ KİMİ XEYİRXAHDIRMI?

1. Kristina Teylor övladının ölü doğulmasından sonra Tanrı ilə bağladığı birtərəfli müqavilənin dağılması barədə belə yazır: «…Mənim qəlbimdə qorxu kök saldı və imanım dağılmağa başladı. Mənim Tanrı tərəfindən zəmanəti olan «təhlükəsizlik adacığım» həyat fırtınalarının girdabında batdı. Onsuz da dəhşətli dərəcədə çətin bir dövrdə üzərimə bu cür faciə gəldisə, deməli, mən tamamilə müdafiəsiz idim. Həyatımda ilk dəfə olaraq narahatlıq hissi, sanki bir qurd kimi məni içəridən didməyə başladı» (səh. 77).

   a) Gec-tez bizlərdən bir çoxu Tanrı ilə müqavilə bağlamağa cəhd edir. Əgər Rəbb ———————————- *edərsə, mən də* ——————————— *edəcəm.* Siz Tanrı ilə hansısa müqavilə bağlamağa cəhd göstərmisinizmi? İndiki vəziyyətinizlə bağlı Tanrı ilə hansı müqaviləni bağlamağa çalışırsınız?
   b) Tanrı Kristinanın şərtlərini «pozanda» o, iman böhranı keçirdi. Bəs sizin Tanrı ilə müqaviləniz necə nəticələndi? Bu, sizin Onun xeyirxahlığına əminliyinizə necə təsir edir?
   c) Bu gün Tanrının xeyirxahlığı ilə bağlı hansı suallar sizə əzab verir? Məsələn, əgər Tanrı sizin probleminizi həll etməyə qadirdirsə, onda nə üçün bunu etməkdə gecikir? Xeyirxah Tanrı nə üçün bu cür ədalətsizliyə yol verir? Rəbb mənim çətinliyimi xeyirə çevirəcəkmi?

2. «Tanrı vəd edir ki, bizimlə baş verənlər onsuz da *yaxşılığa çevriləcək.* Lakin bu o demək deyil ki, baş verənlərin hamısı yaxşıdır. Həyatımızda baş verən hadisələr ayrı-ayrılıqda çox pis ola bilər, lakin son nəticədə hər şey əla qurtaracaq» (səh. 79).

   a) Sizin fikrinizcə, «yaxşılığa çevriləcək»lə «yaxşı olduğu» arasında fərq nədən ibarətdir? Bu fərq sizin indiki vəziyyətinizi izah edirmi? Bu fərqi dərk etmək yuxarıda verilmiş «C» bəndindəki suallara cavab tapmağınıza kömək edirmi?
   b) «Lakin biz Tanrının *xeyirli* olan barədə tərifinə etibar etməliyik » (səh. 80). Əgər sizə *xeyirə* tərif vermək imkanı versəydilər, bu, sizin həyatınızı necə dəyişdirərdi? Bu halda sizi hansı üstünlüklər və narahatlıqlar gözləyir?

3. Böyük çətinliklərlə və təqiblərlə üzləşən həvari Paul əzabların — Xilaskarla ünsiyyətimizin ayrılmaz hissəsi olduğunu anlayırdı:

   …Əgər Onun övladlarıyıqsa, deməli, həm də varisləriyik. Əgər Məsihin izzətinə şərik olmaq üçün Onun çəkdiyi əzablara şərik oluruqsa, Allahın varisləri və Məsihin irs şəriki oluruq.

   *Romalılara 8:17*

   Çünki sizə yalnız Məsihə iman etmək deyil, Onun uğrunda əzab çəkmək üstünlüyü də ehsan olundu…

   *Filipililərə 1:29*

   Paul həmçinin əbədi həyata malik olduğumuza əminliyin həddindən artıq vacibliyini də qeyd edir:

   …Düşünürəm ki, çəkdiyimiz indiki əzablar bizə zahir olacaq izzətlə heç müqayisəyə gəlməz.

   *Romalılara 8:18*

Çünki müvəqqəti, yüngül əziyyətlərimiz bizə heç bir şeylə müqayisə edilməz dərəcədə böyük və əbədi izzət qazandırır.

*2 Korinflilərə 4:17*

a) Sevdiyimiz insanla keçirdiyimiz ailə həyatının yalnız birlikdə yaşadığımız sevincdən deyil, eyni zamanda kədərli anlardan da ibarət olduğunu hər kəs bilir. Sizə əziz olan insanla yaşadığınız sevinc və kədərli anlar İsa Məsihin yalnız izzətinə deyil, həmçinin əzablarına da şərik olmağı anlamağınıza kömək edirmi?

b) Bəzən biz baş verənləri anlamağa çalışaraq öz-özümüzə bu sualları veririk: «*Bu bir həftədən sonra mənə necə təsir edəcək? Bir aydan sonra? Bəs bir ildən sonra?*» Həvari Paul başımıza gələn çətinliklər haqqında düzgün mühakimə yürütmək üçün həyatın çox qısa olduğunu və bundan ötrü onlara əbədiyyət prizmasından baxmağın vacibliyini söyləmişdir.

Düşüncənizdə bugünkü çətinliyinizə bir həftə, bir ay və ya bir illik məsafədən baxmağa çalışın. Bu çətinliklərin sizin gündəlik həyatınıza, insanlarla münasibətinizə və şəxsi mənafeyinizə necə təsir göstərə biləcəyini təsəvvür edin. Zaman keçdikcə sizin bu təsəvvürləriniz necə dəyişə bilər?

4. Övladını itirən Kristina Tanrının belə bir hadisəyə nə üçün yol verdiyini düşünərək özünə əzab verirdi. O öz internet səhifəsində belə yazırdı: «Gəldiyim yeganə nəticə bu oldu: baş verənlərin xoşuma gəlib-gəlməməyindən asılı olmayaraq, mənim tərəfimdən qoyulan səbir sərhədindən imtina etməli və öz həyatımı, onun hər bir anını Tanrıya etibar etməli idim» (səh. 81–82).

a) Bəs siz öz səbrinizin sərhədi haqqında fikirləşəndə, nə düşünürsünüz? Məhz nəyi Tanrının tam nəzarətinə etibar etməyə hazır deyilsiniz?
b) Yaranmış vəziyyətə nəzarətdən könüllü surətdə imtina etmək — həmişə çox riskli və çox vaxt qorxuducu qərardır. Amma verdiyiniz bu qərarda sizin üçün hiyləli və ya arxayınlaşdırıcı bir şey varmı? Əgər siz həyatınıza nəzarət etməyi tamamilə Tanrının ixtiyarına vermisinizsə, onda başqa vəziyyətlərdə mümkün olmayan hansı ruhani təcrübəni gözləyirsiniz?

# FƏSİL 9

# XAHİŞ EDİRƏM, AZ DA OLSA MİNNƏTDAR OL

1. Hansısa bir ideyanı həyata keçirmək və ya hansısa nəzəriyyəni yoxlamaq üçün ona xüsusi forma vermək vacibdir. Öz Oğullarına ad verən Yusif öz ideyalarından birini sözlə ifadə etdi. O, bununla Tanrıya öz minnətdarlığını bildirdi və bunu iki dəfə etdi.

   a) Qəlbinizin Tanrıya və ya hansısa bir insana minnətdarlıq hissi ilə dolub-daşdığını xatırlayın. Bu minnətdarlıq özünü necə büruzə vermişdi? Öz davranışlarınızı, sözlərinizi və hərəkətlərinizi təhlil edin.
   b) Nə üçün öz minnətdarlığınızı məhz bu şəkildə ifadə etdiniz? Əgər siz bunu etməsəydiniz, özünüz və digər insanlar nədən məhrum ola bilərdi?
   c) Öz şəxsi təcrübəniz Tanrıya minnətdarlıq rəmzi olaraq oğullarına qeyri-adi adlar verən Yusifin davranışını daha yaxşı başa düşməyinizə yardımçı oldumu?

2. Adqoyma hər vəziyyətdə ad qoyulan adama böyük təsir göstərir. İlahiyyatçı Aleksandr Dmitrieviç Şmeman hesab edir ki, adqoyma ilə minnətdarlıq arasında sıx əlaqə mövcuddur.

   Bir şeyə ad qoymaq…— ona görə Tanrıya minnətdar olmaqdır… Müqəddəs Kitabda bu, «cadugərlik» deyil, müntəzəm olaraq Tanrı tərəfindən bizə bəxş edilən *həyatın mənasıdır*. Tanrı bütün yaradılışını Öz sevgisi, lütfü ilə doldurub və Onun yaratdığı

hər şey «çox yaxşıdır». Elə buna görə də bizim bu hədiyyəyə «*təbii*» cavabımız, minnətdarlıq cavabıdır. Tanrıya xeyir-dua vermək, Ona minnətdar olmaq, dünyaya Tanrının *baxdığı kimi* baxmaq, Onunla «əməkdaşlıq» etmək — minnətdarlığın özüdür. Bu minnətdarlıq da dünyanı dərk etmək və onun mövcudluğunu araşdırmaqdır[7].

a) Həyat tərzi — adi münasibətlər, davranışlar və hərəkətlər nəticəsində formalaşan gündəlik həyat təcrübəmizin proyeksiyasıdır. İndi söhbət açdığımız birinci suala cavab verərkən və minnətdarlığın ifadə formalarını əsas götürərkən, öz həyat tərzinizlə Tanrıya minnətdar olmağın, Ona xeyir-dua verməyin nə olduğunu qısaca və dürüst ifadə etməyə çalışın. Bu cür minnətdarlıq sizdən necə bir davranış, münasibət və ya hərəkət tələb edir?
b) Minnətdarlıq dünyaya Tanrının gözləri ilə baxmaq bacarığını nəzərdə tutur. Yusifin öz oğullarına verdiyi adlar onun dünyaya baxışını necə təsvir edir?

3. Biz minnətdarlığa layiq adama və ya hədəfə *diqqət yetirməyənə* qədər onu *adlandıra*, yəni minnətdarlıq ifadə edə bilmərik. Biz həyatımızdakı ən kiçik lütf təzahürlərinə nə qədər diqqətlə yanaşsaq, minnətdarlığın təcrübi vərdişləri o qədər uğurla inkişaf edəcək.

a) Minnətdar olmaq üçün ən «kiçik» bir səbəb haqqında düşünün. Son iyirmi dörd saat ərzində və ya bir saat öncə, yaxud elə indi Tanrıya minnətdar olmaq istədiyiniz bir neçə nümunə gətirin.
b) Siz indiki vəziyyətdə öz müşahidənizi necə qiymətləndirərdiniz? Başqa sözlə desək, siz Tanrının lütfünü, Onun səxavətli bəxşişlərini nə qədər tez-tez hiss edir və Ona öz minnətdarlığınızı ifadə edirsiniz?

4. Maks Lukado insanların Tanrıya minnətdarlıq etməməsinin mümkün olan dörd səbəbini sadalayır. Sizə daha çox uyğun gələn bəndin qarşısında işarə qoyun.

- ☐ Məşğulluq. Mənim vaxtım yoxdur! Mən o qədər məşğulam ki, minnətdarlıq etməyi unuduram və ya buna vaxt çatdıra bilmirəm.
- ☐ Hədsiz ehtiyatlılıq. Bir saniyə! Məncə, hər şey əladır, lakin mən vaxtından tez sevinmək istəmirəm. Hər şey o qədər yaxşıdır ki, inanmağım gəlmir. Bunun lütf olduğuna tam əmin olmayana qədər minnətdarlıq etməyə tələsmək istəmirəm.
- ☐ Xudbinlik. Hə, əlbəttə, bu, qiymətli bir şeydir və buna görə mən minnətdaram. Ancaq digər tərəfdən mənim həyatım indi dəyişəcək və mən bunu əvvəlcədən təxmin etməmişdim. Ona görə də bu barədə çox qarışıq fikirlər içərisindəyəm.
- ☐ Özünə güvənmək. Mənim vəziyyətim əvvəllər də çox yaxşı idi. Həmçinin bütün bunlar minnətdarlıq barədə sentimental cəfəngiyat, kiminsə zəifliyinin lazımsız sübutudur. Şəxsən mənim heç nəyə ehtiyacım yoxdur.
- ☐ Başqa səbəb…

Bu səbəb əsasən sizin Tanrıya və ya insana münasibətdə minnətdarsızlığınızı xarakterizə edir, yoxsa hər ikisinə?

Sizin *Tanrıya* və *insanlara* minnətdarlıq ifadə etmək üsullarınızda nəsə bir fərq varmı? Siz onlardan hansına daha çox minnətdar olursunuz? Onların hansına ünvanlanmış minnətdarlıq daha konkret və daha səmimidir? Niyə?

5. «İnsan üçün dəhşətli olan sınaq vaxtı İsanın ürəyi minnətdarlıqla dolu idi. İstənilən kəs günün parlaq işığında minnətdar ola bilir, lakin İsa bizə ətrafda zülmət bürüyəndə də minnətdar olmağı öyrədir» (səh. 93). Necə düşünürsünüz,

Tanrı həyatınızın hansı sahəsindəki sınaqda sizdən minnətdarlıq gözləyir? Öz minnətdarlığınızı Ona necə ifadə etmək istədiyiniz barədə düşünün. (Bəlkə bu minnətdarlığı məktub şəklində, yaxud kiminləsə bölüşməklə və ya başqa bir formada ifadə edə bilərsiniz.) Əgər siz Tanrıya minnətdar olmağa hazır deyilsinizsə, öz çətinliyinizi və ya istəmədiyinizi Ona bildirin. Növbəti addımınız üçün Tanrıdan lütf istəyin.

# FƏSİL 10

## AİLƏ İNCİKLİKLƏRİ BARƏDƏ DANIŞAQ

1. Yusif ailəsinin harada olduğunu bilərək onları axtarmamaq qərarına gəldi. O, sağalmamış ailə sirlərinə toxunmamağı, keçmişi keçmişdə saxlamağı daha uyğun hesab etdi» (səh. 97). Aşağıda verilmiş sözlər və söz birləşmələri Yusifin ailəsindəki üzdə olan psixoloji problemləri xarakterizə edir. Bu siyahı ilə tanış olarkən sizin ailənizdə müşahidə olunan cəhətləri qeyd edin.

☐ Tənhalıq
☐ Problemli nikah
☐ Vaxtsız ölüm
☐ Kin
☐ Uşaqlar arasındakı rəqabət
☐ Favoritlik
☐ Ağır itki
☐ Laqeyd münasibət
☐ Valideynlərin övladlarından imtina etməsi
☐ Təqsirkarlıq hissi
☐ Yalan
☐ Xəyanət
☐ Sonsuzluq
☐ İnciklik
☐ Təhqir
☐ Nikahdan kənar münasibətlər
☐ Qəddar rəftar
☐ Qəlb qırıqlığı
☐ Özünə qapanma
☐ Məxfilik
☐ Ətrafdakıları rədd etmək
☐ Başqa bir şey

a) Psixoloji problemlərin sizin ailənizə gətirdiyi iki-üç mənfi nəticəni nümunə gətirin.
b) Öz ailənizin psixoloji problemləri üzərində düşünərkən, siz də Yusifin əvvəlcə qərar verdiyi tək, hər şeyi olduğu kimi saxlamaq və keçmişi qurdalamamağın daha yaxşı olduğunu hesab edirsiniz? Yaxud əksinə, onları gün işı-

ğına çıxartmaq istəyirsiniz? Ailə üzvləriniz bu barədə nə düşünür?

c) Öz ailənizin keçmişini analiz etməyin vacibliyi barədə və ya ailə problemlərinin sizin tərəfinizdən müşahidə edilən mənfi nəticələrini ailənin digər üzvləri ilə müzakirə etmək fikri sizi qorxudur və ya narahat edirmi?

2. Qəlbin şəfa prosesi qəlbimizə vurulmuş yaraların bütün ağrıları ilə aşkara çıxmasını və bu ağrını sizinlə bərabər yenidən keçməsi üçün Tanrıdan kömək diləməyi nəzərdə tutur.

   a) 1-ci sualda verilmiş mənfi nəticələr barədə düşünərkən, hansı iki-üç hadisəni xatırladınız? Əgər hansısa hadisələri və ya xüsusi təfsilatları yazılı şəkildə qeyd etmək sizin üçün çətindirsə, bunun səbəbi haqda düşünün, Baş verənləri təfsilatı ilə qələmə almağın vacib olduğunu düşünərkən sizi hansı hisslər bürüyür?
   b) Öncəki sualın cavabını fikirləşmək üçün Tanrı sizə necə kömək edə bilər? Siz Onun hüzurunu, idarəçiliyini və təsəllisini hansı formada görmək istərdiniz?

3. Keçmişdəki daxili yaralarınızla üzləşmək sizi çaşqınlığa sala bilər. Uzun müddətli ayrılıqdan sonra qardaşları ilə görüşən Yusif öz adını demədi, onlarla sərt danışdı, onların üzərinə şər atdı, onları həbsxanaya saldırdı, sonra azad etdi, onların getməsi və geri qayıtması üçün şərt qoydu, onlardan birini girov götürdü, güclü emosiyalarını gizlətdi və özünü bəlli etmədən onlara səxavət göstərdi (Yaradılış 42:6–28).

   a) Köhnə inciklikləri və bunlarla bağlı sizi incidən insanların davranışlarını analiz edərkən hansı bir-birinə əks hisslər keçirirsiniz?
   b) Yusifin hansı davranışını daha çox özünüzlə əlaqələndirirsiniz? Nə üçün?

4. «Rəbb mövcudluğundan xəbərimiz belə olmayan qəlb yaralarımızı sağaldaraq bizə dilədiyimizdən artığını verir. O, təkcə bizim ürəyimizə hakim olmaq istəmir, həm də ona şəfa vermək istəyir. Nə üçün? Çünki yaralı insan ətrafdakıları da yaralayır» (səh. 100).

   a) Həyatınızın hansı sahəsində sizin qəlbiniz daha çox yara alıb? Bunlar insanlarla münasibətdəki çətinliklər, şəxsi müdafiəsizlik hissi, böyük itki, özünüzü məhv edən davranışlar, günaha son qoymağı bacarmamaq və yaxud sizi izləyən uğursuzluqlar ola bilər. Öz vəziyyətinizi qısaca təsvir edin.
   b) Qəlb yaralarınızı sizdə necə duyğular yaradır? Məsələn, əgər siz insanlarla münasibətdə çətinliklər yaşadığınızı müəyyənləşdirmisinizsə, onda qəlb yarası özünü bağışlamamazlıqla, barışığa ümidsizliklə və ya yaralı keçmişinizlə bağlı ötüb keçməyən kədər kimi özünü göstərə bilər.
   c) Şəfa tapmamış qəlbiniz sizi insanları dərin yaralaya biləcək və ya onlara pis təsir edə biləcək hansı davranışlara vadar edə bilər? Keçmiş və bugünkü münasibətləriniz barədə düşünün.

5. Yusifin ailəsi ilə barışma yolu çox uzun və çətin olsa da, o, kiçicik mərhəmət və lütf addımları ilə başladı. Yusif qardaşlarının yəhər çantalarını buğda ilə doldurdu və buğdaya görə ödədikləri gümüşü gizlicə onlara geri qaytardı. Qərəzsiz bir davranış!

   a) Yusif qardaşlarının çox ehtiyac duyduğu şeyi onlara verdi. Onlar buğdanın qiymətini ödəməyə hazır idilər, amma Yusif buğdanı onlara hədiyyə etdi. Necə düşünürsünüz, keçmiş hadisələrlə bağlı ailə üzvləriniz sizdən nə gözləyir?
   b) Sizə yaxın insanlarla münasibətdə Tanrı sizi hansı mərhəmət və lütf əməllərinə vadar edir?

# FƏSİL 11

# QİSAS ŞİRİNDİR, LAKİN SONRA…

1. Qisas — sizi incidəni cəzalandırmağa cəhd göstərərək və ədalət tərəzisini bərabərləşdirərək əvəz çıxmaqdır. Bəzi vəziyyətlərdə, Cozef Riçardson tərəfindən inşa edilmiş Kin evi kimi qisas da qeyri-adi forma ala bilər.

   a) Cozef Riçardson kimi bəzi insanların düşmənçilik cavabı özünü aktiv aqressiv formada büruzə verir. Bəzi insanlarda isə passiv aqressiv formada *daxilə sıxışdırılır*. Belə insan onu incidəndən emosional cəhətdən uzaqlaşır və ya hətta onunla hər cür münasibəti tamamilə dayandırır. Bəs bu iki passiv və ya aktiv aqressiya formalarından hansı sizə daha çox xasdır?
   b) Sizi incidən adamdan qisas almaq üçün istifadə etdiyiniz bir-iki bacarıqlı və ya bacarıqsız üsulunuzu sadalayın. Bu üsullar başqa insana və sizin özünüzə necə təsir göstərir?

2. Həvari Peter qisas problemini Məsihlə münasibətlərimizin məzmununda işıqlandıraraq yazır:

   > Siz məhz bunun üçün çağırıldınız. Çünki Məsih də sizin üçün əzab çəkdi və sizə nümunə oldu ki, siz də Onun izi ilə gedəsiniz… Onu söydülər, O isə cavabında söymürdü, əzab çəkərək heç kimi hədələmirdi. Əksinə, ədalətli hakimə Özünü təslim etdi.
   > *1 Peter 2:21, 23*

   a) Yunan dilində «təslim» sözü *paradidomi* deməkdir ki, bu da «kiminsə mühafizəsində olmaq və ya təslim olmaqdır».

Qədim Yunanıstanda bu fel əsirin təslim edildiyini və ya şübhəlinin məhkəməyə təslim edildiyini ifadə edirdi. Yunan feli olan *paradidominin* mənasını nəzərə alaraq, siz qisasa susamaq əvəzinə Tanrıya etibar etməyi necə təsvir edərdiniz?

b) Yusifin qardaşları ilə görüşünü diqqətlə nəzərdən keçirin və onun hansı hərəkətinin öz şəxsi gücünü, hansının isə Tanrıya etibar etdiyini nümayiş etdirdiyini müəyyənləşdirin.

c) Yuxarıda verilmiş Müqəddəs Kitab ayəsi sizi əzabları nə dərəcədə itaətkarlıqla keçməyə yönəldir və nə dərəcədə qisas almaq arzusu yaradır?

3. «Düşmənlərlə haqq-hesab çürütmək? Axı bu Tanrının məsuliyyətidir. Düşmənləri bağışlamaq? Bax, bu, bizim tapşırığımızdır» (səh. 110). Bir imanlı kimi bizə nəinki qisas almamaq, hətta düşmənlərimizi sevmək əmr olunub:

Yəqin ki, siz «dostunu sev» və onun yazılmamış tərəfi olan «düşməninə nifrət et» deyimini eşitmisiniz. Mən isə sizə daha çətin tapşırıq verirəm: düşmənlərinizi sevin. Qoy onların sayəsində sizdə pis deyil, yaxşı xüsusiyyətlər yaransın. Sizi incitdikləri vaxt onlara duanın gücü ilə cavab verin. Çünki bu zaman sizin əsl təbiətiniz — Tanrı tərəfindən yaradılmış varlığınız üzə çıxacaq. Tanrı bax, bu cür hərəkət edir. O, malik olduğu ən yaxşı şeyləri bizimlə bölüşür, günəşini həm yaxşıların, həm də pislərin üzərinə doğurur, yağışını həm yaxşıların həm də pislərin üzərinə yağdırır.

*Matta 5:42–45 MSG*

a) Sizə xas olan hansı xüsusiyyətləri yaxşı hesab edirsiniz? Beş sözdən və ya söz birləşməsindən istifadə edərək onları təsvir edin. Məsələn, siz özünüzü belə xarakterizə edə bilərsiniz: «Mən xeyirxah, səxavətli və bacarıqlı adamam».

b) Tanrı tərəfindən yaradılmış bir şəxs kimi bağışlamalı olduğunuz və ya sevilməsi çətin olan insanlarla münasibətinizdə öz yaxşı xüsusiyyətləriniz barədə nə düşünürsünüz?

4. «Bağışlama zamanı bu cür ikiləşmələr nadir hal deyil. Bağışlama birdən-birə gəlmir. Onun yolu üstündə duruxmalar və dayanacaqlar az olmur: gah günəş görünür, gah da üfüqü yenidən bulud alır… Lakin bu, normaldır. Söhbət bağışlamadan düşəndə biz hamımız təcrübəsizik… Ancaq sən bağışlamağa çalışanda, bağışlayırsan» (səh. 112).

   a) Kimisə bağışlamağa göstərdiyiniz səylərinizi xatırlayın. Bunu necə bacardınız? Bağışlama qərarının birdəfəlik olduğu ilə razısınızmı? Sizin bağışlamağa doğru irəliləyişiniz tədricən baş verdi? Duruxmalara və dayanacaqlara münasibətiniz necə idi?
   b) Siz öz bağışlamaq bacarığınızı necə qiymətləndirirsiniz? Siz daha çox aktiv olaraq bağışlamağa, yoxsa onlardan qaçmağa davam edirsiniz?
   c) İsa Məsihin Mattanın Müjdəsinin 5-ci fəslində səsləndirdiyi əmr belədir: «dua edin». Bəs sizi incidənlər üçün sizin dilinizdə onların xeyrinə və xeyir-duası üçün xüsusi dua sözləri necə səslənir?

# FƏSİL 12

# ALİ HÖKMDAR SƏNİN QARDAŞINDIR

1. «Böyük qardaşlar şəraiti kökündən dəyişdirməyi bacarırlar» (səh. 115).

   a) Sizin fikrinizcə, ideal böyük qardaşı fərqləndirən xüsusiyyətlər hansılardır (və ya bacını)? Öz cavabınızı yazın.
   b) Uşaqlıqda böyük qardaşınızın hansı dəstəyini hiss etmirdiniz? Yuxarıda sadalanan xüsusiyyətlərə malik olan insana daha çox hansı vəziyyətlərdə ehtiyac duyursunuz?
   c) Sizi müdafiə edə biləcək bir kəsin varlığı və ya yoxluğu hansı vəziyyətlərdə sizə təsir edib?
   d) İndi böyük qardaşın hansı köməyinə ehtiyacınız var? Daha çox hansı vəziyyətlərdə yuxarıda sadalanan xüsusiyyətlərə malik insanın dəstəyinə ehtiyac duyursunuz?

2. Yusif və onun qardaşları həddindən artıq melodramatik yenidən birləşmənin iştirakçıları oldular (səh. 116–117).
   a) Bu hekayəni oxuyarkən, özünüzü qalib mövqedə dayanan və qardaşlarını bağışlayıb bağışlamamağa qərar verən Yusifə bənzədirsinizmi?
   b) Bəs siz heç özünüzü pis, zəif və bağışlanmağa ehtiyac duyan Yusifin qardaşlarına bənzədirsinizmi?
   c) Yaradılış kitabı 45:1–15-ci ayələri oxuyun. Yusifin qardaşlarına müraciətində böyük qardaşı fərqləndirən bir xüsusiyyət görürsünüzmü?

3. Həvari Paul İsa Məsihi Qardaş rolunda təsvir edərək deyir:

Çünki Allah qabaqcadan tanıdığı adamları Öz Oğlunun surətinə uyğunlaşmaq üçün əvvəlcədən təyin etdi ki, O, çoxlu qardaş arasında ilk doğulan olsun… Məhkum edən kimdir? Ölmüş, üstəlik dirilmiş Məsih İsa həm Allahın sağındadır, həm də bizim üçün vəsatətçilik edir.

*Romalılara 8:29, 34*

Sonuncu ayəni MSG-dəki tərcümə ilə müqayisə edək:

Bizim üçün ölən, bizə görə dirilən Şəxs — elə indi bizim vəsatətçimiz olaraq Atanın hüzurundadır.

*34-cü ayə*

a) Əhdi-Cədiddə İsa Məsihin məcazi surətləri çoxdur. Onu çobana (Yəhya 10:11-ə bax), meynəyə (Yəhya 15:5), nura (Yəhya 8:12) və çörəyə (Yəhya 6:35) bənzədirlər. İsa Məsihin hansı nadir xüsusiyyətləri Onu bir Qardaş, xüsusilə də böyük qardaş kimi təsvir edir?
b) İsa Məsihin böyük qardaşınız tərəfindən görmədiyiniz hansı dəstəyi barədə danışa bilərsiniz? (1-ci suala qayıdın).
c) Hal-hazırda üzləşdiyiniz hansı vəziyyətlərdə İsa Məsihin müdafiəsinə və vəsatətinə ehtiyacınız var?

4. «Sən bacararsan. Sən güclü olduğun üçün deyil, sənin Qardaşın güclü olduğu üçün bacararsan. Sən layiq olduğun üçün deyil, sənin Qardaşın layiq olduğu üçün bacararsan» (səh. 122).

a) İndiki vəziyyətlərinizin öhdəsindən gəlmək üçün hansı tədbirləri görmək fikrindəsiniz? Daha çox öz gücünüzə güvənib ümidsizcəsinə «layiqli» olmağa can atırsınız?
b) Nə üçün belə vəziyyətlərdə İsa Məsihə güvənmək və böyük Qardaş kimi Ona etibar etmək bu qədər çətindir?

# FƏSİL 13

## VİDALAŞMALARLA VİDALAŞ

1. «Ölüm — dözülməz ayrılıqdır» (səh. 124).

   a) Siz kimə son olaraq «bağışla» deməyə məcbur olmusunuz? Bu ayrılıqla yanaşı hansı itkilər sizin kədərinizi daha da dərinləşdirib? Ümidin, gələcək planların, dostluq münasibətlərinin və bərabər şənliklərin itməsimi?
   b) Sizi sevdiyiniz insanla ölüm ayırmasa belə, əzablar həmişə müəyyən itkilərlə müşayiət olunur. Çətinliklər zamanı hansı itkiləri vermisiniz? Bu, müdafiə hissinin, yaxın münasibətlərin, hansısa imkanların, peşəkar işinizin, azadlıq hissinizin, sağlamlığınızın və ya arzularınızın itkisidir?

2. «Ətrafda heç nə olmamış kimi həyat qaynayır. Sən isə özünü tənha və atılmış hiss edirsən, çünki «əlvida» deməyi bacarmırsan» (səh. 128). Bəzən biz vidalaşmaqdan imtina edirik, çünki bizə əziz olan insanı və ya hədsiz dərəcədə sevdiyimiz nəyisə həmişəlik olaraq itirdiyimizlə barışmaq istəmirik.

   a) Sadaladığınız hansı itkilər (1-ci suala baxın) üçün hələ də yas tutursunuz və kiminlə (yaxud nə ilə) hələ də vidalaşmağa hazır deyilsiniz?
   b) Nə üçün onlara «əlvida» demək bu qədər çətindir?

3. Müqəddəs Kitabda Göylərə dair həqiqətləri araşdırmağa bir neçə dəqiqə vaxt ayırın. Müqəddəs Kitabdan göstərilmiş növbəti ayələri oxuyarkən, sizin üçün xüsusilə vacib olan cümlələri və ya sözləri qeyd edin.

Vəhy 21:3–4
2 Korinflilərə 5:1–5
Yəhya 14:1–3
Filipililərə 3:20–21
1 Korinflilərə 15:50–54
Vəhy 22:3–5
Zəbur 15:11
Yəhya 3:2
Luka 22:28–30

a) Qeyd etdiyiniz sözlərə və ya cümlələrə nəzər salın. Tərtib etdiyiniz siyahı və 1-ci sualda itkilərlə bağlı verdiyiniz cavablar arasında ümumi nəsə varmı?
b) Bu ayələrdə sizə təsəlli verən və ya ümidinizi təsdiqləyən nəsə görürsünüzmü?

4. K.S. Lyuis yazır:
Xeyir və şər yetişdiyi vaxt, onlar geri dönüş gücü qazanırlar… Yer üzündəki insanlar bunu başa düşmürlər. Onlar müvəqqəti əzablardan danışanda belə deyirlər: «Bunu heç bir şeylə düzəltmək olmaz». Məmnunluğun bütün keçmişi rəngarəng etdiyini və dəyişdirdiyini bilmirlər[9].

a) Xeyrin böyümək qabiliyyəti olduğuna, yəni onun kal vəziyyətindən xeyli inkişaf edərək tam yetişdiyinə necə baxırsınız? Bu fikir sizin ruhani təcrübənizi necə təsdiqləyir və ya inkar edir?
b) Səhv etmirəmsə, hər bir xeyirxah əməl yalnız göylərdə kamilliyə çatacaq. Bəs siz bugünkü çətinliklərinizdə və itkilərinizdə onun inkişafını necə qiymətləndirirsiniz? Onlar böyümək qabiliyyəti olan potensial toxum kimi torpağın altındadırmı? Yoxsa ilk pöhrələrini veriblər? Yaxud bol-bol çiçəklənərək bəhrə gətirməyə başlayıblar?
c) Siz Göylər barədə «öz keçmişinizə nəzər salmaq» imkanı kimi düşündüyünüz zaman ağlınıza nə gəlir? Keçmişinizdəki hansı hadisəni İsa Məsihin izzətində dəyişilmiş olaraq görmək istərdiniz?

5. İbranilərə Məktubun müəllifi özümüzü yarışan idmançılara bənzətməyimizi istəyir (İbranilərə 12:1–3-ə bax). Siz uzun məsafəyə qaçmaq üçün bir-birinin ardınca qət etdiyiniz çevrələri təsəvvür edin. Azarkeşlərin ruhlandırıcı qışqırıqları və tribunadan eşidilən həyəcanlı gurultu səsləri sizin qulağınızı batırır. Çünki sizin azarkeşləriniz — məşhur idmançılardır. Onlar sadəcə finişə gəlib çatmağın deyil, lakin hər kəsin can atdığı finiş xəttinə birinci çatmağın nə olduğunu çox yaxşı bilirlər. Sizin ən sadiq azarkeşlərinizin içərisində qaçışı sizdən öncə bitirən İbrahimi, Saranı, İshaqı, Yaqubu, Yusifi və digərlərini görmək olar (11-ci fəsilə bax). Onlar eyni coşqunluqla yuxarı atılıb sizi ruhlandırmaq üçün qışqırırlar: «Qaç! Qaç! Qaç!»

   a) Yer üzündəki qaçış meydanından keçərkən öz «azarkeşlərinizdən» kimin üzünü görmək istərdiniz? Bu mövzuda sizin üçün xüsusi əhəmiyyət kəsb edən və sizin qəlbinizə çox əziz olan, artıq «yarışı» bitirmiş Müqəddəs Kitab qəhrəmanlarını nəzərdən keçirin.
   b) Öz «azarkeşlərinizdən» ən çox hansı sözləri eşitmək istərdiniz? Onların ağzından çıxan hansı ruhlandırma sözü sizə sürətinizi azaltmamağa, gözlərinizi İsa Məsihdən çəkməməyə və sizi gözləyən sevinci unutmamağa kömək edə bilər?

# FƏSİL 14

## SAKİTLİYİNİ QORU VƏ MÖHKƏM OL

1. Yusif Tanrının onun başına gələn bədbəxtçiliklərdən xəbərdar olduğunu təxmin edirdi. «Onun anlayışına görə aclığın təşəbbüskarı Tanrı idi, onu keçməyə də Tanrı kömək edəcəkdi və Tanrı bir dəqiqə belə şərait üzərində idarəetməni itirməmişdi». (səh. 136).

   a) Çətinliklərlə üzləşərkən Tanrının sizin yanınızda olduğuna nə dərəcədə əminsiniz? Siz öz imanınızı hansı səviyyədə qiymətləndirərdiniz — çox aşağı, orta, yoxsa yüksək? Onu necə təsvir edərdiniz?
   b) Sizin iman səviyyənizə daha çox təsir göstərən iki-üç hadisə sadalayın. Bu, keçmişdə və ya bu yaxınlarda baş vermiş hadisə, həmçinin münasibətlərdəki nəsə yeni bir təəssürat da ola bilər.

2. Maks Lukado Tanrının çox ağrılı hadisələrə əsaslanaraq irəli getdiyi və həmin hadisələri onun qəhrəmanlarının xeyrinə çevirdiyi barədə iki hadisə danışır (səh. 137–138).

   a) Sizin çətinliklərinizi nəzərə alsaq, onların hansının sizin xeyrinizə çevrilmiş olduğunu görmək istərdiniz?
   b) Əgər siz Tanrının əzablarınızı mütləq sizin xeyrinizə çevirəcəyinə qətiyyən şübhə etmirsinizsə, bu, sizin həyat barədə indiki düşüncələrinizdə necə əks olunur?

3. Roald Amundsen yarışlar zamanı Cənub qütbünə ilk çatmaq üçün plan üzrə gedirdi. Eyni zamanda onun komandası hava

şəraitinə baxmayaraq, gün ərzində iyirmi dörd — otuz iki kilometr yol qət edirdi. Robert Skottun isə əksinə, əvvəlcədən qurulmuş heç bir planı yox idi. Onun komandası yaxşı hava şəraitində bütün gücləri ilə irəliləyir, pis havada isə qətiyyən hərəkət etmirdi. Sonralar öz əfsanəvi ekspedisiyasından danışan Amundsen belə yazır: «Qələbə — bütün ehtiyat tədbirlərini görən insanları gözləyir və bunu uğur adlandırırlar. Məğlubiyyət isə — vaxtında heç bir ehtiyat tədbiri görməyənlərin payına düşür və bunu uğursuzluq adlandırırlar!»[10]

a) Amundsenin Cənub qütbünü qət etməsi üsulu ilə Yusifin məhsulsuz illərlə bağlı problemi həll etməsinin arasında hansı ümumi cəhətləri görürsünüz?
b) Şəxsi problemləriniz zamanı və ya böhranlı vəziyyətlərdə «vaxtında ehtiyat tədbirləri görmək» sizin üçün nə deməkdir? Bu suala cavab verəndə Yusifin nümunəsinə nəzər sala bilərsiniz. Bu nümunə onun yalnız güc və qüdrətlə aclığın öhdəsindən necə gəlməsindən ibarət deyil, eləcə də Potifarın evində xidmət edərkən və zindanda olarkən özünü necə aparmasından ibarətdir.
c) Siz də bir qayda olaraq, Robert Skott kimi yaxşı və xoşagəlməz zahiri vəziyyətlərə icazə verib, onların sizin ani davranışlarınızı idarə etməsinə şərait yaradırsınızmı? Yoxsa siz qətiyyəti ətraf mühitdən asılı olmayan Roald Amundsenə bənzəyirsiniz?
d) Cənub qütbünü ilk qət edən bu insanların hekayəsi çətinliklərinizi həll etmək üçün sizin qarşınıza hansı tapşırıqlar qoyur? Bu, sizin qəlbinizdə necə bir ümid yaradır?

4. Böhran vəziyyətlərin həll edilməsi üzrə mütəxəssislər Cim Kollinz və Morten Hansen müəyyən edib ki, indi böhran yaşayan müəssisələrin uğurlu rəhbərlərini fərqləndirən başlıca xüsusiyyət — özünü idarə etmək bacarığıdır (səh. 141). Dallas Uillyard özünü idarəetməni «əhval-ruhiyyəni nəzərə

almayaraq başladığını sona çatdırmaq və ya qoyulmuş məqsədə çatmaq üçün dəyişməz mətanət» hesab edir[11].

a) Üzləşdiyiniz çətinliklər barədə düşünərkən, bir qayda olaraq, hansı mərhələdə özünü idarəetmənin və öz gücünüzə əminliyin çatışmadığını hiss edirsiniz? Sizin üçün hansı amillər özünü idarəetməni daha da çətinləşdirir?
b) Müqəddəs Yazılarda deyilir: «Çünki sizdə fəaliyyət göstərən Allahdır, belə ki, Onun xoş məramını həm istəyəsiniz, həm də bunun üçün fəaliyyət göstərəsiniz» (Filipililərə 2:13). Öz əhval-ruhiyyənizin öhdəsindən gəlməyiniz üçün Tanrı sizdə hansı istək və fəaliyyəti yaratmalıdır?

5. «Tanrının sənin çətinliklərindən xəbərdar olduğunu unutma. Səni addımbaaddım təlimatla təchiz etməsini və elə indi başlaya biləcəyin bir-iki addımı göstərməsini Ondan xahiş et» (səh. 141).

a) Üzləşdiyiniz çətinliyin xüsusiyyətindən asılı olaraq bir neçə saat ərzində probleminizi həll etmək üçün sizin fəaliyyət planınız qısa müddətli və ya həll olunması bir neçə həftə və hətta aylar tələb edən uzunmüddətli ola bilər. Hal-hazırda planınızı həyata keçirməkdən ötrü hansı vaxt çərçivəsi sizin üçün daha uyğundur? Saat, gün, həftə, yaxud daha uzun müddət?
b) Bu vaxt ərzində nəyə nail olmaq istərdiniz? Çalışın ki, məqsədiniz konkret və qiymətləndirilməsi asan olsun. Məsələn, «Rəbbə daha çox etibar etmək» — pis məqsəd deyil, lakin qiymətləndirilməsi çətindir. Bu cür məqsədə belə düzəliş vermək olar: «Hər dəfə qorxu və şübhə hiss edəndə diqqətimi Rəbbə etibar etmək qərarına cəmləşdirəcəyəm və gündəliyimdə qısa dualar yazacağam».
c) Qarşınıza qoyduğunuz məqsədinizə nail olmaq üçün indi hansı iki-üç addımı ata bilərsiniz? Əgər vacib addımları müəyyənləşdirmək və onları tətbiq etmək sizə çətindirsə, kömək üçün kimə müraciət edə bilərsiniz?

# FƏSİL 15

## BƏLA. TANRI. YAXŞILIQ

1. Aşağıda Maks Lukadonun «Sən bacararsan» kitabını oxuduğunuz vaxt tanış olduğunuz on Müqəddəs Kitab həqiqəti qeyd edilmişdir:

    - Mənim həyatım Tanrı üçün açıq kitabdır (Zəbur 139-a bax).
    - Tanrı mənim yanımdadır (Zəbur 23:4).
    - Rəbb mənim həyatımda Öz məqsədlərini yerinə yetirəcək (Zəbur 138:8).
    - Rəbb sınaqlar zamanı əldə etdiyim təcrübəni məni öyrətmək və bol həyata hazırlamaq üçün istifadə edir (Yaqub 1:2–4); bütün sınaqlar müvəqqətidir (1 Peter 1:6-a bax).
    - Rəbb məni daim kamilləşdirir (Filipililərə 1:6-ya bax).
    - O, sadiq, mərhəmətli və qüdrətli olduğu üçün Rəbbə güvənə bilərəm (Zəbur 130:5–7).
    - Sınaqlara dözənlərə həyat tacı vəd olunur (Yaqub 1:12).
    - Yer üzündəki həyata əbədi həyat nöqteyi-nəzərindən baxmaq, problemləri müvəqqəti çətinliklər kimi qəbul etməyə kömək edir (2 Korinflilərə 4:17).
    - İsa Məsih mənim üçün vəsatət edir (Romalılara 8:34-ə bax).
    - Şər niyyətlər son nəticədə Tanrının əlində bizim xeyrimizə çevrilir (Yaradılış 50:20-yə bax).

    a) Bu həqiqətlər gündəlik çətinliklərinizə qarşı münasibətinizə və onlara qalib gəlmək üçün təcrübi biliyinizə necə

təsir göstərdi? Bu kitabı oxuduqdan sonra qarşılaşdığınız çətinliklərə qarşı münasibətinizin dəyişdiyini söyləyə bilərsinizmi? Əgər belədirsə, necə?

b) Hal-hazırda sizin üçün daha vacib olan iki-üç həqiqətin adını söyləyin. Bu həqiqətlər hansı ruhani ehtiyaclarınızı ödəyir?

c) Sizin üçün aktual olan yuxarıda sadalanmış həqiqətlərin bir və ya bir neçəsini təsvir edin. Məsələn: «Sabah mənim nə ilə üzləşəcəyim Tanrıya məlumdur. Mənim həyatımdakı heç bir bədbəxtçilik Onun Öz məqsədlərini yerinə yetirməsinə mane olmayacaq. Mən tək olanda O, yanımdadır. Mənim əzablarım mənasız deyil, amma Tanrı onları məni öyrətmək və mənim xeyrimə çevirmək üçün istifadə edir».

d) Həmin mətni Tanrının sizə qarşı sədaqətinin real xatırlatması kimi necə istifadə edə bilərsiniz? Məsələn, həmin mətni iki-üç dostunuza göndərin və həftə ərzində onu sizin elektron poçtunuza və ya sms məlumat şəklində sizə göndərmələrini xahiş edin. Sizin mətninizin əsaslandığı Müqəddəs Kitab ayəsini əzbərləyin və ya hər gün gözünüzün qabağında ola biləcək bir yerə qoyun. Onu kiçik bir vərəqə yazın və hətta bu çətin vaxtda imanınızın artmasını göstərən canlı xatırlatma kimi ev dibçəyindən asın.

2. «Tanrı bizim həyatımızın mərkəzi olanda bütün bədbəxtliklərimiz bizim yaxşılığımıza çevrilir» (səh. 144).

a) Bir vərəqin üzərində üç sütundan ibarət sadə cədvəl düzəldin. Hər sütunun başında «Bəla», «Tanrı» və «Yaxşılıq» yazın.

b) Birinci sütunda üzləşdiyiniz çətinliklərə aid iki-üç cümlə yazın.

c) Dua edin və Tanrının indiki çətinliyinizdə sizə yardımçı olan xüsusiyyətlərini ikinci sütunda qeyd edin.

d) Çətinliyiniz həll edilərkən Tanrının müdaxiləsi nəticəsində müşahidə etdiyiniz hər bir xeyirxahlığı üçüncü sütunda qeyd edin. Əgər siz həyatınızdakı müsbət dəyişiklikləri müəyyənləşdirməyə çətinlik çəkirsinizsə, onda gələcəkdə hansı yaxşılıqları görməyə ümid etdiyinizi yazın. Məsələn:

| **Bəla** | **Tanrı** | **Yaxşılıq** |
|---|---|---|
| İşimi itirmişəm. | Tanrı hədsiz səlahiyyətə malikdir və O, səxavətlidir. O məni Öz qayğısından məhrum etmir. Mənim çətinliklərim Onun üçün maneə və ya problem deyil. | Mənim təhlükəsizliyim artıq mənim qayğım deyil. Mənim təhlükəsizliyim Tanrının əllərindədir. |

3. Maks Lukado Kristina Keynin hekayəsini danışarkən (səh. 147–148), Tanrının bizim əzablarımızdakı zülmət qaranlığı Öz nurunu tökmək üçün necə istifadə edə biləcəyini nümayiş etdirir.

   a) Cədvəldəki qeydlərinizi analiz edərkən, Tanrının sizi bu dünyaya hansı nuru tökməyə çağırdığını düşünürsünüz?
   b) Tanrının çağırışı sizdən dərhal və tam razılıq, yaxud anlayış tələb etmir. Sizdən yalnız bir şey tələb olunur: nə qədər kiçik olursa-olsun növbəti addımı atmaq. Növbəti iyirmi dörd saat ərzində Tanrının çağırışına doğru hansı addımı atmaq istərdiniz?

4. *1-ci fəsildə* kitabın bütün məzmununu vurğulayan ruhlandırma sözləri yazılmışdı: «Sən bacararsan. Düzdür, ağrılı olacaq, lakin dözməli olacaqsan. Tanrı bu kədərini sənin xeyrinə çevirəcək. Sən indi boş xəyallara qapılmamaq və səhv hərəkətlərə yol verməmək üçün mütləq özündə güc tapmalısan. Ümidini üzmə və Tanrının köməyilə sən bacaracaqsan».

a) Təfərrüata varmadan oxuduğunuz bu kitab haqqında qısaca fikirlərinizi bildirin. Tanrının sizə hansı şəkildə qayğı göstərdiyini qeyd edin. Bu, təsəlli, ruhlandırma, hikmət və təminat formasındadırmı ya da tamamilə başqa bir şeydir?
b) Tanrının sizə qayğı göstərməsi çətinliklərinizi həll etməkdə sizə necə yardımçı olur?
c) Dua üçün sakit vaxt ayırın. Sizə hansı şəkildə qayğı göstərməsindən asılı olmayaraq, bu qayğıya görə Tanrıya minnətdar olun. İndi sizi narahat edən çətinlikləri Tanrıya etibar edin və ən çox ehtiyac duyduğunuz şeyi Ondan diləyin. Sükut içərisində Tanrının sizə olan sevgisini etiraf etməsini gözləyin. Duanın sonunda necə bir Tanrı olduğuna və həyatınızdakı qüdrətli təsirinə görə Onu izzətləndirin.

# QEYDLƏR

**Fəsil 1. Sən bacararsan**

1. Spiros Zodhiates, ed., *The Hebrew-Greek Key Word Study Bible*: *Key Insights into God's Word, New American Standard Bible*, rev. ed. (Chattanooga, TN: AMG, 2008), Yaradılış 50:20. Həmçinin bax: «Greek/Hebrew Definitions», Bible Tools, Strong's #2803, *chashab*, www.bibletools.org/index.cfm/fuseaction/Lexicon.show/ID/H2803/chashab.htm.
2. Bu sözə Yaradılış 13:4-cü ayədə rast gəlinir («*düzəltdiyi* qurbangahın yanına çatdı), Əyyub 9:9 («Böyük Ayı, Orion və Ülkər bürclərini *yaradan*») və Məsəllər 8:26 («Rəbb dünyanı, çölü-düzü, torpaqları *yaradanda*»).
3. Zodhiates, *The Hebrew-Greek Key Word Study Bible*, Yaradılış 50:20. Həmçinin *Strong's Exhaustive Bible Concordance Online*, #6213, www.biblestudytools.com/lexicons/hebrew/nas/asah.html.
4. Qardaşları Yusifi Midyan tacirlərinə satanda, onun on yeddi yaşı var idi (Yaradılış 37:28). Onu həbsxanadan çıxaracağına söz verən baş saqi həbsdən azad olunduğu zaman Yusifin iyirmi səkkiz yaşı var idi (Yaradılış 40:21–23-ə bax). İki ildən sonra otuz yaşlı Yusif fironun yuxusunu yozmaq üçün çağırılır (Yaradılış 41:1, 46). Yeddi bolluq ilindən sonra başlanan aclığın ikinci ilində qardaşları ikinci dəfə Misirə gəldikləri zaman Yusifin təxminən otuz doqquz yaşı var idi (Yaradılış 45:1–6-ya bax).

**Fəsil 2. Misirə eniş**

1. «…çünki Misirlilər çobanlardan iyrənirlər» (Yaradılış 46:34).

**Fəsil 3. Tamamilə tənha deyil**

1. Cey-Cey Kasper, müəlliflə xüsusi söhbət. Onun razılığı ilə istifadə olunur.
2. Thomas Lye, *«How Are We to Live by Faith on Divine Providence?» in Puritan Sermons 1659–1689* (Wheaton, IL: Richard Owen Roberts, Publisher, 1981), 1:378.
3. Edward Mote, *«The Solid Rock»*, in *Sacred Selections for the Church*, comp. and ed. Ellis J. Crum (Kendallville, IN: Sacred Selections,

1960), 120. İlahi mahnı «Möhkəm qaya» (sözlər ingilis pastor Edvard Mouta məxsusdur (1797–1874)).

4. *Saint Augustine*: *Sermons on the Liturgical Seasons*, trans. Sister Mary Sarah Muldowney (Nyu York: Fathers of the Church, 1959), 85–86.

**Fəsil 4. Axmaqlığı axmaqlıqla düzəltmək olmaz.**

1. Yaradılış 39:5.
2. David M. Edwards, «Song Story; Take My Hand, Precious Lord: The Life of Thomas Dorsey», *Worhsip Leader Magazine*, March/April 2010, 64–65. Copyright © 2010 by Worship Leader Partnership.
3. Ibid., 65.
4. Thomas A. Dorsey, «Take My Hand, Precious Lord» (Hialeah, FL: Warner-Tamerlane, 1938, renewed).
5. Edwards, «Song Story», 65

**Fəsil 5. Ah, bütün bunlar yalnız hazırlıq imiş?**

1. Howard Rutledge and Phyllis Rutledge with Mel White and Lyla White, *In the Presence of Mine Enemies* — 1965–1973: *A Prisoner of War* (New York: Fleming H. Revell, 1975), 33, 35.
2. Spiros Zodhiates, ed., *The Hebrew-Greek Key Word Study Bible*: *Key Insights into God's Word, New American Standard Bible*, rev. ed. (Chattanooga, TN; AMG, 2008), #977, p. 1817. Həmçinin bax: *Strong's Concordance with Hebrew and Greek Lexicon*, http://www.eliyah.com/cgi-bin/strongs.cgi?file=hebrewlexicon&isindex=977.
3. Bob Benson, *«See You at the House»*: *The Stories Bob Benson Used to Tell* (Nashville: Generoux, 1986), 202–203.
4. Rutledge and Rutledge, *In the Presence*, 39, 52.

**Fəsil 6. Tanrı hərəkət edəndə, sən gözlə**

1. Zəbur 46:11

**Fəsil 7. Yellənən kloun**

1. Jay Kirk, «Burning Man», GQ.com, February 2012, www.gq.com/news-politics/newsmakers/201202/burning-man-sam-brown-jay-kirk-gq-february-2012, 108–15; Sem Braun, müəlliflə xüsusi söhbət. Onun razılığı ilə istifadə olunur.

**Fəsil 8. Həyatda hər şey qaydasında getməyəndə Tanrı bizim üçün əvvəlki kimi xeyirxahdırmı?**

1. Christyn Taylor, CaringBridge.org, August 22, 2010, created at http://www.caringbridge.org/visit/rebecca-taylor1. Onun razılığı ilə istifadə olunur.
2. Joni Eareckon Tada, «God's Plan A», in *Be Still*, *My Soul*: *Embracing God's Purpose and Provision in Suffer-ing*, ed. Nancy Guthrie (Wheaton, IL: Grossway, 2010), 32–33, 34.
3. Donald G. Bloesch, *The Struggle of Prayer* (Colorado Springs, CO: Helmers and Howard, 1988), 33.
4. Taylor, CaringBridge.

**Fəsil 9. Xahiş edirəm, az da olsa minnətdar ol**

1. Henry Ward Beecher, *Provebs from Plymouth Pulpit*: *Selected from the Writings and Sayings of Henry Ward Beecher*, comp. William Drysdale (New York: D. Appleton, 1887), 13
2. Onun hekayəsini bölüşməyə izn verdiyi üçün Danielə xüsusi minnətdarlıq bildirirəm.

**Fəsil 10. Ailə inciklikləri barədə danışaq**

1. Yaradılış 37:2.
2. Yaradılış 43:30; 45:2, 14–15; 46:29; 50:1, 17.

**Fəsil 11. Qisas şirindir, lakin sonra…**

1. «Spite House», New York Architecture Images, nyc-ar-chitecture.com, http://nyc-architecture.com/GON/GON005.htm.
2. *Strong's Exhaustive Bible Concordance Online,* #5117, www.biblestudytools.com/lexicons/greek/nas/topos.html.

**Fəsil 12. Ali hakim sənin Qardaşındır**

1. Rick Reilly, «Matt Steven Can't See the Hoop. But He'll Still Take the Last Shot», Life of Reilly, ESPN.com, March 11, 2009, http://sports.espn.go.com/espnmag/story?id=3967807. Həmçinin baxın: Gil Spencer, «Blind Player Helps Team See the Value of Sportsmanship», *Delaware County Daily Times*, February 25, 2009, www.delcotimes.com/articles/2009/02/25/sports/doc-49a4c50632d09134430615.
2. Şimeon və Levi bacılarına təcavüz edəndən qisas almaq üçün Şekem şəhərindəki bütün kişiləri öldürdülər (Yaradılış 34-ə bax).

### Fəsil 13. Vidalaşmalarla vidalaş


1. «John Herschel Glenn, Jr. (Colonel, USMC, Ret.) NASA Astronaut (Former)», National Aeronautics and Space Administration, Biographical Data, www.jsc.nasa.gov/bios/htmlbios/glenn-j.html.
2. Bob Greene, «John Glenn's True Hero», CNN.com, February 20, 2012, www.cnn.com./2012/02/19/opinion/greene-john-annie-glenn/index.html.
3. 30 noyabrda Stiv Çapmenlə danışıqdan götürülüb. Onun razılığı ilə istifadə olunur.
4. Todd Burpo with Lynn Vincent, *Heaven Is for Real*: *A Little Boy's Astounding Story of His Trip to Heaven and Back* (Nashville: Thomas Nelson, 2011), 94–96.


### Fəsil 14. Sakitliyini qoru və möhkəm ol


1. «The Story of Keep Calm and Carry On», YouTube video, 3:01, posted by Temujin Doran, www.youtube.com/watch?v=FrHkKX-FRbCl&sns=fb. Həmçinin baxın: *Keep Calm and Carry On: Good Advice for Hard Times* (Kansas City, MO: Andrews McMeel, 2009), introduction.
2. Jim Collins, ««How to Manage Through Chaos», CNN Money, September 30, 2011, http://management.fortune.cnn.com/2011/09/30/jim-collins-great-bychoice-exclusive-excerpt.


### Fəsil 15. Bəla. Tanrı. Yaxşılıq.


1. Christine Caine, *Undaunted*: *Daring to Do What God Calls You to Do* (Grand Rapids: Zondervan, 2012), 48.
2. Ibid., 48–49
3. Ibid., 191.
4. Kristin Keyn, 2012-ci il oktyabrın 8-də müəlliflə səmimi söhbət. Onun razılığı ilə istifadə olunur.


### Düşünmək üçün suallar


1. Francis Brown, S. R. Driver, Charles A. Briggs, *Brown-Driver-Briggs Hebrew and English Lexicon* (Peabody, MA: Hendrickson, 1996), 595–596.
2. C. S. Lewis, *The Problem of Pain* (New York. Macmillan, 1962), 93.
3. Dallas Willard, *The Divine Conspiracy*. *Rediscovering Our Hidden Life In God* (San Francisco: Harper San-Francisco, 1998), 344.

4. C. S. Lewis, *God in the Dock* (Grand Rapids. Wm. B. Eerdmans, 1970), 52.

5. Craig L. Blomberg and Mariam J. Kamell, *James*, vol. 16 of *Zondervan Exegetical Commentary on the New Testament*, gen. ed. Clinton E. Arnold (Grand Rapids. Zondervan 2008), 49.

6. Scot McKnight, *The Letter of James*, The New Intenational Commentary on the New Testament (Grand Rapids. Wm. B. Eerdmans, 2011), 71.

7. Alexander Schmemman, *For the Life of the World*: *Sacraments and Orthodoxy* (Grestwood, NY. St. Vladimir's Seminary Press, 1973), 15.

8. Hartmut Beck, *New International Dictionary of New Testament Theology*, vol. 2, gen. ed Colin Brown (Grand Rapids. Zondervan, 1986), «paradidomi».

9. C. S. Lewis, *The Great Divorce* (New York. Macmillan, 1946), 67. N. Trauberqin tərcümə etdiyi — K. S. Lyuisin «Nikahın ləğv edilməsi» kitabından.

10. Roald Amundsen, *The South Pole* (Seattle: CreateSpace Independent Publishing Platform, 2012), 139.

11. Dallas Willard, *Renovation of the Heart*: *Putting on the Character of Christ* (Colorado Springs: NavPress, 2002), 127.

# Mündəricat


MİNNƏTDARLIQ .............................................................. 3

FƏSİL 1. Sən bacararsan ...................................................... 5

FƏSİL 2. Misirə eniş .......................................................... 16

FƏSİL 3. Elə də tənha deyil ................................................ 26

FƏSİL 4. Axmaqlığı axmaqlıqla düzəltmək olmaz............. 37

FƏSİL 5. Ah, bütün bunlar yalnız hazırlıq imiş?................ 45

FƏSİL 6. Tanrı hərəkət edəndə, sən dayan .......................... 57

FƏSİL 7. Yellənən kloun ..................................................... 66

FƏSİL 8. Həyatda hər şey qaydasında getməyəndə
Tanrı bizim üçün əvvəlki kimi xeyirxahdırmı? ... 75

FƏSİL 9. Xahiş edirəm, az da olsa minnətdar ol................ 85

FƏSİL 10. Ailə incikliklәri barədə danışaq ........................ 95

FƏSİL 11. Qisas şirindir, lakin sonra… ........................... 104

FƏSİL 12. Ali hökmdar sənin qardaşındır.........................113

FƏSİL 13. Vidalaşmalarla vidalaş .................................... 123

FƏSİL 14. Sakitliyini qoru və möhkəm ol ........................ 133

FƏSİL 15. Bəla. Tanrı. Yaxşılıq ....................................... 144

DÜŞÜNMƏK ÜÇÜN SUALLAR.................................... 151

QEYDLƏR........................................................................ 202